**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

**AZƏR ŞİRİNOV**
**NAZİM İBADOV**

# POLİTOLOGİYA

(Dərs vəsaiti)

Azərbaycan Respublikası Təhsil nazirinin 20 fevral 2014-cü il tarixli 214 saylı əmri ilə ali məktəblər üçün dərs vəsaiti kimi təsdiq edilmişdir.

**BAKI – 2015**

**Elmi redaktor:** fəlsəfə üzrə fəlsəfə doktoru,
dosent Məcid Əfəndiyev

**Rəyçilər:** siyasi elmlər doktoru, professor
Elman Nəsirov
fəlsəfə üzrə fəlsəfə doktoru,
dosent Abbas Piriyev
fəlsəfə üzrə fəlsəfə doktoru,
dosent Vəsxanım Orucova
fəlsəfə üzrə fəlsəfə doktoru,
dosent İsmayıl Eyyubov

**Əlavə rəy:** Azərbaycan Memarlıq və
İnşaat Universitetinin İctimai
fənlər kafedrası

**A.Şirinov, N.İbadov. Politologiya** (Dərs vəsaiti). Bakı, 2015.

Dərs vəsaitində politologiya elminin ən aktual problemlərindən sayılan siyasət və siyasi münasibətlər sistemi, siyasi təsisatlar sistemi, siyasi şüur və siyasi ideologiyalar və eləcə də dünya siyasi prosesləri və siyasi texnologiyalar kimi bölmələr tədqiqat obyekti kimi seçilmişdir. Dərs vəsaiti politologiya üzrə tədris proqramına uyğun şəkildə hazırlanmışdır.

Kitab əsasən tələbələr və həmçinin siyasətlə maraqlanan oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

## MÜNDƏRİCAT


Ön söz ........................................................................ 7

**I bölmə**
**Siyasət və siyasi münasibətlər sistemi**

**I mövzu. Politologiya siyasət haqqında elmdir**
1. Politologiya nəyi öyrənir .............................. 9
2. Politologiyanın kateqoriyaları, funksiyaları və metodları ................................................ 13
3. Sosial elmlər sistemində politologiyanın yeri ......................................................... 18

**II mövzu. Siyasi fikrin inkişafının əsas mərhələləri**
1. Qədim dünyada siyasət və hakimiyyət haqqında ideyalar ........................................ 21
2. İntibah və maarifçilik dövrünün siyasi ideyaları ........................................... 25
3. XIX-XX əsrlərdə siyasi təlimlər ..................... 31
4. Azərbaycan xalqının siyasi fikir tarixi .......... 36

**III mövzu. Siyasət ictimai fəaliyyət sferasıdır**
1. Siyasətin mahiyyəti və məzmunu ................. 51
2. Siyasətin strukturu ........................................ 55
3. Siyasətin təzahür formaları, funksiyaları və subyektləri .............................................. 58

**IV mövzu. Hakimiyyət və siyasi hakimiyyətin məzmunu**
1. Hakimiyyət anlayışı, növləri və məzmunu ..................................................... 61
2. Hakimiyyətin resursları və funksiyaları ........ 65
3. Siyasi hakimiyyətin subyektləri .................... 67

**V mövzu. Elitalar hakimiyyətin daşıyıcısı rolunda**
1. Elitaların mahiyyəti və məzmunu ................ 70
2. Elitaların təsnifatı ................................ 73
3. Müasir elita nəzəriyyələri ........................ 76
**VI mövzu. Siyasi liderlik**
1. Liderliyin mahiyyəti və məzmunu .................. 81
2. Siyasi liderliyin təsnifatı və funksiyaları ........ 86
3. Liderlik haqqında müasir nəzəriyyələr .......... 92

**II bölmə**
**Siyasi təsisatlar sistemi**

**VII mövzu. Siyasi sistem: nəzəri modellər və struktur ünsürləri**
1. Siyasi sistemin mahiyyəti və nəzəri modelləri ................................................ 94
2. Siyasi sistemin struktur ünsürləri və funksiyaları ............................................ 100
3. Siyasi sistemin təsnifatına yanaşmalar .......... 104
4. Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması ................ 110
**VIII mövzu. Dövlət başlıca siyasi təsisatdır**
1. Dövlətin mənşəyi, mahiyyəti və səciyyəvi əlamətləri ............................................ 116
2. Dövlətin ərazi-siyasi quruluşu: mahiyyəti və xüsusiyyətləri .................................. 122
3. Dövlət idarəçiliyi formaları və reallaşma mexanizmi ............................................ 130
4. Hüquqi dövlətin mahiyyəti və başlıca əlamətləri ............................................ 133

**IX mövzu. Siyasi rejimlər**
1. Siyasi rejimlərin mahiyyəti və təsnifatı.......... 136
2. Totalitarizm və onun sosial nəticələri ........... 138
3. Avtoritarizm və onun dəyişilməsi meylləri.... 144

**X mövzu. Siyasi partiyalar və partiya sistemləri**
1. Partiyaların mənşəyi, mahiyyəti və hüquqi statusu ........................................................ 149
2. Partiyaların təsnifatı və funksiyaları............ 158
3. Partiya sistemlərinin inkişafında yeni meyllər ........................................................ 170

**XI mövzu. Demokratiya və demokratik tranzit problemi**
1. Sosial hadisə kimi demokratiyanın mahiyyəti ................................................ 178
2. Demokratiyanın müasir nəzəriyyələri və həyata keçirilməsi formaları ...................... 181
3. Demokratik tranzit: nəzəri modellər və konsepsiyalar ............................................ 185

**XII mövzu. Parlament demokratik təsisatlar sistemində**
1. Parlament anlayışı, quruluşu və fəaliyyət istiqamətləri ............................................ 194
2. Parlamentin səlahiyyətləri və funksiyaları .... 201

**XIII mövzu. Seçki sistemləri**
1. Seçkilər demokratiyanın təsisatı kimi ........... 207
2. Seçki sistemi və onun həyata keçirilməsi mexanizmi .................................................. 215
3. Qarışıq seçki sistemi və onun xüsusiyyətləri.. 222

**III bölmə**
**Siyasi şüur və siyasi ideologiyalar**

**XIV mövzu. Siyasi şüur və siyasi mədəniyyət**
1. Siyasi şüur anlayışı: strukturu və funksiyaları.... 224
2. Siyasi mədəniyyətin mahiyyəti, məzmunu və strukturu ........................ 230
3. Siyasi mədəniyyətin tipləri və funksiyaları ..... 234

**XV mövzu. Siyasi ideologiyalar**
1. Siyasi ideologiya anlayışı ........................ 241
2. İdeologiyaların təsnifatı və funksiyaları ......... 245
3. Müasir siyasi ideologiyalar ........................ 247

**IV bölmə**
**Dünya siyasi prosesləri və siyasi texnologiyalar**

**XVI mövzu. Beynəlxalq münasibətlər və xarici siyasət**
1. Beynəlxalq münasibətlər anlayışı və beynəlxalq münasibətlərin formaları ........................ 258
2. Beynəlxalq münasibətlər nəzəriyyələri ........... 264
3. Beynəlxalq təşkilatlar beynəlxalq münasibətlərin aktoru kimi ........................ 268
4. Xarici siyasət anlayışı: məqsədi və vasitələri... 278

**XVII mövzu. Beynəlxalq münaqişələr**
1. Münaqişə anlayışı: həlli yolları və vasitələri.. 285
2. Terrorizm beynəlxalq münaqişələrə mənfi təsir göstərən amil kimi ........................ 291

**XVIII mövzu. Siyasi texnologiyalar**
1. Siyasi təhlil xüsusi tətbiqi elm sahəsi kimi..... 296
2. Siyasi reklam siyasi texnologiyanın reallaşma vasitəsidir ........................ 299

**Ədəbiyyat** ........................ 306

# ÖN SÖZ

Siyasət sözün əsl mənasında elmdir. O qarşılıqlı əlaqədə olan çoxsaylı hadisə və proseslər məcmusunu əks etdirir. İnsanların siyasi biliklər kompleksinə yiyələnməsi nəinki onların özünə, həmçinin cəmiyyətə lazımdır. Oxuculara təqdim olunan bu kitab politologiyanın bütün problemlərini əhatə etməyi qarşısına məqsəd qoymasa da sadə oxucu kütləsi üçün müəyyən mövzu və problemlərə diqqəti yönəldir. Buna görə də kitabda siyasi elmdə daha çox maraq doğuran mövzular işıqlandırılır. Mövzular tərtib olunarkən müəyyən məqamlarda H.Şirəliyev, Ə.Əhmədovun «Politologiya» dərsliyi istinad kimi götürülmüşdür.

Təqdim olunan kitab dörd bölmədən ibarətdir. Birinci bölmədə siyasət və siyasi münasibətlər sistemini əhatə edən mövzular araşdırılır. Kitabın ikinci bölməsi isə bütövlükdə siyasi təsisatlar sisteminə həsr olunmuşdur. Bu bölmədə diqqəti çəkən əsas məqam siyasi sistemlər, dövlət, siyasi rejim, siyasi partiyalar, parlament və seçki sistemi kimi aktual problemlərin oxuculara təqdim olunmasıdır.

Üçüncü bölmədə siyasi şüur və siyasi ideologiyaları əhatə edən problemlər araşdırılmışdır.

Dünya siyasi prosesləri və siyasi texnologiyalar adlanan sonuncu bölmədə beynəlxalq münasibətlər sistemini əhatə edən mövzuların şərhinə geniş yer verilmişdir. Bu bölmədə həmçinin siyasi texnologiyalar qismin-

də siyasi təhlil və siyasi reklam probleminin hərtərəfli təhlili verilmişdir.

Politologiya üzrə hazırlanmış bu dərs vəsaiti tələbələrə elmi metodiki kömək məqsədi üçün hazırlanmışdır. Güman edirik ki, siyasi biliklərə yiyələnmək baxımından sadə və oxunaqlı dildə hazırlanmış bu vəsait tələbələrimizə müəyyən fayda verəcəkdir.

# I bölmə
# Siyasət və siyasi münasibətlər sistemi

## I mövzu
## Politologiya siyasət haqqında elmdir

1. Politologiya nəyi öyrənir
2. Politologiyanın kateqoriyaları, funksiyaları və metodları
3. Sosial elmlər sistemində politologiyanın yeri

### 1. Politologiya nəyi öyrənir

Politologiyanın bir tədris fənni kimi meydana gəlməsi Frensis Leyberin adı ilə bağlıdır. Onun 1857-ci ildən ABŞ-ın Kolumbiya universitetində siyasət nəzəriyyəsinə dair oxuduğu mühazirələr və bu elmin bir çox əsaslı problemlərinin araşdırılması ilə bağlı tədqiqatların nəticəsi olaraq həmin universitetdə 1880-ci ildə C.Bercessin təşəbbüsü ilə politoloji siyasi elm məktəbinin yaradılması haqqında qərar qəbul edildi. Sonralar bu təşəbbüsə ABŞ-ın və Avropanın digər aparıcı universitetləri də qoşularaq, politologiya şöbələrini təsis etdilər və politologiya həmin universitetlərdə də tədris olunmağa başladı.

Politologiyanın elm qismində təşəkkül tapması XIX əsrin ikinci yarısına təsadüf etsə də, lakin onun güclü inkişafı XX əsrdə özünü göstərməyə başladı. 1903-cü ildə Amerika milli siyasi elmlər assosiasiyasının, sonrakı illərdə İngiltərə siyasi tədqiqatlar assosiasiyasının, Fransa siyasi elmlər milli fondunun və 1949-cü ildə YUNESKO-

nun qərarı ilə Beynəlxalq siyasi elmlər assosiasiyasının yaradılması politologiyanın bir elm və tədris fənni kimi güclü inkişafına təkan verdi.

Respublikamızda isə politologiyanın elm sahəsi və tədris fənni kimi tarixi XX əsrin 90 illərinin əvvəllərinə təsadüf edir. 1991-ci ildən Azərbaycanın ali məktəblərində politologiya sosial elmlərə aid olan fənn qismində tədris olunur. Hazırda Bakı Dövlət Universitetində, Dövlət İdarəçiliyi Akademiyasında, Xəzər Universitetində, Qərb Universitetində ayrıca politologiya şöbəsi fəaliyyət göstərir. Son dövrlərdə respublikamızda politologiya sahəsində tədqiqatların sayı artmaqdadır. Yeni xüsusi tədqiqat mərkəzləri yaradılır, siyasi elm üzrə fəlsəfə doktoru elmi dərəcəsi verən müdafiə şurası fəaliyyət göstərir.

Politologiya yarandığı vaxtdan onun istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı fikir ayrılıqları özünü göstərməkdə davam edirdi. Bu fikir ayrılıqlarına 1948-ci ildə YUNESKO-nun (Paris) təklifi ilə qəbul olunmuş qətnamə böyük təkan verdi. Politoloqlar ümumi yekdil fikrə gələrək politoloji tədqiqatların və bütövlükdə bir elm kimi politologiyanın istiqamətlərini müəyyənləşdirdilər. Həmin qətnamə ilə politoloji tədqiqatların və bütövlükdə bir elm kimi politologiyanın aşağıdakı istiqamətləri göstərilmişdir:

- siyasət nəzəriyyəsi (siyasət nəzəriyyəsi və siyasi ideyalar tarixi);
- siyasi təsisatlar (konstitusiya, regional, yerli özünüidarə, idarəetmənin iqtisadi və sosial funksiyaları, siyasi təsisatların müqayisəli təhlili);
- partiyalar, qruplar və ictimai rəy;

• beynəlxalq münasibətlər nəzəriyyəsi (beynəlxalq təşkilatlar, dünya siyasəti, beynəlxalq sistemlər və s.).

Politologiyanın istiqamətləri ilə bağlı yekdillik olsa da onun predmeti ilə bağlı mübahisələr hələ də davam etməkdədir.

Politologiyanın predmetinin müəyyən edilməsində ayrı-ayrı ölkələrdə politoloji tədqiqatların aparılması sahəsində qərarlaşmış ənənələr böyük rol oynayır.

Politologiya elminin vətəni sayılan ABŞ-da politoloji tədqiqatlar əsasən dörd istiqamətdə (siyasi fəlsəfə, yaxud siyasi-fikir tarixi, beynəlxalq münasibətlərin siyasi təhlili, Amerika siyasətinin tədqiq edilməsi və müqayisəli politologiya) aparılır. Müqayisəli politologiya özü XX əsrin 50-ci illərindən etibarən ABŞ-da müstəqil fənn kimi tədris olunmağa başlamışdır. O siyasəti, siyasi təsisatları, siyasi prosesləri və siyasi fəaliyyəti müqayisəli təhlil əsasında öyrənən elmdir.

Fransada politoloji tədqiqatların istiqamətləri YUNESKO-nun 1948-ci ildə qəbul etdiyi qətnaməyə uyğun şəkildə aparılır.

Almaniyada isə politologiya nəzəri-fəlsəfi səciyyə daşıyır və bir sıra başlıca istiqamətləri əhatə (politologiyanın elmi-metodoloji konsepsiyaları; dövlət fəlsəfəsi, dövlət haqqında ümumi təlim və dövlətin sosiologiyası; dövlətşünaslıq konsepsiyası; siyasi təsisatların, partiyaların, siyasi davranışın sosiologiyası; siyasi təşkilatlar nəzəriyyəsi və s.) edir.

Respublikamızda isə politoloji tədqiqatların aparılması və kadr hazırlığı sahəsində bu istiqamətlərə (Azərbaycanda siyasi proseslər, dünya siyasi prosesləri, milli

təhlükəsizlik və siyasi strategiya, konfliktologiya və s.) üstünlük verilmişdir.

Ayrı-ayrı ölkələrdə politoloji tədqiqatların istiqamətlərini nəzərdən keçirməklə ümumilikdə politologiyanın mövzu dairəsini və predmetini müəyyən edə bilərik.

Politologiyanın tədqiqat obyekti cəmiyyət həyatının siyasi sferasıdır. Obyekt reallığın bir hissəsi olduğu halda, predmet həmin obyektə bilavasitə aid olan prosesləri, əlaqə və münasibətləri əhatə edir. Politologiya termini geniş və dar (konkret) mənada işlədilir. Geniş mənada politologiya siyasət haqqında bütün bilikləri əhatə edən elm sahəsi kimi nəzərdən keçirilir.

Politologiyanın bu cür şərhi onun semantik mənası ilə izah oluna bilər. Çünki politologiya yunanca «politik» və «loqos» sözlərindən ibarət olub, siyasət haqqında elm deməkdir. Dar mənada isə politologiya siyasəti, siyasi prosesləri, təsisatları, bir sözlə siyasi elmin obyektini və predmetini təşkil edən problemləri öyrənən elm sahəsi kimi nəzərdən keçirilir.

Göründüyü kimi politologiya elm kimi, cəmiyyətin siyasi sferası haqqında nizama salınmış kompleks biliklərin əldə edilməsinə istiqamətlənir, onun qanunlarını dərk etməyə yönəlir. O təbii olaraq siyasət haqqında elm kimi çıxış edir.

Politologiya bütövlükdə siyasi biliklərin məcmusundan ibarət olub siyasi təsisatları, siyasi hadisə və prosesləri, siyasi reallığı öyrənən elm sahəsi hesab olunur.

Politologiya nəzəri və tətbiqi istiqamətlərə bölünür. Nəzəri politologiya siyasi hadisələri idraki cəhətdən öyrənir. Siyasətin metodologiyasının, kateqoriyalarının tədqi-

qi ilə məşğul olur. Tətbiqi politologiya isə siyasi hadisələrin dəyişdirilməsi səbəblərini öyrənir. O siyasətin öyrənilməsinin yeni sahəsinə, praktik fəaliyyətə üstünlük verir.

## 2. Politologiyanın kateqoriyaları, funksiyaları və metodları

Politologiyanın bir elm kimi tarixi təkamülü onun kateqoriyalar sisteminin formalaşması və inkişafı ilə xarakterizə olunur. Politologiyanın kateqoriyaları (yunan sözü olub, göstəriş, şəhadətnamə deməkdir) adətən iki istiqamətdə (siyasət və siyasi) nəzərdən keçirilir.

Siyasət-beynəlxalq siyasət, dünya siyasəti, xarici siyasət, daxili siyasət, milli siyasət, sosial siyasət, coğrafi siyasət (geosiyasət), ekoloji siyasət və s.

Siyasi – siyasi hakimiyyət, siyasi mədəniyyət, siyasi proses, siyasi sistem, siyasi rejim, siyasi partiya, siyasi təşkilat, siyasi ideologiya, siyasi şüur, siyasi təsisat, siyasi münasibətlər, siyasi münaqişə və s.

Politologiyanın cəmiyyət həyatında oynadığı rol onun yerinə yetirdiyi funksiyalarda öz əksini tapır.

Politologiyanın funksiyaları üç əsas istiqamətdə qruplaşdırılır.

1. Qiymətləndirmə və dərketmə xarakterli funksiyalar (təsvir, izahetmə, idrakı) qrupu:

– təsvir funksiyası siyasi reallıqda mövcud olan problemlərin qeydə alınmasını nəzərdə tutur;

– izahetmə funksiyası əsas etibarilə siyasi problemlərin yaranma səbəblərini və nəyə görə məhz o cür olduğunu izah edir;

– idrak funksiyası siyasi inkişaf meyllərinin öyrənilməsi, müxtəlif siyasi hadisələrin, proseslərin dəyişilməsi ilə bağlılığı nəzərdə tutur.

2. İnstrumental-prakseoloji xarakterli funksiyalar – proqnozlaşdırma, idarəetmə (elmi nəticələrdən siyasi praktikada, dövlət idarəçiliyində, partiyaların strategiya və taktikasında, qərarların qəbulunda istifadə olunması).

3. Tərbiyəvi-sosioloji istiqamətli funksiyalar özündə tərbiyə, ideoloji, dünyagörüşü və s. funksiyaları birləşdirir. Bu istiqamətli funksiyalar şəxsiyyətin sosiallaşmasına, fərdin ölkənin vətəndaşı kimi tərbiyə olunmasına, ümumiyyətlə isə insanın siyasi dünyagörüşünün formalaşmasına güclü təsir göstərir.

«Metod» yunan sözü olub, tədqiqat üsulu, nəzəriyyə, təlim deməkdir. Metod gerçəkliyin praktik və nəzəri cəhətdən mənimsənilməsi üsulları və əməliyyatlarının məcmusudur.

Politologiyada istifadə olunan metodlar onun tədqiqat obyektinin hərtərəfli və dərindən öyrənilməsinə imkan yaradır.

Politologiyada istifadə olunan metodları şərti olaraq 3 qrupa bölmək olar:

Ümumelmi metodlar: təhlil və sintez, induksiya və deduksiya, müşahidə və eksperiment və s.

Xüsusi elmi metodlar: imitasiya modelləşdirməsi, ekspert tərəfindən qiymətləndirmə, statistik təhlil və s.

Sosial humanitar metodlar: tarixi müqayisəli və sinxron-komporativ, sənədlərin və mənbələrin təhlili, anket sorğusu və s.

Politologiyada sistem metodu geniş istifadə olunur.

Kibernetika və informasiya nəzəriyyəsindən əxz olunan bu metodun köməyi ilə tədqiqat obyekti bütöv bir tam kimi qavranılır və onun ayrı-ayrı hissələri hərtərəfli öyrənilir. Sistemli metod siyasi elmə Q.Almond, D.İston, K.Doyç və b. tərəfindən gətirilmişdir.

Sistem təhlili aşağıdakı ünsürləri əhatə edir:

- sistem – siyasi həyat davranış sistemi kimi qavranılır;
- mühit – sistem mühitə daxildir və onun təsirinə məruz qalır;
- cavab reaksiyası – sistemdə baş verən proseslər və dəyişikliklər sistem üzvlərinin bu və ya digər təsirlərə cavabı, alternativ davranışın nəticəsində ortaya çıxır.

Sistemli metodun bütün komponentləri və prinsipləri siyasi proseslərin tədqiqində özünəməxsus rol oynayır.

Politologiyada istifadə olunan metodlardan biri də struktur-funksional metoddur. Bu metod amerikalı sosioloq R.Merton və T.Parsons tərəfindən hazırlanmış və daha sonra politoloqlar D.İston və Q.Almond tərəfindən istifadə edilmişdir. Bu metodun əsas anlayışları Q.Almondun «İnkişaf etməkdə olan ölkələrin siyasəti» və «Müqayisəli politologiya» kitablarında geniş tədqiq edilmişdir. Bu metodun başlıca məqsədi siyasi sistemdə baş verən sosial dəyişikliklərə kəmiyyət qiyməti verməkdir.

Politologiyada istifadə olunan metodlardan biri də bihevioral metoddur (insan davranışına əsaslanır). Siyasi biheviorizm XX əsrin 40-50-ci illərindən inkişaf etməyə başladı. Həmin dövrdə bir-biri ilə sıx bağlı olan bir sıra səbəblər bu metodun geniş yayılmasına güclü təkan verdi:

- 30-cu illərdə ABŞ-a beyinlərin axını ilə əlaqədar poli-

tologiyada sosioloji üsullar geniş vüsət almağa başladı;

- ikinci dünya müharibəsi ABŞ-da bu üsulun inkişafına böyük təkan verdi;
- 1945-ci ildə sosial elmlərlə bağlı Tədqiqatlar Şurası tərəfindən siyasi davranışı öyrənmək üçün xüsusi komissiya yaradıldı;
- seçkilərin, xüsusilə də seçicilərin davranışının təhlil vasitəsi adlandırılan «yoxlama metodu» tez bir zamanda elmi praktikaya daxil oldu və s.

Bihevioral metod tərəfindən ənənəvi siyasi elmə çağırış həmin üsulu siyasi elmin ən mühüm hadisəsi kimi qeyd etməyi və ona böyük diqqət yetirməyi tələb edirdi. Bihevioral metod siyasi prosesləri insanların davranışı və əhval-rühiyyəsini öyrənmək əsasında tədqiq edir. Bu metod insanların, sosial qrupların, birliklərin davranışını öyrənməyə şərait yaradan metodlardan hesab olunur. Bihevioral metodun əsas üstünlükləri bunlardır:

- bu üsul ənənəvi üsulun nöqsanlarından kənardır;
- sosial elmlərdə olan müasir meyllərə və metodlara uyğunlaşaraq elmi məzmun daşıyır;
- real təcrübəyə və faktlara əsaslandığı üçün empirik xarakter daşıyır;
- bu metod dəqiq və real nəticələr çıxarmağa cəhd göstərir;
- bu metod qrupların və fərdlərin siyasi davranışını proqnozlaşdırmağa qadirdir.

Politologiyanın başlıca metodlarından biri də müqayisəli-təhlil metodu hesab edilir. O sosial gerçəkliyi dərk etməyin mühüm metodlarındandır. Müqayisəli-təhlil me-

toduna konkret təhlil, müqayisəli-dövrləşdirmə, xronoloji, retrospektiv (keçmiş) və proqnozlaşdırma xarakterli tədqiqat üsulları daxildir.

Bu metod oxşar və fərqli cəhətlərlə, siyasi təsisatların deduktiv nəzəri və onların dürüstləşdirilmiş induktiv metoduna əsaslanır.

Hal-hazırda dünyanın aparıcı politoloqları A.Benks, R.Tekstou, Q.Qetskov, R.Rammel, B.Rasset, X.Alker və b. məhz bu metoda üstünlük verirlər.

Müqayisəli təhlil metodunda aşağıdakı mərhələlər nəzərə alınmalıdır:

- mükəmməl təsnfiat əsasında və ona ciddi əməl olunmaq şərti ilə amillərin toplanması və təsvir edilməsi;
- oxşar və fərqli cəhətlərin toplanması və təsvir edilməsi;
- siyasi prosesin elementləri və digər sosial proseslər arasındakı qarşılıqlı əlaqənin eksperimental hipotez (fərziyyə) şəklində dürüst ifadə olunması;
- təhlil olunan problemin geniş və perspektivli müqayisəli təhlilə əsaslanması.

Siyasi prosesləri fərqləndirmək baxımından məqsədyönlü metod olmaq etibarı ilə müqayisəli tarixi metod tədqiqatçını tarixi prosesləri hər cür təhrifçi düşüncə tərzindən uzaqlaşdırır, müasir və tarixi təcrübəni ümumiləşdirməkdə ona kömək edir. Siyasi proseslərin ayrı-ayrı mərhələlərinin və dövrlərinin müqayisəsi həmin prosesin inkişafının obyektiv qanunauyğunluqlarını üzə çıxarmağa yardım göstərir. Müqayisəli-tarixi metod həm də siyasi hadisələri xronoloji ardıcıllıqla övrənməyə imkan yaradır.

Bu metoda aid olan retrospektiv üsul siyasi elmin proqnozlaşdırma funksiyasının inkişafına təsir göstərir. Müqayisəli-tarixi metod ABŞ politoloqları tərəfindən geniş istifadə olunur. Bu metoddan həmçinin Rusiyada retrospektiv və müqayisəli politologiyanı öyrənən institutlararası qrupun nümayəndələri (A.K.Milner, L.Tayvan, A.Zubov, A.Salmin) və digər politoloqlar da istifadə edirlər.

Politologiyada empirik metoddan da geniş istifadə olunur. Bu, vətəndaşların siyasətdə iştirakı ilə əlaqədar olub siyasi gerçəklik haqqında obyektiv biliklərə praktik tələbatdan irəli gəlirdi. Empirik metodda aşağıdakı məsələlərə xüsusi diqqət yetirilir:

- ictimai rəyin və siyasi mədəniyyətin öyrənilməsi;
- siyasi proseslərə müxtəlif amillərin təsirinin tədqiqi;
- siyasi təsisatların struktur-funksional təhlili;
- siyasi proqnozlaşdırma və s.

Politologiyada digər metod və ya üsulllardan da istifadə olunur.

### 3. Sosial elmlər sistemində politologiyanın yeri

Tədqiq etdiyi obyektin spesifikliyinə uyğun olaraq politologiya bir sıra sosial elmlərlə hüquq, siyasi sosiologiya, tarix, siyasi fəlsəfə, iqtisadiyyat, psixologiya və s. ilə sıx əlaqədə və qarşılıqlı təsirdə inkişaf edir. Fransız tədqiqatçısı P.Favrın sözlərilə desək, politoloq öz maraq dairəsini siyasəti öyrənmək iddiasında olan filosoflarla, sosioloqlarla, tarixçilərlə daimi rəqabətdə müdafiə etməli olur. Bu zaman, onun fikrincə, həm filosoflar, həm sosioloqlar, həm də tarixçilər seçkilərin, siyasi təsisatların, siyasi həya-

tın gözlənilməz dəyişikliklərin öyrənilməsini həvəslə siyasi elmə həvalə edirlər.

Politologiya ilə hüquq elminin predmeti bəzi aspektlərdə üst-üstə düşür. Lakin fərqli mövqedən araşdırılır. Politologiya ilə hüquq elminin sıx əlaqəsi sosial normaların reallaşdırılmasında siyasi hakimiyyətin rolu ilə müəyyən olunur. Əgər hüquq elmi dövlətin və hüququn inkişafının başlıca qanunauyğunluqlarını tədqiq edərək onların sosial əhəmiyyətini və əsas funksiyalarını üzə çıxarırsa, politologiya isə hakimiyyətin təşəkkülü, fəaliyyəti və inkişafı qanunauyğunluqlarını, eləcə də sosial birliklərin hakimiyyətə münasibətinin mahiyyətini açıqlayır. Buradan da bu elmlərin fərqli xüsusiyyətləri üzə çıxır.

Politologiyaya yaxın olan elmlərdən biri də siyasi sosiologiyadır. XX əsrin 30-50-ci illərində Qərbdə politoloji tədqiqatların ayrıca bir qolu olan siyasi sosiologiya təşəkkül tapdı. Bu elmlərin yaxınlığı ondadır ki, hər ikisi cəmiyyətdə hakimiyyətin paylanması və həyata keçirilməsini tədqiq edir. Lakin siyasi elm (politologiya) diqqəti əsasən siyasi sferada cəmləşdirdiyi halda siyasi sosiologiya isə siyasi prosesləri tam başa düşmək üçün siyasəti bütövlükdə sosial strukturla əlaqələndirməyə çalışır.[1]

Politologiyaya yaxın olan elmlərdən biri də siyasi fəlsəfədir. Qərb ölkələrində çoxdandır ki, siyasi fəlsəfə və politologiya yanaşı mövcuddur. Bu elmlərin hər ikisi cəmiyyətdə hakim olan ideal əsasında istər keçmişdə, istərsə də hazırkı dövrdə baş verən hadisələri və prosesləri qiymətləndirir və gələcəyi proqnozlaşdırmaqla məşğuldur.

---

[1] Bax: Həsənov R.M. Siyasi sosiologiya. B., 2010, s.13-14

Nə siyasi fəlsəfəni empirik materialdan, nə də politologiyanı siyasət nəzəriyyəsindən kənar təşəvvür etmək mümkün deyil. Bu elmlər arasında fərq isə ondadır ki, politologiya konkret cəmiyyət və tarixi dövrlərlə bağlı olduğu halda, siyasi fəlsəfə isə daha böyük dövrləri əhatə edir.

Politologiya tarix elmi ilə də əlaqəlidir. Belə ki, politologiya həm keçmişdə və eləcə də hazırda cəmiyyətdə təşəkkül tapan siyasi münasibətləri başa düşməyə imkan yaradan tarix elmi ilə bağlılıq kəsb edir. Bu elmlərin fərqi ondadır ki, tarix keçmişin siyasətidirsə, siyasət əksinə bu günün tarixidir.

Politologiyaya yaxın olan elmlərdən biri də psixologiyadır. Psixologiya insanların siyasi davranışlarının streotiplərini və psixoloji mexanizmlərini öyrənir. Politologiya elmi isə siyasi liderlərin xarakterini psixoloji davranış stilini tədqiq edərkən bu elmdən istifadə edir. Bu da hər iki elm arasında yaxınlığı göstərir.

Deyilənlər politologiyanın spesifik tədqiqat obyektinin olmasını və onun sosial elmlər sistemində müstəqil və aparıcı bir elm olduğunu bir daha təsdiq edir.

**Yoxlama xarakterli suallar**

1. Politologiya bir tədris fənni kimi nə vaxt və harada meydana gəlmişdir?
2. ABŞ-da politoloji tədqiqatların istiqamətlərini göstərin.
3. Politologiyanın tədqiqat obyektini göstərin.
4. Nə vaxt YUNESKO-nun qərarı ilə beynəlxalq siyasi elmlər assosiasiyası yaranmışdır?
5. Təsvir funksiyası nəyin qeydə alınmasını nəzərdə tutur?
6. Hansı ölkədə politologiya nəzəri-fəlsəfi səciyyə daşıyır?

## II mövzu
## Siyasi fikrin inkişafının əsas mərhələləri

1. Qədim dünyada siyasət və hakimiyyət haqqında ideyalar
2. İntibah və maarifçilik dövrünün siyasi ideyaları
3. XIX-XX əsrlərdə siyasi təlimlər
4. Azərbaycan xalqının siyasi fikir tarixi

### 1. Qədim dünyada siyasət və hakimiyyət haqqında ideyalar

Nəzəri cəhətdən siyasi təlimlərin təşəkkül tapması insan idrakının erkən dini-mifoloji formalarından rasional-məntiqi formaya keçidi prosesində baş vermişdir. Erkən dövrlərdə insanların siyasi baxışları hələ nisbi müstəqil bilik sahəsinə çevrilməmişdi və mifoloji dünyagörüşünün tərkib hissəsi kimi çıxış edirdi. Mifik təsəvvürlər siyasi ideyaların ilahi mənşəyə malik olduğunu göstərirdi. Mifoloji təsəvvürlər uzun əsrlər ərzində siyasi təlimlərə və insanların siyasi baxışlarına öz təsirini göstərmişdir. Lakin cəmiyyətdə tədricən siyasi təsəvvürlərin rasional xarakter alması mifoloji ideologiyaya son qoydu.

Siyasi ideyalar Qədim Misirdə, Babilistanda, Hindistanda, Çində inkişaf etmiş və müxtəlif tarixi mənbələrdə siyasət və hakimiyyət haqqında fikirlər öz əksini tapmışdır.

Qədim Çində Konfusinin (e.ə.551-479) siyasi təlimi siyasi fikrin formalaşmasında mühüm rol oynamışdır. Konfusi dövləti böyük bir ailəyə bənzədir və göstərirdi ki,

dövlətin başında yalnız müdrik insanlar durmalı, dövlətin idarə olunması isə aristokratik prinsiplərə əsaslanmalıdır.

Qədim Çində siyasi fikir sonralar Laoszı, Moszı və başqaları tərəfindən inkişaf etdirilmişdir.

Bəşəriyyətin siyasi fikir tarixində Qədim Yunanıstan və Roma mütəfəkkirlərinin də böyük rolu olmuşdur.

Qədim Yunanıstanda siyasi fikrin inkişafı əsasən üç dövrə bölünür. Erkən dövr (e.ə. IX-VI əsrlər). Bu dövr yunan dövlətçiliyinin təşəkkül tapması dövrüdür. İkinci dövr (e.ə.V- IV əsrin I yarısı). Bu dövrü siyasi fikrin çiçəkləndiyi dövr adlandırırlar. Üçüncü dövr (e.ə.IV əsrin II yarısı - II əsr) ellinizm dövrü adlanır. Bu yunan dövlət quruluşunun tədricən dağıldığı dövrdür (Makedoniyalı İsgəndərin yürüşlərinin başlanmasından, onun imperiyasının ayrı-ayrı xırda dövlətlərə parçalanmasından, romalıların Misiri fəth etməsinə qədər olan dövrü əhatə edir).

Qədim Yunanıstanda siyasi fikrin formalaşması və inkişafına Platonun və Aristotelin ideyalarının böyük təsiri olmuşdur.

Platon (e.ə.427-347) obyektiv idealizmin banisi sayılır. Onun siyasi təlimində dövlət haqqında fikirlər xüsusi maraq doğurur. "Dövlət" əsərində o ideal dövlət haqqında təlim yaratmışdır. Onun ideal dövlət layihəsinin iki əsas şərti vardır: 1) dövlət filosoflar tərəfindən idarə olunur, 2) cəmiyyətdə ədalətli qanunlar vardır. Platonun fikrincə ideal dövlət aristokratik dövlət quruluşuna əsaslanmalıdır. O göstərirdi ki, əgər idarə edənlər arasından bir nəfər seçilirsə, o "çar" hakimiyyəti, əgər bir neçəsi seçilirsə onda bu aristokratiya adlanır.

Platon özünün siyasi təlimində insan qəlbinin beş

növünə uyğun olaraq beş dövlət formasını (aristokratiya, timokratiya, oliqarxiya, demokratiya, tiraniya) bir-birindən fərqləndirmişdir. O dövlətin bütün formalarının bir-birini əvəz etməsinin əsas səbəbini insanların əxlaqının pozulmasında görür və cəmiyyətin qüsurlu vəziyyətdən xilas olmasının yolunu idarə edənlərin yaşı və müdrikliyi ilə əlaqələndirirdi.

"Qanunlar" əsərində Platon bəşəriyyətin siyasi təkamülünün realist mənzərəsini təsvir etməyə çalışmışdır. Onu hüquqi dövlət ideyasının cizgilərini verən ilk mütəfəkkir hesab etmək olar. Platon "Qanunlar" əsərində dövlətin iki növünü fərqləndirirdi: birinci halda hökmdar hamıdan yüksəkdə durur, ikinci halda isə hökmdar özü də qanuna tabe olur.

Platonun "Dövlət" və "Qanunlar" adlı əsərləri ayrı-ayrı ictimai təsisatların, xüsusilə dövlətin, ailənin və hüququn öyrənilməsinin əsasını qoydu. Onun siyasi təlimi sonrakı dövrlərin bir çox nəzəriyyələrinə güclü təsir göstərmişdir.

Antik yunan siyasi fikrin banilərindən biri də Aristotel (e.ə.384-322) hesab olunur. Onun siyasi təlimi "Politika" (siyasət), "Afina siyasəti", "Etika" əsərlərində öz əksini tapmışdır. Aristotelin "Politika" əsəri Qərbin siyasi fəlsəfəsində başlanğıc nöqtə hesab edilir.

Aristotel öz siyasi təlimini ideal polis (şəhər-dövlət) mövqeyindən işləyib hazırlamışdır. O belə hesab edirdi ki, polis azad və bərabər insanların siyasi ünsiyyətidir.

Aristotel xüsusi mülkiyyəti, fərdin hüquqlarını və ailəni müdafiə edirdi. Aristotel belə hesab edirdi ki, dövlət mürəkkəb anlayışdır, formasına görə təşkilatdır və vətən-

daşların müəyyən məcmusudur.

Aristotel dövlət formasını siyasi sistem kimi də şərh edirdi. Onun fikrincə, dövlət forması idarə edənlərin sayı ilə müəyyən olunur. Aristotel dövlət formasına münasibətdə daha çox demokratiya və oliqarxiyanın əlaqələndirilməsindən ibarət olan politiyaya rəğbət bəsləyirdi. O belə hesab edirdi ki, politiya "orta" dövlət formasıdır və cəmiyyət orta sinfə (təbəqəyə) arxalandıqda səmərəli ola bilər.

Qədim Romanın siyasi təlimləri antik Yunanıstanın siyasi təlimləri ilə xeyli ümumilik kəsb edir. Bu hər şeydən əvvəl, onların mədəniyyətinin inkişafında dərin varisliyin mövcudluğu ilə bağlı olmuşdur.

Qədim Roma siyasi fikrinin ən görkəmli simalarından biri böyük siyasətçi və dövlət xadimi Mark Tulli Siseron (e.ə. 106-43) olmuşdur. Onun "Dövlət haqqında" və "Qanunlar haqqında" əsərləri siyasət, dövlət-hüquq problemlərinin bəzi aspektlərinə həsr olunmuşdur. O dövləti hüquqi təsisat kimi müəyyən edərək onun yaranması səbəbini insanların anadangəlmə birgəyaşayışına olan tələbatında görürdü.

Siserona görə dövlətin məqsədi vətəndaşların mənafeyini müdafiə etməkdən ibarətdir. Siseron dövlətin təsnifatı məsələsinə də diqqət yetirərək onun üç başlıca formasından (demokratiya, aristokratiya və monarxiya) bəhs edirdi. Siseronun siyasi idealı aristokratik senat respublikası olmuşdur.

Qədim Roma siyasi fikir tarixində stoiklərin siyasi təlimi xüsusi yer tutur. Roma stoiklərinin təliminin əsasını yunan stoiklərinin davamçıları olan Zenonun və Xrizip-

pin ideyaları təşkil edir. Stoiklərin siyasi təlimində Roma quldarlıq cəmiyyətinin ziddiyyətləri və tənəzzülü ifadə olunmuşdu. Onlar fəal siyasi mübarizədən imtina etməyə çağırır, bunun əvəzində adamların əxlaqi cəhətdən özünü təkmilləşdirməsinə, hökmdarların zülmünə qarşı əxlaqi etiraza üstünlük verirdilər.[1]

## 2. İntibah və maarifçilik dövrünün siyasi ideyaları

Orta əsrlərdə, xüsusilə də onun ilk dövrlərində Avropada siyasi fikir yüksək nailiyyətlər qazanmamışdı. Avropa siyasi elmdə ətalətə yalnız intibah dövründə son qoydu. Şərq isə orta əsrlərə misilsiz dərəcədə yüksək mədəni səviyyədə qədəm qoydu. Şərqdə islam ideologiyası zəminində yaranan yeni siyasi sistem elmi biliklərin və siyasi təlimlərin inkişafına da imkan yaratdı. Bu dövrdə görkəmli mütəfəkkir, maraqlı ideyalar və baxışlar müəllifi olan İbn-Xaldunun (1332-1406) siyasi görüşləri maraq doğurur. O öz tədqiqatlarında dövlət anlayışına geniş yer vermişdir.

İbn-Xaldun ümumtarixi-sosioloji təhlil fonunda dövlətə fəlsəfi və hüquqi yanaşma üsullarını birləşdirmiş və dövlətin təşəkkülü, inkişafı və süqutunun "təbii qanunlarını" üzə çıxarmağa çalışmışdır. O ideal deyil, həmin dövrdə real mövcud olan müsəlman dövlətini öyrənmiş və idarəçilik formalarının təsnifatını vermişdir. İbn-Xaldunun siyasi təlimində idarəetmənin üç forması (təbii monarxiya, siyasi monarxiya və xilafət) bir-birindən fərqlən-

---

[1] Bax: Əfəndiyev M.Ə. Siyasi və hüquqi təlimlər tarixi. B., 2002, s. 66

dirilir. Onun fikrincə təbii monarxiya gücə əsaslanan, yalnız idarəedənlərin mənafeyini həyata keçirən despotik (istibdad) dövlət, siyasi monarxiya isə rasional, ağıllı meyarlara əsaslanan dövlət formasıdır. Xilafətin onlardan fərqi və üstünlüyü ondadır ki, burada siyasət sərvətlərə arxalanır. O xilafətə üstünlük verirdi.

İbn-Xaldun göstərirdi ki, dövlət müəyyən zaman müddətində (orta hesabla 120 il) mövcud olur. Bu müddət isə üç nəslin yaşı ilə ölçülür və həmin müddət ərzində beş mərhələdən keçir: 1) əvvəlki hakimiyyətin yeni məcburetmə hakimiyyəti ilə əvəz olunması; 2) hökmdarın onu hakimiyyətə gətirənlərə divan tutub qisas alması; 3) dövlətin çiçəklənməsi, orada qayda-qanunun, sakitliyin və inamın olması; 4) müxalifəti əzmək üçün idarəetmənin güc və despotik metodlarına keçid; 5) dövlətin tənəzzülü və məhvi. Rəhbər qrupların bir-birini əvəz etməsi haqqında ideyanı göstərən bu fikri ilə İbn-Xaldun əslində elita nəzəriyyəsinin yaradıcılarından olan Paretonu 500 il qabaqlamışdır.

İbn-Xaldunun siyasi ideyaları sonrakı ictimai fikrə güclü təsir etmiş və Qərbdə də geniş şəkildə istifadə olunmuşdur.

İntibah dövrünün böyük italyan mütəfəkkiri Nikkolo Makiavelli (1469-1577) müasir siyasi elmin və müqayisəli politoloji təhlil metodunun yaradıcılarından biri hesab olunur. Onun siyasi ideyaları “Hökmdar”, “Florensiya tarixi" və s. əsərlərində verilmişdir. Makiavelli orta əsr siyasi fikir tarixində teoloji baxışlara son qoydu və həmin baxışları obyektiv tarixi zərurətlə əvəz etdi.

Siyasəti təcrübi (praktiki) elm hesab edən Makiavelli

göstərirdi ki, həqiqətin meyarı təcrübədir. O göstərirdi ki, siyasi elmin əsas vəzifəsi illüziyalardan (latın sözüdür, yanlış təsəvvür deməkdir) deyil faktlardan çıxış etməkdir. Makiavelli dövləti cəmiyyətin siyasi vəziyyəti hesab edirdi. O qeyd edirdi ki, dövlət insanların fəaliyyəti sayəsində yaranmışdır, dövlət insanların ümumi rifahı tələbatından irəli gələn cəmiyyət hadisəsidir. Makiavelli üç dövlət formasının (monarxiya, aristokratiya və xalq hakimiyyəti) mövcudluğunu göstərirdi. O hər üç dövlət formasının qeyri-sabitliyini və uzun sürmədiyini iddia etməklə məhz, respublikanı ideal dövlət forması kimi göstərməyə çalışırdı. O belə hesab edirdi ki, bərabərliyi və azadlığı daha çox respublika idarə forması təmin edə bilər.

N.Makiavellidən sonra siyasi fikrin formalaşdırılmasında ingilis mütəfəkkiri Tomas Hobbsun (1588-1679) adını xüsusi qeyd etmək lazımdır. "Vətəndaşı haqqında təlimin fəlsəfi başlanğıcı", "Leviafan" və s. əsərlərində o öz siyasi təlimini şərh etmişdir. Onun siyasi təliminin əsasında fərdin təbiəti haqqında müəyyən təsəvvürlər durur.

T.Hobbs belə hesab edirdi ki, insanlar müharibə vəziyyətinə son qoymaq üçün dövləti yaradırlar (bir dövlət yaratmaq haqqında ictimai müqavilə bağlayırlar). O könüllü saziş nəticəsində yaranan dövləti siyasi dövlət adlandırırdı. T.Hobbs dövlətin müxtəlif formaları olmaq etibarilə mütləqiyyəti (monarxiya), aristokratiyanı və demokratiyanı bir-birindən fərqləndirərək siyasi mütləqiyyətə (monarxiyaya) üstünlük verir və göstərirdi ki, dövlət kralın şəxsində təcəssüm tapır. Mütləqiyyəti ən yaxşı dövlət forması sayan bu filosof dövlətin digər siyasi formalarının əleyhinə çıxmırdı.

Con Lokk (1632-1704) "Dövlət idarəçiliyi haqqında iki traktat" əsərində göstərirdi ki, dövlət yaranana qədər olan dövrdə insanlar təbii halda olmuşlar. İnsanlar öz təbii hüquqlarını, azadlığı təmin etmək, şəxsiyyəti və mülkiyyəti qorumaq üçün dövlət yaratmaq haqqında razılığa gəlirlər. Lokk iki müqavilənin mövcudluğundan bəhs edirdi: dövlətin yaranmasını şərtləndirən ictimai müqavilə və hakimiyyətin formalaşmasına səbəb olan hökumət müqaviləsi. Əslində C.Lokk işləyib hazırladığı ictimai müqavilə nəzəriyyəsində liberal demokratiya və konstitusiyaçılığın ilkin nəzəri şərtlərini əsaslandırmışdır.

Şarl Lui Monteskye (1689-1755) fransız maarifçiliyinin banilərindən biridir. "İran məktubları" əsərində Fransadakı mütləqiyyət rejimini dərindən tənqid edərək onu istibdad idarə üsulu ilə eyniləşdirirdi. "Qanunların ruhu haqqında" adlı əsərində (1748) respublikaya rəğbət bəsləyirdi. Onun təlimində siyasi amilə geniş yer verilmişdi. O belə hesab edirdi ki, dövlət forması qanunların məzmununu müəyyən edir və coğrafi mühitə də təsir göstərir. Monteskye demokratik və aristokratik respublikaları bir-birindən fərqləndirir və respublikanı da monarxiya kimi qanunauyğun dövlət forması hesab edirdi. Üç idarəetmə formasını (respublika, monarxiya və despotiya) göstərir və onları ərazi ölçüsünə görə fərqləndirirdi. Onun fikrincə kiçik dövlətlər respublika, orta səviyyədə olanlar monarxiya və böyük əraziyə malik dövlətlər isə despotiya olurlar.

Monteskye hakimiyyətin bölünməsi prinsipindən çıxış edərək göstərirdi ki, dövlət hakimiyyəti bir şəxsin əlində cəmləşməməli onun bir-birinə nəzarət edən üç müstəqil

(qanunverici, icraedici və məhkəmə) qolu formalaşmalıdır.

Monteskyenin siyasi ideyaları sonralar bütün dünyada geniş yayılmış və demokratiyanın inkişafına güclü təsir göstərmişdir.

Jan Jak Russo (1712-1778) "İctimai müqavilə haqqında" (1762) "Adamlar arasında bərabərsizliyin meydana gəlməsinin mənşəyi və əsasları haqqında mühakimələr" və s. əsərləri Avropanın ictimai-siyasi şüuruna güclü təsir göstərmişdir. Russonun nəzəriyyəsinin əsas ideyası xalq suverenliyidir. O açıq plebey demokratiyasının tərəfdarı idi. Russo ictimai bərabərsizliyin səbəbini ədalətsiz ictimai quruluşda, insanları bir-birinə qarşı qoyan xüsusi mülkiyyətdə görürdü. Russonun fikrincə insanların razılığa gəlməsi hər cür hakimiyyətin mənbəyidir; onun başlıca ifadəsi ictimai müqavilədir. İctimai müqavilənin bağlanması ilə dövlət meydana gəlir. Russonun ictimai müqavilə haqqında fikirləri xalq suverenliyi ideyasının əsaslandırılması və müdafiəsi mövqeyindən şərh edilmişdir.

Russonun siyasi idealı demokratiyaya əsaslanan kiçik dövlət olmuşdur (onu Cenevrə respublikası kimi təsəvvür edirdi).

Russonun mütərəqqi siyasi təlimi müasiri olduğu dövrün görkəmli maarifçilərinə, mütəfəkkirlərinə güclü təsir göstərmişdir. Onun sosial doktrinası İ.Kantın və Hegelin etirafına görə XVIII əsrin sonu XIX əsrin əvvəllərində alman fəlsəfəsinin başlıca nəzəri mənbələrindən biri olmuşdur.

Klassik alman fəlsəfəsinin görkəmli nümayəndəsi G.V.F. Hegel (1770-1831) siyasi elmin inkişafında xüsusi

xidmətləri olan mütəfəkkirlərdən biridir. Onun siyasi ideyaları bütöv şəkildə "Hüquq fəlsəfəsi" əsərində şərh olunmuşdur. Hegelin fikrincə, hüquq fəlsəfəsinin vəzifəsi dövlət və hüququn necə olduqlarını göstərmək deyil, onları elmi surətdə dərk etməkdir.

Hegel hüququ üç mənada işlədir: 1) hüquq ideyası - hüquq azadlığıdır; 2) xüsusi hüquq - hüquq azadlığın müəyyən pilləsi və formasıdır; 3) pozitiv hüquq - hüquq qanundur. Bundan əlavə o hüquq anlayışının üç əsas pilləsini (abstrakt hüquq-mülkiyyət, müqavilə; əxlaq - niyyət və günah, qərəz və rifah, xeyir və vicdan; mənəviyyat - ailə, mülki cəmiyyət və dövlət) səciyyələndirirdi.[1]

Hegelin siyasi baxışlarında "vətəndaş cəmiyyəti" anlayışının şərhinə geniş yer verilmişdir. Onun təliminə görə "vətəndaş cəmiyyəti" dövlətin bir aspektidir. "Vətəndaş cəmiyyəti" şəxsiyyətin və qrupların mənafeyini müdafiə etməli olan siyasi təsisatlar və muxtar orqanların, habelə insanlar arasında kortəbii şəkildə formalaşan hüquqi münasibətlərin sistemidir.[2]

Hegelin fikrincə vətəndaş cəmiyyətinin inkişafı artıq onun əsası kimi dövlətin olmasını nəzərdə tutur. Hegelə görə dövlət nəzəriyyəsi üç formada təzahür edir:

-fərdi dövlət şəklində (dövlət quruluşu, daxili dövlət hüququ);

-xarici dövlət hüququ kimi (dövlətlərarası münasibətlər);

-ümumdünya tarixində (bütün dövlətlərin müqayisəli

---

1 Bax: Teymurlu M. Politologiya. B., 2000, s.38
2 Bax: Şirəliyev H., Əhmədov Ə. Politologiya. B., 1997, s.46

şərhi).

Hegel dövlət formalarına dair fikirlərində konstitusiyalı monarxiyanı müdafiə etməklə belə qənaətə gəlir ki, dövlət formaları arasında yalnız konstitusiyalı monarxiya əxlaqi ideyanın inkişafına daha çox imkan yaradır. O digər dövlət formalarını isə aşağı inkişaf mərhələsi kimi nəzərdən keçirirdi.

### 3. XIX-XX əsrlərdə siyasi təlimlər

Bu dövr bəşəriyyətin siyasi fikrinə güclü təsir göstərmiş maraqlı ideyaların meydana gəlməsi dövrü kimi daxil olmuşdur. Cəmiyyətdə burjua hüquq və azadlıqlarının möhkəmlənməsi liberalizm ideyalarının güclənməsinə zəmin yaratdı. Hüquqi-siyasi ideologiyalarda aparıcı istiqamət kimi liberalizm özünü göstərməyə başladı. Siyasi liberalizmin ideya əsasları və nəzəri şərhi B.Konstan (1767-1830) və H.Spenserin (1820-1903) əsərlərində öz əksini tapmışdır.

Fransız liberalizminin ideoloqu, siyasi xadim Bencamin Konstan Fransada baş verən böyük tarixi hadisələrin müasiri hesab olunur. B.Konstanın nəzəriyyəsi "Konstitusiya siyasəti kursu" (1816-1820) kitabında ətraflı şərh olunmuşdur.

Burjua hüquq və azadlıqlarının müdafiəsi onun nəzəriyyəsinin başlıca istiqamətini təşkil edirdi. B.Konstanın diqqət mərkəzində duran başlıca problemlərdən biri şəxsiyyət və dövlət arasındakı nisbəti müəyyənləşdirmək olmuşdur. Onun fikrincə, insana azadlıq xasdır, buradan da vətəndaşların əsaslı hüquqları irəli gəlir. O azadlığın

iki növünü - siyasi və şəxsi (mülki) azadlığı fərqləndirirdi. Konstanın fikrincə qədim xalqlar yalnız siyasi azadlığa malik olmuşlar (kütləvi siyasi hakimiyyət). Yeni xalqların azadlığını isə o fərdlərin dövlət hakimiyyətindən asılı olmaması ilə səciyyələnən şəxsi vətəndaş azadlığında görürdü. O daha çox din, mətbuat və sənaye azadlığına diqqət yetirmişdir.

B.Konstan hakimiyyətin bölünməsi və tarazlığı prinsipindən çıxış edərək hakimiyyət sistemini belə təsvir edirdi: 1) kral hakimiyyəti (monarx hakimiyyətin bütün formalarında iştirak etməlidir - veto hüququ, seçkili palatanı buraxmaq, irsi palatanın üzvlərini təyin etmək və s. hüququna malikdir); 2) icraedici hakimiyyət (nazirlər tərəfindən həyata keçirilir, parlament qarşısında məsuliyyət daşıyır); 3) daimi nümayəndəli hakimiyyət (perlərin vərəsəli - irsi palatasının hakimiyyəti); 4) seçkili qanunverici - aşağı palatanın hakimiyyəti (ictimai rəyi təmsil edən hakimiyyət); 5) məhkəmə hakimiyyəti.

B.Konstan siyasi fikir tarixində demokrat və möhkəm əqidəyə malik respublikaçı kimi tanınmışdır.

Siyasi liberalizm cərəyanının görkəmli nümayəndələrindən biri də Herbert Spenser olmuşdur. O “Dövlətin üzvi nəzəriyyəsi” adlı konsepsiyasını işləyib hazırlamışdır. H.Spenser dövlətin bioloji orqanizmlərlə müqayisəsini aparmış və onun yaranması, inkişafı və süqutunu nəzəri cəhətdən əsaslandırmışdır. Onun fikrincə dövlətin yaranma səbəbi başqa cəmiyyətlərlə mübarizə, müharibələr və zülmdür. O dövlətin yaranmasını sosial darvinizm mövqeyindən şərh edirdi. H.Spenser inkişafın iki mərhələsi və buna uyğun olaraq, dövlətin iki tipini ayırırdı:

• primitiv, yaxud hərbi, yırtıcı tip (bu tipin əsas vəzifəsi müharibə, zülmdür);

• yüksək, yaxud sənaye tipi (bu tipin vəzifəsi isə fərdi rifahdır).

XIX əsrin 40-cı illərində meydana gələn marksizm siyasi fikrin inkişafında xüsusi bir cərəyanın ayrılması ilə nəticələndi. Bu cərəyanın ən görkəmli nümayəndələri K.Marks (1818-1883) və F.Engels (1820-1895) olmuşdur. Marksizmin siyasi təliminə bir sıra yanaşma üsulları xasdır: 1) marksizm dövləti sinfi ziddiyyətlərin barışmazlığı məhsulu kimi nəzərdən keçirir, dövlətin yaranmasını xüsusi mülkiyyətin və siniflərin yaranması ilə əlaqələndirirdi; 2) siyasət hər şeydən əvvəl iqtisadi münasibətlərin inikası kimi təzahür edir; 3) siniflərin ictimai mövqeyinin dərk edilməsi onların siyasi davranışının müəyyənedici amilidir. Hər bir siyasi liderin siyasi fəaliyyətinin əsasında onun daxil olduğu sinfin mövqeyinin müdafiə edilməsi tələbatı durur və s.

Marksizmin tərkib hissələrinin sistemli təhlili F.Engelsin "Anti-Dürinq" əsərində verilmişdir.

XIX əsrin sonları siyasi fikir tarixində bir birindən fərqli olan ideyaların və nəzəriyyələrin meydana gəlməsi maraq doğurur. Bunlardan sosial darvinizm (ilk sosial darvinist ingilis alimi U.Beccqot "Fizika və siyasət" əsəri) və zorakılıq (L.Qumploviç "İrqlərin mübarizəsi" əsəri) nəzəriyyələrini göstərmək olar. Onlar dövlətin meydana gəlməsində zorakılıq ideyasına haqq qazandırmağa çalışırdılar.

Həmin dövrdə yaranan nəzəriyyələrdən biri də elita

nəzəriyyəsi hesab olunur. Bu nəzəriyyənin yaradıcıları V.Pareto, Q.Moska, R.Mixels və b. hesab olunur. Bu mütəfəkkirlər bir-birindən asılı olmadan müstəqil sürətdə elitar cəmiyyət konsepsiyasının əsasını qoymuşlar.

XIX əsrin başlanğıcında əvvəlki dövrdə nəzərə çarpan vətəndaş cəmiyyətinin sosiallaşması meyli aydın şəkildə təzahür edirdi. Bu mərhələdə sosialist ideologiyasının başlıca istiqamətləri inkişaf etməyə başladı. Sosial-demokratiya ruhunda siyasi ideologiya təşəkkül tapdı.

Alman sosial-demokratlarının və II İnternasionalın rəhbərlərindən biri olan Eduard Bernşteyn (1850-1932) "Sosializmin problemləri" seriyasından məqalələr çap etdirir və sonra bunları "Sosializmin zəmini və sosial-demokratiyanın vəzifələri" adı altında kitab şəklində nəşr etdirir. E.Bernşteyn islahatlar vasitəsilə kapitalizmin sosializmlə əvəz olunacağını əsaslandırmağa çalışırdı. Onun fikrincə dövlət nəinki sinfi təşkilatdır, həm də ölkəni idarə etmək üçün aparatdır.

Sosial-demokratiyanın və II İnternasionalın digər nümayəndələrindən biri Karl Kautski (1854-1938) olmuşdur. O "Bernşteyn və sosial-demokrat partiyasının proqramı. Tənqid əleyhinə" kitabında Bernşteynin marksizmə zidd olan bəzi fikirlərini rədd edərək sosialist inqilabının zəruriliyini əsaslandırırdı.

Sosial - demokratiyanın görkəmli nümayəndələrindən biri də Avqust Bebel (1840-1913) hesab olunur. O da marksizmi onun tənqidçilərindən müdafiə etməklə inqilabi nəzəriyyənin başlıca müddəalarının düzgünlüyünü təkidlə qeyd edirdi.[1]

---

[1] Bax: Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. B., 2002, s.450

XIX əsrin sonu XX əsrin əvvəllərində dünya siyasi fikir tarixində xüsusi yeri olan sosioloq və politoloq Maks Veber (1864-1920) öz tədqiqatlarında siyasi elmin aktual problemlərindən olan hakimiyyət, liderlik, siyasi partiyalar, modernləşdirmə kimi anlayışlara geniş yer vermişdir.

Hakimiyyət onun legitimləşməsi arasında asılılığın tədqiqi Veberin müasir sosiologiya və politologiyaya töhfəsi hesab olunur. Veber ideal tip konsepsiyasını da yaratmışdır.

XX əsrin əvvəllərindən başlayaraq siyasi tədqiqatların mərkəzi Avropadan Amerikaya keçir. ABŞ siyasi məktəbinin görkəmli nümayəndələri Çarlz Marriam siyasi elmdə biheviorçu cərəyanın, Hans Morgentau praqmatizmin və siyasi realizmin banisi hesab olunur. H.Morgentaunun beynəlxalq münasibətlərdə siyasi realizm konsepsiyası "Millətlər arasında siyasət" adlı əsərində özünün hərtərəfli və sistemli şərhini tapmışdır.

XX əsrin 50-60-cı illərində bir çox politoloqların diqqətini siyasi sistem problemləri cəlb etməyə başladı və nəticədə müasir siyasi elm üçün əhəmiyyətli olan siyasi sistem nəzəriyyəsi yaradıldı. D.İstonun "Siyasi sistem", Q.Almondun "Siyasi sistemlərin müqayisəli təhlili", "İnkişafda olan siyasi sistemlərin təhlili" və b. əsərlərində siyasi sistemlərin nəzəri modelləri işlənib hazırlanmışdır. Həmin mərhələdə K.Doyç tərəfindən yaradılan kibernetik modeldə siyasi sistem nəzəriyyəsinə güclü təsir göstərmişdir.

XX əsrin 70-ci illərinin ortalarından etibarən siyasi elmdə plüralizm dövrü başlayır. Bu dövrdə siyasi elmin ayrı-ayrı aktual problemlərinə dair nəzəriyyə və doktrina-

lar yayılmağa başladı. Belə nəzəriyyələrdən R.Robertson (ABŞ) tərəfindən irəli sürülmüş "Qloballaşma nəzəriyyəsi"ni (beynəlxalq münasibətlər qloballaşma prosesində əsaslı dəyişikliyə uğrayır), S.Xantinqtonun "Sivilizasiyaların toqquşması" nəzəriyyəsini (hazırda dünyada baş verən münaqişələrin əsas səbəbi sivilizasiyaların toqquşmasıdır), demokratiyaya keçid nəzəriyyələrini (S.Xantinqton, A.Melvil, X.Lints və b.) və s. göstərmək olar.

Müasir siyasi fikrin görkəmli nümayəndələrindən biri ABŞ politoloqu Frensis Fukiama hesab olunur. Onun "Tarixin sonu" (1989) əsəri liberalizmin cəmiyyətdə dərin kök salması və Qərb liberal demokratiyasının ümumdünya xarakteri almasını əks etdirən bir sıra məqamlarla diqqəti cəlb edir. Fukiama kommunizmin iflasından sonra liberalizmin dünyada alternativinin olmadığını göstərməyə çalışırdı.

Hazırda siyasi elmdə yeni meyllər inkişaf etməyə başlamışdır. Dövrümüzü qlobal mövqedən tədqiq edən politoloqlar dünyada baş verən hadisələri geosiyasi, geoiqtisadi və digər mövqelərdən izah etməyə başlamışlar. Bunun da nəticəsində siyasi elm yeni konsepsiyalarla zənginləşməyə başlamışdır. Bu konsepsiyalar cəmiyyətin siyasi həyatında baş verən keyfiyyət dəyişikliklərinin dərindən mənalandırılması ilə diqqəti cəlb edir.

### 4. Azərbaycan xalqının siyasi fikir tarixi

Siyasət və hakimiyyət haqqında ideyalar Azərbaycan ərazisində qədim zamanlarda meydana gəlmiş və böyük tarixi təkamül yolu keçmişdir. Dünyanın bir çox başqa

xalqlarında olduğu kimi, Azərbaycanda da siyasi təlimlər erkən dövrlərdə dini-mifoloji dünyagörüşünün tərkib hissəsi kimi çıxış etmişdi. Azərbaycanda siyasi fikrin inkişafının dini-mifoloji xüsusiyyətlərini açmazdan öncə belə bir cəhətə toxunmaq yerinə düşər ki, burada ilk dini-mifoloji xarakter kəsb edən siyasi fikir heç də dünyanın bir çox başqa xalqlarının dini-mifoloji görüşlərindən geri qalmamış, əksinə bir çox dastanlarda, əsatirlərdə və nağıllarda öz əksini tapmışdır.

Azərbaycan xalqının siyasi fikrinin sistemli şəkildə şərh olunduğu ilk böyük yazılı abidə zərdüştlüyün müqəddəs kitablar külliyyatı olan "Avesta" hesab olunur. Zərdüştlük Azərbaycan, Yaxın və Orta Şərq ölkələri ərazisində yaşayan qədim xalqların dini olmuşdur. Zərdüştlük uzun bir tarixi inkişaf yolu keçmişdir. Quldarlıq dövründə o Əhmənilər padişahlığının rəsmi dini olmuş, erkən feodalizm dövründə isə Sasanilər dövlətinin hakim dini kimi tanınmışdır.

Avesta məzmununa görə öz dövrünün (e.ə.V, bəzi mülahizələrə görə isə e.ə. VIII-VII əsrlərdə yayıldığı haqqında fikirlər mövcuddur) hüquqi institutların öyrənilməsinin əvəzedilməz mənbəyi hesab olunur. Bu kitab həmin dövrün əxlaqi, sosial, siyasi, dini və s. biliklərinin ensiklopediyasıdır. Mənbələrin verdiyi məlumata görə Avesta əvvəlcə 21 kitabdan (naskdan) ibarət olmuşdur. Zərdüştdən sonra Avestaya edilmiş əlavələr "Kiçik Avesta" adlandırılmışdır.

Avestada dövlət insanların birgə ünsiyyət forması, bütün cəmiyyətin mühafizəsinin mühüm atributu hesab olunur. Avesta güclü dövlət hakimiyyətini təbliğ edir. Belə

hesab olunur ki, dövlətə xeyirxah, maarifçi hökmdar başçılıq etməlidir. Hökmdar eyni zamanda xalqın ideoloqu kimi cəmiyyətdə zərdüştlüyü təbliğ etməklə məşğul olmalıdır.

Avestada dörd zümrədən (silk) bəhs edilir: kahinlər, döyüşçülər, əkinçilər və sənətkarlar. Avesta qulları müstəqil zümrə kimi göstərmir, lakin onların adını çəkirdi. Avesta kahinlər zümrəsinə mərkəzi yerlərdən birini verməklə onları birincilər sırasında göstərmişdir. Əslində Avesta bu zümrəyə Zərdüşt qanunlarını təbliğ etmək və onları həyata keçirmək kimi yüksək bir vəzifə vermişdi.[1]

Avestanın dəyərli cəhətlərindən biri də tərbiyə məsələlərinə geniş yer verilməsidir. Orada qeyd olunur ki, əgər insanlar sülh, ədalət prinsiplərini həyata keçirsələr, bu zaman sülhü, ədaləti bərpa edən cəmiyyət qura bilərlər. Bu fikir Avestadakı ictimai-siyasi ideyaların aydın ifadəsidir.

Avestada olan mütərəqqi siyasi ideyalar nəinki, Şərq, eləcə də Qərb ölkələrinin siyasi fikir tarixinə böyük təsir göstərmişdir.

Azərbaycanda dini-mifoloji xarakter kəsb edən təlimlərdən biri də Manilikdir. Onun yaradıcısı olan Mani öz təlimini zərdüştlüyün, xristianlığın və buddizmin elementlərini özündə birləşdirməklə yaratmışdı. Mani təlimində də zərdüştlükdə olduğu kimi, xeyirlə şərin, işıqla qaranlığın mübarizəsi ifadə olunmuşdu. Manilik təlimi sadə həyat tərzini təbliğ edirdi.

---

[1] Bax: Məlikova M., Bayramov E. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi. B., 1984, s. 12

Azərbaycan xalqının siyasi fikir tarixində zərvanilik, məzdəkilik, xürrəmilik kimi bir neçə ideoloji cərəyanlar da mövcud olmuş və bunlarda əsasən xeyirlə şərin, işıqla qaranlığın arasında gedən mübarizəni əks etdirmişdir.

Orta əsrlərdə Azərbaycan fəlsəfi fikrinin görkəmli nümayəndələrindən biri olan Bəhmənyar ibn Mərzban Əbülhəsənin (993-1066) əsərlərində bir çox fəlsəfi fikirlərə geniş yer verilmişdir. Bəhmənyar cəmiyyət məsələlərinə də diqqət yetirmişdir. O mövcud quruluşu müdafiə edir və onun xeyirli və gözəl quruluş olduğunu göstərməyə çalışırdı. Bəhmənyar xüsusi mülkiyyəti müdafiə edir, xalqı yoxsulluğa dözməyə çağırırdı. O səadətə çatmağın əsas yolunu təhsildə, mənəvi dəyərlərin zənginləşməsində görürdü.

Nizami Gəncəvi (1141-1209) öz dövrünün qabaqcıl ictimai-siyasi mütəfəkkirlərindən biri olmuşdur. Onun siyasi görüşləri bütövlükdə ədalətli cəmiyyət yaradılması uğrunda mübarizəyə həsr olunmuşdur. N.Gəncəvi feodal cəmiyyətinin nöqsanlarının başlıca səbəbini dövlətin istismarçı təbiətində görürdü. N.Gəncəvinin yaradıcılığı ideal siyasi quruluş axtarışı ilə zəngindir. Onun üçün əvvəlcə bu ideal siyasi quruluş maarifçi monarxiya olsa da sonralar isə xalq hakimiyyəti ideyasını təbliğ etmişdi. O zülmün, istismarın olmadığı, humanizm, bərabərlik və azadlıq prinsiplərinə əsaslanan yeni bir cəmiyyət qurulmasını arzu edirdi. Nizami özünün xalq hakimiyyəti idealını "İqbalnamə"də ("İsgəndərnamə"nin ikinci hissəsi) yaratmışdır.

Azərbaycan xalqının, bütövlükdə Yaxın və Orta Şərqin siyasi fikrinin ən qabaqcıl nümayəndəsi Nəsrəddin

Tusi (1201-1274) bir çox əsərlərin o cümlədən ictimai, iqtisadi, siyasi, əxlaqi, fəlsəfi və tərbiyəvi səciyyəsi baxımından xüsusi əhəmiyyətə malik olan "Əxlaqi-Nasiri" əsərinin müəllifidir.

N.Tusinin görüşlərində siyasət və dövlət anlayışları mühüm yer tutur. O siyasəti tədbir kimi nəzərdən keçirir və siyasətin dörd növünü qeyd edirdi (ölkə siyasəti, qələbə siyasəti, kəramət siyasəti və camaat siyasəti) və ölkə siyasətini siyasətlər siyasəti hesab edirdi. N.Tusi qeyd edirdi ki, siyasəti həyata keçirmək üçün bir adama ehtiyac əmələ gəlir. Bunun isə mütləq şah və ya hökmdar olması məcburi deyildir. Tusinin fikrincə bütün dövrlərdə müdrik rəhbərə, tədbir sahiblərinə ehtiyac olur, əgər tədbir olmasa, nizam-intizam aradan qalxar, nəticədə insan cəmiyyəti lazım olduğu kimi inkişaf edə bilməz. Tusi yaxşı siyasətin (fəzilətli) tərəfdarı kimi çıxış edirdi.

N.Tusi belə hesab edirdi ki, insanların həyatı dövlətdən kənarda mümkün deyildir. Bu baxımdan onun təlimində dövlət anlayışı mühüm yer tutur. O dövləti insanların birliyi, cəmiyyətin təbii vəziyyəti kimi nəzərdən keçirirdi və belə hesab edirdi ki, insanlar öz mənafeləri əsasında könüllü surətdə birləşmək arzusunda olduqda dövlət əmələ gəlir. Tusi xeyirli işlərlə məşğul olmağı dövlətin əsas vəzifəsi hesab edirdi.

N.Tusi dövlətin idarə olunmasında ədalətli, müdrik hökmdarın şəxsiyyətinə xüsusi qiymət verərək göstərirdi ki, dövlət başçısı yeddi keyfiyyəti və xüsusiyyəti ilə (atalıq, alicənablıq, mətinlik, əzmkarlıq, səbirli olmaq, sərvətə sahiblik, sadiqlik) fərqlənməlidir.

Tusi feodal cəmiyyətini dörd zümrəyə (təbəqəyə)

bölmüş (qələm əhli - ziyalılar, qılınc əhli - hərbiçilər, müamilə əhli - tacir, sənətkar və vergi toplayanlar, ziraət əhli - əkinçilər, maldarlar) və cəmiyyətin inkişafında onların roluna yüksək qiymət vermişdir.

Azərbaycan xalqının siyasi fikrinin inkişafında hürufilik ideologiyası da mühüm yer tutur. Bu ideologiya XIV əsrin sonlarında Azərbaycanda meydana gəlmiş sonralar isə müsəlman ölkələrinin bir çoxunda geniş yayılmışdır.

Hürufizm ideoloqları öz əsərlərində feodal cəmiyyətini kəskin tənqid edir, həmçinin vətənin yadelli işğalçıların zülmündən xilas olmasını arzulayırdılar.

Digər ideologiyalarda olduğu kimi hürufiliyin öz daxilində də bir-birindən fərqli fikirlər mövcud olmuşdur.

Hürufiliyin banisi sayılan F.Nəimi (1340-1402) ədalətli dövlətin yaranması və xalqların azadlığa qovuşmasında başlıca yolu kütlələrin üsyanında görürdüsə bundan fərqli olaraq İ.Nəsimi (1369-1417) isə ədalətli dövlətin olmasını müdrik şahın (hökmdarın) ölkəni idarəetməsində görürdü.

Məhəmməd Füzuli (1494-1562) XVI əsrdə Azərbaycan xalqının siyasi fikrinin ən görkəmli mütəfəkkirlərindən biri olmuşdur. Füzuli Azərbaycan siyasi fikrinin demokratik ənənələrini davam etdirərək öz dövrünün müxtəlif ictimai-siyasi və əxlaqi məsələlərinə münasibətini bildirməklə yanaşı həmçinin, feodal dünyasının sosial ədalətsizliklərinə, istibdada və cəhalətə qarşı etirazını bildirmişdir.

Füzulinin məşhur nəsr əsəri olan "Şikayətnamə" feodal dövlət quruluşunun tənqidinə həsr olunmuşdur. Bu əsərdə feodal aristokratiyasının özbaşınalığı, haqsızlıq və

rüşvətxorluq kəskin tənqid edilir. Onun "Salam verdim rüşvət deyildir, deyə almadılar" fikri bunun aydın ifadəsidir.

Füzuli mövcud feodal dövlət hakimiyyətini və orada mövcud olan qanunsuzluqları tənqid etsə də xalqın vəziyyətinin yaxşılaşdırılmasında ədalətli və maarifçi hökmdara ümid bəsləyirdi.

M.Füzuli öz əsərlərində xalqlara saysız hesabsız fəlakətlər gətirən viranedici müharibələri pisləyir və sülh uğrunda yorulmaz mübariz kimi çıxış edirdi.

M.Füzuli Azərbaycan xalqının siyasi fikir tarixinə görkəmli mütəfəkkir kimi daxil olmuş və onun ideyaları siyasi fikrin sonrakı inkişafına da güclü təsir göstərmişdir.

A.A.Bakıxanov (1794-1847) "Gülüstani-İrəm", "Kitabi-nəsihət" və b. əsərlərin müəllifi kimi Azərbaycanın ictimai-siyasi həyatında görkəmli yer tutur. O cəmiyyətin inkişafında insan mənəviyyatına üstünlük vermişdir. A.Bakıxanov cəmiyyəti insanların öz tələbatını ödəmək üçün birgəyaşayış forması hesab edirdi. O bunu ehtiyacdan irəli gələn məişət tərzi adlandırırdı. Bakıxanov xüsusi mülkiyyətin mövcudluğuna haqq qazandırır və cəmiyyətin təbəqələrə, siniflərə bölünməsini qanunauyğun hesab edirdi.

A.Bakıxanov mərkəzləşdirilmiş hakimiyyətin, ədalətli, maarifçi monarx hakimiyyətinin tərəfdarı kimi çıxış edir və göstərirdi ki, cəmiyyəti ağıllı hökmdarın həyata keçirdiyi köklü islahatlar vasitəsilə dəyişdirmək mümkündür.

A.Bakıxanovun yaradıcılığında zadəgan maarifçiliyi xüsusiyyətləri özünü göstərmişdir.

XIX əsr Azərbaycan demokratik siyasi fikrinin görkəmli nümayəndələrindən biri M.F.Axundov (1812-1878) hesab olunur.

Axundovun ictimai-siyasi görüşləri Yaxın Şərq xalqlarının ən başlıcası isə Azərbaycan xalqının zəngin ideya-siyasi və fəlsəfi irsi əsasında formalaşmışdır. Onun siyasi təlimində dövlətin mahiyyəti və onun idarə olunması haqqında fikirlər xüsusi yer tutur. M.F.Axundov özünün dövlət haqqındakı fikirlərini siyasət adlandırdığı xüsusi elm sahəsinə aid etmişdir. O siyasəti (politika) hakimiyyəti (səltənəti) və ölkəni (məmləkəti) idarəetməklə bağlı olan, hakimiyyətin və ölkənin mənafeyini və səlahiyyətlərini nəzərə alan işlərdən ibarət idarəetmə elmi kimi nəzərdən keçirmişdir.

Axundovun dövlət formaları haqqındakı fikirləri də maraq doğurur. Onun dövlət formalarına yanaşmasında müəyyən təkamül hiss olunur. O yaradıcılığının ilkin dövründə maarifçi monarxiya dövlət formasının tərəfdarı olmuşdur. Axundov hesab edirdi ki, ağıllı hökmdar öz xalqının mənafeyi və rifahı naminə islahatlar yolu ilə cəmiyyəti dəyişdirməyə qadirdir ("Aldanmış kəvakib" povestində Yusif Sərracın timsalında).

Axundovun dövlət formaları haqqında fikirlərində dəyişiklik 60-cı illərin ortalarında yazdığı "Kəmalüddövlə məktubları"nda (1863-65 "Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktubu və Cəlalüddövlənin ona göndərdiyi cavab" adlı fəlsəfi-siyasi traktat) görünməyə başlayır. Bu dönüş İngiltərənin timsalında konstitusiyalı monarxiya tərəfdarı kimi çıxış etdiyi zaman baş verir. O cəmiyyətin

islahatlar yolu ilə dəyişdirilməsi ideyasından əl çəkir və inqilabi ideyalar təbliğ etməyə başlayır. 70-ci illərin əvvəllərindən etibarən M.F.Axundov xalq hakimiyyətinin tərəfdarı kimi çıxış edir və 1875-ci ildə yazdığı "Yek kəlmə haqqında" məqaləsində respublika üsul idarəsinin tərəfdarı olduğunu bildirir. Axundov yaradıcılığının bütün dövrlərində xalqın mənafeyi mövqeyindən çıxış etmiş və azad bir cəmiyyət yaratmağa çağırmışdır. Bu fikirlər onun ardıcılları tərəfindən yeni tarixi şəraitdə inkişaf etdirilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında xüsusi yer tutan mütəfəkkirlərdən biri C.Məmmədquluzadə (1866-1932) hesab olunur.

C.Məmmədquluzadənin yaradıcılığına həsr olunmuş tədqiqatlarda onun siyasi dünyagörüşünün formalaşmasının üç dövrü göstərilir.

O yaradıcılığının birinci mərhələsində maarifçi (1906-cı ilədək olan dövr), ikinci mərhələsində inqilabçı demokrat (1906-1922), üçüncü dövründə isə sovet yazıçısı kimi fəaliyyət göstərmişdir (1922-ci ildən ömrünün sonuna kimi).

C.Məmmədquluzadə maarifçilik ideologiyasının təsiri altında çox qalmamış və inqilabi demokratik ideyalar buna üstün gəlmişdir.

C.Məmmədquluzadənin siyasi təlimində dövlət forması məsələsinə toxunulmuşdur. O demokratik respublikanı özünün siyasi idealı hesab etmişdir. Onun demokratik respublika haqqında ideyaları 1917-ci ildə yazdığı "Cümhuriyyət" (bu məqalə Tiflisdə müsəlman Milli Komitəsinin yığıncağında çıxış üçün yazılmışdı) adlı məqalə-

sində verilmişdir. O göstərirdi ki, Cümhuriyyət (respublika) elə bir dövlət formasıdır ki, orada hakimiyyət xalqa məxsusdur. Belə cümhuriyyətdə ən demokratik seçkilər olacaq və bütün vətəndaşlara eyni hüquqlar veriləcəkdir. C.Məmmədquluzadənin təklif etdiyi demokratik respublikada prezidentlik təsisatı mövcuddur. Prezident ya xalq, ya da parlament (Millət Məclisi) tərəfindən seçilir. Gündəlik işində ona prezident müavinləri kömək edirlər. Cümhuriyyət haqqındakı fikirlər mütəfəkkirin siyasi görüşlərinin dərinliyi və həyatiliyini təsdiqləyir. Ümumilikdə "Cümhuriyyət" məqaləsi C.Məmmədquluzadənin siyasi görüşlərinin zirvəsi hesab edilə bilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan siyasi fikrinin inkişafında mühüm yer tutan mütəfəkkirlərdən biri də Nəriman Nərimanovdur (1870-1925). Onun siyasi görüşlərində dövlət məsələsi mühüm yer tuturdu. N.Nərimanovun dövlət məsələlərinə dair fikirləri tədricən formalaşmış və ciddi təkamül yolu keçmişdir. Onun dövlətə dair fikirlərində başlıca yeri despotizmin (insani keyfiyyətlərə zidd olması) aradan götürülməsi və xalqın mənafeyini müdafiə edən demokratik dövlət quruluşunun yaradılması ideyası təşkil edirdi.

N.Nərimanov dövlətin yaranmasını xüsusi mülkiyyətin və siniflərin meydana gəlməsilə əlaqələndirirdi. O dövlət idarəçilik formalarına münasibətdə mütləq monarxiya, konstitusiyalı monarxiya və demokratik respublikanı fərqləndirirdi. N.Nərimanov göstərirdi ki, mütləq monarxiya quruluşunda hökmdarın fəaliyyəti heç bir qanunla məhdudlaşdırılmır. O mütləq monarxiya quruluşunu səciyyələndirərkən əslində çar mütləqiyyətini nəzərdə tutur,

onun xalqa zidd quruluş olduğunu açıb göstərirdi.

N.Nərimanov konstitusiyalı monarxiyanın mütləq monarxiyaya nisbətən daha mütərəqqi quruluş olduğunu qeyd edir və göstərirdi ki, belə quruluşda hökmdarın hakimiyyəti qismən konstitusiya ilə məhdudlaşır. Lakin o belə hesab edirdi ki, heç bir konstitusiya feodal-monarxiya dövlətinin təbiətini dəyişdirə və xalqa azadlıq verə bilməz. Bunun üçün quruluşun özü kökündən dəyişdirilməlidir.

N.Nərimanov artıq 1906-cı ildə yazdığı məqalələrində demokratik respublika ideyasını müdafiə edir və ona üstünlük verirdi. O yaradıcılığının əvvəlki dövrlərindən fərqli olaraq dövlətin sinfi təbiətini aydın dərk edir və burjua demokratik respublikasının deyil, xalq hakimiyyətinin tərəfdarı kimi çıxış edirdi. N.Nərimanov dövlət formalarının dəyişməsinə təbii-zəruri hal kimi baxır və göstərirdi ki, inqilab olmadan dövlət quruluşunu dəyişdirmək mümkün deyildir.

N.Nərimanovun siyasi görüşlərinin təhlili onu söyləməyə əsas verir ki, onun dünyagörüşü maarifçilikdən, inqilabi-demokratizmə və marksizmə qədər tarixi bir yol keçmişdir. Mütəfəkkirin siyasi görüşlərində ziddiyyətlərin olmasına baxmayaraq, öz xalqına və vətəninə qırılmaz tellərlə bağlılığı onun ədəbi siyasi irsinə böyük maraq oyadır.

Ömər Faiq Nemanzadə (1872-1941) Azərbaycanda demokratik siyasi fikrin inkişafında görkəmli publisist və ictimai xadim kimi tanınmışdır. İlk dövrlərdə onun siyasi görüşlərinin formalaşmasında mütərəqqi türk siyasi fikrinin müəyyən rolu olmuşdur. Ümumiyyətlə Ömər Faiq

Şərq və Qərb ölkələrindəki elmi-mədəni nailiyyətləri diqqətlə izləmiş, fanatizmə, geriliyə qarşı mübarizədə bu ideyalardan istifadə etmişdir.

Ömər Faiqin siyasi görüşlərində yalnız köhnə ictimai quruluşun inqilabi yolla aradan qaldırılması ideyası deyil, həm də yeni cəmiyyət haqqında fikirlər öz əksini tapmışdır. Ömər Faiq də dövrünün demokratik xadimləri kimi, siyasi hakimiyyət məsələsinə yeni cəmiyyətin əsası kimi baxırdı. O xalqın siyasi hakimiyyətə sahiblənməsini zəruri hesab edirdi.

Nemanzadənin əsərlərində idarəçilik üsullarına görə fərqlənən üç dövlət forması (mütləq monarxiyalı dövlət, konstitusiyalı dövlət və konstitusiyalı xalq dövləti) fərqləndirilir. O mütləq monarxiya dövlətini "keyfi idarə" adlandırırdı. Belə dövlətdə bütün hakimiyyət hökmdarın əlində cəmləşmişdir (Çar Rusiyasının və Türkiyə Sultanlığının timsalında). Nemanzadə konstitusiyalı dövləti mütləq monarxiya dövlətindən üstün hesab edirdi. Belə dövlətdə qanunu tək bir şəxs (hökmdar) deyil, "Məclisiməbusan" (parlament) verir (Qərbi Avropadakı konstitusiyalı respublikaların timsalında). Konstitusiyalı xalq dövləti dedikdə Ömər Faiq demokratik respublikanı nəzərdə tuturdu (bu respublikada insan hüquqları və azadlıqları olmalı, xalq tərəfindən seçilmiş millət vəkilləri "millət məclisi" yaratmalı, bu məclis isə dövləti idarə etməlidir).

XX əsr Azərbaycan siyasi fikrində M.Ə.Rəsulzadə (1884-1955) mühüm yer tutur. M.Ə.Rəsulzadənin fəaliyyətində müstəmləkə idarəetmə sisteminə qarşı mübarizə, xalqın ictimai-siyasi şüurunda milli dövlət ideyasının yaradılması və onun həqiqətə çevrilməsi mühüm yer tutur.

Onun müstəqil Azərbaycan dövlətini yaratmaq ideyası tədricən formalaşmış və aşağıdakı mərhələlərdən keçmişdir:

- millətin özünü dərk etməsi üçün ideya-siyasi təbliğat aparması;
- milli istiqlal, azadlıq, hürriyyət uğrunda mübarizə (hürriyyətin beş əsas formasını göstərmişdir: söz azadlığı, mətbuat azadlığı, cəmiyyət və ittifaq azadlığı, vicdan azadlığı, malın-canın mühafizə olunması);
- muxtariyyət əldə etmək;
- tarixi şəraitdən asılı olaraq federasiya yaratmaq (1917-ci ilə kimi muxtar federasiya tərəfdarı olub);
- müstəqil Azərbaycan dövləti yaratmaq.

M.Ə.Rəsulzadə parlamentli respublika idarə formasını yüksək qiymətləndirirdi. 1918-ci ilin mayın 28-də yaradılan Azərbaycan Demokratik Respublikası islam dünyasında ilk parlamentli respublika idi.

M.Ə.Rəsulzadə Azərbaycan Demokratik Respublikasının ideya-siyasi lideri kimi tanınmış və dövlət strukturlarının yaradılmasında fəal iştirak etmişdir. Rəsulzadə dövlətin demokratik quruluşuna, şəxsiyyətə, vətəndaş hüquqlarına yüksək qiymət verirdi.

Milli tariximizə görkəmli publisist, yazıçı, siyasətçi kimi daxil olmuş və həyatını istiqlaliyyət uğrunda mübarizəyə həsr edən şəxsiyyətlərdən biri də Əli bəy Hüseynzadədir (1864-1940). Ə.Hüseynzadənin ən böyük xidməti onda idi ki, o əsərlərində müstəmləkəçi dövlətləri insanlığın ən qəddar düşməni kimi ifşa etmiş, müsəlman və türk xalqlarını azadlıq uğrunda mübarizədə vahid bir ideya

ətrafında birləşməyə səy göstərmişdir.

İstibdadın ifşası, azadlığın tərənnümü Ə.Hüseynzadənin bütün əsərlərində olduğu kimi, mürəkkəb və ictimai-siyasi məzmunu ilə dolğun "Siyasəti-fürusət" adlı əsərində bütün dərinliyi və çoxcəhətliliyi ilə bir küll halında təzahür olunmuşdu.

Milli-azadlıq hərəkatının böyük bir mərhələsini əks etdirən bu əsərdə mütəfəkkirin başlıca tənqid hədəfi XX əsrin əvvəllərində birinci rus inqilabının təsirilə oyanmaqda olan Şərq xalqlarının milli-azadlıq hərəkatına qarşı çarizmin yeritdiyi müstəmləkəçilik siyasəti idi. Ə.Hüseynzadə milli əsarətə qarşı kəskin etirazını başlıca olaraq iki mövzu ətrafında (İran inqilabının tərənnümü və İran mütləqiyyətinin zülüm və cəhalətinin tənqidi fonunda) vermişdir.[1]

Ə.Hüseynzadə Azərbaycanda burjua ideologiyasının təbliğatçıları olan "Füyüzatçılar" cərəyanının əsas nəzəriyyəçilərindən, həmçinin də "Türkçülük", "Türk birliyi", "Turançılıq" cərəyanlarının yaradıcılarından biri sayılır. O öz məqalələrində türkçülük, islamçılıq ideyalarını təbliğ edərək insanların elmə, maarifə yiyələnməsini vacib hesab edirdi. Ə.Hüseynzadə göstərirdi ki, əgər Məkkə, Mədinə islam dini mərkəzidirsə, İstanbul siyasi mərkəzdir. O Türkiyəni islam aləmi üçün siyasi mərkəz hesab edirdi.

Ə.Hüseynzadə dövlət formalarına münasibətdə demokratik respublikanın tərəfdarı kimi çıxış edirdi.

Azərbaycan SSRİ-nin tərkibində olduğu dövrlərdə xalqımızın qabaqcıl ziyalıları içərisində sovet quruluşuna,

---

[1] Bax: Hüseynzadə Ə. Siyasəti-fürusət. B., 1994, s.3-4

Kommunist partiyasının milli ayrı-seçkilik siyasətinə qarşı mübarizə ruhu hiss olunmuşdur. Müstəqil dövlət yaratmaq məqsədi ilə müxtəlif dövrlərdə vətənpərvər qüvvələr birləşərək gizli təşkilatlar yaratmış və bu istiqamətdə mübarizə aparmışlar. Belə ziyalılardan H.Cavid, M.Müşviq, Ə.Cavad, A.Zamanov, B.Vahabzadə, İ.Şıxlı, X.Rza (Ulutürk) və b. göstərmək olar.

**Yoxlama xarakterli suallar**

1. Qədim Yunanıstanda siyasi fikrin inkişaf mərhələlərini göstərin.
2. İbn-Xaldun hansı dövlət formasına üstünlük vermişdir?
3. "Dövlətin üzvi nəzəriyyəsi" adlı konsepsiyanın müəllifini göstərin.
4. Azərbaycan xalqının siyasi fikrinin sistemli şəkildə şərh olunduğu ilk böyük yazılı abidə hansıdır?
5. C.Məmmədquluzadə hansı məqalədə öz dövlət quruluşu idealının şərhini vermişdir?
6. "Siyasəti-fürusət" əsərinin müəllifini göstərin.

## III mövzu
## Siyasət ictimai fəaliyyət sferasıdır

1. Siyasətin mahiyyəti və məzmunu
2. Siyasətin strukturu
3. Siyasətin təzahür formaları, funksiyaları və subyektləri

### 1. Siyasətin mahiyyəti və məzmunu

Siyasi elmin spesifik kateqoriyası olan siyasət ictimai fəaliyyətin bütün aspektini əhatə etdiyi üçün cəmiyyətin hər bir üzvü siyasi proseslərin iştirakçısına çevrilir, çoxşaxəli ictimai fəaliyyətin müxtəlif istiqamətləri barəsində fikir yürütmək imkanı əldə edir. Ona görə də müasir cəmiyyəti bəşər mədəniyyətinin mühüm tərkib hissəsi olan siyasətsiz təsəvvür etmək mümkün deyil.

Siyasət anlayışı politikos sözündən götürülüb yunan dilində şəhər, dövlət mənasını verir. Ərəb dilindən tərcümədə isə tədbir mənasında ifadə edilir. Çoxcəhətli, çoxməntiqli mürəkkəb hadisə olan siyasət sözü insanlarda müxtəlif, bəzən də bir-birinə əks olan fikir, reaksiya doğurur. Bəziləri siyasəti münaqişə, çirkin oyun, bəziləri isə siyasi fəaliyyət sənəti – idarəetmə elmi hesab edirlər. Göründüyü kimi, siyasət bir-biri ilə qarşılıqlı səbəbiyyət əlaqəsində olan müxtəlif hadisələrdən və proseslərdən ibarətdir. Siyasətin mahiyyətinin aydınlaşdırılması bununla başa çatmır. O daha irəli getməyi və ictimai fəaliyyət sferası olan siyasəti hərtərəfli səciyyələndirməyi tələb edir.

Çox qədimdən siyasət fenomeni ayrı-ayrı mütəfəkkirlərin diqqət mərkəzində olmuş, onların hər biri onu

müxtəlif cür anlamış və mahiyyətini açmağa çalışmışlar. Müasir dövrdə də siyasət haqqında müxtəlif fikirlər və nəzəriyyələr irəli sürülmüşdür.

Platonun anlamında siyasət çar (hökmdar) sənəti olub, insanları idarə etmək bacarığı və biliyi tələb edir.

Aristotel «Siyasət» (politika) adlı əsərində siyasətə dövlət haqqında ümumi təlim kimi qiymət verirdi.

Siyasi fikir tarixində N.Makiavelli siyasəti insan fəaliyyətinin müstəqil, muxtar sferası kimi nəzərdən keçirmişdir. N.Makiavelli siyasəti empirik elm kimi əsaslandırmışdır.

Epikür siyasəti «çirkin» oyun adlandırmışdır. Düzdür siyasət o zaman çirkin oyun təsiri bağışlaya bilir ki, siyasətçilər onu öz əməlləri ilə çirkin oyuna çevirirlər. Buna yol verməmək üçün isə insanlar siyasi mədəniyyətə, siyasi biliyə yiyələnməlidirlər.

N.Tusi isə «Əxlaqi-Nasiri» əsərində siyasəti tədbir kimi nəzərdən keçirmişdir. O siyasətin dörd növünü qeyd etmişdir. Ölkə siyasəti, qələbə siyasəti, kəramət siyasəti və camaat siyasəti. N.Tusi ölkə siyasətini siyasətlər siyasəti adlandırırdı.

Siyasətə idealist və materialist baxış da mövcuddur. Siyasətə idealist baxışın tərəfdarı alman klassik fəlsəfəsinin nümayəndəsi F.Hegel olmuşdur. Onun siyasi təlimi bütövlükdə «Hüquq fəlsəfəsi» əsərində verilmişdir. Hegel hər bir dövrün siyasi həyatını dövrün mədəniyyəti, maddi və mənəvi amilləri ilə şərtləndirirdi.

Siyasətə materialist baxışın tərəfdarı K.Marks hesab olunur. Marksizmə görə siyasət ictimai qruplar arasında rəqabətdir.

Müasir qərb politologiyasında isə siyasət haqqındakı fikirləri bir neçə qrupda birləşdirmək olar.

Fransız politoloqu M.Dyuverje siyasəti fərdlər və qruplar arasında hakimiyyət uğrunda mübarizə kimi başa düşürdü. Onun fikrincə siyasət ölkənin ictimai işlərinin idarə olunmasına aid olan və hakimiyyətin yaradılmasını, onun fəaliyyəti üzərində nəzarəti, onu həyata keçirən şəxslərin dəyişdirilməsi imkanlarını müəyyən edən hərəkətlərin və təsisatların məcmusudur.

M.Veberə görə isə siyasət hakimiyyətin ələ alınması, saxlanılması və istifadə olunmasını istiqamətləndirən fəaliyyətdir.

Müasir politologiyanın klassiklərindən olan H.Lassuel və A.Kaplanın fikrincə isə siyasət hakimiyyətin formalaşdırılması və bölüşdürülməsi ilə bağlıdır.

Elita nəzəriyyəsi nümayəndələrinin fikrincə siyasət bir-birinə əks olan iki «sinfin» - hakimiyyətdə olan azlıqla «elita» idarə olunan çoxluq (xalq) arasındakı mübarizə sferasıdır.

Bəzi politoloqlar siyasəti sosial, o cümlədən siyasi proseslərin qarşılıqlı təsir sferası hesab edir. Siyasətin bir sıra tədqiqatçıları isə onu mənafe ilə əlaqələndirirlər. Onların fikrincə, siyasət əslində sosial mənafelərin sosial qruplar hesabına ödənilməsidir.

Bəzi tədqiqatçılar siyasəti elm, digərləri isə sənət kimi qiymətləndirir. Siyasəti sənət, elmi kimi mənimsəməyin vacib şərtlərindən biri siyasi mədəniyyətə dərindən yiyələnmək, siyasi ustalıq – uzaqgörənlikdir. U.Çörçill göstərirdi ki, siyasi ustalıq – uzaqgörənlik odur ki, sabah, birisi gün, bir aydan sonra, gələn il nə olacaqsa, onları qa-

baqcadan xəbər verəsən, əgər bu hadisələr baş verməsə onların nə üçün baş vermədiyni izah etməyi bacarasan.

Müasir Amerika politologiyasında isə siyasət hökuməti təşkil edən formal təsisatlara aid insan fəaliyyəti, yaxud onun fəallığı sferası kimi müəyyən edilir.

Göründüyü kimi, siyasətlə bağlı fikirlər ayrı-ayrı mütəfəkkirlər və politoloqlar tərəfindən müxtəlif səpkidə izah edilsə də onlar bu və ya başqa səviyyədə dövlət və hakimiyyəti əsas kimi götürmüş, siyasətin mahiyyətini izah edərkən bu və ya başqa şəkildə onlara toxunmuşlar.

Siyasət anlayışına aşağıdakıları daxil etmək olar:

- müəyyən strukturu və funksional yönümü olan dövlət hakimiyyəti;
- ictimai münasibətlərin xüsusi növü olan siyasi münasibətlər;
- dövlət hakimiyyətini həyata keçirən, yaxud bu və ya başqa şəkildə onun fəaliyyəti ilə bağlı olan xüsusi təsisatlar sistemi;
- hakimiyyət uğrunda mübarizə və ona nəzarət.

Siyasətə yanaşmalar göstərir ki, siyasətin ictimai həyatın digər sahələri ilə bağlılığı ona müxtəlif təriflərin verilməsi ilə səciyyələnir. Bu təriflərin bəzilərini nəzərdən keçirək.

Siyasət müəyyən sosial təsisatlar və cəmiyyətin siyasi strukturunu təşkil edən dövlətin, siyasi partiyaların, ictimai hərəkatların fəaliyyət sferasıdır. «Siyasi-lüğət» kitabında isə siyasət cəmiyyətin siyasi həyatının sosial sferası olub, hakimiyyəti əldə etmək, möhkəmləndirmək, realizə etmək istiqaməti kimi nəzərdən keçirilir.

Siyasətin məzmununa bu (təsisatlı, normativ və prosesual) ölçüləri aid etmək olar. Siyasətin təsisatlı məzmunu özündə hakimiyyət və idarəetmə fəaliyyətini, hakimiyyət münasibətlərinin funksional mahiyyətini əks etdirən təsisatların məcmusunu səciyyələndirir. Normativ məzmun sosial qrupların ümumi mənafeyindən asılı olan sərvətlərin, normaların, məqsədlərin məcmusunu, prosesual məzmun isə hakimiyyətin həyata keçirilməsi, dövlətin idarə olunmasının ümumi mənafeyi, məqsədlərinin müdafiə olunması və reallaşması naminə fəaliyyət sistemini ifadə edir.

Siyasətin başlıca xüsusiyyətləri bunlar (universallıq, inklüzivlik və uyğunluq) hesab olunur:

- universallıq – dövlət-hakimiyyət tənzimlənməsi obyektlərinin sayının şüurlu surətdə azaldılması və ya artırılması qabiliyyəti;
- inklüzivlik – ictimai həyatın digər sahələrinə nüfuz etmək qabiliyyəti;
- uyğunluq – qeyri-siyasi ictimai hadisə və sferalara uyğunlaşmaq qabiliyyəti.

## 2. Siyasətin strukturu

Siyasətin strukturunda forma və məzmun siyasi davranışı və sabitliyi tənzim edir. Məzmun və formaya təşkilat strukturu, normalar və qanunlar daxildir. Siyasi normalar siyasi sərvətlərə nail olmaq qaydasıdır. Hər bir cəmiyyətdə mütləq siyasi sərvətlər mövcuddur. Siyasi sərvətlər insanların hüquq və azadlıqlarının ləyaqətinin qorun-

ması, hər bir fərdin və bütövlükdə cəmiyyətin rifahı, sabitliyin və təhlükəsizliyin yaradılmasıdır. Siyasi normalar sosial gerçəkliyin üç sferasında (hakimiyyət və vətəndaşlar arasındakı əlaqələrdə, sosial-siyasi münasibətlərdə və insanların siyasi şüurunda) mövcud olur.

Siyasi normalar sosial qruplar və fərdlər tərəfindən hakimiyyət uğrunda mübarizə gedişində və onun həyata keçirilməsi zamanı istifadə olunur. Onlar sosial sanksiyalar tətbiqi vasitəsilə qorunub saxlanılır.

Siyasətin strukturuna siyasi maraq, siyasi şüur, siyasi təşkilat, siyasi münasibətlər və siyasi fəaliyyət kimi ünsürlər daxildir.

Siyasi maraq – insanları siyasi məqsədlərin qarşıya qoyulması və onların həyata keçirilməsi üçün konkret siyasi fəaliyyətə sövq edən daxili dərk olunmuş davranış mənbəyidir.

Siyasi şüur – siyasi həyatın insanların öz hakimiyyət əhəmiyyətli maraqlarına dərk olunmuş münasibətindən asılılığını səciyyələndirir.

Siyasi təşkilat – ictimai proseslərin nizamlanması və idarəetmə mərkəzləri kimi hakimiyyət təsisatlarının rolunu əks etdirir.

Siyasi münasibətlər – onlar siyasi fəaliyyət prosesində subyektlərin bir-birinə münasibətdə vəziyyətini əks etdirir. Siyasi münasibətlərin əsasında mənafe durur. Cəmiyyətdə böyük ictimai qruplar siyasət vasitəsilə öz mənafelərini həyata keçirirlər. Siyasi mənafelər dövlətin, siyasi partiyaların, siyasi rejimin xarakterinə uyğun olur. Siyasi mənafe beş əsas mərhələdən keçir:

- cəmiyyətlə praktik təmasda subyektin vəziyyəti;

• vəziyyətin subyekt tərəfindən dərk edilməsi səviyyəsi;

• davranış və fəaliyyət motivləri;

• obyektiv aləmdə mənafenin təsdiq olunması prosesindən ibarət hərəkətin özü;

• mənafenin təsisatlandırılması.

Siyasi fəaliyyət – siyasi statusların reallaşdırılmasını ifadə edən fəaliyyət kimi və subyektlərin sosial fəallığının müxtəlifliyi kimi çıxış edir.

Siyasi fəaliyyətin konkret məzmunu aşağıdakılardan ibarətdir: dövlət işlərində iştirak etmək, dövlətin fəaliyyətinin formalarını, vəzifələrini və istiqamətlərini müəyyənləşdirmək, hakimiyyətin bölünməsi, onun fəaliyyətinə nəzarət və s.

Siyasi fəaliyyətin ümumiləşdirilmiş şəkildə nəzəri və praktiki (təcrübi) fəaliyyət tipi nəzərdən keçirilir. Siyasi fəaliyyətin bu tipləri öz məqsədləri və vasitələrinə görə fərqlənirlər. Bu siyasi fəaliyyət növlərinin rolu və əhəmiyyəti, həmçinin də siyasi həyatda onların qarşılıqlı münasibətlərinin xarakteri hər şeydən əvvəl siyasi subyektin spesifikliyi və ictimai sistemdəki fəaliyyəti ilə müəyyən olunur.

Subyektlərin siyasi fəaliyyətinin müxtəlif növləri və bunların qarşılıqlı münasibətləri siyasi proseslərin təzahürünə səbəb olur. Siyasi proses ardıcıl hərəkət olmaqla müəyyən siyasi məqsədlərin əldə olunmasına istiqamətlənir.

Siyasi ədəbiyyatda siyasi proseslərin dörd mərhələsi göstərilir:

• siyasi sistemin tərkibinin təşkili;

- siyasi sistemin komponentlərinin və əlamətlərinin təkrar istehsalı;
- siyasi-idarəetmə qərarlarının qəbulu və icrası;
- siyasi sistemin fəaliyyətinin və inkişafının istiqamətinə nəzarət.

### 3. Siyasətin təzahür formaları, funksiyaları və subyektləri

Siyasət bu (mikro, makro və meqa) səviyyələrdə təzahür edir. Mikrosiyasət qrup və fərdlər arasında qarşılıqlı əlaqədə olub, siyasətin mikroproseslərinə diqqət yetirir (partiya və digər ictimai-siyasi təşkilatlar və s.). Makrosiyasət müasir siyasi həyatın baza agentlərinin məkan xarakteristikası ilə bağlıdır (dövlət, millət). Meqasiyasət siyasətin daha yüksək səviyyəsi olub, dövlətlərin xarici qarşılıqlı fəaliyyəti ilə bağlıdır (dünya siyasəti, beynəlxalq siyasət).

Siyasətin məqsədi siyasi prosesin çıxış nöqtəsi olmaqla siyasətin istiqamətini, siyasi fəaliyyətin formalarını müəyyən edir. Siyasətin vasitələri isə onun məqsədlərinin praktiki (təcrübi) baxımdan həyata keçirilməsi üsuludur. Siyasətin vasitələri ilə metodları qarşılıqlı əlaqəlidir. Siyasətin metodu onun vasitələrinin təsir üsullarını səciyyələndirir. Siyasətin metodlarına zorakı və qeyri-zorakı üsullar, məcburetmə və inandırma tədbirləri aiddir.

Siyasət sosial həyatın bütün sferalarına nüfuz etdiyi üçün onun bir sıra növlərini (iqtisadi siyasət, sosial siyasət, milli siyasət, mədəni siyasət, demoqrafik siyasət, eko-

loji siyasət, daxili və xarici siyasət və s.) nəzərdən keçirmək olar.

Siyasət ictimai fəaliyyət sferası olmaqla idarəetmə, tənzimləyici, nəzarət, inteqrasiya, səfərbərlik və s. funksiyaları yerinə yetirir.

Cəmiyyətin siyasi həyatı müxtəlif, çox zaman bir-biri ilə əks mənafelərə malik çoxsaylı qruplardan ibarətdir. Düzgün siyasi xətt işləyib hazırlamaq tələbatı siyasətin subyekti və obyektini müəyyənləşdirmək və onları bir-birindən fərqləndirməyi tələb edir. Siyasətin subyekti və obyekti kimi insanlar çıxış edir. Çünki siyasəti insanlar yaradır və həyata keçirir. Siyasətin obyekti bütöv bir cəmiyyət götürüldüyü halda subyekti kimi böyük ictimai qruplar götürülür. Adətən böyük ictimai qruplar siyasətin ilkin subyektləri olduğu halda onun əlavə subyektləri isə birbaşa və bilavasitə subyektlərə bölünür. Birbaşa subyektlərə kiçik qruplar və fərdlər, bilavasitə subyektlərə isə təbliğat təsisatları aiddir.

Göstərilənlərdən əlavə siyasətin beynəlxalq subyektlərini də nəzərdən keçirmək olar.

Siyasətin beynəlxalq subyektlərinə bu təsisatları və təşkilatları aid etmək olar:

- milli dövlətlər;
- super milli təşkilatlar (Avropa İttifaqı, Avropa Şurası, ATƏT);
- qeyri-hökumət təşkilatları (transmilli korporasiyalar);
- BMT sisteminə daxil olan beynəlxalq hökumət təşkilatları (YUNESKO, Dünya bankı) və s.

**Yoxlama xarakterli suallar**

1. Siyasət sözünün mənasını göstərin.
2. N.Tusi «Əxlaqi-Nasiri» əsərində siyasətin hansı növlərini göstərmişdir?
3. Siyasətin strukturunu müəyyənləşdirin.
4. Siyasətin subyektlərini göstərin.
5. Siyasətin məqsədi, vasitələri və funksiyalarını göstərin.
6. Siyasətin məzmununa aid olan ölçüləri göstərin.

## IV mövzu
## Hakimiyyət və siyasi hakimiyyətin məzmunu

1. Hakimiyyət anlayışı, növləri və məzmunu
2. Hakimiyyətin resursları və funksiyaları
3. Siyasi hakimiyyətin subyektləri

### 1. Hakimiyyət anlayışı, növləri və məzmunu

Hakimiyyət fenomeni siyasi fikir tarixində və müasir siyasi nəzəriyyədə daha geniş tədqiq olunan problemlərdən biridir. Siyasi fikir tarixində ayrı-ayrı mütəfəkkirlər hakimiyyət fenomenini izah etməyə çalışmışlar. Müasir politoloqların əsərlərində də hakimiyyət nəzəriyyəsinə geniş yer verilmişdir.

Müasir ingilis-amerikan politoloji məktəbinin nümayəndəsi H.Morgentau yazır ki, «hakimiyyət dedikdə, insanın başqa insanların şüuru və hərəkətləri üzərində nəzarət etməsi başa düşülür».

M.Dyuverje isə hakimiyyətin iki tərəfinin olduğunu qeyd edirdi. Onun fikrincə, hakimiyyət bir tərəfdən bir qrupun digəri üzərində ağalıq alətidir, digər tərəfdən isə sosial qaydanı qoruyub saxlamaq üsulu, ümumi rifah naminə hamının bir kollektivdə müəyyən inteqrasiyasıdır.

M.Veberə görə hakimiyyət konkret sosial münasibətlərin daxilində müqavimətə baxmayaraq şəxsi iradənin həyata keçirilməsi imkanıdır.

Çoxməntiqli, çoxistiqamətli hadisə olmaq etibarilə hakimiyyət bir çox sahələrdə təzahür edir. Qərb politoloqları bir qayda olaraq, iqtisadi, siyasi, ideoloji, habelə

dini, etnik, texniki, bürokratik, nüfuz, məcburetmə, informasiya, hərbi, partiya və s. hakimiyyət növlərindən bəhs edirlər. M.Veber isə öz növbəsində hakimiyyətin üç növünü (iqtisadi, ideoloji-siyasi, hüquqi-dövlət hakimiyyəti) nəzərdən keçirirdi.

Hakimiyyətdən danışarkən legitimləşmə anlayışına xüsusi diqqət yetirilməlidir (legitimlik latın dilində «qanunauyğun», «qanuni», «düzgün» mənasını verir). Legitim siyasi hakimiyyət o hakimiyyətdir ki, orada hüquq normalarına uyğun qanuni hakimiyyət mövcuddur. Hakimiyyət o zaman legitim olur ki, birincisi, xalqın iradəsinə uyğun həyata keçirilir, yəni dövlət hakimiyyəti birbaşa, yaxud dolayı yolla müəyyən müddətə xalq tərəfindən seçilir və onun tərəfindən nəzarət altında olur; ikincisi, dövlət hakimiyyəti konstitusiya prinsiplərinə uyğun surətdə həyata keçirilir. Deməli vətəndaşlar tərəfindən hakimiyyətin tanınması və dəstəklənməsi hakimiyyətin «legitimliyi» məfhumunun əsasını təşkil edir. Legitimlik və hakimiyyətin səmərəli olması siyasi hakimiyyətin səciyyəvi əlamətidir.

Hakimiyyətin legitimliyi anlayışından danışarkən onun mənbəyinə də diqqət yetirmək lazım gəlir. Siyasi hakimiyyətin əsas mənbəyi kimi xalq çıxış edir. Hakimiyyətin xalqa məxsus olması onun demokratik metodlarla həyata keçirilməsini nəzərdə tutur.

Hakimiyyət, xüsusilə onun bir növü olan siyasi hakimiyyət universal bir hadisədir və onun universallığı aliliyində, ümumiliyində, gücündə və miqyasında ifadə olunur.

- Alilik – siyasi hakimiyyətin qərarlarının bütün cəmiyyət və digər hakimiyyət növləri tərəfindən yerinə yetirilməsi;

• ümumilik – bu, o deməkdir ki, siyasi hakimiyyət bütün cəmiyyətin adından fəaliyyət göstərmək hüququna malikdir;

• güc – hakimiyyətin öz gücündən və idarəetmənin digər vasitələrindən ölkə daxilində açıq, qanuni şəkildə istifadə etmək hüququna malik olması;

• miqyas – hakimiyyətin əldə edilməsi, saxlanılması və həyata keçirilməsi məqsədilə istifadə olunan vasitələrin geniş və miqyaslı olması.

Siyasi hakimiyyətin spesifikliyi ondadır ki, həmin prosesdə sadəcə təsir deyil, hakimiyyət iradəsi hakimdir. Siyasi hakimiyyəti fərqləndirən xüsusiyyət onun kütləvi xarakterə malik olmasıdır.

Siyasi hakimiyyət yalnız qüvvəyə və zora deyil, ictimai münasibətləri qanunvericilik yolu ilə tənzimləməyə əsaslanır və yalnız bu qanunların icrası üçün zor tətbiq edir.

Siyasi hakimiyyət fərdin, yaxud qrupun müvafiq cəmiyyətin hüquq normalarında qanuniləşdirilmiş iradəsini həyata keçirməkdən ibarət real qabiliyyətidir. Siyasi hakimiyyət ağalıq, rəhbərlik, idarəetmə və nəzarət formalarında mövcud olur.

Siyasi hakimiyyət özünün tam təcəssümünü dövlət hakimiyyətində tapmışdır. Hakimiyyət qanunverici, icra və məhkəmə hakimiyyəti kimi üç qola bölünür.

Hakimiyyətin məzmunu ilə bağlı bir sıra müasir konsepsiyaları (relyativist, biheviorçu və sistem) nəzərdən keçirmək olar.

Relyativist konsepsiyaya görə (latın sözü olub, nisbi deməkdir) hakimiyyət şəxsiyyət münasibətlərindən ibarət

olub subyektin obyektə təsirində özünü biruzə verir. Subyekt və obyekt kimi müxtəlif qruplar, təbəqələr və fərdlər çıxış edə bilər. İqtidar və müxalifət partiyaları da subyekt və obyekt münasibətlərinin daşıyıcısı kimi çıxış edə bilir.

Biheviorçu konsepsiya (davranış deməkdir) hakimiyyəti insanlar arasındakı davranış münasibəti baxımından nəzərdən keçirir. Bu konsepsiyaya görə hakimiyyətin mahiyyəti ondan ibarətdir ki, bir qrup hökmranlıq (rəhbərlik) edir, digər bir qrup isə tabeçilik vəziyyətində qalır və qərarları yerinə yetirir. Biheviorçu mövqeyin başlıca cəhəti hakimiyyət uğrunda mübarizədə insanların davranış xüsusiyyətlərinə diqqətin yetirilməsidir.

Sistem konsepsiyası isə hakimiyyəti cəmiyyətin siyasi sistemində sistem əmələ gətirən münasibətlər forması kimi araşdırır. Sistemin bütün digər ünsürləri siyasi hakimiyyətlə bilavasitə əlaqəlidir.

Siyasi elmdə hakimiyyətin (hökmranlığın) tipləri anlayışı M.Veberə məxsusdur. O xalis, ideal tiplər nəzəriyyəsinə əsasən hakimiyyətin (hökmranlığın) üç tipini (ənənəvi, harizmatik, rasional-leqal) göstərmişdir.

Hakimiyyətin ənənəvi tipinin əsasında ənənələr durur. Belə hakimiyyət tipində cəmiyyət ənənələrə və davranış normalarına tabe olur. Bu hakimiyyətin daşıyıcısı tayfa başçısı, monarx olur.

Hakimiyyətin harizmatik tipi (harizma latınca ilahi qabiliyyət mənasını ifadə edir) şəxsin son dərəcə mühüm keyfiyyətlərinə, nüfuzuna əsaslanır. Hakimiyyətin harizmatik tipi çox vaxt siyasi durumu qeyri-sabit olan cəmiyyətdə təşəkkül tapır.

Hakimiyyətin rasional-leqal tipi qanuna – konstitusiyaya arxalanır. Lider öz fəaliyyətini qanun çərçivəsində qurur.

M.Veberin fikrincə, rasional-leqal hakimiyyətdən o zaman danışmaq olar ki, orada hüquq qaydalarının ədalətli olmasına inam əsasında onlara əməl edilir və onlar reallaşdırılır. Onun fikrincə bu daha çox Qərb mədəniyyəti üçün səciyyəvidir.

## 2. Hakimiyyətin resursları və funksiyaları

Hakimiyyətin həyata keçirilməsində müxtəlif resurslar (vasitələr) sistemindən istifadə olunur. Resurs dedikdə müxtəlif vasitələr sisteminin köməyilə siyasi hakimiyyətin həyata keçirilməsi nəzərdə tutulur. Hakimiyyət əlində olan təsir vasitələrindən öz tabeçiliyində olanları inandırmaq, həvəsləndirmək və həmçinin cəzalandırmaq məqsədilə istifadə edə bilər. Resurslar sistemi vasitəsilə subyektin obyektə təsiri təmin olunur.

Cəmiyyət üzvlərinin maddi, sosial və mənəvi tələbatlarının ödənilməsi vasitələri kimi, habelə qanunvericiliyin təmin olunması ilə bağlı hakimiyyətin resursları da rəngarəng və müxtəlifdir. Bu resurslar sırasında iqtisadi, sosial, mədəni-informasiya, demoqrafik, məcburetmə (güc), siyasi-hüquqi və s. resurslar fərqləndirilir.

İqtisadi resurslar ictimai istehsal və istehlak üçün zəruri olan maddi dəyərlər, pul, maliyyə, büdcə, faydalı qazıntılar, məhsuldar torpaqlar və s. ibarətdir.

İqtisadi resurslarsız siyasi hakimiyyətin fəaliyyəti mümkün deyildir. İqtisadi resurslardan cəmiyyətdə sabit-

liyin, təhlükəsizliyin təmin olunması və xeyli ümumdövlət və beynəlxalq xarakterli məsələlərin həlli üçün istifadə edilir.

Sosial resurslar sosial dərəcəni artırmaq və ya azaltmaq qabiliyyətidir. Sosial resurslar vəzifəni, nüfuzu, təhsili, tibbi xidməti, sosial təminatı və s. özündə birləşdirir. Sosial resursların düzgün istiqamətləndirilməsi siyasi hakimiyyətin müdafiə olunmasına təminat verir. Sosial resurslar iqtisadi resurslarla bağlılıq təşkil edir (məsələn, gəlir və sərvət iqtisadi resurs olmaqla yanaşı həm də sosial statusu səciyyələndirir).

Mədəni-informasiya resursları biliklər və informasiya, həmçinin onların əldə olunması və yayılması vasitəsidir. İnformasiya resurslarının əldə olunması vasitələri içərisində radio, televiziya, mətbuat, internet şəbəkəsi və s. göstərmək olar. İnformasiya resursları gənc resurs olmasına baxmayaraq onun əhəmiyyətinin yüksəlməsi meyli hazırda aydın nəzərə çarpır.

Demoqrafik resurslar – insan demoqrafik resurs olmaq etibarilə başqa resursların yaradıcısı və universal resurs kimi özünü göstərir.

Güc (fiziki məcburiyyət vasitələri və təsisatları) resursları ölkənin müdafiəsini təmin etmək, daxili qayda-qanun yaratmaq, təhlükəsizliyi (daxili və xarici) təmin etmək funksiyasını yerinə yetirir. Bu resurslara ordu, təhlükəsizlik orqanları, hüquq mühafizə orqanları (polis, prokurorluq, məhkəmə) daxildir. Güc resursları hakimiyyətin daha səmərəli vasitələrindən biridir.

Siyasi-hüquqi resurslara konstitusiya, qanunlar, siyasi partiyaların proqram sənədləri aiddir.

Siyasi hakimiyyət bütöv münasibətlər sistemi olmaq etibarilə bir sıra mühüm funksiyalar yerinə yetirir. Bu funksiyalar aşağıdakılardır:

- cəmiyyəti idarəetmək (rəhbərlik) – cəmiyyətin idarəedilməsi strategiyasının hazırlanması və tətbiqi;
- təşkilati (təşkiletmə) – cəmiyyətin inkişafının əsas istiqamətləri (siyasi, iqtisadi, sosial və s.) üzrə konkret qərarların hazırlanması, qəbulu və icraya yönəldilməsi;
- tənzimləmə-nizamlama – sosial proseslərin səmərəli idarə olunması və ictimai münasibətlərin nizamlanması;
- nəzarət – cəmiyyətdə sabitliyin təmin olunması və ictimai inkişafın ən mühüm göstəricilərinə nəzarət.

### 3. Siyasi hakimiyyətin subyektləri

Hakimiyyət hüquq, nüfuz, inandırma, məcburetmə, zorakılıq, ənənələr vasitəsilə həyata keçirilir.

Siyasi hakimiyyət iqtidarla ona tabe olan qruplar arasında münasibətlər tipidir. Bu prosesdə subyekt və obyekt münasibətləri üzə çıxır.

Subyekt və obyekt hakimiyyətin bilavasitə daşıyıcılardır. Subyekt hakimiyyətin fəal, istiqamətverici başlanğıcını təcəssüm etdirir. Hakimiyyətə tabe olmaq isə onun obyektini təşkil edir. Hər bir hakimiyyət müəyyən qüvvələr tərəfindən həyata keçirilir. Siyasi hakimiyyətlə bağlı məsələləri hərtərəfli aydınlaşdırmaq üçün həmin qüvvələri üzə çıxarmaq, daha dəqiq desək hakimiyyət subyektlərini müəyyənləşdirmək lazımdır. Ayrı-ayrı fərdlər, təşkilatlar, müxtəlif qruplar və ümumilikdə xalq subyekt kimi çıxış edə

bilər. İnsanın sosiallaşması və kommunikasiyanın bir çox cəhətdən məhz qruplardakı münasibətlərə əsaslandığını əsas tutan politoloqlar qrupları siyasi hakimiyyətin əsas və aparıcı subyektlərindən hesab edirlər.

Siyasi mənafelərlə birləşmiş və hakimiyyətin reallaşması prosesində iştirak etmək iddiasında olan qrupların əsas məqsədi öz mənafelərinə uyğun olaraq, hökumət qərarlarının qəbul edilməsinə təsir etmək imkanına malik olan fərdlər birliyidir.

Bu qrupları təsir imkanlarına görə bir neçə yerə bölmək olar:

1) qısa müddət üçün nəzərdə tutulan və dinc fəaliyyətə üstünlük verən anomik qruplar;
2) formal xarakter daşıyan könüllü, yaxud assosialaşdırılmamış qruplar (onlar zəif təşkil olunmuş, yaxud qeyri-mütəşəkkil müxtəlif sosial-demoqrafik, etnik birliklərin üzvlərinə kömək etmək məqsədilə hökumət üzvləri ilə sıx əlaqə saxlayırlar);
3) assosialaşdırılmış qruplar (həmkarlar ittifaqı, insan hüquqları təşkilatı və s.). Onlar yüksək səviyyədə təşkil olunmuş spesifik qruplardır;
4) təsisatlı qruplar (kilsə, ordu, şirkətlər, siyasi partiyalar kimi təsisatların yarımqrupları).

Qrupları siyasi hakimiyyət subyekti kimi təhlil edən tədqiqatçılar belə hesab edirlər ki, onun fəaliyyətinə insanların cəlb olunması üç əsas amillə şərtlənir: maddi-maraq; ümumi mənafelərlə həmrəylik; müəyyən məqsədin əldə edilməsi uğrunda mübarizə.

Hakimiyyət orqanlarına təsir göstərmək üçün qruplar adətən təzyiq metodlarından istifadə edirlər. Təzyiq

qruplarının nüfuzu onların üzvlərinin sayı, iqtisadi qüdrəti və bütövlükdə cəmiyyətdə oynadıqları rola görə müəyyən edilir. Özlərini siyasətdən kənarda hesab edən belə qruplar çox zaman ölkənin siyasi həyatına siyasi partiyalardan daha çox təsir göstərirlər.

Təzyiq qrupları ən müxtəlif metodlardan istifadə edirlər (nümayişlər, baykot, tətillər, reklam və s.). Onlar kütləvi informasiya vasitələrindən də istifadə etməklə geniş ictimai kampaniyalar keçirirlər. Bir sözlə, təzyiq qrupları öz məqsədlərinə çatmaq üçün sözlə inandırmaqdan tutmuş birbaşa təzyiqə qədər çox geniş vasitələrdən istifadə edirlər. Təzyiq qrupları içərisində lobbiçilik fəaliyyəti geniş yayılmışdır.

Hazırda onun ən geniş yayılmış forması seçki kampaniyası zamanı namizədlərin birinin, yaxud müvafiq partiyanın xeyrinə pul xərcləməkdir.

Ən yaxşı tədqiq olunan qruplardan biri siyasi hakimiyyət subyekti (daşıyıcısı) olmaq iddiasında olan elitadır (bu haqda növbəti mövzuda bəhs olunacaq).

**Yoxlama xarakterli suallar**

1. Hakimiyyətin «legitimliyi» məfhumunun mənası nədir?
2. Hakimiyyətin rasional-leqal tipinin əsasında nə durur?
3. Relyativist konsepsiyaya görə hakimiyyət nədə özünü biruzə verir?
4. Hakimiyyətin funksiyalarını göstərin.
5. Siyasi hakimiyyət özünün tam təcəssümünü nədə tapmışdır?
6. Hakimiyyətin resurslarını göstərin.

## V mövzu
## Elitalar hakimiyyətin daşıyıcısı rolunda

1. Elitaların mahiyyəti və məzmunu
2. Elitaların təsnifatı
3. Müasir elita nəzəriyyələri

### 1. Elitaların mahiyyəti və məzmunu

Siyasi hakimiyyətin əsas daşıyıcılarından biri elita hesab olunur. «Elita» sözü fransız dilindən tərcümədə «ən yaxşı», «seçilmiş» mənasını verir. Ümumiyyətlə, «elita» elmi ədəbiyyatda «cəmiyyətin ağalıq edən hissəsi», «idarə edən təbəqəsi» mənasında işlədilir.

Müasir elita nəzəriyyəsinin sələfləri V.Pareto, Q.Moska, R.Mixels və b. hesab olunur. Elitanın mahiyyətini düzgün anlamaq üçün bu anlayışa aid təriflərə nəzər yetirək. V.Paretonun fikrincə elita öz fəaliyyəti sahələrində yüksək göstəricilərə malik şəxslərdir. Q.Moskanın fikrincə isə cəmiyyətin hakimiyyətə can atan, siyasi cəhətdən ən fəal üzvlərindən ibarət mütəşəkkil azlığı elita hesab olunur. M.Veberə görə harizmatik şəxslər, J.Bodenə görə öz statusundan asılı olmayaraq intellektual və mənəvi keyfiyyətlərinə görə kütlədən üstün olan şəxslər, Q.Lassuelə görə isə maddi və qeyri-maddi dəyərləri maksimum əldə edən şəxslər elita hesab olunur.

Siyasi elm elitanın meydana gəlməsi və mövcudluğunu şərtləndirən başlıca amilləri müəyyənləşdirmişdir. Bu amillər aşağıdakılardır:

- insanların psixoloji və sosial qeyri-bərabərliyi, on-

ların siyasətdə iştirak etmək imkanları, qabiliyyətləri və istəklərinin müxtəlifliyi;

- idarəetmə fəaliyyətinin səmərəsini qaldırmaq məqsədilə onun xüsusi peşə növü kimi ayrılması;
- idarəçilik əməyinin sosial imtiyazlara imkan və şərait yaratması;
- insanların böyük əksəriyyətinin siyasi passivliyi və idarə olunmağa meylli olması və s.

Siyasi elitanın meydana gəlməsi və mövcudluğu mexanizmi mürəkkəb struktura və təbiətə malikdir. Ümumi kütlədən fərqlənən xüsusi seçmə təbəqənin yaranmasını təmin edən amillər və şərtlər müxtəlifliyi ilə seçilir. Siyasi elitanı şərtləndirən cəhətlər aşağıdakılardır:

- böyük olmayan, kifayət qədər müstəqil sosial qrup;
- yüksək sosial status;
- dövlət və informasiya hakimiyyətinin böyük həcmi;
- hakimiyyətin həyata keçirilməsində bilavasitə iştirak;
- təşkilatçılıq qabiliyyəti, istedadı və s.

Siyasi elita bütövlükdə idarəetmə keyfiyyətlərini əks etdirən qrupdur. Siyasi elitanın əldə etdiyi imtiyazlar onun hakimiyyət səlahiyyətlərilə bağlıdır.

Siyasi elitanın fəaliyyətinin səmərəliliyi siyasi sabitliyin əldə edilməsi, xalqın rifahı və tərəqqisinin səviyyəsi, dövlət və vətəndaş cəmiyyəti arasında optimal uyğunluğun yaradılması və milli təhlükəsizliyin təmin edilməsi kimi cəhətlərlə müəyyənləşir.

Tənəzzülün qarşısını almaq üçün siyasi elita öz fəaliyyətində bir sıra vasitələrə (aşkarlıq, siyasi plüralizm, so-

sial mobillik üçün elitanın açıq olması, hakimiyyətin bölünməsi, müxtəlif sosial qüvvələrin maraqlarının tarazlığı, qanuna, siyasi proseslərin demokratik qaydalarına ciddi riayət olunması və s.) üstünlük verir.

Elita nəzəriyyəsinə görə hakimiyyətin subyekti müəyyən keyfiyyətlərə malik olan azlıq hesab olunur.

Siyasi elitanın sosial əhəmiyyəti onun yerinə yetirdiyi funksiyalarda ifadə olunur. Bu funksiyalar müxtəlifliyi və mürəkkəbliyi ilə seçilir. Həmin funksiyalar sırasında birinci yeri **strateji funksiya** tutur. Onun məzmunu cəmiyyətin inkişaf strategiyasının və taktikasının işlənib hazırlanmasında, siyasi fəaliyyət proqramının müəyyənləşdirilməsində ifadə olunur. Strateji funksiya siyasi elitanın yüksək səviyyəsində-parlament, nazirlər kabinetinin üzvləri, prezidentin ekspertləri, müşavirləri, köməkçiləri vasitəsilə tam şəkildə reallaşa bilər. Bu zaman elmi-tədqiqat institutlarının, analitik mərkəzlərin və ən görkəmli alimlərin fəaliyyətindən də geniş istifadə edilir. Strateji funksiyanı yerinə yetirmək üçün siyasi elitadan yüksək peşəkarlıq tələb olunur. Siyasi elitanın həyata keçirdiyi funksiyalardan biri də **kommunikasiya funksiyasıdır**. Bu funksiya siyasi proqramlarda əhalinin müxtəlif sosial qrupları və təbəqələrinin mənafe və tələbatının əks etdirilməsini və bunların praktik fəaliyyətdə reallaşmasını nəzərdə tutur. Kommunikasiya funksiyası müxtəlif sosial birliklərin əhval-ruhiyyəsinin xüsusiyyətlərini, ən mühüm məsələlərə dair ictimai rəydə baş verən dəyişikliklərə dərhal və dəqiq münasibət bildirməyi səciyyələndirir.

Siyasi elitanın yerinə yetirdiyi digər əhəmiyyətli funksiya **təşkilatçılıq funksiyası** hesab olunur. Bu funksiya iş-

lənib hazırlanmış xəttin siyasi praktikada reallaşmasını, siyasi qərarların həyatda təcəssümünü nəzərdə tutur. Siyasi elitanın ən mühüm funksiyalarından biri də **inteqrativ funksiyadır**. O sabitliyin möhkəmlənməsinə, siyasi və iqtisadi sistemin təkmilləşməsinə nail olmağa, eləcə də münaqişələrə, kəskin qarşıdurmaya, siyasi strukturun dəyişməsinə yol verməməyə istiqamətlənir. İnteqrativ funksiyanın başılca vəzifəsi siyasi qüvvələrin sabit tarazlığını, inteqrativ prosesin genişlənməsini təmin etmək, əhalinin müxtəlif təbəqələrinin birliyi və ahəngdarlığına nail olmaqdır.

## 2. Elitaların təsnifatı

Siyasi elm elitanın müxtəlif əlamətlərinə görə təsnifatını nəzərdən keçirir. Elita tərkibinə görə rəngarəng olduğu üçün onun tipologiyası da müxtəlifdir. Adətən politoloqlar **hakimiyyətə münasibətə** görə elitaları iki qrupa (hakim və kontrelita) bölürlər. Hakim elita hökumətin fəaliyyətində bu və ya digər dərəcədə rol oynayan fərdlərdən, kontrelita isə cəmiyyətin elita təbəqəsinin idarəçilik üçün kifayət qədər peşə hazırlığı olan, lakin sosial statusu və digər maneələr üzündən rəhbərliyə cəlb olunmamış hissəsindən ibarətdir.

**Səlahiyyətin səviyyəsinə** münasibətə görə isə elitalar ümummilli (yüksək), regional (orta) və inzibati bürokratik elitalara bölünür. Ümummilli elita özündə aparıcı siyasi rəhbərləri, qanunverici, icraedici və məhkəmə hakimiyyətində çalışan yüksək vəzifəli şəxsləri (prezident, baş nazir, spikerin bilavasitə əhatəsində olanlar və s.) birləşdirir. Yüksək elita azlıq təşkil edən insanlardan (100-200 nəfər)

ibarətdirsə, orta siyasi elita seçkili vəzifəli şəxslərin çoxsaylı böyük dəstəsindən (parlament üzvləri, senatorlar, qubernatorlar, merlər, siyasi partiyaların və ictimai-siyasi hərəkatların liderləri, seçki dairələrinin rəhbərləri və s.) formalaşır. İnzibati (bürokratik) elitanı nazirlik, departament və dövlət idarələrinin digər orqanlarında yüksək mövqe tutan dövlət qulluqçuları təşkil edir.

Siyasi ədəbiyyatda elitaların **formalaşma mənbələrinə** görə də təsnifatı (tipləri) mövcuddur:

- irsi elita (əsasını aristokratiya təşkil edir);
- nüfuz elitası (cəmiyyətdə yüksək ictimai nüfuz və ya dövlət mövqeyi tutan insanlar);
- hakimiyyət elitası (hakimiyyətə malik olan insanlar);
- funksional elita (peşəkarlar və idarəetmə orqanlarında çalışanlar).

Siyasi ədəbiyyatda V.Paretonun təsnifatı da diqqəti cəlb edir. Onun təsnifatında **«pələng və tülkü»** elitası fərqləndirilir. Pələng elitası üçün cəsurluq, tülkü elitası üçün hiyləgərlik səciyyəvidir. Pələng elitasının üstünlük təşkil etdiyi cəmiyyətlərə qətiyyətlilik, tülkü elitası üçün isə diribaşlıq, dəyişkənlik xasdır. Tülkü elitası hakimiyyəti təbliğat vasitəsilə qorumaq metodlarını seçirsə, əksinə, pələng elitası zora, gücə üstünlük verir.

Elitanın **kompleksləşmə üsuluna** görə də təsnifatı mövcuddur. Buna uyğun olaraq açıq və qapalı elita fərqləndirilir. Birinci halda elita cəmiyyətin bütün qrup və təbəqələrindən çıxmış peşəkarların üzünə açıq olur. Digərində isə elita cəmiyyətin digər təbəqələrinin üzünə qapalı

olur və öz sıralarından çıxanlar hesabına yenilənir.

**İfadə edilən maraqlar baxımından** da elitaların təsnifatı mövcuddur. Təsnifata əsasən peşəkar, demoqrafik, etnik, dini və s. elita tipləri fərqləndirilir.

Elitanın **təmsilçilik dərəcəsinə** görə təsnifatı da maraq doğurur. Təsnifata uyğun olaraq onun aşağıdakı tipləri göstərilə bilər:

- sabit demokratik elita. Onu yüksək təmsilçilik və qrupdaxili inteqrasiya fərqləndirir;
- iqtidar elitası. Ona təmsilçiliyin aşağı səviyyəsi və qrupdaxili inteqrasiyanın güclü olması xasdır;
- inteqrasiyasız elita. Onun səciyyəvi cəhəti həm təmsilçiliyin zəif olması, həm də qrupdaxili inteqrasiyanın inkişaf etməməsidir.

Siyasi elitanın tam əhatəli səciyyələndirilməsi onun seçilməsi və eləcə də formalaşması mexanizmi ilə şərtlənir. Bunsuz siyasi elita haqqında təsəvvür yarımçıq, birtərəfli olardı. Cəmiyyətdə elitanın seçilməsinin gildiya və antreprener sistemi müəyyən amillərdən (siyasi sistemin təbiəti, idarəçilik forması, milli tarixi ənənələr və s.) asılıdır. Elitanın seçilməsinin antreprener (açıq) və gildiya (qapalı) sistemləri maraq doğurur.

Antreprener sistem üçün açıqlıq, vəzifəyə – namizədlərə azsaylı formal tələblərin qoyulması, selektoratın böyüklüyü, seçimin yüksək rəqabətliliyi, idarəetmə strukturlarına seçimin ciddi müsabiqə əsasında aparılması, şəxsi keyfiyyfətlərin öndə durması, gildiya sistemi üçün isə qapalılıq, seçim prosesinin yüksək dərəcədə təsisatlaşdırılması, vəzifə tutmaq üçün çoxsaylı tələblərin qoyulması (lüzum-

suz tələblər sisteminin mövcudluğu), elitaya namizədlər seçən sosial bazanın məhdud dairəsi, elitanın yeniləşmək, daha enerjili qüvvələr hesabına keyfiyyət dəyişikliyinə uğramaq imkanlarının olmaması və ya onun mühafizəkar xarakteri və s. xüsusiyyətlər səciyyəvidir.

## 3. Müasir elita nəzəriyyələri

Müasir elita nəzəriyyələri XIX əsrin sonu XX əsrin əvvəllərində meydana gəlmişdir. Bu nəzəriyyələrin yaranmasında italyan sosioloq və politoloqları V.Pareto, Q.Moska və digərlərinin böyük rolu olmuşdur. V.Pareto «Ümumi sosiologiya haqqında traktat» (1915-1919) əsərində elita təlimini şərh etmiş və elitanın dövretməsi nəzəriyyəsini əsaslandırmışdır. Onun fikrincə, elita cəmiyyətin aşağı təbəqələrindən yaranır, mübarizə nəticəsində cəmiyyətin yüksək təbəqəsinə çevrilir, əhatə dairəsi genişlənir və nəhayət, tənəzzül edərək yox olur. Bunun sayəsində elitalar fasiləsiz olaraq bir-birini əvəz edir. V.Pareto bir-birini növbə ilə əvəz edən iki elita tipini göstərir. Bu elitalardan birini «pələng» və ya «şir», digərini isə «tülkü» tipi adlandırır.

V.Pareto elitanı hakim və kontrelita kimi iki qrupa bölür. Hakim elita hökumətin fəaliyyətində bu və ya digər dərəcədə rol oynayan fərdlərdən ibarətdirsə, kontrelita isə sosial statusu və digər maneələr səbəbindən idarəçiliyə cəlb olunmamış hissəsindən ibarətdir.

Q.Moskanın təlimində siyasi sinif anlayışının tədqiqi geniş yer tutur. O «Hakim sinif» adlı əsərində (1896) cəmiyyətin iki sinfə (hakim siyasi sinif-elita və idarə olunan

sinif), iki qeyri-bərabər hissəyə bölünməsi haqqında konsepsiya işləyib hazırlamışdır. Q.Moska göstərir ki, elita qanuni və qanunsuz vasitələrlə hakimiyyəti saxlayır, öz inhisarına alır. Elita hakimiyyəti o zaman itirir ki, kütlə artıq onun ideya və siyasətini qəbul etmir. Siyasi səhnəyə – hakimiyyətə iddialı yeni siyasi qüvvə çıxır. Bu halda sosial qruplar və təbəqələr arasında hakim mövqe uğrunda mübarizə kəskinləşir.

Elitarizm təliminin inkişafında R.Mixelsin «Oliqarxiya meyllərinin dəmir qanunu» adlandırdığı postulatının böyük rolu olmuşdur. Onun mahiyyəti belədir: demokratiya özünü qoruyub saxlamaq və müəyyən sabitliyə nail olmaq üçün xüsusi təşkilat yaratmağa möhtacdır, bu isə fəal azlığın – elitanın yaranmasına gətirib çıxarır. Kütlələr böyük təşkilatlar üzərində bilavasitə nəzarəti həyata keçirmək imkanlarına malik olmadığından bu səlahiyyətin həyata keçirilməsini elitaya etibar etməyə məcburdur. Beləliklə, demokratiya mütləq oliqarxiyaya çevrilir. Çünki rəhbərliyin səmərəliliyini artırmaq məqsədilə xüsusi orqanlar yaradan və ixtisaslaşan elita tədricən sadə üzvlərin nəzarətndən çıxır, onların mənafe və tələbatından uzaqlaşır, siyasəti bilavasitə öz mənafeyinə tabe edir. Mixelsin gəldiyi nəticə bundan ibarətdir ki, nə qədər demokratik olsa da, bir təşkilata faktik olaraq oliqarxiya rəhbərlik edir.

V.Pareto, Q.Moska və R.Mixelsin elita konsepsiyaları sonralar cəmiyyəti və dövləti idarə edən və ya idarə etmək iddiasında olan xüsusi qrupun nəzəri və empirik tədqiqinin genişlənməsinə güclü təkan vermişdir. Hazırda elita problemi ilə bağlı müxtəlif nəzəriyyələr (makiavelli

məktəbi, dəyərlər nəzəriyyəsi, elitaların plüralizm nəzəriyyəsi, sol liberalizm nəzəriyyəsi və demokratik elitarizm nəzəriyyəsi) yaranmışdır.

Makiavelli (onun ən qabaqcıl nümayəndəsi C.Bernxemmdir) məktəbinin başlıca xüsusiyyətləri aşağıdakılardır:

- elitanın dövləti idarəetməyə əsas verən xüsusi keyfiyyətlərə malik olması;
- hər hansı cəmiyyətin elitarlığının, yəni yaradıcı azlığa və passiv çoxluğa bölünməsinin qəbul edilməsi;
- elitanın hakimiyyət uğrunda mübarizədə formalaşması və dəyişməsi;
- elitanın qrup halında birləşməsi və onun cəmiyyətdə hakim, konstruktiv rol oynaması və s.

Müasir elita nəzəriyyəsinin xüsusi qolunu dəyərlər (sərvət) nəzəriyyəsi təşkil edir (V.Ropke). Bu nəzəriyyəyə görə elita özünün həyata keçirdiyi hakim funksiya əsasında birləşir. Bu nəzəriyyənin başlıca müddəaları aşağıdakılardır:

- elitanın formalaşması hakimiyyət uğrunda mübarizənin deyil, daha qiymətli (dəyərli) nümayəndəlrin təbii seçilməsinin nəticəsidir;
- elita-kütlə münasibətləri siyasi, sosial, ağalıq xarakteri daşımır, kütlə hakimiyyətə könüllü tabe olur;
- elitarlıq hər hansı cəmiyyətin səmərəli fəaliyyətinin şərtidir;
- elitaya aid qabiliyyətlərin mühüm fəaliyyət sahələrində yüksək göstəricilərin olması ilə müəyyən edilməsi;

Müasir dövrdə ən geniş yayılmış elita nəzəriyyələrindən plüralist (bu nəzəriyyə funksional nəzəriyyə də adla-

nır) (S.Keller) və sol liberalizm (H.Lassuel, R.Mills) nəzəriyyələrini göstərmək olar. Bu nəzəriyyələrin səciyyəvi xüsusiyyətlərini müqayisə əsasında nəzərdən keçirək: elitanın plüralizm nəzəriyyəsinə görə siyasi elita funksional elita kimi qiymətləndirilir. Sol liberalizm konsepsiyasına görə yüksək fərdi keyfiyyətlər elitanın yaradıcı əlaməti deyil, yüksək vəzifə, komanda mövqelərinin olması əsasdır. Plüralizm nəzəriyyəsi elitanın vahid, imtiyazlı, nisbətən birləşmiş, qrup xarakterini inkar edir. Sol liberalizm nəzəriyyəsi isə hakim elitanın qrup halında birləşməsi və rəngarəng tərkibli olması ilə şərtlənir. Plüralizm nəzəriyyəsində elita ilə kütlə arasında münasibətlər təmsilçilik münasibətlərinə əsaslanır. Digər nəzəriyyə isə elita ilə kütlə arasında dərin fərqlərin olması ilə seçilir və bu ağalıq tabeçilik münasibətləri ilə səciyyələnir. Plüralizm nəzəriyyəsi əsaslandırır ki, müasir demokratiyalarda elita daha bacarıqlı və maraqlı şəxslərdən təşkil olunur və onlar elitaya sərbəst daxil ola bilər. Sol liberalizm nəzəriyyə isə elitanın əsasən öz mühitindən sesilməsi ilə fərqlənir. Elitanın pluralizm nəzəriyyəsinə görə demokratik cəmiyyətlərdə elita idarəetmə ilə bağlı mühüm ictimai funksiya həyata keçirirsə, sol liberalimz nəzəriyyəsinə görə elitanın əsas funksiyası cəmiyyətdə öz ağalığını təmin etməsidir və s.

Müasir elita nəzəriyyələri içərisində demokratik elitarizm nəzəriyyəsi də xüsusi əhəmiyyət kəsb edir. Bu nəzəriyyənin məzmunu İ.Şumpeterin adı ilə bağlılıq kəsb edir. Bu nəzəriyyə üçün ümumi cəhət ondan ibarətdir ki, seçki kampaniyası dövründə hakimiyyətə rəhbərlik uğrunda rəqabət mübarizəsi demokratik xarakter daşıyır. Söhbət siyasi elitanın əldə etdiyi üsuldan (seçkilərdə xalq tərəfin-

dən müdafiə olunması uğrunda mübarizədən) və elitanın öz siyasi taleyinin sıravi vətəndaşlardan asılılığını dərk etməsindən gedir.

Demokratik elitarizm nəzəriyyəsinin əsas müddəalarına görə demokratiya elitanı inkar etmir, yalnız onun formalaşmasının yeni üsul və formalarını nəzərdə tutur.

Demokratik elitarizm nəzəriyyəsində elita liberal-demokratik sərvətlərin müdafiəçisi kimi nəzərdən keçirilir. Demokratik elitarizm nəzəriyyəsi müasir demokratik cərəyanlarda üstün rol oynayır.

**Yoxlama xarakterli suallar**

1. Elita nəzəriyəsinə görə hakimiyyətin subyektini göstərin.
2. Siyasi elm elitanın meydana gəlməsi və mövcudluğunu şərtləndirən başılca amilləri necə müəyyənləşdirib?
3. Hansı mütəfəkkir elitanın dövr etməsi nəzəriyyəsini əsaslandırmışdır?
4. Makiavelli məktəbinin başlıca xüsusiyyətlərini göstərin.
5. Dəyərlər nəzəriyyəsinin başlıca xüsusiyyətlərndən birini göstərin.
6. Elitanın sesilçməsi formalarını və sistemlərini göstərin.

## VI mövzu
## Siyasi liderlik

1. Liderliyin mahiyyəti və məzmunu
2. Siyasi liderliyin tipologiyası və funksiyaları
3. Liderlik haqqında müasir nəzəriyyələr

### 1. Liderliyin mahiyyəti və məzmunu

«Lider» ingilis dilindən tərcümədə öndə gedən, aparıcı (qabaqcıl) deməkdir. Liderin meydana çıxması və fəaliyyəti obyektiv və universal hadisə olması ilə seçilir. Liderə ehtiyac ona görə obyektivdir ki, insanların hər cür birgə fəaliyyəti təşkilatçılıqdan, qarşıya qoyulan məqsədlərə çatmağın səmərəli yollarından asılıdır. Liderin fəaliyyətinin universallığı onunla şərtlənir ki, insanların, qrupların və təşkilatların birgə fəaliyyətinin bütün növləri liderə ehtiyac duyur. Çünki ictimai həyatın müxtəlif sferalarını lidersiz təsəvvür etmək çətindir. Lider o şəxsdir ki, fəaldır, ona rəğbət bəslənilir, başqalarını idarəetmək qabiliyyəti və səviyyəsi ilə fərqlənir. Mənsub olduğu qrupun, kollektivin, birliyin fəaliyyət proqramını müəyyənləşdirməyi bacarır və insanları öz ardınca aparmaq qabiliyyətinə malikdir.

Siyasi fikir tarixində ayrı-ayrı mütəfəkkirlər liderlik nəzəriyyəsini izah etməyə çalışmışlar. Liderlik hadisəsinin dərk edilməsində N.Makiavellinin xüsusi xidməti olmuşdur. Onun fikrincə, lider rolunu hakimiyyəti əldə, insanları isə itaət altında saxlamaq üçün bütün vasitələrdən istifadə etməyi bacaran hökmdar oynaya bilər. N.Makiavelli

göstərirdi ki, bunun üçün həmin şəxsin siyasi davranışında qəddarlıqdan tutmuş insanları aldatmağa qədər çox müxtəlif üsullar uğurla tətbiq oluna bilər.

Liderlik nəzəriyyəsinin inkişafında F.Nitsşenin (1844-1890) ali bioloji tip – fövqəlinsan konsepsiyasının xüsusi rolu olmuşdur. Fövqəlinsan bioloji növ kimi insanın təkamülünün yüksək pilləsini əks etdirir. F.Nitsşe liderliyi «hakimiyyətə can atma» vasitəsilə müəyyən edir. Onun bu xüsusiyyəti hakimiyyət ehtiraslarında təzahür edir.

Z.Freydin (1856-1934) təlimində isə liderlik hadisəsinin səbəbləri psixoanaliz kontekstində araşdırılmışdır. Onun fikrincə, sivilizasiyanın inkişafı insanın təhtəlşüur ehtiraslarının nəticəsidir. Bu da onun başqaları üzərində ağalıq etmək ehtirasının üstün rol oynamasına şərait yaradır.

Müasir politologiyada siyasi liderliyin mahiyyətini aydınlaşdırmaq üçün «lider» və «liderlik» anlayışlarının tədqiqinə xüsusi diqqət yetirilir. Lider başqalarına təsir etmək qabiliyyətinə malik olan və müvafiq toplumu istiqamətləndirməyə qadir olan bir şəxs kimi qiymətləndirilir.

«Liderlik» anlayışı «lider» anlayışı ilə sıx bağlıdır. Liderlik liderlə tabelikdə olanın qarşılıqlı fəaliyyətinin mürəkkəb mexanizmini səciyyələndirir. Bu anlayışın başlıca tərkib hissəsini aşağıdakılar təşkil edir: şəraiti dəqiq qiymətləndirmək qabiliyyəti, qarşıda duran vəzifələrin həlli yollarını düzgün müəyyənləşdirmək, hər hansı qərarın yerinə yetirilməsi naminə insanların düşüncə və fəallığına təsir göstərmək, onları səfərbər etmək, idarə olunanların liderin qəbul etdiyi qərarları, verdiyi göstərişləri bəyənməsi və onu fəal müdafiə etməsi, idarə edilənlərin

liderə şüurlu və könüllü tabeçiliyi və s. Liderlik liderlə bu və ya digər qrupun üzvləri arasında xüsusi mexanizmə malik olan qarşılıqlı fəaliyyətdir. Deməli, liderlik geniş anlayışdır. O insanların birgə fəaliyyətinin obyektiv qanunauyğunluğudur. J.Blondelə görə liderlik millətin üzvlərini fəaliyyətə yönəltmək üçün bir nəfər və ya bir neçə fərd tərəfindən həyata keçirilən hakimiyyətdir. V.Kats və L.Gdinkerə görə liderlik başqa insanlara təsir göstərməkdir. V.Puqaçev və A.Solovyevə görə liderlik idarəetmə statusu, sosial mövqedir.

Lider və liderlik anlayışlarından çıxış edərək siyasi lider və siyasi liderlik anlayışının nisbətinə diqqət yetirək. Güclü siyasi lider, dahi siyasi xadim sadəcə olaraq siyasi proseslərə rəhbərlik edən, cəmiyyətin idarə olunması funksiyasını yerinə yetirən, siyasi təşkilatları və hərəkatları öz ardınca aparan şəxs deyil. O hər şeydən əvvəl tarixin gedişini kökündən dəyişdirməyə, siyasi prosesləri istiqamətləndirməyə qadir olan insandır. Siyasi liderlik siyasi lider anlayışı ilə əlaqəlidir. O hakimiyyətin reallaşmasının mexanizmi və konkret üsulları olub liderliyin yüksək səviyyəsini əks etdirir. O siyasətin subyekti və obyekti arasındakı hakimiyyət münasibətlərini müəyyənləşdirir. Siyasi liderlik çoxcəhətli anlayışdır, lakin onun üç cəhəti (liderin malik olduğu şəxsi keyfiyyətlər, onun rastlaşdığı şərait və liderin malik olduğu vasitələr) müəyyənedicidir.

Liderliyin təbiəti, fəaliyyət mexanizmi mürəkkəb və çoxcəhətlidir. Tarixi-siyasi təcrübə təsdiq edib ki, ölkəni peşəkar siyasi liderlər idarə edəndə dövlət daha qüdrətli olur. Güclü siyasi lider cəmiyyəti böyük çətinliklərdən xilas olmağa kömək edən siyasi və iqtisadi xarakterli tarixi

proqramların təşəbbüsçüsü kimi çıxış edir. Atatürk, T.Ruzvelt, Trumen, Stalin, Ş.De Qoll, H.Əliyev və b. məhz belə siyasi liderlər olmuşlar. F.Trumen fövqəladə ağıla və başqalarının rəyini nəzərə almaq qabiliyyətinə malik olan siyasi lider olmuşdur (R.Takker). T.Ruzvelt sanballı mütəxəssislərdən ibarət olan «Komanda», özünəməxsus beyin mərkəzi yaradan ilder olmuşdur. Stalin qeyri-adi qabiliyyətə və təfəkkürə, habelə praktik məsələlərin mahiyyətini əxz etmək bacarığına malik siyasi lider olmuşdur (K.Xell). Atatürk öz ölkəsinin yalnız siyasi suverenlik uğrunda yorulmaz mübarizi deyil, həmçinin iqtisadi müstəqilliyə doğru yönəlmiş hərəkata başçılıq edən güclü siyasi lider olmuşdur (P.Moiseyev).

Siyasi lider daimi və üstün xarakterə malik olur. O vətəni üçün xalq və cəmiyyət qarşısında sosial məsuliyyət hissini dərk edən, təşkilatçılığı, işgüzarlığı, mübarizliyi və möhkəm xarakteri ilə seçilən, şəraitdən asılı olaraq xalqının mənafeyi naminə qətiyyətli addımlar atmağı bacaran şəxsdir. Müqayisə əsasında deyilənləri təhlil edək. H.Kol tarixə vahid mədəniyyəti, ənənələri, tarixi olan alman xalqının milli birliyini bərpa edən siyasi lider kimi daxil olmuş və vahid Almaniyanın qərarlaşması üçün çox iş görmüşdür. M.Tetçer isə xalq kapitalizmi proqramı ideyasını reallaşdırmağa nail olmuş və nəticədə Britaniya Avropanın xəstə cəmiyyətindən Qərbin inkişaf etmiş ölkələri səviyyəsinə çatmışdır. Atatürk XX əsrin əvvəllərində türk millətinin xilaskarı kimi tarixə düşmüş lider hesab olunur. T.Özal Türkiyənin qapılarını dünyaya açmaq və ölkənin mənafeyini nəzərə alan «dövlət siyasəti»ni həyata keçirməklə bu dövləti həm Avropada, həm də Asiyada inkişaf

etmiş, demokratik ölkələrdən birinə çevirmək sayəsində güclü siyasi lider kimi rəğbət qazanmışdır. H.Əliyev Azərbaycanı parçalanmaqdan xilas etmiş, onun müstəqilliyini qoruyub saxlamış, siyasi sabitliyi təmin etmiş, bir sözlə, xalqın yaddaşında ümummilli lider kimi əbədiləşmişdir. Sabiq Fransa prezidenti Ş.De Qoll isə yüksək intuisiyaya malik olan siyasi lider idi.

Göründüyü kimi siyasi liderin məharəti ictimai inkişafın mərhələlərinə uyğun olaraq insanların siyasi həyatda iştirakı formalarını müəyyənləşdirmək bacarığında ifadə olunur.

Liderliyin mahiyyəti və məzmunu barədə müxtəlif, bir-birindən fərqli olan çoxsaylı baxışları ümumiləşdirməklə liderliyə aşağıdakı tərifləri vermək olar:

- liderlik fərdin başqalarına təsiridir;
- liderlik siyasi qərarların qəbul edilməsi ilə bağlı funksiya, rəhbər vəzifədir;
- liderlik hakimiyyət hadisəsidir;
- liderlik xüsusi növ sahibkarlıqdır.

Liderliyin məzmunu və təbiəti ilə bağlı müxtəlif baxış və təsəvvürlərin təhlilinə əsasən belə nəticəyə gəlmək olar ki, liderliyin qərarlaşmasında iki qrup amil (liderlik funksiyasını yerinə yetirən şəxsin fərdi keyfiyyətləri; sosial rolların və mövqelərin mürəkkəb sistemi kimi çıxış edən cəmiyyətin fəaliyyət xüsusiyyətləri) iştirak edir. Bu amillər bir-biri ilə sıx əlaqədə fəaliyyət göstərir və liderliyin iki dərəcəsini müəyyənləşdirir:

- bu və ya digər sosial rolun yerinə yetirilməsi ilə əlaqədar subyektiv fəaliyyət;

• hakimiyyətə malik olmaqla bağlı formal vəzifə statusu.

Liderliyin bu iki dərəcəsinin nisbəti və qarşılıqlı fəaliyyəti müvafiq sosial orqanizmin təbiətindən və sosial rolların iyerarxik sisteminin mürəkkəbliyindən asılıdır. Sosial rolların təsisatlanması dərəcəsi liderliyin formal və qeyri-formal anlayışlarını müəyyənləşdirir. Formal liderlik fərdin ictimai iyerarxiyada mövqeyindən çıxış edərək mövcud normalar və qaydalar çərçivəsində qrupun üzvlərinə təsir göstərməsidir. O liderlik funksiyasını yerinə yetirməyə imkan verən təsisatlara, normalara və gücə arxalanır. Qeyri-formal liderlik lider funksiyasını yerinə yetirməyə yönəlmiş, subyektiv meylləri və keyfiyyətləri, digər tərəfdən isə qrup üzvləri tərəfindən liderin cəmiyyətdə rəhbərlik hüququnu qəbul etməyə hazır olmasını əks etdirir.

Siyasi lider bir sıra səciyyəvi cəhətlərə malikdir. Bu səciyyəvi cəhətləri aşağıdakı kimi nəzərdən keçirək.

• sosial qrupların maraqlarına cavab verən aydın siyasi proqramın olması;

• siyasi iradə, məsuliyyəti öz üzərinə götürməyə hazır olması;

• iti ağıl və siyasi intuisiya;

• təşkilatçılıq istedadı və natiqlik və s.

## 2. Siyasi liderliyin təsnifatı və funksiyaları

Siyasi ədəbiyyatda liderlik anlayışının müxtəlif meyarlara əsaslanan təsnifatı nəzərdən keçirilsə də belə yanaşmalar şərti xarakter daşıyır.

Liderliyin tipologiyasının geniş yayılmış təsnifatı M.Veberin təlimi ilə bağlı olan **hakimiyyətin legitimləşdirilməsi üsulları** ilə əlaqədardır. Bəzi tədqiqatçılar bunu **avtoritetin sosial təbiətinə** görə nəzərdən keçirirlər. Bu üsula əsasən liderləri ənənəvi (ənənələrin gücünə əsaslanır), harizmalı (qeyri-adi istedad və keyfiyyətlər, inama əsaslanır), rasional-leqal (legitim) (demokratik prinsiplər əsasında idarə edən lider) liderlərə bölmək olar. Müqayisələr nəticəsində belə qənaətə gəlmək olur ki, birinci tip liderliyin əsasında ənənələr, ikincidə şəxsin qeyri-adi istedadı, üçüncüdə qanunun aliliyi, hüququn üstünlüyünə inama əsaslanması durur.

Siyasi liderliyin təsnifatında digər meyar **rəhbərin öz tabeçiliyindəkilərə münasibətinə görə** müəyyənləşdirilir. Bu baxımdan **avtoritar** və **demokratik** liderlik nəzərdən keçirilir. Adətən avtoritar lider sanksiyaya və güc tətbiqinə əsaslanmaqla yekcins təsiri nəzərdə tutduğu halda, demokratik lider insanların ləyaqətinə hörmət bəsləyir, onların fəaliyyəti üçün maksimum imkanları stimullaşdırır. Əgər avtoritar lider öz fəaliyyətində tənqidə yol vermirsə və təkbaşına istiqamətverici təsirə üstünlük verməklə kütləni özünə tabe etməyə çalışırsa, bunun əksi olaraq demokratik liderlər tənqiddən ehtiyat etmir, əməkdaşlıq və mənafelərin ümumiliyi üçün şərait yaradır.

Siyasi liderliyin təsnifatı üçün ümumiləşdirici meyarlardan biri **onun qarşıya qoyduğu məqsəd və cəmiyyətə göstərdiyi təsirdir**. Bu meyarla əlaqədar Amerika politoloqu R.Takker siyasi liderin üç tipinin **(mühafizəkar, islahatçı və inqilabçı)** mövcudluğunu əsaslandırır. Mühafizəkar liderlərin mövqeyi cəmiyyətdə status kvonu (mövcud və ya

əvvəlki vəziyyəti) qoruyub saxlamaqdan ibarətdirsə, islahatçı liderlər iri miqyaslı islahatlar aparmaq yolu ilə ictimai quruluşun, hər şeydən əvvəl isə hakimiyyət strukturlarının köklü surətdə dəyişdirilməsinə cəhd edirlər. İnqilabçı liderlər isə prinsip etibarı ilə başqa ictimai sistemə keçməyi qarşıya məqsəd qoyurlar.

Siyasi liderliyin **fəaliyyət miqyasına** görə təsnifatı da (ümumi maraqlara malik olan kiçik qrup insanların lideri; ictimai hərəkatın lideri; ümumilli lider) nəzərdən keçirilir. **Kiçik qrupun lideri** qrupda ən nüfuzlu şəxs adını o zaman qazanır ki, qrup üzvləri məhz onu seçir və qiymətləndirir. Bu işdə liderin şəxsi keyfiyyətləri də əvəzedilməz rol oynayır. **İctimai hərəkatın lideri** isə onunla fərqlənir ki, konkret sosial təbəqələr öz maraqlarının təmin edilməsi imkanlarını məhz onunla əlaqələndirirlər. Bu cür lider ictimai rəyə həm özünün şəxsi keyfiyyətləri ilə, həm də onu dəstəkləyən qrupların ona böyük etimadı sayəsində təsir göstərir. **Ümummilli lider** bütövlükdə cəmiyyət və hakimiyyət münasibətləri sistemində fəaliyyət göstərən güclü siyasi xadimdir. Bu halda siyasi liderlik sosial təsisat kimi çıxış edir.

Siyasi liderliyin tipologiyasında **liderin rolu və imicinə (liderlik stilinə)** əsaslanan təsnifat (lider bayraqdar; lider xidmətçi; lider tacir; lider yanğınsöndürən) da nəzərdən keçirilir. **Lider bayraqdarı** (yaxud böyük insan) digərlərindən fərqləndirən xüsusiyyətlər bunlardır: gerçəkliyin özünəməxsus şəkildə dərk edilməsi, kütlələri ardınca apara biləcək cəlbedici ideal və arzu. Adətən belə lider məqsədləri müəyyənləşdirir və tərəfdarlarını öz ardınca aparır. **Lider xidmətçi** öz tərəfdar və seçicilərinin maraqlarının

ifadəçisi kimi çıxış edir, onların istək və arzularını rəhbər tutur və onların adından fəaliyyət göstərir. **Lider tacirin** qabiliyyətini nəzərə alaraq tərəfdarları onun ideyalarını mənimsəməyə məcbur olur və bu ideyaların həyata keçirilməsinə cəlb olunurlar. Belə halda həmin liderin təbiəti ictimai münasibət kimi nəzərdən keçirilir. **Yanğınsöndürən** obrazını həyata keçirən lider isə situasiyanın doğurduğu hadisələrə dərhal reaksiya (qiymət) verməyi bacarmalıdır. Siyasi praktikada bu obrazlara siyasi xadimlərin fəaliyyətində müxtəlif səviyyələrdə rast gəlinir.

Politoloqlar bəzən liderlərin **psixoloji davranış stili** ilə bağlı təsnifatı (paranoidal, nümayişkaranə və ya demonstrativ, kompulsiv, depressiv, şizoidal) da nəzərdən keçirirlər. Adətən **paranoidal lider** başqa insanlara şübhə ilə yanaşır, onları bizimkilər və qeyri-bizimkilərə bölür. Onda hakimiyyət hərisliyi güclüdür. Digər liderləri sıxışdırmağa çalışır. **Nümayişkaranə** lider özünü nümayişə meyillidir, daim diqqət mərkəzində olmağa çalışır, tərifdən xoşlanır, lakin tənqidi qəbul etmir. **Kompulsiv lider** isə hər işi yüksək səviyyədə görməyə çalışır, qaydalara sözsüz əməl edir, fəaliyyətdə çevik deyil, heç vaxt kompromisə getmir. **Depressiv lider** adətən güclü siyasətçilərə qoşulur, çünki müstəqil və aparıcı rol oynamağa qadir deyil və çox vaxt həyatdan geri qalır. **Şizoidal lider** ehtiyatlıdır, kənar müşahidəçi mövqeyinə üstünlük verir və yüz ölçüb bir biçir ki, öz seçimində səhvə yol verməsin.

Siyasi ədəbiyyatda liderliyin digər təsnifatları da mövcuddur. Bu təsnifatlara görə liderləri iqtidar və müxalifətə, böhranlı və kortəbii, populist və uzaqgörən, formal və qeyri-formal, effektiv və qeyri-effektiv, opponentlərinə

münasibətinə görə razılaşanlar və fanatiklərə bölürlər.

Liderliyin tipologiyasının rəngarəngliyi liderlərin fəaliyyətinin geniş olması ilə əlaqədardır. Bu məsələlər liderin həyata keçirməli olduğu konkret situasiyadan da çox asılıdır. Liderin fəaliyyətinin qiymətləndirilməsində onun yerinə yetirdiyi funksiyalar mühüm rol oynayır. Siyasi ədəbiyyatda liderliyin mahiyyəti nöqteyi-nəzərindən bir sıra konkret funksiyalar nəzərdən keçirilir.

- **İnteqrasiya funksiyası.** Bu funksiya kütlənin birləşdirilməsini, ümumiyyətlə, cəmiyyətin inteqrasiyasını nəzərdə tutur. O cəmiyyətin bütövlüyü və sabitliyinin qorunmasına, vətəndaş sülhü və razılığının qərarlaşmasına istiqamətlənir.
- **Kommunikasiya funksiyası.** Bu funksiya insanların bütün mənafelərinin liderlərin siyasi bəyannamələri və proqramlarında, eləcə də praktik fəaliyyətlərində əks olunmasını ifadə edir. Adətən hakimiyyətin mürəkkəb və çoxpilləli iyerarxiyası zamanı bu funksiya xüsusi əhəmiyyət kəsb edir.
- **Optimal fəaliyyət proqramı hazırlamaq funksiyası.** Bu funksiyanın yerinə yetirilməsində adətən siyasi liderin malik olduğu şəxsi keyfiyyətlər, qətiyyət, enerji, zəka, cəsarət və s. böyük rol oynayır.
- **Sosial arbitraj və patronaj və ya sosial müdafiə.** Bu funksiya insanların qanunsuzluqlardan, bürokratiyanın özbaşınalığından müdafiəsinə istiqamətlənir və o, dolğun ifadəsini M.Veberin «plebistar rəhbər demokratiya» konsepsiyasında tapmışdır. Reallıqda sosial patronajlıq heç də həmişə gerçəkləşmir, lakin bununla belə «məzlumların

qoruyucusu», «el atası» kimi ideyalar insanlarda inam hissi doğurur. Liderlərə inam nəinki patriarxal siyasi mədəniyyətə malik dövlətlərin, həmçinin çoxəsrlik demokratik ənənələri olan ölkələrin də ictimai şüurları üçün xasdır.[1]

- **Təşəbbüskar, səfərbərlik, yenilikçi funksiya**. Kütlələrin siyasi məqsədlərin reallaşdırılmasına doğru səfərbər edilməsi. Bu qrupda bir-biri ilə sıx əlaqədə olan bir neçə funksiya birləşir. Lider xalqın ənənələrini qorumalı, yenilyi qəbul etməyi bacarmalı, cəmiyyətin tərəqqisi naminə çalışmalı, ən nəhayət, kütlələrdə ictimai ideal və dəyərlərə inam hissi yaratmalıdır.
- **Legitimliyin formalaşdırılması funksiyası**. Lider bu funksiyaya uyğun olaraq səmərəli tədbirlərin vasitəsilə legitim hakimiyyəti formalaşdırır.
- **Əlaqələndirmə funksiyası**. Bu funksiya hakimiyyətin bütün qollarının (qanunverici, icraedici və məhkəmə hakimiyyəti) və hakimiyyət strukturlarının fəaliyyətinin əlaqələndirilməsini özündə birləşdirir.

Cəmiyyətdə liderin fəaliyyətinin başlıca mərhələlərini qiymətləndirmək əsasında onun üç ümumi funksiyasını nəzərdən keçirmək olar:

- situasiyanın təhlilini və qiymətləndirilməsini nəzərdə tutan siyasi diaqnoz;
- sosial problemlərin həllinə xidmət edən fəaliyyət istiqamətinin və proqramının müəyyənləşdirilməsi;
- icraçıları məqsədlərin reallaşdırılmasına səfərbər etmək.

---

[1] Bax: Musabəyov R. Siyasi liderlik. B., 1999, s. 20

### 3. Liderlik haqqında müasir nəzəriyyələr

Siyasi liderliyə dair xeyli nəzəriyyələr mövcuddur. Bunlardan bəzilərinin mahiyyətini şərh edək.

- **Xüsusiyyətlər nəzəriyyəsi.** Bu nəzəriyyə ingilis psixoloqu F.Haltonun adı ilə bağlıdır. Bu nəzəriyyədə başlıca diqqət liderin şəxsi keyfiyyətlərinə yetirilir. Amerikan sosioloqu E.Boqardus qeyd edir ki, şəxsiyyəti lider edən başlıca keyfiyyətlər ağıl, enerji, möhkəm iradə, yüksək təşkilatçılıq qabiliyyətidir. Lider üçün lazım olan keyfiyyətlərin miqyası genişdir. Lakin bu keyfiyyətlərin siyahısını tutmaq çətindir. Bu nəzəriyyənin tərəfdarları liderlik xüsusiyyətləri kimi qeyd olunan 79 keyfiyyətin siyahısını tutmağa müvəffəq olmuşdur.
- **Situasiya nəzəriyyəsi.** Bu nəzəriyyənin müəllifləri amerikan politoloqları R.Stoqdil və T.Xilton hesab olunur. Bu nəzəriyyəyə görə lider şəraitdən asılı götürülür. Onlar liderliyi situasiyanın funksiyası kimi nəzərdən keçirir və onu liderin davranışı kimi izah edirlər. Belə ki, liderin davranışı bir situasiyaya uyğun gəlirsə, digərinə uyğun gəlməyə bilər. Situasiya nəzəriyyəsinə görə liderlik çoxcəhətlidir. Şəraitə görə bəziləri təşkilatçılıq işində, digərləri mitinq və nümayişlərdə, üçüncülər isə ideya-nəzəri fəaliyyət sahəsində liderlik keyfiyyətləri nümayiş etdirirlər.
- **Liderliyin motivasiya nəzəriyyəsi.** Bu nəzəriyyənin tərəfdarlarından S.Mitçel və S.Evans sübut etməyə çalışırlar ki, liderliyin səmərəliliyi onun öz ardıcıllarının motivasiyalarına, onların qarşıya qoyduqları məqsədlərin əməli surətdə yerinə yetirilməsi qabiliyyətinə, eləcə də icra edilən işdən məmnun olmaq hisslərinə təsir göstərməkdən asılıdır.

• **Mübadilə və transakt analizi nəzəriyyəsi.** Bu nəzəriyyənin müəllif və davamçıları olan C.Xomans, Q.Saymon, K.Cercem lideri, öz ardıcıllarının arzu və tələbatlarını hiss edən və onların gerçəkləşməsi yollarını göstərən bir şəxs kimi nəzərdən keçirirlər. Bu halda əsas diqqət prosesin emosional tərəfinə yönəlir.

• **Atributiv nəzəriyyə.** Bu nəzəriyyəyə görə lider ardıcılları tərəfindən hərəkətə gətirilir. Bu nəzəriyyə lideri öz ardıcıllarından birbaşa göstərişlər və hakimiyyəti alan «marionetka» kimi nəzərdən keçirir, yəni məhz tərəfdarları onu hərəkətə gətirirlər. Bu baxışlara əsasən lider qrupun məqsədlərini əks etdirir və onun adından fəaliyyət göstərir.[1]

• **Psixoloji nəzəriyyə.** Liderlik fenomeninin təhlil edilməsində bu nəzəriyyənin mühüm rolu olmuşdur. Bu nəzəriyyənin tərəfdarlarının fikrinə görə liderliyin meydana gəlməsi fərdlərin davranışını müəyyən edən insan psixikası ilə əlaqədardır (L.Bernard, Z.Freyd, T.Adorno).

Qeyd olunan nəzəriyyələrin ən böyük çatışmazlığı odur ki, onları praktikada tam tətbiq etmək olmur.

**Yoxlama xarakterli suallar**

1. M.Veberin nöqteyi-nəzərinə əsasən siyasi liderliyin hansı növlərini qeyd etmək olar?
2. Mütəfəkkirlərdən kimin təlimində liderlik hadisəsinin səbəbləri psixoanaliz kontekstində araşdırılmışdır?
3. N.Makiavelli liderlik hadisəsini necə nəzərdən keçirmişdir?
4. Mühafizəkar lider üçün başlıca xüsusiyyəti göstərin.
5. Ümummilli lider hansı lider hesab olunur?
6. Liderliyin təsnifatını verin.

---

[1] Bax: Musabəyov R. Siyasi liderlik. B., 1999, s. 14-15

# II bölmə
# Siyasi təsisatlar sistemi

## VII mövzu
## Siyasi sistem: nəzəri modellər və struktur ünsürləri

1. Siyasi sistemin mahiyyəti və nəzəri modelləri
2. Siyasi sistemin struktur ünsürləri və funksiyaları
3. Siyasi sistemin təsnifatına yanaşmalar
4. Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması

### 1. Siyasi sistemin mahiyyəti və nəzəri modelləri

Hər bir elmdə elə anlayışlar vardır ki, onlar həmin elmin tədqiqat obyektini öyrənmək üçün əhəmiyyətli rol oynayır. Siyasi elmdə mövcud olan belə anlayışlardan biri də siyasi sistemdir.

Siyasi sistem cəmiyyətin siyasi həyatının tarixi təkamülünün qanunauyğun prosesi kimi meydana gəlmiş və inkişaf etmişdir. Cəmiyyətin sosial-siyasi təbiətini, cəmiyyətdəki siyasi münasibətləri, təsisatları, normaları və hakimiyyətin təşkil olunması prinsiplərini açıqlamağa imkan verən siyasi sistem bütövlükdə sosial sistemin bir ünsürü, onun yarımsistemidir. Sosial sistem siyasi sistemin mövcudluğu üçün əsas yaradır və beləliklə onun formalaşması və fəaliyyət göstərməsi yollarını müəyyənləşdirir. Siyasi sistemə sosial sistemin elə ünsürləri daxil olur ki, onlar bir tərəfdən cəmiyyətdə siyasi idarəetmənin və sosial qrupların yanaşı mövcudluğunu təmin edir, digər bir tə-

rəfdən isə öz tələbat və mənafelərini reallaşdırmaq, sosial həyatda öz iştirakını genişləndirmək üçün sosial qruplara şərait yaradır. Cəmiyyətdə ictimai münasibətlərin və təsisatların müvafiq tiplərinin meydana gəlməsi və möhkəmlənməsi öz növbəsində siyasi sistemdə bir sıra dəyişikliklərə, onun yeni strukturlarının və qaydalarının yaranmasına səbəb olur ki, bunun da nəticəsində siyasi sistemin təsisatları və ünsürləri cəmiyyət həyatının bütün sahələrinə getdikcə daha çox təsir edir. Bunun da nəticəsində sosial sistemin normal fəaliyyəti təmin olunur. Ümumiyyətlə siyasi sistemin ən mühüm mənafe və əhəmiyyəti cəmiyyətin sosial-siyasi təbiətini, mövcud siyasi münasibətlərini, təsisatların, hakimiyyətin təşkili norma və prinsiplərinin məzmununu obyektiv təhlil etməkdə vasitə rolunu oynamaqdan ibarətdir.

Siyasi sistem öz dinamikliyi ilə seçilir və daim inkişaf edir. Müvafiq cəmiyyətin inkişaf səviyyəsi orada qərarlaşmış siyasi sistemin dəyişikliklərə olan reaksiyası, həmin prosesə uyğun surətdə dəyişilməsi ilə müəyyən olunur. Siyasi sistemin dinamikliyi ilk öncə mühafizəkar, islahatçı və inqilabi davranışların toqquşmasının məhsulu kimi xarakterizə edilir. Dəyişkənliyin tempi isə bu üç mövqenin hansının üstünlük təşkil etməsindən çox asılıdır. Bu şəraitə uyğun olaraq siyasi sistemin təkamülünün başlıca formaları kimi islahat yolunu, inqilabi prosesi və əksinqilabi hərəkatı göstərmək olar.

Siyasi sistemin qərarlaşmasına, onun xarakterinin müəyyənləşməsinə bir çox amillər təsir göstərir. Bu prosesdə əsasən iki qrup amilləri nəzərdən keçirmək olar: sosial-iqtisadi və coğrafi. Sosial-iqtisadi amillərin siyasi sis-

temə müəyyənedici təsiri aşağıdakılarla ifadə olunur: birincisi, cəmiyyətdə siyasi hakimiyyətin rolunun müəyyən olunmasında və paylanmasında, ikincisi isə ölkədə siyasi sabitliyin qərarlaşmasında.

Coğrafi amillərin siyasi sistemə təsiri də çoxşaxəlidir. Bu amillər içərisində ilk növbədə ölkənin ərazi miqyasını göstərmək olar. Dövlətin coğrafi hüdudları siyasi hakimiyyətin xarakterinə idarəçilik üsullarına – siyasi rejiminə əhəmiyyətli təsir göstərir. Coğrafi miqyas baxımından ərazisi nisbətən kiçik olan dövlətlərdə tətbiq olunan idarəçilik üsulu və formaları miqyas baxımından geniş əraziyə malik olan dövlətlərdə səmərəli ola bilməz. Ona görə də ərazi miqyasına görə optimal idarəetmə üsulunu və formalarını tətbiq etmək lazım gəlir.

Siyasi sistemin formalaşmasına dövlətin coğrafi vəziyyəti (geopolitik vəziyyəti), digər dövlətlərlə təmasının formaları da güclü təsir gsötərə bilər. Belə ki, əlverişli coğrafi məkanda yerləşən dövlətlərin vəziyyəti siyasi sistemin formalaşmasına həm müsbət, həm də mənfi təsir göstərə bilər. Çünki belə məkanda maraqların toqquşması bu prosesə öz təsirini göstərə bilir. Belə dövlətlər elə optimal idarəetmə üsulu və forması seçməlidirlər ki, siyasi sistemin qərarlaşmasına müsbət təsir göstərsin.

Müasir politoloji elmdə siyasi sistemin mövcudluq mexanizmini izah etmək üçün çoxlu sayda yanaşmalar vardır. Bu yanaşmalar içərisində təsisatlı, sistem, genetik, konkret-tarixi, substansional və s. göstərmək olar.

- Təsisatlı yanaşma – siyasi sistemi müəyyən təsisatların təşkil olunmuş fəaliyyəti kimi izah edir (dövlət, siyasi partiyalar və s.).

• Sistem yanaşma – siyasəti bir tam sistem kimi izah edir. Bu yanaşma siyasətin cəmiyyətin digər yarımsistemlərlə qarşılıqlı əlaqəsini, onlara təsirini, bir-birilə funksional asılılığını öyrənir.

• Genetik yanaşma – siyasi sistemin mövcud olmasının iqtisadi və sosial amillərlə izah edilməsi.

• Konkret-tarixi yanaşma – cəmiyyətin həyat fəaliyyətindən asılı olaraq, onun sosial-iqtisadi, sosial struktur, sosial mədəni, sosial-siyasi və hüquqi meyarlarını ayırır və siyasi sistemi bunların cəmi ilə izah edir.

• Substansional yanaşma – siyasi sistemin yaranmasının özəyini açmağa kömək edir və bu rolda hakimiyyət çıxış edir (substansiyanı müxtəlif elmlər müxtəlif cür qəbul edirlər. İqtisadiyyatda əmək, kimyada element, siyasi elmdə isə hakimiyyət).

Siyasi sistem nəzəriyyəsinin meydana gəlməsində Fon Bertalanfi (biologiya elmində) tərəfindən yaradılan «ümumi sistem nəzəriyyəsi» və T.Parsonsun «Sosial sistem nəzəriyyəsi» böyük rol oynamışdır. Siyasi sistemlər nəzəriyyəsi XX əsrin 50-ci illərində amerikan politoloqları D.İston, Q.Almond, K.Doyç və b. tərəfindən yaradılmışdır. D.İston «Sistemli yanaşma» (siyasi hakimiyyətin reallaşdırdığı siyasi təsisatların, sosial-siyasi birliklərin və onlar arasındakı qarşılıqlı əlaqə formalarının mürəkkəb şaxələnmiş məcmusu), Q.Almond «Funksional yanaşma» (dövlət və qeyri-dövlət təsisatlarının siyasi davranışının müxtəlif forması), K.Doyç isə «Kibernetik yanaşma» (idarə sistemləri, üsulları, formaları və vasitələri, yəni məqsədə doğru yönəlmiş hərəkətlərin maşınlarda, canlı

orqanizmlərdə və cəmiyyətdə təşkili və həyata keçirilməsi haqqında nəzəriyyə) modellərinin müəllifi sayılır.

D.İston «Siyasi sistem» (1953) əsərində siyasi sistemin mahiyyətini açmış və ilk dəfə olaraq sistem nəzəriyyəsi üçün mühüm əhəmiyyət kəsb edən «sistemə giriş və sistemdən çıxış» anlayışlarını elmi dövriyyəyə daxil etmişdir. D.İston siyasi sistemi xarici aləmdən daxil olan (sosial-mədəni mühit) impulslara (reaksiyalara) cavablar verən özünütənzimləyən orqanizm kimi səciyyələndirmişdir. D.İstona görə, siyasi sistemə xarici aləmdən, sosial-mədəni mühitdən müxtəlif impulslar (reaksiyalar) daxil olur. Bunların bir qismi siyasi sistemə tələblər və təkliflərlə bağlıdır (xidmət və nemətlərin bölünməsi sahəsində, davranışın nizamlanması ilə əlaqədar, sosial infrastrukturla bağlı, kommunikasiya və informasiya sahəsi ilə bağlı və s.). Digər bir qismi isə ona dəstək rolundla çıxış edir (qanunlara riayət olunması, hakimiyyətə hörmət, siyasi həyatda iştirak, rəsmi informasiyaya diqqət, maddi amillər və s.).

Siyasi sistemin bu impulslara cavab reaksiyası rolunda isə siyasi qərarlar və onların reallaşmasına yönəlmiş siyasi fəaliyyət çıxış edir (dövlət başçısının əmr və sərəncamları, hökumətin qərarları, parlamentin qəbul etdiyi qanunlar, siyasi simvolların, dəyərlərin istehsalı və s.).

D.İstonun sistem (sistemli yanaşma) nəzəriyyəsində 4 mərhələni ayırmaq olar:

- siyasi sistemə sosial-mədəni mühitin (xarici aləmin) tələb-təklif və dəstək formasında təsiri;
- hakimiyyət orqanlarının alternativ qərarlarının hazırlanması;

• qərarların tətbiqi;

• əks əlaqə nəticəsində siyasi sistemin xarici mühitə təsiri və s.

Siyasi sistemin nəzəri modellərinin müəlliflərindən biri də Q.Almond hesab olunur. Onun «Siyasi sistemlərin müqayisəli təhlili» (1956), «İnkişafda olan siyasi sistemlərin təhlili» və b. əsərlərində siyasi sistemin strukturu ilə bağlı fikirləri nəzərdən keçirilmişdir. O siyasi sistemi dövlət və qeyri-dövlət təsisatlarının siyasi davranışının müxtəlif formaları kimi nəzərdən keçirirdi. Q.Almond siyasi sistemin struktur ünsürlərini qarşılıqlı fəaliyyətdən, davranış tipindən və nümunəsindən ibarət olduğunu göstərirdi. Q.Almondda D.İston kimi siyasi sistemə giriş və çıxışı nəzərdən keçirmişdir. Hər iki politoloqun siyasi sistem nəzəriyyəsinin oxşar cəhətləri çoxdur. Lakin D.İstondan fərqli olaraq Q.Almond siyasi sistemə giriş və çıxış amillərini mərhələlərə bölmüşdür. Q.Almondun fikrincə bütün siyasi sistemlər iki əsas funksiyalar toplusunu yerinə yetirir – siyasi sistemə giriş və siyasi sistemdən çıxış funksiyaları (bu haqda ətraflı növbəti paraqrafda).

K.Doyç tərəfindən yaradılan kibernetik model də siyasi sistem nəzəriyyəsinə güclü təsir göstərmişdir. K.Doyç siyasi sistemdə kibernetikadan istifadə etməklə kommunikasiya anlayışına istinad etmişdir. K.Doyçun maraq dairəsi informasiyanın verilməsi, ötürülməsi ilə məhdudlaşmır. O kommunikasiya nəzəriyyəsi vasitəsilə siyasi qərarları qəbul edənlərin baxışları, dünyagörüşlərinin necə formalaşmasını, bu işdə informasiya vasitələrinin yeri və rolunu aydınlaşdırmağa cəhd etmişdir.

K.Doyçun nəzəriyyəsinə əsasən 4 mərhələni nəzərdən keçirmək olar:

- informasiyanın qəbulu və seçilməsi;
- qəbul olunmuş informasiyanın işlənib qiymətləndirilməsi;
- qərarların qəbul edilməsi;
- qərarların əks əlaqəsi.

Problemi aydınlaşdırmaq üçün praktikaya müraciət edək. Şəhər bələdiyyəsinə və onun üzvlərinə şəhərin rayonlarında həyat səviyyəsinə mənfi təsir göstərə biləcək vəziyyətlə əlaqədar maraq qruplarından, müxtəlif təşkilatlardan, əhalidən məlumat, informasiya və s. daxil olur. Həmin informasiya nəzərə alınır, işlənib qiymətləndirilir və müvafiq qərar qəbul olunur. Nəticədə şəhərin dirçəlişi üçün fond ayrılır və problemi nizamlamaq məqsədilə müəyyən işlər görülür.

Hakimiyyət öz qərarları və onların nəticələri barəsində əks informasiyaya da böyük ehtiyac duyur. Bu hakimiyyətə gələcəkdə həllini gözləyən məqsədlərin həyata keçirilməsi üçün xeyli vacibdir.

Amerikan politoloqları D.İston, Q.Almond və K.Doyçun yaratdıqları nəzəri modellər müəyyən dövrlərdə tənqidə məruz qalsa da ümumilikdə siyasi sistem nəzəriyyəsinin formalaşmasında böyük rol oynamışdır.

## 2. Siyasi sistemin struktur ünsürləri və funksiyaları

Siyasi sistemin struktur ünsürləri ilə bağlı siyasi elmdə müxtəlif fikirlər qərarlaşmışdır. Bir sıra tədqiqatçılar siyasi sistemin strukturuna müxtəlif istiqamətli ünsürləri

daxil etməyə çalışırlar. Hind politoloqu P.Şaranın fikrincə siyasi sistemin strukturunun başlıca ünsürünü hakimiyyət, mənafelər, siyasət və siyasi mədəniyyət təşkil edir. D.İston isə siyasi sistemin struktur ünsürünü siyasətin müxtəlif subyektlərinin (fərdlərin, qrupların və təşkilatların) təşkil etdiyini və həmin subyektlərin qarşılıqlı əlaqəsindən ibarət olduğunu göstərir.

Siyasi sistemin struktur ünsürləri ilə bağlı daha geniş yayılımş və siyasi elmdə dəstək qazanmış nöqteyi-nəzərlər bunlardır:

- təsisatlı struktur ünsürləri;
- normativ (tənzimləyici) struktur ünsürləri;
- funksional struktur ünsürləri;
- kommunikativ struktur ünsürləri;
- mədəni struktur ünsürləri.

Təsisatlanmış sistemə dövlətin orqan və təsisatları, siyasi partiyalar və ictimai-siyasi hərəkatlar kimi struktur ünsürləri daxildir. Siyasi sistemin strukturunda hakim yer dövlət və onun orqan və təşkilatlarıdır. O bütün cəmiyyətin təşkilati çərçivələrini təyin edir, hüquq normalarının köməyi ilə öz vətəndaşlarının davranışını formalaşdırır, mülki təşkilatların fəallıq formalarını müəyyən edir. İctimai-siyasi təşkilatlar isə mənafeyinin ifadəçisi olduqları qruplarla dövlət arasında vasitəçi rolunu oynayırlar.

Normativ (tənzimləyici) sistemə siyasi normalar, ənənələr, əxlaq, siyasi davranış etikası və s. kimi struktur ünsürləri daxildir. Konstitusiya və digər qanunvericilik sənədlərində əks olunan normalar siyasi sistemin fəaliyyətini tənzimləyir.

Normativ dövlət sistemi normativ siyasi sistemlə birgə çıxış edir. Lakin davranış yalnız normativ yolla tənzim olunmur. Siyasi proses iştirakçılarının davranışını ənənələr, əxlaq, siyasi davranış etikası, habelə qeyri-formal normativ sistem (ictimai diskussiyalar və parlament diskussiyalarını keçirməyin qəbul olunmuş qaydaları) və s. də tənzim edir.

Funksional sistem – siyasi fəaliyyətin forma və istiqamətlərində, siyasi hakimiyyətin həyata keçirilməsi üsul və metodlarında, yəni tətbiq olunan siyasi rejimdə özünün ifadəsini tapır.

Kommunikativ sistem siyasi sistem daxilində müxtəlif struktur ünsürlərinin qarşılıqlı əlaqəsinin və fəaliyyətinin forma və prinsiplərini əhatə edir.

Mədəni sistem (siyasi şüur, müvafiq siyasi mədəniyyət kimi struktur ünsürləri) cəmiyyətin tarixən aid olduğu və yaratdığı, həmçinin inkişaf etdirdiyi mədəniyyət və onun insan şüuruna təsiri nəticəsində əhalinin siyasi idarəetmə qərarlarının qəbuluna reaksiyasını özündə birləşdirir, siyasi sistemin sabitliyini təmin edir.

Siyasi sistemin strukturundan göründyü kimi o siyasi hakimiyyət təsisatlarının fəaliyyət prinsiplərini, normalarını, bu fəaliyyətin yönümünü müəyyən edir.

Siyasi sistemin əsası cəmiyyətin siyasi təşkilidir. Hakimiyyətin təsisatlı quruluşu prinsipi onda öz əksini tapır. Siyasi sistem həm hakim qüvvələr, həm də müxalifət qüvvələri tərəfindən yaradılan dövlət və qeyri-dövlət təşkilatları və orqanlarının məcmusudur.

Cəmiyyətin siyasi həyatının inkişaf qanunauyğunluqlarını anlamaq üçün siyasi sistemin başlıca funksiyala-

rını nəzərdən keçirmək vacibdir. Elmi ədəbiyyatda siyasi sistemin müxtəlif funksiyaları təhlil olunur. Lakin müasir siyasi elmdə siyasi sistemin funksiyalarını daha tam və hərtərəfli şəkildə Q.Almond nəzərdən keçirmiş və hazırda da aktuallıq kəsb edir. Əvvəlki paraqrafda qeyd edildiyi kimi o, siyasi sistemin funksiyalarını iki qrupa – siyasi sistemə giriş və siyasi sistemdən çıxış funksiyalarına ayırmışdır.

Q.Almond siyasi sistemə giriş funksiyasını bir neçə əsas qrupa bölmüşdür:

- siyasi sosiallaşma – vətəndaşların siyasi proseslərə cəlbi;
- maraqların artikulyasiyası (birləşdirmək) və arqeqasiyası (əlaqələndirmək) – siyasi qərarları qəbul edənlər qarşısında tələblər qoyulması; artikulyasiyanın əsas subyekti kimi maraq qrupları çıxış edir, maraqların aqreqasiyası kimi siyasi partiyaların, kütləvi kommunikasiya vasitələrinin fəaliyyətini göstərmək olar.
- siyasi kommunikasiya (siyasi sistemin ünsürləri, habelə siyasi sistemlə mühit arasında qarşılıqlı fəaliyyət).

Siyasi sistemdən çıxış funksiyaları aşağıdakılardır:

- norma – qanunların işlənib hazırlanması;
- normaların tətbiq olunması;
- normaların gözlənilməsinə nəzarət və s.

Siyasi sistemin funksiyaları cəmiyyətin sabitliyinə və onun inkişafına istiqamətlənən fəaliyyətində ifadə olunur. Bu funksiyalar həmçinin siyasi sistemin bütövlüyünün saxlanmasına və dinamikliyinə imkan yaradır.

### 3. Siyasi sistemin təsnifatına yanaşmalar

Elmi ədəbiyyatda siyasi sistemlərin müxtəlif əlamətlərə görə təsnifatı nəzərdən keçirilir. Politoloqlar adətən dövlətə qədərki və dövlət təşkilatına əsaslanan siyasi sistemlərin olduğunu qəbul edirlər. Müasir siyasi sistemlər yalnız dövlət hakimiyyəti altında olan cəmiyyətlərə məxsusdur. Politoloqların fikrincə hazırda dünyada dövlət quruluşuna əsaslanan yüzlərcə siyasi sistem mövcuddur.

Siyasi sistemlərin klassik təsnifatı ilk dəfə 1956-cı ildə Q.Almond tərəfindən irəli sürülmüşdür. O siyasi sistemləri siyasi mədəniyyətə və siyasi ənənələrə görə nəzərdən keçirmiş və onları 4 kateqoriyaya bölmüşdür:

- ingilis-amerikan tipli siyasi sistemlər;
- kontinental Avropa siyasi sistemləri;
- sənayeyəqədərki və qismən sənaye dövrünün siyasi sistemləri;
- totalitar siyasi sistemlər.

İngilis-amerikan siyasi sistemini rasionallığa, vətəndaşların və siyasi elitanın qarşılıqlı dözüm və loyal münasibətlərinə əsaslanan siyasi mədəniyyət səciyyələndirir. Bu sistem sabitdir, səmərəlidir və özünütənzimləmək qabiliyyətinə malikdir. Hakimiyyətin aydın müşahidə edilən bölgüsü ingilis-amerikan siyasi sistemini xarakterizə edən əsas cəhətlərdən biridir. ABŞ və İngiltərənin dövlət quruluşunda və idarəçilik formasında fərqli cəhətlərin olmasına baxmayaraq Q.Almond onları siyasi mədəniyyətlərinin oxşarlığı baxımından təsnifləşdirmişdir.

Kontinental Avropa siyasi sistemində köhnə və ye-

ni siyasi mədəniyyət qarşılıqlı təsir şəraitində fəaliyyət göstərir. Bu sistem əsasən Fransa, Almaniya və İtaliyada mövcuddur. Bəzi Avropa ölkələri adətən ingilis-amerikan və kontinental Avropa siyasi sistemləri arasında mövqe tuturlar.

Sənayeyəqədərki və qismən sənaye dövrünün siyasi sistemləri isə qarışıq siyasi mədəniyyətə malikdir. Belə siyasi sistemlər kəskin ziddiyyətlərlə və zorakılıq üsulları ilə fərqlənir. Bu sistemlər qeyri-ənənəvi (Afrika dövlətləri), populist (Asiya və Latın Amerikası) və avtoritar (bir sıra dövlətlər) sistemlərə bölünür.

Totalitar siyasi sistemdə isə hakimiyyət ciddi surətdə bürokratiyanın əlində cəmlənir. Cəmiyyət həyatının bütün sferaları total nəzarət altında olur. Cəza orqanları yüksək fəallıq nümayiş etdirir. Vətəndaşların siyasi fəallığı isə dövlət tərəfindən məqsədyönlü şəkildə təşkil edilir və hətta bəzən məcburi xarakter daşıyır.

Fransız politoloqu J.Blondel isə Q.Almonddan fərqli olaraq siyasi sistemlərin təsnifatını idarəetmənin məzmununa görə vermiş və beş tipə bölmüşdür:

- qərarların qəbulunda liberalizmə əsaslanan liberal-demokratik sistem;
- sosial bərabərliyin üstünlük təşkil etdiyi və onun təmin edilməsində liberal vasitələrin inkar edildiyi kommunist sistemi;
- sosial-iqtisadi sərvətlərin qeyri-bərabər bölündüyü və oliqarxiya tərəfindən idarə olunan ənənəvi siyasi sistemlər;
- inkişaf etməkdə olan ölkələrdə qərarlaşan avtoritar idarəetmə sistemi;

• müxtəlif vasitələrin hesabına sosial-iqtisadi bərabərliyi qoruyub saxlamağa çalışan avtoritar mühafizəkar sistemlər.

Amerikan politoloqu U.Rostou və fransız tədqiqatçısı R.Aron isə mövcud cəmiyyətin tipinə görə siyasi sistemlərin aşağıdakı təsnifatını nəzərdən keçirirlər: ənənəvi; totalitar və modernləşmiş siyasi sistemlər.

Elmi ədəbiyyatda siyasi sistemlərin siyasi proseslərin xarakterinə görə (inzibati amirlik, bəhsləşmə, sosial barışdırıcı) təsnfiatı da mövcuddur.

• İnzibati amirlik sistemi (idarəetmənin amirlik stili). Bu sistem qədimdən mövcuddur. O inteqral xarakterə malikdir və sosial orqanizmin özünütənzimləmə üsullarını rədd edir. Cəbr, məcburetmə metodlarına üstünlük verir. Buna ən yaxşı nümunə kimi keçmiş Sovetlər ittifaqında formalaşmış inziabti-amirlik sistemini göstərmək olar.

• bəhsləşmə sistemi (siyasi qarşıdurma və siyasi bəhsləşmə). Bu sistem də qədimdən mövcuddur. Bu elə bir sistemdir ki, amirlik sistemindən fərqli olaraq orada siyasi plüralizm vardır, şəxsiyyətin və birliklərin hüquq bərabərliyi hüquqi yolla təmin olunur. Fövqəladə hallarda cəbr elementləri tətbiq olunsa da, məcburetmə onun səciyyəvi əlamətləri deyildir. Bəhsləşmə sistemi cəmiyyət həyatının müxtəlif sferalarında özünütənzimləmənin olması ilə seçilir. Belə sistem Avropa ölkələrində özünü göstərir.

• sosial-barışdırıcı sistem (kompromis və konsensus axtarışlarının olması). Bu sistem uyğunlaşma və kompromis sistemdir. O qarşılıqlı məhdudiyyətləri nəzərdə

tutur və sosial aspekt əsas rol oynayır. Belə sistemlərdə adətən yüksək iqtisadi inkişaf özünü qabarıq şəkildə göstərir. Bu cür sistem hazırda daha çox Skandinaviya ölkələrində (xüsusilə İsveçdə) təşəkkül tapmışdır.

Siyasi sistemlərin gerçəkliyə münasibətə görə təsnifatı da mövcuddur. Təsnifata əsasən mühafizəkar; islahatçı; irticaçı (mürtəce); tərəqqipərvər və s. göstərmək olar.

Politoloqların bir qismi isə siyasi hakimiyyətin mənşəyinə görə təsnifatı məqsədəuyğun hesab edirlər. Buna uyğun olaraq demokratik və avtokratik sistemlər fərqləndirilir.

Politologiyada bəzən siyasi sistemlərin coğrafi meyarlara görə (Avropa, Asiya, Şimali və Cənubi Amerika, Afrika siyasi sistemləri), dini meyarlara görə (islam, xristian və s.), partiya sistemlərinə görə (bir, iki və çoxpartiyalı sistemlər), habelə rejimə münasibətə (totalitar, avtoritar və demokratik) görə təsnifatına da təsadüf olunur.

Siyasi sistemlərin təsnifatını verən tədqiqatçılardan biri də D.Koulmendir. O siyasi sistemləri ənənəvi, patriarxal, qarışıq və müasir siyasi sistemlərə bölür. Bu təsnifatın əsasında siyasi münaqişə meyarı durur.

İspan politoloqu L.S.Sanisteban isə siyasi sistemlərin tarixi təsnifatını məqsədəuyğun hesab edir. Təsnifata əsasən imperiyalar, müasir milli dövlətlər və konfederasiyalar fərqləndirilir.

İmperiya siyasi sistemləri müxtəlif tarixi dövrlərdə yaranmış və fəaliyyət göstərmişdir. Bəşəriyyətin tarixi inkişafının müəyyən bir mərhələsi imperiyalarla bağlıdır. Hər bir imperiyanın həmin tarixi mərhələyə uyğun xüsusiyyətləri olmuşdur (məsələn, quldarlığa əsaslanan Roma

imperiyası XIX-XX əsrlərdəki Britaniya imperiyasından öz xarakter və metodlarına görə fərqlənir). Lakin imperiyaların da hansı formada olmağından asılı olmayaraq müəyyən tipli siyasi təsisat kimi oxşar cəhətləri mövcud olmuşdur. Adətən imperiya siyasi sistemlərinin aşağıdakı oxşar xüsüsiyyətlərinə təsadüf olunur:

- geniş ərazinin olması;
- güclü mərkəzləşdirilmiş hakimiyyət;
- idarəetmənin amirlik sisteminə üstünlük verilməsi;
- ekspansiyaya can atan elita;
- mərkəzlə periferiya (əyalət) arasında asimmetrik ağalıq və tabeçilik münasibətləri;
- yuxarı təbəqənin mənafeyinə xidmət edən ideya;
- milli etnik tərkibin rəngarəng olması;
- siyasi mədəniyyətin cəbr elementlərinə üstünlük verilməsi.

Tarix göstərdi ki, bütün imperiyaların iflası labüd və qaçılmazdır. İmperiyaların dağılması nəticəsində yeni müstəqil milli dövlətlər yaranmağa başladı.

Müasir milli dövlət dünyada ən geniş yayılmış siyasi sistemdir. İdeologiyasından və sivilizasiya dərəcəsindən asılı olmayaraq ən geniş yayılmış bu siyasi sistem XVI əsrdə Avropada meydana gəlmişdir. Müasir milli dövlət kapitalizmin siyasi əsası kimi yaransa da sonralar ən müxtəlif tipli cəmiyyətlərdə mövcud olmuşdur.

Müasir milli dövlətlərin yaranması iki əsas mərhələdən keçmişdir:

a) mütləq monarxiyalar mərhələsi (ən səciyyəvi nümunəsi kimi Fransa monarxiyasını göstərmək olar);

b) konstitusiyalı monarxiya və yeni respublikalar mərhələsi.

Müasir milli dövlətlər öz quruluşuna görə unitar və federativ ola bilər.

Hansı formada olmasından asılı olmayaraq müasir milli dövlətlərin aşağıdakı əsas əlamətlərini göstərmək olar:

- birlik və ərazi sabitliyi;
- suveren siyasi hakimiyyətin elitanın əlində mərkəzləşməsi;
- silahlı qüvvələrin formalaşması;
- vahid bürokratik aparatın yaranması;
- mərkəzləşdirilmiş məhkəmə sistemi və s.

Müasir milli dövlətlər müxtəlif siyasi rejimlər çərçivəsində mövcud ola bilər.

Siyasi sistemin tarixən mövcud olan formalarından biri də konfederasiya hesab olunur. Konfederasiyada birləşən dövlətlər istədikləri zaman konfederasiyadan çıxmaq hüququna malikdirlər.

Konfederasiyaların daxili quruluşu haqqında aşağıdakıları göstərmək olar:

- maliyyə ehtiyatları üzv dövlətlərin verdikləri haqq əsasında yaradılır;
- silahlı qüvvələr formal olaraq ümumi komandanlığa tabe olsa da, ayrı-ayrılıqda hər bir üzv dövlətə məxsusdur;
- hüquq normaları o zaman müstəqil sayılır ki, bütün üzvlərin hamısı onları qanun kimi qəbul etmiş olsun;

• konfederasiyada üzv dövlətlərin hamısını əhatə edən bürokratik aparat mövcud deyil;

• icraedici orqanlar kollegial xarakter daşıyır;

• beynəlxalq siyasət birgə aparılır, lakin bu konkret məsələlərdə müstəqilliyə mane olmur.

Siyasi sistemlərin təsnifatına yanaşmalar göstərir ki, nəzərdən keçirilən bölgülər müxtəlif meyarlara əsaslanır. Bu da siyasi sistemin tədqiqi üçün vacib və əhəmiyyətlidir.

## 4. Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması

Azərbaycan Respublikasının siyasi sistemi milli və tarixi şəraitin xüsusiyyətlərini əks etdirməsilə yanaşı həmçinin yeni siyasi sistemə inteqrasiyanın mühüm təsirini öz üzərində hiss edir. Bu hər şeydən əvvəl siyasi sistemin xarici mühitin təsirinə cavab reaksiyasının xarakterində, qəbul edilən qərarların və onların həyata keçirilməsi üsullarının mühitin təsirinə cavab reaksiyası dərəcəsində, cəmiyyət-dövlət-vətəndaş qarşılıqlı əlaqələrinin təbiətində özünü göstərir. Dünyanın aparıcı ölkələrinin siyasi sistemində olduğu kimi Azərbaycan Respublikasının siyasi sistemininndə özünəməxsus xüsusiyyətləri vardır. Müstəqillik əldə edildikdən sonra ölkəmizdə siyasi sistemin struktur formalaşması prosesinin əsası qoyuldu. Bu proses 1995-ci il noyabrın 12-də ölkənin yeni konstitusiyasının qəbul edilməsilə başa çatdı. Yeni qəbul olunmuş konstitusiya 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir.

Mövcud Konstitusiyaya 24 avqust 2002-ci və 18 mart 2009-cu illərdə keçirilmiş referendum yolu ilə dəyişikliklər və əlavələr edilmişdir.

Konstitusiya ilə Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika kimi müəyyənləşdirilmişdir.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycanda müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunverici hakimiyyət səlahiyyətlərini həyata keçirən Milli Məclis, icra hakimiyyətini həyata keçirən prezident və məhkəmə hakimiyyəti.

Dövlət hakimiyyətinin həyata keçirilməsi formasına görə Azərbaycanda prezident üsul-idarəsi qərarlaşmışdır. Ölkəmizdə prezidentlik institutu müasir konstitusion təcrübəni, milli ənənələri, bütün dünyada, həmçinin keçmiş SSRİ respublikalarında siyasi reallıqları nəzərə almaqla daha əlverişli modeli seçməklə tətbiq edilir. Azərbaycan Respublikasında icra hakimiyyəti prezidentə mənsubdur və konstitusiya ilə ona geniş səlahiyyətlər verilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinə uyğun olaraq Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. Prezident ölkənin daxilində və xarici münasibətlərdə dövləti təmsil edir. Azərbaycan xalqının vahidliyini təmin edir. Prezident eyni zamanda dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısı kimi çıxış edir.

Azərbaycan Respublikasının Prezidenti ümumi və birbaşa seçki əsasında beş il müddətinə seçilir. Geniş səla-

hiyyətləri çərçivəsində Milli Məcilisin razılığı ilə baş naziri təyin və azad edir (Milli Məclis baş nazirin vəzifəyə təyin olunmasına üç dəfə razılıq verməzsə, prezident baş naziri Milli Məclisin razılığı olmadan təyin edə bilər – maddə 118), nazirlər kabinetini istefaya göndərir, nazirləri təyin edir, mərkəzi və yerli hakimiyyət orqanlarını yaradır, icra başçılarını təyin və azad edir, zəruri hallarda nazirlər kabinetinin iclaslarına rəhbərlik edir. Prezident Milli Məclisdə qanunvericilik təşəbbüsü hüququna da malikdir. Prezident üsul-idarəsinin xüsusiyyətlərinə uyğun olaraq Konstitusiya ilə Azərbaycan Respublikası Prezidentinə Milli Məclisi buraxmaq səlahiyyəti verilməmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır. Nazirlər Kabineti Prezidentə tabedir və onun qarşısında cavabdehdir. Onun iş qaydasını prezident müəyyənləşdirir. Onun səlahiyyətləri əsas qanunun 119-cu maddəsi ilə nizamlanır.

Milli Məclis qanunvericilik hakimiyyətini həyata keçirir. Milli Məclisin say tərkibi 125 millət vəkilindən ibarətdir. Milli Məclisin fəaliyyət və səlahiyyət statusu iki əsas istiqamətdə reallaşır: birincisi geniş məsələlər kompleksi üzrə ümumi qaydaları müəyyənləşdirir (maddə 94). Həmin qaydalar çərçivəsində icraedici hakimiyyət konkret idarəçilik funksiyası həyata keçirir. İkincisi parlamentin bilavasitə həll etdiyi məsələlər (maddə 95).

Milli Məclisin səlahiyyət müddləti beş ildir. Azərbaycan Respublikası Milli Məclisinin 83 millət vəkilinin səlahiyyətləri təsdiq olunduqdan sonra səlahiyyətli hesab olunur və ilk iclasını keçirə bilər.

Azərbaycan Respublikasının Milli Məclisinin növbədənkənar sessiyaları Milli Məclisin sədri, Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisinin 42 deputatının tələbi əsasında çağırıla bilər.

Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ Milli Məclisin deputatlarına (millət vəkillərinə), Azərbaycan Respublikasının Prezidentinə, Ali Məhkəməyə, Respublika Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur (maddə 96).

Naxçıvan Muxtar Respublikasının qanunverici orqanı (parlamenti) Ali Məclis adlanır. Onun səlahiyyət müddəti 5 ildir. Ali Məclisin üzvlərinin sayı 45 nəfərdir. Ali Məclisin sədri muxtar respublikanın ali vəzifəli şəxsi hesab olunur.

Məhkəmə hakimiyyəti isə insan və vətəndaş hüquq və azadlıqlarını müdafiə edən, hüquq qaydasını cinayət və digər hüquq-pozmalardan mühafizə edən və dövlət orqanlarının fəaliyyətinin hüquqi çərçivəsindən kənara çıxmamasına nəzarət edən dövlət hakimiyyətinin bir qoludur.

Məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirir. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Azərbaycan Respublikasının apelyasiya məhkəmələri, ümumi və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirir.

Prezidentin təqdimatına əsasən Milli Məclis tərəfindən təyin edilən 9 hakimdən ibarət Konstitusiya Məhkəməsi ən yuxarı məhkəmə orqanıdır və əsas vəzifəsi

Konstitusiyanın aliliyini təmin etməyə yönəlmişdir. Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırlımış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır. Ali Məhkəmənin hakimlərini Prezidentin təqdimatı ilə Milli Məclis təyin edir. Appelyasiya məhkəmələrinin hakimlərini də prezidentin təqdimatı ilə Milli Məclis təyin edir.

Azərbaycan Respublikasının siyasi sisteminə çoxpartiyalılıq, müxtəlif ictimai birliklərin formalaşması xüsusiyyəti xasdır.

Yeni siyasi sistemin struktur formalaşmasına uyğun olaraq ictimai birliklər haqqında qanunvericiliyin əsasını ölkənin əsas qanunu, «Qeyri-hökumət təşkilatları haqqında» qanun və «Siyasi partiyalar haqqında» qanun və digər normativ aktlar təşkil edir.

İctimai birliklər təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və ya hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır (Qeyri-hökumət təşkilatları haqqında Azərbaycan Respublikasının 13 iyun 2000-ci il tarixli qanunu).

İctimai birliklərə siyasi partiyalar, kütləvi hərəkatlar, dini birliklər, həmkarlar ittifaqları və vətəndaşların digər assosiasiyaları (qadınlar, veteranlar, gənclər təşkilatları, yaradıcı ittifaqları və s.) aiddir. Siyasi partiyalar – daimi əsasda fəaliyyət göstərən təşkilati quruluşa malik birliklərdir (növbəti fəsillərdən birində siyasi partiyalardan ətraflı bəhs ediləcək).

Kütləvi ictimai hərəkatlar – siyasi və yaxud digər məqsədlər uğrunda mübarizə aparan və qəti müəyyən edilmiş üzvlüyə malik olmayan birliklər hesab olunur. Belə təşkilatlarda üzvlüyün olmaması ictimai hərəkatları digər birliklərdən fərqləndirir.

Cəmiyyətin siyasi sistemində həmkarlar ittifaqlarının da böyük rolu vardır. Həmkarlar ittifaqları qəti müəyyən olunmuş fərdi üzvlüyə malikdirlər.[1]

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq bütün ictimai təşkilatlar və kütləvi hərəkatlar siyasi sistemdə qanun çərçivəsində fəaliyyət göstərməlidirlər.

**Yoxlama xarakterli suallar**

1. Müasir tədqiqatçılardan ilk dəfə kim siyasi sistem nəzəriyyəsi üçün mühüm əhəmiyyət kəsb edən sistemə «giriş» və sistemdən «çıxış»ı elmə daxil etmişdir?
2. Hansı tədqiqatçı siyasi sistemi xaricdən daxil olan impulslara cavablar verən özünütənzimləyən orqanizm kimi səciyyələndirmişdir?
3. Siyasi sistemlərin klassik təsnifatı Q.Almond tərəfindən hansı əlamətə görə verilmişdir?
4. R.Aron və U.Rostou siyasi sistemlərin təsnifatını necə vermişdir?
5. Siyasi sistemin struktur ünsürlərini göstərin.
6. Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması nə vaxt başa çatıb?

---

[1] Bax: Əsgərov Z., Nəsirov E., İsmayılov M., Məmmədov X. Azərbaycanın dövlət və hüququnun əsasları. B., 2003, s. 88-89

## VIII mövzu
## Dövlət başlıca siyasi təsisatdır

1. Dövlətin mənşəyi, mahiyyəti və səciyyəvi əlamətləri
2. Dövlətin ərazi-siyasi quruluşu: mahiyyəti və xüsusiyyətləri
3. Dövlət idarəçiliyi formaları və reallaşma mexanizmi
4. Hüquqi dövlətin mahiyyəti və başlıca əlamətləri

### 1. Dövlətin mənşəyi, mahiyyəti və səciyyəvi əlamətləri

Siyasi sistemin başlıca təsisatı dövlətdir. Dövlətin fəaliyyəti, forma və üsulları siyasi sistemin təbiətini müəyyənləşdirən əsas amillərdən biridir.

Dövlət politologiya elminin ən fundamental anlayışlarından biri olduğu üçün bu problemin tədqiqinə xüsusi diqqət yetirilir. Dövlətin mahiyyəti, mənşəyi və səciyyəvi xüsusiyyətləri ilə bağlı müxtəlif baxışlar mövcuddur.

Elmi ədəbiyyatda dövlətin tədqiqi ilə bağlı üç müxtəlif yanşama tərzi mövcuddur.

1. Siyasi-fəlsəfi və siyasi-elmi yanaşma. Bu yanaşmaya görə dövlət cəmiyyətin «ümumi işlərini» həll edən, hakimiyyət və cəmiyyət arasında mənafelərini nizama salan, həmçinin cəmiyyətin və fərdlərin siyasi həyatını təmin dən vasitə kimi nəzərdən keçirilir (Aristotel, Russo və s.).

2. Sinfi yanaşma – sinfi mübarizə vasitələrini doğuran fikirlər (iqtisadi gücə malik olan sinfin siyasi hakimiyyətini təmin etmə aləti) – marksist yanaşma.

3. Hüquqi və təşkilati – struktur yanaşma (dövləti

hüququn və qanunun mənbəyi kimi qəbul edən ideya istiqaməti) – müasir yanaşma.

Yanaşma tərzindən asılı olaraq dövlətə dair çoxsaylı təriflər nəzərdən keçirilə bilər. Bu mənada dövlətə konkret tərif vermək çətindir.

Dövlət başlıca siyasi-təsisat olmaqla insanların müəyyən ərazidə birgə yaşayışını təşkil edən və ali hakimiyyəti həyata keçirən təşkilatların və orqanların vahid sistemidir.

Dövlətin meydana gəlməsi və ya mənşəyi ilə bağlı fikirlər siyasi elmi maraqlandıran aktual problemlərdən biridir. Onun meydana gəlməsi ilə bağlı hamı tərəfindən qəbul edilmiş ümumi bir fikir, vahid konsepsiya mövcud deyil. Dövlət məsələsində hamı tərəfindən qəbul olunmuş fikir ondan ibarətdir ki, o əbədi mövcud olmamış, yalnız tarixi inkişafın müəyyən dvöründə (ibtidai icma cəmiyyətinin son mərhələsində müxtəlif səbəblər üzündən, hər şeydən öncə yaşayışın yeni təşkilati-əmək formaları və insanların təkrar istehsalı prosesilə əlaqədar olaraq) yaranmağa başlamışdır. Buradan çıxış edərək, lap qədim zamanlardan etibarən siyasi konsepsiyaların cavab verməyə çalışdığı ilk sual dövlətin necə meydana gəlməsi olmuşdur. Bu məsələ həmişə tarixçilərin, hüquqşünasların və politoloqların müzakirə elementi olmuş və bununla bağlı müxtəlif fərziyyələr və nəzəriyyələr irəli sürülmüşdür.

Dövlətin meydana gəlməsinin ən qədim izahlarından biri – teoloji təlimdir. Bu təlimə görə dövlətin meydana gəlməsi ilahi iradənin təzahürüdür. Qədim Şərqdə, Misirdə dövlət başçısının ilahi mənşəyə malik olmasına inam bundan xəbər verir.

Dövlətin yaranması ilə bağlı nəzəriyyələrdən biri də patriarxal nəzəriyyədir. Bu nəzəriyyəyə görə dövlət hakimiyyəti qəbilələri və tayfa ittifaqlarını birləşdirən ailə başçısının hakimiyyəti kimi nəzərdən keçirilir. Bu nəzəriyyə ilk dəfə Konfusi tərəfindən irəli sürülmüşdür.

İctimai müqavilə nəzəriyyəsinə görə isə dövlət nə vaxtsa və kimlərinsə tərəfindən imzalanmış ictimai müqavilənin məhsuludur. Razılaşma yolu ilə bağlanmış müqavilə nəticəsində insanlar təbii dövlətəqədərki vəziyyətdən çıxır və qurulmuş vahid dövlət hakimiyyətinə tabe olurlar (T.Hobbs, C.Lokk, J.J.Russo).

Dövlətin yaranması ilə bağlı zorakılıq nəzəriyyəsi də mövcuddur. Bu nəzəriyyə L.Qumploviç tərəfindən əsaslandırılmışdır. Zorakılıq nəzəriyyəsi dövlətin zəif, qeyri-mütəşəkkil qrupların (tayfaların) daha güclü və mütəşəkkil qruplar (tayfalar) tərəfindən işğal edilməsi sayəsində meydana gəlməsini sübuta yetirməyə çalışır.

Dövlətin meydana gəlməsi ilə bağlı sosial-iqtisadi nəzəriyyə də mövcuddur. Bu nəzəriyyə K.Marksın adı ilə bağlıdır. Marksizm dövlətin yaranmasını istehsal vasitələri üzərində xüsusi mülkiyyətin və antaqonist siniflərin yaranması ilə əlaqələndirir. Göründüyü kimi marksist nəzəriyyə dövlətin yaranmasının sinfi yanaşma konsepsiyasını əsaslandırır.

Dövlətin yaranması ilə bağlı Polyak alimi Y.Vyatrın fikirləri də maraq doğurur. Onun fikrincə dövlətin yaranması aşağıdakı mərhələlərdən keçmişdir:

- klassik yol – xaricdən heç bir təsir olmadan daxili ziddiyyətlərin kəskinləşməsi nəticəsində dövlətin yaranması (antik yunan dövlətinin yaranması);

• daxili müqəddəm şərtlərin yetişdiyi bir vaxtda dövlətin yaranmasını sürətləndirən real hücum təhlükəsinin təsiri altında dövlətin yaranması ideyası (Bizansın hücum təhlükəsi qarşısında Kiyev-Rus dövlətinin yaranması);

• dövlət quruluşu olan cəmiyyətlərlə, dövlət ideyası ilə ünsiyyət saxlamaq və bu ideyanı mənimsəmək təcrübəsi (Qərbi Avropada dövlətlərin yaranmasına Romanın təsiri və s.).

Dövlətin yaranması ilə bağlı N.Tusinin fikiriləri də maraq doğurur. O göstərirdi ki, dövlət insanların könüllü ittifaqı əsasında yaranmış və siyasi cəmiyyətdən başqa bir şey deyildir.

Dövlətin yaranması ilə bağlı həmçinin psixoloji, demoqrafik, antropoloji və digər nəzəriyyələr də vardır. Bunlar da digər nəzəriyyələr kimi dövlətə tarixi inkişafın qanunauyğun nəticəsi kimi yanaşan tarix elminin verdiyi məlumatlarla təsdiqini tapır.

Deyilənlər ona əsas verir ki, ümumilikdə Qərbi Avropa ölkələrində dövlətin yaranması əsasən xüsusi mülkiyyətin yaranması ilə, Şərqdə ictimai əmək bölgsünün təsiri ilə, Afrikada isə dövlətin yaranması insanın özünün təkrar istehsalında baş verən mühüm dəyişikliklərin nəticəsi ilə əlaqədar olmuşdur.

Dövlətin necə və hansı formada meydana gəlməsindən asılı olmayaraq onu göstərmək olar ki, dövlət cəmiyyət həyatının yeni təşkilat forması kimi insanların qanunauyğun surətdə, sivil qaydada yaşamalarının qarantı kimi çıxış edir.

Dövlət cəmiyyətin təşkilati forması kimi özündə bir sıra vacib elementləri birləşdirir. O ərazidən, əhalidən və hakimiyyətdən ibarət siyasi birlikdir. Ərazi dövlətin mövcudluğunun məkan əsasıdır. Ərazisiz dövlətin mövcudluğu haqqında fikir yürütmək çətindir. Ərazi dövlətin əhalisinin yaşadığı və siyasi elitanın hüquqi normalar vasitəsilə öz hakimiyyətini bərqərar etdiyi məkan hesab olunur. Dövlətin ərazisisinə onun torpağı, faydalı qazıntıları, hava məkanı və ərazi suları daxildir.

Dövlətin ikinci və başlıca tərkib elementi əhali hesab olunur. Əhali həmin ərazidə yaşayan və dövlət hakimiyyətinə tabe olan insan birliyidir.

Dövlətin mövcudluğunun üçüncü tərkib elementini isə kütləvi siyasi hakimiyyət təşkil edir.

Siyasi elmdə dövlətin bir çox əlamətləri nəzərdən keçirilir. Bu əlamətlər aşağıdakılardır:

- xüsusi idarəetmə aparatının mövcudluğu. Onu idarəetmə və məcburetmə vəzifəsini yerinə yetirən insanların xüsusi təbəqəsi həyata keçirir;
- dövlətin məcburetmə – güc tətbiq etmək hüququ. Dövlətin xüsusi güc orqanları vardır və qanunun nəzərdə tutduğu hallarda ondan istifadə edir;
- suverenlik. Müəyyən ərazidə dövlət hakimiyyətinin müstəqilliyini, aliliyini ifadə edir;
- hüquq normalarının müəyyən edilməsi. Bütün dövlət orqanlarının fəaliyyəti hüquq normalarına əsaslanmalı və hüquqi prinsiplər çərçivəsində fəaliyyət göstərməlidir;
- ümumilik. Dövlət hakimiyyəti onun ərazisində yaşayan bütün insanlara aiddir;

• vergilərin toplanması (bəzi tədqiqatçılar bu əlaməti dövlətin daxili funksiyası kimi nəzərdən keçirir).

Dövlətin spesifikliyi və tarixi zəruriliyi onun yerinə yetirdiyi funksiyalarında üzə çıxır ki, bu da onun fəaliyyətinin başlıca istiqamətləri ilə bağlıdır. Funksiyaların bölgüsünün əsasında dövlətin fəaliyyət sahəsi durur. Buna əsasən dövlətin funksiyalarını daxili və xarici istiqamətli funksiyalara ayırmaq olar.

Daxili funksiya – bu funksiya əsasən ölkə daxilində dövlətin fəaliyyətinin əsas istiqaməti kimi onun daxili siyasətini şərtləndirir. Hüquqşünaslığa dair ədəbiyyatlarda daxili funksiyaları qoruyucu və nizamlayıcı kimi iki qrupa bölürlər.

Qoruyucu funksiyaların tətbiqi bütün maddiləşmiş və hüquqla tənzimlənən ictimai münasibətlərin müdafiə olunması və həyata keçirilməsi üzrə dövlətin başlıca fəaliyyətində ifadə olunur. Bu qrupa aşağıdakıları aid etmək olar:

• vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, qanunçuluğun və hüquq qaydalarının təmin edilməsi;

• bütün mülkiyyət formalarının bərabər şəkildə müdafiə olunması;

• ətraf mühitin mühafizəsi və s.

Nizamlayıcı funksiya isə istehsalın təşkilində, iqtisadiyyatın inkişafında, şəxsiyyətin formalaşması və davranışı üçün zəruri şəraitin yaradılması sahəsində dövlətin rolunu əks etdirir. Nizamlayıcı funksiyalar iqtisadi, sosial, həmçinin vergiqoyma və vergilərin yığılması kimi funksiyaları özündə birləşdirir:

• iqtisadi siyasətin işlənib hazırlanması ;

- müəssisə və təşkilatların idarə edilməsi ;
- qiymət siyasətinin və bazarın hüquqi əsaslarının müəyyən edilməsi;
- insanın layiqli həyat şəraitinin inkişafı və onun təmin edilməsi;
- insanların əmək və sağlamlığının mühafizəsi;
- sosial xidmət sistemlərinin tətbiqi, inkişafı və s.

Vergiqoyma və vergilərin yığılması dövlətin başlıca daxili funksiyalarından hesab olunur (bu funksiya bəzi ədəbiyyatlarda dövlətin əlaməti kimi nəzərdən keçirilir). Dövlətin büdcəsi müxtəlif növ vergilərdən, rüsumlardan və digər məcburi ödənişlərdən təşkil olunur.[1]

Xarici funksiya – bu funksiya dövlətin xarici fəaliyyətində, onun digər dövlətlərlə və təşkilatlarla münasibətlərində təzahür edir. Xarici funksiyalara daxildir:

- beynəlxalq münasibətlərin bütün sferalarında dövlətin mənafeyinin və suverenliyinin müdafiəsi;
- diplomatik münasibətlər və xidmətlər;
- beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq;
- terrorizmə qarşı mübarizədə səylərin birləşdirilməsi və s.

## 2. Dövlətin ərazi-siyasi quruluşu: mahiyyəti və xüsusiyyətləri

Müasir dövlət nəzəriyyəsinin ən maraq doğuran problemlərindən biri dövlət formalarını müəyyən etmək və onların təsnifatını verməkdir. Dövlət forması dedikdə

---

[1] Bax: Əsgərov Z., Nəsirov E., İsmayılov M., Məmmədov X. Azərbaycanın dövlət və hüququnun əsasları. B., 2003, s.11-13

dövlət quruluşu, idarə forması və siyasi rejim nəzərdə tutulur.

Ənənəvi olaraq dövlətin ərazi-siyasi quruluşuna görə iki əsas forması (unitar və federativ) fərqləndirilir. Bunlardan əlavə konfederasiyalar da nəzərdən keçirilir. Siyasi ədəbiyyatda həmçinin muxtariyyət anlayışına da təsadüf olunur.

Unitar dövlət (Azərbaycan, Türkiyə, Fransa, İsveç, İngiltərə, Finlandiya, İtaliya, Gürcüstan və s.) vahid dövlət olub (latıncadan «ünis» - bir), müstəqil dövlət qurumlarından deyil, inzibati-ərazi vahidləri, vilayətlər, əyalətlər və bəzən də muxtar qurumlardan ibarət olur.

Unitar dövlətlərin konstitusiyalarına nəzər saldıqda dövlətin unitar xarakteri birbaşa göstərilir. Bu barədə Azərbaycan Respublikasının Konstitusiyasının dövlətin əsasları adlı ikinci fəslinin 7-ci maddəsində göstərilir ki, Azərbaycan unitar respublikadır. Bəzən isə konstitusiyalarda vahid bölünməz dövlət haqqında qeydlər öz ifadəsini tapır. Bu ifadə Türkiyə Respublikasının Konstitusiyasının 3-cü maddəsində verilmiş və göstərilmişdir ki, Türkiyə dövləti, ölkəsi və millətilə bölünməz bir tamdır. Bu ifadə həmçinin İtaliya, Fransa və digər ölkələrin konstitusiyalarında səslənmişdir.

Unitar dövlət əsasən inzibati-ərazi vahidlərindən ibarətdir, lakin mürəkkəb unitar dövlətin tərkibində muxtar qurumlar da mövcud olur. Sadə unitar dövlətlərdə isə yalnız inzibati-ərazi vahidləri olur. Unitar dövlətləri mərkəzləşdirmə dərəcəsinə görə üç qrupa bölmək olar:

- mərkəzləşmiş unitar dövlət;

- nisbi mərkəzləşmiş unitar dövlət;
- mərkəzləşməmiş unitar dövlət;

**Mərkəzləşmiş unitar dövlətlərdə** inzibati-ərazi bölgüsünün bütün pillələrinə onları idarə etmək üçün yuxarıdan nümayəndələr təyin olunur və ya belə məmurlar yerli məclisin, yerli nümayəndəli orqanın təklif etdiyi namizədlər sırasından yuxarı orqanlar tərəfindən təsdiq olunur.

**Nisbi mərkəzləşmiş unitar dövlət** onunla xarakterizə olunur ki, inzibati-ərazi bölgüsünün yuxarı pillələrində iki orqan – dövlət hakimiyyətinin nümayəndəsi (yuxarıdan təyin olunmuş ümumi səlahiyyətli məmur) və əhali tərəfindən seçilən şura (yerli özünüidarəetmə orqanı) vardır. Belə sistem Fransada mövcuddur. Onu bir qədər mərkəzləşdirilmiş qaydada Afrikanın bəzi fransızdilli ölkələri də qəbul etmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq şəhər, rayon pillələrində prezidentin təyin etdiyi nümayəndə – şəhər və rayon icra hakimiyyətinin başçıları, qəsəbə və kənd pillələrində isə müvafiq olaraq rayon tabeliyində olan icra nümayəndələri fəaliyyət göstərir. Bununla yanaşı həmin səviyyələrdə əhali tərəfindən seçilən seçkili orqanlar, yerli özünüidarələr mövcuddur. Yerli özünüidarəetməni seçkilər əsasında formalaşan bələdiyyələr həyata keçirir.

Türkiyə Respublikasının Konstitusiyasına görə əyalətlər inzibati-ərazi orqanları özünüidarə prinsipi əsasında təşkil olunur. İnzibati-ərazi bölgüsünə görə Türkiyə vilayətlərə, vilayətlər qəzaya, qəzalar nahiyəyə, nahiyələr isə

qəsəbə və kəndlərə bölünür. Vilayətlərdə hakimiyyət və idarəetmə funksiyasını **vali** həyata keçirir.

Qəzanın başında **qaymaqam** durur. O valiyə tabedir və hökumət qərarlarını icra edir.

Nahiyəyə **nahiyə müdirləri** rəhbərlik edir.

Kəndlərdə idarəetmə funksiyasını dərnək, ağsaqqallar məclisi və **muxtar** həyata keçirir. Dərnək ağsaqqallar şurasını və muxtarı seçir.

Bələdiyyə idarələri şəhər idarəetmə orqanları hesab edilir. Onlar yerli büdcəni qəbul edir, şəhər təsərrüfatını, kommunal xidmətlərin, nəqliyyatın təşkili və idarə olunmasına, ictimai asayişin, yerli vergilərin müəyyənləşdirilməsinə nəzarət edir.

**Mer** şura qarşısında məsuliyyət daşıyan hakimiyyət orqanının nümayəndəsi kimi hökumətin qanun və sərəncamlarının yerinə yetirilməsini təmin edir, bələdiyyə polisi ona tabedir.

**Mərkəzləşməmiş unitar dövlətdə** hökumətin yerlərdə (inzibati-ərazi vahidlərində) təyin etdiyi və idarəetmə üzrə ümumi səlahiyyətlərə malik olan nümayəndələri yoxdur. Yerlərdə kiçik inzibati-ərazi vahidlərində vətəndaşların yığıncaqları çağırılır, daha iri vahidlərdə isə şuralar seçilir. Belə sistem İtaliyada, İspaniyada və b. ölkələrdə mövcuddur.

Dövlətin ərazi-siyasi quruluşu formasında muxtariyyət anlayışına da diqqət yetirilir. Konstitusiya hüququnda sözün geniş mənasında muxtariyyət dedikdə, dövlətin müəyyən hissəsinə (məsələn, Finlandiyada Aland adalarına), bir neçə hissəsinə (Moldovada əsasən qaqauzların məskunlaşdığı iki dairəyə), bütün eyni səviyyəli va-

hidlərə (məsələn, İtaliyada vilayətlərə), nəhayət bütün müxtəlif səviyyəli inzibati-ərazi vahidlərinə (Yaponiyada) daxili özünüidarə və yerli məsələlərin həllində müstəqillik verilməsi başa düşülür. Lakin əksər hallarda muxtariyyət dedikdə, mədəniyyəti, ənənələri, məişəti nəzərə alınmaqla yaradılmış, xüsusi siyasi-ərazi vahidləri başa düşülür (məsələn, Fransada Korsika, Böyük Britaniyada Şimali İrlandiya). Muxtar qurumların səlahiyyəti konstitusiya ilə (İtaliya) və ya konkret muxtariyyət haqqında xüsusi qanunla (Böyük Britaniya) müəyyən olunur.

Siyasi ədəbiyyatda muxtariyyətin iki əsas forması fərqləndirilir:

- milli-ərazi;
- milli-mədəni.

**Milli ərazi** muxtariyyətinin iki forması nəzərdən keçirilir. Bunlardan biri siyasi, digəri inzibati muxtariyyətdir. **Siyasi muxtariyyət** inzibati muxtariyyətə nisbətən daha geniş səlahiyyətlərə malik olur və bəzi dövlətçilik əlamətlərini özündə birləşdirir. Siyasi muxtariyyət yerli məsələlər üzrə qanunvericilik hüququna malikdir (bu səlahiyyətlər həmin ölkələrin konstitusiyasında göstərilir).

Bir sıra ölkələrdə siyasi muxtariyyətin müxtəlif formaları mövcuddur. Bu sıraya Böyük Britaniyada Şimali İrlandiya, Finlandiyada əsasən isveçlərin məskunlaşdığı Aland adaları, Danimarkada Qrelandiya, Fransada Korsika və s. daxildir.

Digər bir muxtariyyət forması **inzibati muxtariyyət** hesab olunur. O siyasi muxtariyyətdən fərqli olaraq yerli qanunlar qəbul etmək hüququna malik olmasa da, onun

nümayəndəli orqanı öz səlahiyyəti daxilində normativ aktlar qəbul edə bilər. Lakin yerli əhəmiyyətli normativ aktlar qəbul edən adi inzibati vahidlərlə müqayisədə inzibati muxtariyyət bir sıra əlavə hüquqlara malikdir.

Bəzi ölkələrdə **milli-mədəni muxtariyyət** formasından da istifadə olunur. O millətlərin, etnik qrupların dağınıq, digər etnik qruplarla birlikdə yaşadığı yerlərdə tətbiq edilir. Bu halda millətlər özlərinin əsasən dil və mədəniyyət problemləri ilə məşğul olan təşkilatlarını və seçkili orqanlarını yaradırlar.

Quruluşu və orqanları konstitusiya hüququ ilə tənzim edilən siyasi-ərazi qurumları ilə yanaşı, elə qurumlar da vardır ki, beynəlxalq sazişlər əsasında yaradılmış və beynəlxalq hüquq normaları ilə tənzim olunur. Belə növ ənənəvi qurum **konfederasiya** hesab olunur. Konfederasiya vaxtilə Almaniya, İsveçrə və ABŞ-da mövcud olmuşdur.

Dövlətin ərazi-siyasi quruluşu sistemində federasiyaların da özünəməxsus yeri vardır.

«Federasiya» termini latın sözü «federale»dən yaranmışdır ki, onun da mənası «birləşdirmək», «ittifaqla möhkəmləndirmək» deməkdir. Federativ dövlətlərə ABŞ, Braziliya, Meksika, Avstriya, Hindistan, Pakistan, Kanada, Rusiya, Almaniya, Venesuela və s. aid etmək olar. Federasiya mürəkkəb dövlətdir. Onun tərkibində müstəqil subyektlər vardır. Bu subyektlər müxtəlif adlar altında nəzərdən keçirilir. ABŞ və Hindistanda ştatlar, Avstriya və Almaniyada torpaqlar, Pakistan və Kanadada əyalətlər, İsveçrədə kantonlar və s. Bunlar ümumi şəkildə federasiya subyektləri hesab edilir. Bəzən dövlətin belə sub-

yektləri ilə yanaşı qeyri-subyektləri də olur. Bu sıraya federal dairə – öz ətraf əraziləri ilə birlikdə paytaxt (ABŞ-da paytaxt Vaşinqtonla birlikdə Kolumbiya dairəsi, Braziliyada paytaxt Braziliya, Nigeriyada Abuca federal dairəsi və s.), federal ərazilər (məsələn, ABŞ-da Quam adası) və federal mülklər də daxildir. ABŞ-da həmçinin **assosiativ dövlətlər** – Puerto-riko, Marşal Adaları Respublikası, Mikroneziya Birləşmiş Ştatları, Palay Respublikası da vardır. Qeyd etmək lazımdır ki, federasiyalarda qeyri-subyektlərin sayı çox deyildir.

Federasiyaların yaranması müxtəlif yollarla baş vermişdir. Onlardan bəziləri müstəqil dövlətlərin ittifaqı, birliyi əsasında, bəziləri isə hüquqi deyil, faktiki olaraq bir sıra dövlətçilik əlamətlərinə malik olan dövlət qurumlarının və ya siyasi vahidlərin birləməsi və ittifaqa daxil olması nəticəsində meydana gəlmişdir. Bir çox federasiyalar dövlət hakimiyyət aktları ilə «yuxarıdan» yaradılmışdır.

Birinci qrup federasiyalar **ittifaq və ya müqavilə** federasiyaları adlandırılır. Federasiya və onun subyektlərinin suverenliyi konsepsiyasna görə belə federasiyalar ikiqat suverenliyə malik olur. Federasiya subyektlərinin adətən öz konstitusiyası və vətəndaşlığı olur və onların sərhədləri subyektlərin razılığı olmadan dəyişdirilə bilməz.

İkinci qrup federasiyalar **muxtariyyət** və ya **konstitusiya federasiyaları** hesab olunur. Belə federasiyaların subyektləri suverenliyə malik olmur (məsələn, Meksikada ştatların daxili suverenliyi haqqında konstitusiya müddəaları yalnız onlar tərəfindən daxili məsələlərin müstəqil həllini nəzərdə tutur). Federasiyaların belə bölgüsü şərti xarakter daşıyır.

Müasir siyasi elmdə və konstitusiya təcrübəsində federasiyanın quruluşuna üç müxtəlif yanaşma **(milli-ərazi, ərazi və kompleks ərazi)** mövcuddur.

Federasiyaların əksəriyyəti ərazi əlaməti üzrə qurulmuşdur (Almaniya, Meksika, Braziliya, ABŞ, İsveçrə və s.). Marksist-leninçi federalimz konsepsiyasında federasiya yaradılmasının milli-ərazi prinsipinə üstünlük verilmişdi. Sovetlər İttifaqı milli-ərazi prinsipi əsasında qurulmuşdu.

Hazırda elmdə və konstitusiya təcrübəsində çox vaxt kompleks-ərazi əlamətinə üstünlük verilir. Həmin yanaşmaya görə milli amil nəzərə alına bilər (məsələn, Belçikada olduğu kimi). Bununla yanaşı tarixi, iqtisadi, coğrafi və s. amillərdən də istifadə oluna bilər (məsələn, Hindistan, Pakistanda olduğu kimi).

Elmi ədəbiyyatda və konstitusiya hüququnda federasiya subyektlərinin hüquqi statusu problemi də nəzərdən keçirilir. Federativ dövlətlərin ərazisinin əksər hissəsini federasiya subyektləri təşkil edir. Çox vaxt federasiya subyektlərinin öz konstitusiyaları olur (ABŞ-da və Meksikada bütün ştatların, Hindistanda Camu və Kəşmir ştatının isə konstitusiya qanunu vardır). Lakin Kanada və Pakistanın əyalətlərinin, Venesuelanın ştatlarının konstitusiyası yoxdur.

Federasiya subyektlərinin öz vətəndaşlığı da ola bilər, bu həmin ölkənin qanunvericiliyində də öz əksini tapır. ABŞ-da bütün ştatların öz vətəndaşlığı olduğu halda, əksinə, Hindistanın və Pakistanın subyektlərinin öz vətəndaşlığı yoxdur.

### 3. Dövlət idarəçiliyi formaları və reallaşma mexanizmi

«İdarəetmə forması» termini bir çox dövlətlərin əsas qanunlarında öz əksini tapmışdır. Bəzi konstitusiyalarda bu termin işlənməsə də, idarəetmə formaları (monarxiya və respublika) həmişə təsbit olunur. Yalnız bəzi dövlətlərin rəsmi adında «respublika» və «monarxiya» sözünə təsadüf edilmir.

Siyasi ədəbiyyatda ənənəyə görə iki əsas idarətemə formasının (monarxiya və respublika) təsnifatı nəzərdən keçirilir. Daha müfəssəl təsnifat onların əsasında aparılır.

Monarxiya idarəetmə formasında dövlət başçısı öz vəzifəsini və xüsusi fəxri statusunu irsən və ömürlük qazanır və öz varisinə ötürür. Siyasi praktikada mütləq, dualist və parlamentli monarxiya idarəetmə formalarına təsadüf edilir.

Mütləq monarxiya idarəetmə forması hazırda bir neçə ölkədə qalmaqdadır (Səudiyyə Ərəbistanı, Oman, Qatar və s.). Oman sultanlığında parlament də yoxdur, hökumət kral tərəfindən təşkil olunur və onun qarşısında məsuliyyət daşıyır. Səudiyyə Ərəbistanında ailə şurası fəaliyyət göstərir. Bu ölkədə parlament əvəzinə kral tərəfindən təyin edilən müvəqqəti şura yaradılmışdır. Belə orqanlar əslində monarxın hakimiyyətini məhdudlaşdırmır.

Dualist monarxiyada konstitusiya və parlament mövcuddur. Parlamentin iştirakı olmadan qanunlar qəbul edilə bilməz. Lakin hökumət monarx tərəfindən təyin edilir və parlament qarşısında deyil, monarx qarşısında məsuliyyət daşıyır. Konstitusiyaya görə parlamentli monarxiyaya yaxın olan bəzi monarxiyalar (İordaniya, Məra-

keş, Nepal) əslində dualistdir.

Parlamentli monarxiyalarda isə bunlardan fərqli olaraq demokratik yolla qəbul edilmiş konstitusiya qüvvədədir və qanunvericilik hakimiyyəti seçkili parlamentə məxsusdur. Monarx hüquqi cəhətdən dövlət başçısı olsa da, lakin o ölkənin idarə olunmasında faktiki olaraq iştirak etmir (Yaponiyanın hazırkı konstitusiyasında bu öz əksini tapmışdır). Parlamentli monarxiyada hökumət yalnız parlament qarşısında məsuliyyət daşıyır. Düzdür, konstitusiyaya görə hökumət başçısı monarx tərəfindən təyin edilsə də, belə təyinat adətən formal xarakter daşıyır.

Respublika idarəetmə formasında dövlətin ali hakimiyyət orqanları və vəzifəli şəxsləri vətəndaşlar tərəfindən seçilir. Siyasi ədəbiyyatda prezidentli (ABŞ, Azərbaycan), parlamentli (İtaliya, Almaniya, İsrail, Avstriya, Hindistan) və qarışıq idarə forması fərqləndirilir (Fransa, Finlandiya). Prezidentli respublika ilk dəfə ABŞ-da yaranmışdır. Prezidentli respublikada prezident və parlament ayrı-ayrı seçkilər vasitəsilə seçilir. Prezidentli respublikada prezident birbaşa və ya dolayı səsvermə yolu ilə seçilir (məsələn, Azərbaycan Respublikasında birbaşa, ABŞ-da isə dolayı səsvermə yolu ilə). Prezidentli respublikada ali icra hakimiyyəti prezidentə məxsusdur və icra hakimiyyətinin başçısı kimi geniş səlahiyyətlərə malik olur. Prezidentli respublikalarda o, baş naziri də təyin edə bilir və baş nazirin rəhbərliyi ilə hökumət fəaliyyət göstərsə də, hökumətin faktiki başçısı prezident sayılır.

Prezidentli respublikalarda nə baş nazir, nə də nazirlər parlament qarşısında deyil, yalnız prezident qarşısında məsuliyyət daşıyır və parlamentdə etimadsızlıq votumu

yolu ilə istefaya göndərilə bilməzlər. Prezidentli respublikaların əksəriyyətində xüsusi baş nazir vəzifəsi yoxdur, onun səlahiyyətləri prezidentə məxsusdur.

Prezidentli respublikalarda prezident vaxtından əvvəl parlamenti buraxmaq hüququna malik deyildir. Prezidentli respublikada hökumətin bir partiya tərəfindən təşkil olunması, parlamentdə isə yerlərin əksəriyyətinin müxalifət partiyalarına məxsus olması halları mümkündür (bu ABŞ-da dəfələrlə baş vermişdir).

Prezidentli respublikadan fərqli olaraq parlamentli respublikada prezidentin seçilməsinin elə qaydası nəzərdə tutulur ki, o öz mandatını bilavasitə xalqdan almır. O ya parlament (Yunanıstan), ya da xüsusi kollegiya tərəfindən seçilir (məsələn, Almaniyada kollegiyanın tərkibinə aşağı palatanın bütün deputatları və torpaqların nümayəndəli orqanları tərəfindən seçilmiş eyni sayda deputatlar daxildir və bu federal məclis adlanır). Hindistanda onun tərkibinə parlamentin və ştatların qanunverici məclisinin seçkili üzvləri daxildir. Parlamentli respublikada baş nazir ali icra hakimiyyətini həyata keçirir və hökumətin ümumi siyasətinə rəhbərlik edir (məsələn Almaniyada olduğu kimi).

Parlamentli respublikada hökumət prezident qarşısında deyil, yalnız parlament qarşısında məsuliyyət daşıyır.

Əhalinin prezidenti birbaşa seçməsi ilə əlaqədar Fransa, Finlandiya və s. ölkələrin özünəməxsus xüsusiyyətləri vardır. Buna görə bəzən həmin ölkələrin siyasi idarəçilik formasını qarışıq idarəetmə forması və ya yarıprezidentli respublika kimi nəzərdən keçirirlər. Belə idarəçilik forması özündə prezidentli və parlamentli idarə formasının ünsürlərini əlaqələndirir. Qarışıq idarəçilik üsulu

prezidentli və parlamentli respublikalara xas olan sabit səciyyəvi xüsusiyyətlərə malik deyil. Onun başlıca cəhəti hökumətin prezident və parlament qarşısında ikiqat məsuliyyət daşımasıdır.

## 4. Hüquqi dövlətin mahiyyəti və başlıca əlamətləri

Hüquqi dövlət ideyasının kökləri qədim Yunanıstan və Romada mövcud olan siyasi hüquqi təlimlərlə bağlı olsa da bu termin ilk dəfə XIX əsrdə Almaniyada elmə gətirilmişdir. Onun mahiyyəti konstitusiyalı və inzibati hakimiyyət orqanlarının hüquqa tabe olması və onların üzərində hüquqi nəzarətin olmasındadır. Hüquqi dövlət anlayışı dövlətdə bütün sosial birliklərin, o cümlədən ayrı-ayrı fərdlərin hüquqa hörmət etdiyini ona münasibətdə bərabər vəziyyətdə olduğunu göstərir. Belə bir dövlət mülkiyyətin hakimiyyətdən, xüsusi sərvətin kollektiv sərvətdən ayrılmasının təsisatlandırılması (bu və ya başqa bir təsisatın timsalında rəsmiləşdirilməsi) nəticəsində yaranır. Bunun sayəsində fərdlər, azad əmək müqaviləsindən istifadə etməklə öz kapitalını, texniki biliklərini, işçi qüvvəsini və s. istədikləri şəkildə istifadə etməklə azadlığı əldə edirlər. Məhz bu mənada belə bir dövlətin hakim olduğu cəmiyyəti çox vaxt «müqavilə cəmiyyəti» adlandırırlar.

Hüquqi dövlətin əsas məqsədi ictimai həyatın başlıca sferalarında öz vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə təminat verməkdən ibarətdir.

Hüquqi dövlətin başlıca əlamətləri aşağıdakılardır:

- qanunun aliliyi, hüququn üstünlüyü;

- vətəndaşların hüquqlarının müdafiəsi;
- dövlət hakimiyyəti həddinin müəyyənləşdirilməsi;
- şəxsiyyətin hüquqlarının təmin edilməsi;
- qrup hüquqlarının müdafiəsi;
- hakimiyyət bölgüsü;
- məhkəmə və qanun qarşısında hamının bərabərliyi;
- konstitusiya nəzarəti;
- dövlət və qeyri-dövlət təsisatlarının (partiyaların, ictimai təşkilatların və s.) funksiya və səlahiyyətlərinin qanun çərçivəsində məhdudlaşdırılması;
- dövlətin vətəndaşlar qarşısında məsuliyyəti, vətəndaşların sosial mühafizəsi, onların dövlət qarşısında məsuliyyəti.

Hüquqi dövlətdə qanunlar xalqın iradəsi ilə qəbul olunur. Hüquqi dövlətin fəaliyyətinin əsas prinsipi azadlığın hüquqi təminatçısı olmaqdan ibarətdir. Cəmiyyətdə hüquqi dövlət quruculuğu prosesi insan azadlığının, söz, vicdan azadlığının təmin edilməsini, plüralizmin qərarlaşmasını əsas prinsipi kimi qəbul edir.

Vətəndaş cəmiyyəti yaxşı inkişaf etmiş hüquqi dövlət şəraitində fəaliyyət göstərə bilər. Vətəndaş cəmiyyəti dövlət tərəfindən əlaqələndirilməyən, insanların özləri tərəfindən tənzim edilən cəmiyyətdir. Vətəndaş cəmiyyəti elə bir cəmiyyətdir ki, özündə struktur ünsürü kimi dövlət strukturlarını deyil, insanların könüllü formalaşan ilkin birliklərini – ailəni, kooperasiyaları, assosiasiyaları, ictimai təşkilatları, həmkarlar ittifaqlarını, yaradıcı birlikləri, qeyri-hökumət təşkilatlarını, habelə bələdiyyələri və s. birləşdirən insan birliyinin daha mütəşəkkil formasıdır. Və-

təndaş cəmiyyətinin başlıca məqsədi insana öz azadlığını həyata keçirmək imkanı verməkdir.

**Yoxlama xarakterli suallar**

1. Dövlətin mənşəyi haqqında «ictimai müqavilə» nəzəriyyəsinin müəlliflərini göstərin.
2. Dövlətin yaranması ilə bağlı sosial-iqtisadi nəzəriyyənin müəllifi hesab olunur.
3. Dövlət formalarının təsnifatına nələr daxildir?
4. Prezidentli respublikaya xas olan əsas əlamətlərdən biri.
5. Prezidentli respublika ilk dəfə harada yaradılmışdır?
6. Hüquqi dövlətin əlamətlərini göstərin.

## IX mövzu
## Siyasi rejimlər

1. Siyasi rejimlərin mahiyyəti və təsnifatı
2. Totalitarizm və onun sosial nəticələri
3. Avtoritarizm və onun dəyişilməsi meylləri

### 1. Siyasi rejimlərin mahiyyəti və təsnifatı

Siyasi rejim idarəetmə metodları və üsullarının məcmusudur. Siyasi rejim dövlətin sosial vəziyyətini – dövlət hakimiyyətinin fərdə, sosial təsisatlara, etnik birliklərə və s. münasibətini, habelə cəmiyyətdə siyasi azadlığın inkişaf səviyyəsini, şəxsiyyətin hakimiyyətə münasibətini səciyyələndirir. Siyasi rejim bütövlükdə siyasi sistemin mahiyyətini ifadə edir. Cəmiyyətdə bu və ya digər siyasi rejimin şərtlənməsinə təsir göstərən amillərə bunları (siyasi hökmranlığın metodları; fərdlərin və vətəndaş cəmiyyətinin siyasi yetkinliyi; coğrafi-siyasi şərait; rəhbər dövlət xadimlərinin – siyasi liderlərin şəxsiyyəti və s.) aid etmək olar.

Siyasi rejimlərin təsnifatı verilərkən M.Veberin ideal tip anlayışına istinad edilir. Bu onunla bağlıdır ki, siyasi rejim heç vaxt xalis formada olmur. İdeal tip anlayışı siyasi rejimləri bir-birindən fərqləndirməyə imkan verir. Təsnifata əsasən siyasi rejimlərin üç forması (hakimiyyətin sosial bazasına görə, sosial tərəqqiyə münasibətinə görə, siyasi fəaliyyət metodlarına görə) fərqləndirilir.

**1. Hakimiyyətin sosial bazasına görə:**

– demokratiya – xalqın əksəriyyətinin hakimiyyəti;

– aristokratiya – nəcib mənşəyə malik adamlar qru-

punun, başqa sözlə, elitanın hakimiyyəti;

– plutokratiya – varlı təbəqənin hakimiyyəti;

– oliqarxiya – maliyyəçi və sənayeçi qrupların hakimiyyəti;

– timokratiya – yuxarıdan seçilən varlı təbəqənin hakimiyyəti;

– herontokratiya – qocaların (yaşlı təbəqənin) hakimiyyəti;

– bürokratiya – məmurların hakimiyyəti;

– poliarxiya – çoxluğun hakimiyyəti;

– teokratiya – din xadimlərinin hakimiyyəti, yaxud onların ideoloji cəhətdən müstəqil (seçilmiş) təşkilatının hakimiyyəti;

– oxlokratiya – kütlənin hakimiyyəti (keçid dövrlərində inqilabi sarsıntılar zamanı təsadüf olunur);

**2. Sosial tərəqqiyə münasibətinə görə:**

– inqilabçı;

– mütərəqqi;

– liberal;

– mühafizəkar;

– mürtəce.

**3. Siyasi fəaliyyət metodlarına görə:**

– demokratiya;

– totalitar;

– avtoritar;

Siyasi rejimlərin ilk təsnifatını qədim yunan tarixçisi **Herodot** (e.ə. 5-ci əsr) vermişdir. **Platon** bu ideyanı zənginləşdirmiş, **Aristotel** isə daha da təkmilləşdirmişdir. Aristotelin ardınca digər mütəfəkkirlər də siyasi rejimlərin bu və ya digər formada təsnifatını verməyə cəhd göstərmişdir.

Marksizm belə hesab edirdi ki, siyasi rejimlərdəki fərqlər əsasən istehsal sistemindən irəli gəlir.

Fransız politoloqu M.Dyuverje isə göstərir ki, siyasi rejimlərdəki fərqlər tarixi və mədəni inkişafın nəticəsidir, onun istehsal sistemi ilə birbaşa əlaqəsi yoxdur. O belə hesab edir ki, Avropada iqtisadi strukturların transformasiyaya uğraması, kapitalist istehsal üsulunun qarışıq və s. mülkiyyət formaları ilə əvəz olunması eyni miqyaslı siyasi dəyişikliklərlə heç də müşayiət olunmadı.

Qeyd etmək lazımdır ki, hər bir tarixi dövrdə siyasi rejimlərin təsnifatı həmin dövrün reallıqlarına əsaslanır. Bu baxımdan yanaşdıqda, müasir dövrdə ən geniş yayılmış totalitar, avtoritar və demokratik rejimləri bir-birindən fərqləndirmək lazım gəlir.

## 2. Totalitarizm və onun sosial nəticələri

XX əsrin 20-ci illərinədək olan dövrdə siyasi ədəbiyyatda totalitar (latın dilində «bütün, bütöv, tam, ümumi» mənasını verir) termininə təsadüf olunmurdu. 20-ci illərin əvvəllərində ilk dəfə bu termin İtaliyada Mussolininin faşist rejimini səciyyələndirmək üçün istifadə edilmişdi. Öz tənqidçilərindən bu termini mənimsəyən Mussolini İtaliya filosofu Covanni Centilenin xalqın mənəvi ruhunun təcəssümü, total siyasi strukturlarda fərdin əriyib itməsini nəzərdə tutan totalitar dövlət qurmaq ideyalarından istifadə edərək, belə bir dövləti qurmağı öz qarşısına məqsəd qoydu.

Almaniyada faşist rejiminin qurulması politoloqları həmin anlayışa bir daha müraciət etməyə məcbur etdi.

XX əsrin 40-50-ci illərində totalitarizm nəzəriyyəsi əsasən formalaşıb başa çatdı. Totalitarizm məsələləri üzrə ilk müfəssəl elmi əsərlər F.Xayekin «Köləliyə aparan yol» (1944), X.Arendin «Totalitarizmin mənbələri» (1951), K.Fridrix və Z.Bjezinskinin «Totalitar diktatura və avtokratiya» (1956), R.Aronun «Demokratiya və totalitarizm» kitablarıdır.

Totalitarizm siyasi həyatın reallığı kimi 20-ci əsrdə meydana gəlsə də onun ideya əsasları qədim köklərə malikdir. Totalitarizmin ideya əsaslarının inkişaf etdirilməsində utopik sosializmin nümayəndələrinin təlimlərinin xüsusi rolu olmuşdur. Bu ideya K.Marksın, V.Leninin siyasi baxışlarında daha qabarıq şəkildə üzə çıxdı.

Totalitarizmin meydana gəlməsi müəyyən sosial şərait zəminində mümkün olmuşdur. Onun ən ümumi şərti cəmiyyətin öz inkişafının sənaye mərhələsinə qədəm qoyması hesab olunur. Bu mərhələ kütləvi kommunikasiya sistemlərinin yaradılması, ictimai əlaqə və münasibətlərin mürəkkəbləşməsi, şəxsiyyətin davranışı və bütün həyatı üzərində nəzarəti həyata keçirməyə, ona fasiləsiz güclü ideoloji təsir göstərməyə imkan verən texniki vasitələrin icad edliməsi ilə səciyyələnir. Güclü inhisarçı təşkilatlar bütöv sahələri öz nəzarəti altına alır, dövlətin funksiyalarının genişlənməsi ilə bütün cəmiyyətin total surətdə idarə edilməsi sisteminə keçməyin mümkünlüyü haqqında fikirlərin yaranmasına gətirib çıxarır.

Totalitarizmin yaranmasında sənaye mərhələsində meydana çıxan yeni sosial əlaqələr sisteminin insanlarda doğurduğu psixoloji uyğunsuzluq və narahatçılıq halı da mühüm rol oynayır.

Totalitarizmin yaranmasına səbəb olan amillərdən biri də cəmiyyət həyatının mürəkkəbləşməsi, onun rasional idarə edilməsi ilə şəxsiyyətin azadlığı arasında ziddiyyətin dərinləşməsi hesab edilməlidir. Mussolini İtaliyada qurduğu total siyasi rejimə haqq qazandırmağa çalışaraq deyirdi: «Biz ilk dəfə olaraq bəyan etdik ki, sivilizasiya mürəkkəbləşdikcə şəxsiyyətin azadlığı məhdudlaşır».

Totalitarizmi yaradan siyasi şərtlər isə bunlar hesab olunur: cəmiyyətin totalitar hərəkatının nüvəsini təşkil edən sosial qruplardan ibarət siyasi qüvvənin yaranması (buraya əsasən marginal qruplar daxildir) və ifrat ideologiyalaşmış, güclü intizama əsaslanan, yarıhərbi struktura malik siyasi partiyaların təşkil edilməsi.

Totalitarizm nəzəriyyəsində bu siyasi rejimi səciyyələndirən əsas xüsusiyyətlər kimi aşağıdakılar göstərilir:

– totalitarizm elə bir rejimdir ki, orada vahid kütləvi partiya vardır və bütün hakimiyyət ona tabedir;

– partiyanın özü demokratik yolla deyil, liderin ətrafında təşkil olunmuşdur;

– cəmiyyətdə ümumməcburi ideologiya (marksist, faşist, dini və s.) hakimdir;

– hakimiyyətin məhdud qrup tərəfindən ələ alınması (uzurpasiya, latınca *ələ almaq*);

– vətəndaşların hüquq və azadlıqlarının qadağanlığı;

– şəxsiyyətin kollektivdə boğulması;

– ictimai həyatın bütün sferalarının total nəzarət altında olması;

– terrorçu polis nəzarətinin mövcudluğu. Polis bütün ölkələrdə olsa da, yalnız bu rejimdə o terrorçu rolunu oynayır. Kiminsə cəzalandırılması üçün onun günahını məh-

kəmə yolu ilə sübut etməyə ehtiyac yoxdur.

– imperiyanın başqa dövlətlərin azadlıq və müstəqilliklərinə qəsdi;

Totalitarizm cəmiyyətin və fərdin bütün həyatını dövlətin rasional nəzarəti altına qoymaq cəhdlərinin nəticəsi olaraq meydana gəlmişdir. Buna görə də onun meydana gəlməsində və fəaliyyət göstərməsində ideologiya mühüm rol oynayır. Totalitar cəmiyyətin ən səciyyəvi cəhəti bütün ictimai həyatın qəti şəkildə ideologiyalaşması, iqtisadi, sosial və mənəvi prosesləri bütünlükdə müəyyən baxışlar sistemi çərçivəsinə salmaq cəhdləridir. Həm də totalitar ideologiya ifrat fəal formada təzahür edir, bir növ inqilabi mahiyyət daşıyır. Onun başlıca xüsusiyyəti yeni cəmiyyət və yeni insan formalaşdırmaq zərurətini əsaslandırmaqdır (məsələn, keçmiş SSRİ-də başlıca məqsəd kimi sosializm cəmiyyəti qurulması və yeni sovet adamı formalaşdırmaq ideyası əsas götürülmüşdü).

Totalitarizm vətəndaş cəmiyyətinə zidd olduğundan, insanların sərbəst birliklərinə, mənafelərini ifadə etməsinə dözmür. Bu rejimdə siyasi müxalifətə yer yoxdur, rəsmi hakimiyyət və yeganə partiya bütün xalqın iradəsinin ifadəçisi olduğunu bəyan edir.

Totalitarizm özünəməxsus sosial və iqtisadi münasibətlər yaradır. O müəyyən sinfin (SSRİ-də fəhlə sinfinin), sosial qrupun (İtaliyada aristokratiyanın), millətin (Almaniyada alman millətinin) üstünlüyünü bəyan edir. Cəmiyyətdə məcburilik metodları vasitəsilə arzuolunan yekcinslik yaratmağa çalışır.

Totalitarizm bir sıra formalarda mövcud olmuşdur. Politoloqlar onun kommunizm (SSRİ-də sovet siyasi re-

jimi), faşizm (İtaliyada qurulan faşist rejimi) və milli sosializm (Almaniyada milli sosializm ideologiyası zəminində qurulan rejim) kimi formalarını göstərirlər. Buna bənzər rejimlər vaxtilə İspaniyada, Yunanıstanda, ÇXR-da və Şərqi Avropanın bir sıra ölkələrində də mövcud olmuşdur.

Siyasi praktikada totalitarizmin ilk tarixi forması kommunizm olmuşdur. Sovet siyasi rejimi totalitarizmin ən xarakterik, onun bütün əlamətlərini və xüsusiyyətlərini tam əks etdirən forması hesab olunur.

Sovet totalitarizmi Stalinin hakimiyyəti dövründə özünün ifrat formasına çatmışdı. Stalinizm SSRİ və bir sıra sosialist ölkələrində hakim olmuş siyasi hakimiyyət sistemi hesab olunur. Stalinizm iqtisadi sahədə vaxtı çatmamış sənayeləşdirmə, zorakı kollektivləşdirmə, bürokratik planlaşdırma, ekstensiv inkişaf yoluna üstünlük verilməsi, xüsusi güzəştlərə malik sosial qrupların meydana gəlməsi, əhalinin böyük əksəriyyətinin həyat şəraitinin aşağı səviyyədə saxlanılması, hakim partiya dövlət bürokratiyası tərəfindən ictimai əməyin yaratdığı izafi məhsulun mənimsənilməsi, siyasi sahədə demokratiyanın faktiki olaraq ləğv edilməsi, bürokratiya və rəhbərin qeyri-məhdud hakimiyyətdən ibarət sistemin yaradılması, demokratik seçki mexanizminin olmaması, milli münasibətlər sahəsində şovinizmin dirçəldilməsi, bütöv millətlərin deportasiyası, beynəlxalq kommunist hərəkatında bir partiyanın hegemonluğu və s. cəhətlərlə səciyyələnir.[1]

Sovet totalitarizminin xarakterik xüsusiyyətlərini

[1] Bax: Siyasi biliklərin əsasları, II cild. B., 1999, s. 84

özündə əks etdirən rejimlərdən biri də XX əsrin 50-ci illərində meydana gəlmiş, Maou rejimi hesab olunur. Bu ideya-siyasi cərəyanın əsasını Mao Tsze-dunun fikir və müddəaları təşkil edir. Maoizmin kökündə cəmiyyətin zoraki yolla dəyişdirilməsi, kazarma sosializminin yaradılması, Çinin qüdrətli dünya dövlətinə çevrilməsi və onun bütün dünya üzərində hegemonluğuna nail olmasına yönəlmiş ideyalar dayanırdı.

Totalitarizmin ikinci tarixi forması 1922-ci ildə İtaliyada qurulan faşist rejimidir. İtaliya faşizminin xüsusiyyəti onda idi ki, o yeni totalitar cəmiyyət qurmaq deyil, Roma imperiyasını XX əsrdə bərpa etmək, antik dövrün güclü hakimiyyəti formasını canlandırmaq və aristokratiyanın üstünlyünü bəyan etmək məqsədini qarşıya qoymuşdu.

Totalitarizmin üçüncü tarixi forması 1933-cü ildə Almaniyada milli sosializm ideologiyası zəminində qurulan totalitar faşist siyasi rejimi sayılır. Faşizmin ideya əsasını ifrat antidemokratizm, mürtəce irrasionalizm, rasizm, şovinizm kimi amillər təşkil edir. Alman faşizmi güclü, hətta qəddar, amansız hakimiyyəti təbliğ edir. Faşizm ideologiyasında millətin qan ümumiliyinə əsaslanan ən ali və əbədi varlıq olmaqdan ibarət nəzəriyyə xüsusi yer tutur. Bu rejim ali irqçiliyin hökmranlığına nail olmağı başlıca məqsəd hesab edirdi. Millətlərin ali və aşağı kateqoriyalara bölünməsi bu rejimin əsas xüsusiyyəti hesab olunurdu. Bu ifrat rejimə xas olan xarakterik xüsusiyyətlərdən biri də ümumi zorakılıq praktikası yaratmaqdan ibarət olmasıdır.

U.Çörçill faşizmi kommunizmlə əlaqələndirərək onu

kommunizmin kölgəsi, daha doğrusu eybəcər forması kimi xarakterizə etmişdir.

Alman milli sosializmi sovet kommunist sisteminin bir çox cəhətlərini özündə birləşdirir. Sovet sistemində «sinif» amili rolunda burada «millət» çıxış edir.

Totalitarizmin sosial və dövlət həyatının bütün sahələrində ciddi şəkildə riayət edilən, mühafizə edilən və zahirən sarsılmaz vahid prinsiplər sistemi kimi təzahür etməsi, habelə SSRİ-də rejimin uzun müddət dəyişmədən hökm sürməsi politoloqlar arasında belə bir qənaət yaratdı ki, totalitar rejimi islahatlar yolu ilə dyişdirmək olmaz, o ancaq məhv edilə bilər. Şübhəsiz, bu fikrin meydana çıxmasında totalitarizmin süqutu təcrübəsi böyük rol oynamışdır.

### 3. Avtoritarizm və onun dəyişilməsi meylləri

Avtoritar latın dilində au(s) toritos sözündən olub, hakimiyyət, təzyiq mənası verir. Avtoritarlıq qeyri-demokratik rejimləri və onlara uyğun olan siyasi şüur formalarını ifadə etmək üçün işlədilir. Sosiologiyada bu termin neomarksizmin nüfuzlu cərəyanlarından biri olan Frankfurt məktəbinin (XX əsrin 30-cu illərində formalaşmışdır) nümayəndələri (Xorkhaymer, Adorno, Fromm, Markuze və b.) tərəfindən irəli sürülmüşdür.

Avtoritarlığın totalitarlıqdan başlıca fərqi bundadır ki, burada hakimiyyət öz-özlüyündə total xarakter daşımır, yəni bu rejim vahid ideologiyaya deyil, milli birlik konsensiyasına əsaslanır. Avtoritarlıq şəraitində ictimai həyatın siyasi haikmiyyət tərəfindən nəzarət edilməyən

sahələri meydana çıxır. Avtoritarizmin bəzi növlərində demokratik rejimin bir sıra xüsusiyyətləri – seçkilər (lakin saxtalaşdırılır), siyasi partiyalar və s. mövcud olur. Avtoritarizm şəraitində güclü siyasi hakimiyyət azad iqtisadiyyatla birləşir.

Avtoritar rejim idarəetmədə hakimiyyətin mərkəzləşdirilməsi, rəhbərin qəti komanda (inzibati amirlik) metodu və şərtsiz itaətetmə kimi əlamətlərə üstünlük verir.

Avtoritar rejim şəraitində siyasi fəaliyyət ciddi surətdə reqlamentləşdirilir. Buna uyğun olaraq burada fəaliyyəti reqlamentləşdirilmiş leqal müxalifət mövcud olur. Bu rejimin antidemokratik xarakterini sübut edən mühüm cəhət ondan ibarətdir ki, burada baş verən sosial konfliktlər zamanı hakimiyyət orduya arxalanır. Vətəndaşların siyasi hakimiyyətə münasibəti özgələşmə ilə səciyyələnir, yəni onlar hakimiyyətdə iştirak etməkdən kənarda qalırlar.

Ümumiləşmiş şəkildə avtoritar siyasi rejimə aşağıdakı xüsusiyyətlər xasdır.

1. Avtokratiya (təkhakimiyyətlilik) və ya məhdud qrupun hakimiyyəti. Avtoritar rejimin başında bir nəfər (monarx) və ya qrup (hərbi xunta, oliqarxiya qrupu və s.) durur.

2. Hakimiyyətin qeyri-məhdudluğu, onun vətəndaşların nəzarətindən çıxması. Avtoritar rejimlərdə də qanunlar qəbul olunur, lakin bu qanunların qəbul edilməsi rejimin başında duran şəxsin iradəsindən asılıdır və onun mənafeyinə tabe edilmişdir.

3. Hakimiyyətin gücə arxalanması. Bu cəhət avtomatik surətdə güc tətbiq olunmasında ifadə olunmur. Avto-

ritar rejim kütlə arasında populyarlaşmaq üçün müxtəlif vasitələrə əl atır, lakin əhalinin hər bir narazılığı müqabilində istənilən vaxt güc tətbiq edilir.

4. Hakimiyyət və siyasət inhisarlaşır, real gücü təmsil edən müxalifətə və siyasi rəqabətə imkan verilmir (verildiyi halda ciddi nəzarətə alınması).

5. Siyasi elitanın təyinetmə yolu ilə formalaşması üsulunun üstün əhəmiyyət kəsb etməsi. Elitanın rəqabət mübarizəsi nəticəsində formalaşması avtoritarizmin sosial dayaqlarının həyati mənafelərinə zidd olduğundan, ona praktikada imkan verilmir.

6. Xalqın siyasətdən və hakimiyyətdən özgələşməsi. Hakimiyyətin və siyasətin inhisara alınması vətəndaşların bu sferalara müdaxilə etməsini məhdudlaşdırır. Rəsmi hakimiyyət əhalinin müxtəlif yollarla siyasətdən uzaqlaşdırılmasına çalışır. Bu məqsədlə istifadə edilən ən səmərəli üsullardan biri dövlətin iqtisadiyyatda vətəndaşlar üçün fəaliyyət azadlığı yaratmasıdır.

7. Vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması.

8. Vahid ideologiyanın olmaması və s.

Siyasi praktikada avtoritarizmin aşağıdakı növləri mövcud olmuş və olmaqda davam edir.

**Hərbi siyasi rejimlər**. Bu tip rejimlər üç qrupa bölünür.

1) Sərt diktatorçu, terrorçu təbiətə malik olan və şəxsi xarakterli hakimiyyət (Uqandadakı İ.Aminin rejimi).

2) Müvəqqətiliyi və iqtisadiyyatı modernləşdirməyə meylli Xunta (Latın Amerikası dövlətlərində mövcud olmuş).

3) Geniş sosial bazaya malik olan və uzun müddətli

xarakter kəsb edən təkpartiyalı sistem (keçmiş İraq, Suriya və s.).

Hərbi siyasi rejimlərdə hakimiyyətə gəlmiş xunta konstitusiyanın fəaliyyətini ya tamamilə, ya da müəyyən maddələrini dayandırır. Dövlət əhəmiyyətli qərarları xuntanın əmrləri əvəz edir (XX əsrin 70-ci illərində Çilidə Pinoçetin yaratdığı hərbi-avtoritar idarəçilik sistemində olduğu kimi).

- **Ənənəvi mütləq monarxiya avtoritarizmi** (Səudiyyə Ərəbistanı, Oman sultanlığı, Qatar və s.). Bu tip ölkələrdə siyasi rəqabətin səviyyəsi çox aşağıdır. Dövlət başçısı mütləq hakimdir.
- **Teokratiya avtoritarizmi.** Bu tip rejimdə hakimiyyət din xadimlərinin və ya onları dəstəkləyən siyasi qüvvələrin əlində cəmlənir. Teokratiya avtoritarizmi 1979-cu il inqilabından sonra İranda yarandı. Əlbəttə özünəməxsus cəhətlərinin məcmuu baxımından teokratik rejimlər bir-birindən fərqlənir (məsələn, Molla Ömərin vaxtilə Əfqanıstanda qurduğu teokratik diktatura).
- **Oliqarxiya avtoritarizmində** (vaxtilə Tunisdə, Filippində və s.) hakimiyyət bir neçə güclü ailənin və ya komprador burjuaziyanın əlində olur. Oliqarxiya avtoritarizminin başlıca əlamətlərindən biri hakimiyyətin iqtisadi və siyasi həyata nəzarəti hesab olunur.
- **Neoavtoritarizm** (yeni avtoritarizm). Belə rejimlər modernləşməyə meyilli olması ilə seçilir.

Avtoritar rejimləp müvəqqəti, keçici xarakterə malik olduğundan, o ya totalitar, ya da demokratik rejimlərə çevrilir. Avtoritar rejimlərin demokratiyaya keçidi prosesi

XX əsrin ikinci yarısından etibarən bəşər sivilizasiyasının inkişafı ilə bağlı olaraq sürətlənməyə başlamışdır.

Demokratik rejimə keçid (tranzit) bir neçə formada (yuxarıdan həyata keçirilən islahatlar, abdikasiya – köhnə rejimin iflası, tədrisi islahatlar) həyata keçirilir. Bu haqda ətraflı demokratiya və demokratik tranzit mövzusunda şərh olunacaq.

**Yoxlama xarakterli suallar**

1. Siyasi rejim nədir?
2. Siyasi praktikada totalitarizmin ilk tarixi forması harada mövcud olmuşdur?
3. Oliqarxiya avtoritarizminin başlıca əlamətlərindən birini göstərin.
4. Teokratiya avtoritarizmində hakimiyyət hansı qüvvələrin əlində cəmlənir?
5. «Totalitarizmin mənbələri» əsərinin müəllifini göstərin.
6. Milli sosializm ideologiyası zəminində qurulmuş rejimin başlıca məqsədini göstərin.

## X mövzu
## Siyasi partiyalar və partiya sistemləri

1. Partiyaların mənşəyi, mahiyyəti və hüquqi statusu
2. Partiyaların təsnifatı və funksiyaları
3. Partiya sistemlərinin inkişafında yeni meyllər

### 1. Partiyaların mənşəyi, mahiyyəti və hüquqi statusu

Siyasi partiyalar siyasi sistemin əsas komponentidir. Vətəndaş cəmiyyətinin təşəkkül tapmasında və siyasi sistemin demokratikləşməsi prosesində onların fəaliyyəti əsas meyarlardan biri hesab edilir.

Siyasi partiyaların fəaliyyəti hazırda dünyanın siyasi mənzərəsinin ayrılmaz ünsürünə çevrilmişdir. Dünyanın bütün ölkələrində bu və ya başqa sayda siyasi partiyalar və partiya sistemləri fəaliyyət göstərir. Lakin partiyaların yaranması prosesi hal-hazırda da davam etməkdədir. Siyasi partiyaların yaranması ilə bağlı elmi ədəbiyyatda fikir ayrılıqları mövcuddur. Tədqiqatçıların bir qismi belə hesab edir ki, siyasət adlanan fəaliyyət növü meydana gələn gündən siyasi partiyalar da mövcuddur, dəyişən yalnız onların funksiyaları və cəmiyyətin onlara olan münasibətidir.

Kontinental Avropa politoloqlarının fikrincə isə partiyaların meydana gəlməsi ümumi seçki hüququnun verilməsilə bir vaxta təsadüf edir. M.Dyuverje isə təsdiq edir ki, müasir siyasi partiyaların yaranması Qərb demokratiyasının inkişafı ilə bağlıdır.

İngilis-amerikan nəzəriyyəsinə görə isə siyasi par-

tiyaların tarixi XVII-XVIII əsrlərdən başlanır.

XVII əsrdən başlayaraq cəmiyyətdə partiyaların yaranması və tarixi təkamülü məsələləri geniş tədqiq olunmağa başlandı.

M.Veberin fikrincə siyasi partiyalar öz inkişafında üç başlıca mərhələdən keçmişdir (aristokratik qruplaşmalar, elitar klublar, siyasi partiyalar).

Aristokratik qruplaşmalar antik dövrdə qədim Yunanıstanda və Romada mövcud olmuş, orta əsrlərdə isə İngiltərədə geniş yayılmışdır («viqilər» və «torilər»). Orta əsrlərdə bu qruplaşmalar parlament çərçivəsində formalaşan seçki komitələri kimi fəaliyyət göstərmişdir.

XVIII-XIX əsrlərdə aristokratik qruplaşmalardan daha mükəmməl və güclü olan **siyasi (elitar) klublar** yarandı. Tədricən bu siyasi klublar elitar siyasi partiyaların yaranmasının əsasını qoydu. Partiyalar tərkibinin kütləviliyinə, seçicilərə təsir vasitələrinə görə siyasi klublardan xeyli fərqlənirdilər.

Cəmiyyətin aparıcı qüvvəsi kimi çıxış edən orta təbəqələrin siyasi fəallığının artması, vətəndaşların seçki hüquqlarının genişlənməsi, xalqların milli mənlik şüurunun yüksəlməsi, cəmiyyətin demokratikləşməsi meyllərinin güclənməsi və s. amillər siyasi partiyaların təşəkkülü və təkamülünə güclü təsir göstərmişdir.

Partiyaların tarixi təkamülü elitar xarakterli partiyaların kütləvi partiyalara çevrilməsi istiqamətində getmişdir. Qeyd edildiyi kimi ilk öncə elitar xarakter daşıyan, nisbətən dar bir qrupun mənafeyini ifadə edən bu partiyalar geniş xalq kütlələrinin siyasi prosesə qoşulması nəticəsində tezliklə kütləvi siyasi təşkilatlara çevrildilər. İngiltə-

rədə seçkiləri qeydə almağın liberal yoldaşlığı (1861), Almaniyada F.Lassalın Ümumalman fəhlə ittifaqı (1863) kimi geniş sosial bazası olan ilk kütləvi siyasi partiyalar meydana gəldi. Bununla da cəmiyyətdə kütləvi siyasi partiyaların yaranması prosesinin əsası qoyuldu.

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda da siyasi partiyalar yaranmağa başladı. 1904-cü ildə Hümmət adlı sosial-demokrat qrupunun yaranmasından az sonra ilk siyasi partiyalar yaranmağa başladı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Musavat, İttihad, Əhrar, sosial-demokrat və digər partiyalar fəaliyyət göstərmişdir. Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi partiyalar ləğv edildi və təkpartiyalı totalitar sistem formalaşdı. Lakin XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan öz dövlət müstəqilliyini yenidən elan etdikdən sonra Azərbaycanda çoxpartiyalı sistemin formalaşmasının əsası qoyuldu.

Siyasi partiyalar cəmiyyətin siyasi həyatına müəyyən ideologiyaların daşıyıcısı və dünyagörüşü sistemi kimi daxil olmuşdur. Siyasi partiyaların yaradılması getdikcə cəmiyyətdə siyasi plüralizm prinsiplərinin bərqərar olmasının nəticəsidir.

Siyasi partiyaların tarixi inkişaf xətti ilə yanaşı onların yaranması yolu da tədqiqatçılar tərəfindən geniş araşdırılır. Elmi mənbələr və araşdırmalar partiyaların yaradılmasının müxtəlif yollarını əsaslandırır.

1. Siyasi partiyaların ideoloji və digər prinsiplər əsasında müəyyən qrup tərəfindən yaradılması. Bu istiqamət bir neçə variantda nəzərdən keçirilə bilər:

- ümumi demokratik dəyərlərə əsaslanan partiyala-

rın yaranması;

• fəhlə hərəkatının təsiri altında yaranan siyasi partiyalar (kommunist və sosialist tpli partiyalar);

• həmkarlar ittifaqının bazası əsasında yaranan partiyalar (İngiltərə leyboristlər partiyası);

• milli-azadlıq hərəkatı nəticəsində yaranan partiyalar (bu tip partiyalar müstəqillik uğrunda mübarizə aparan və ya bu ərəfədə olan ölkələrdə yaranması ilə müşahidə olunur);

• hərbi dərnəklərin fəaliyyəti nəticəsində partiyaların yaranması (faşist tpli partiyaların yaranmasında özünü göstərmişdir);

• dini baxışlar zəminində yaranan partiyalar (adətən bu xristian ölkələrində xristian-demokrat, islam ölkələrində isə islam partiyaları olur);

2. Kliyentel partiyalar – cəmiyyətdə böyük nüfuzu olan bir şəxsin irəli sürdüyü ideoloji xətt və prinsiplər üzərində yaranan partiyalar. Bu o zaman baş verir ki, həmin şəxsin cəmiyyətdə və siyasətdə xüsusi çəkisi olur və özü də müəyyən prinsiplərin simvoluna və daşıyıcısına çevrilmiş olur (Fransada Ş.De Qolun kliyenteli ətrafında yaranmış Respublikaya yardım uğrunda birlik partiyası).

3. Elektoral yol (yarandığı andan parlamentdə təmsil olunan partiyalar). Bu halda müəyyən siyasi mənsubiyyətli parlament və ya digər seçkili orqanın üzvləri təşəbbüs qrupu yaradaraq yuxarıdan siyasi partiyanı təsis edirlər. Partiyanın aşağı orqanları isə sonradan yaranır.[1]

---

[1] Bax: Mirzəzadə A. Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri. B., 2001, s. 20

Siyasi partiyaları başqa ictimai birliklərdən fərqləndirən başlıca cəhət ondan ibarətdir ki, onlar parlament və hökumətdə yer əldə etmək üçün açıq şəkildə siyasi mübarizə aparır, siyasi prosesin bütün mərhələlərində (seçkilərdə, dövlət orqanlarının təşkilində, siyasi və dövlət qərarlarının qəbulunda və onların həyata keçirilməsində) sivil və fəal qaydada iştirak edirlər.

Siyasi partiya anlayışının tərkib elementləri aşağıdakılardır:

- vahid siyasi ideya və məqsəd;
- ölkənin siyasi həyatında iştirak;
- könüllü birlik;
- partiyaya üzv olmaq hüququnun yalnız həmin ölkənin vətəndaşlarına mənsubluğu;
- cəmiyyətin müəyyən hissəsinin avanqardı, aparıcı qüvvəsi olması və s.

Siyasi elmə dair ədəbiyyatda partiyaya dair çoxlu sayda tərif verilmişdir. Bu problemi tədqiq edən alimlər onun müxtəlif cəhətlərini, yaranma şəraitini, təsnifatını verərkən partiyanın ümumi, hamı tərəfindən qəbul edilmiş variantının yaradılmasının qeyri-mümkün olduğunu qeyd etmişlər. Bu isə tədqiq edilən problemin daha çoxaspektli olmasından irəli gəlir. Universal tərifin yaradılması belə halda adətən mümkün olmur. Bu baxımdan tədqiqatçılar problemə özünəməxsus tərzdə yanaşmağı məqsədəuyğun hesab edirlər.

Partiyaların ilk tərifini verməyə çalışan ingilis alimi Byork (XIX əsrin əvvəlləri) olmuşdur. Onun fikrincə partiya ümumi prinsipləri rəhbər tutan və birgə səylərlə milli

mənafeləri təmin etmək üçün birləşən adamlar qrupudur.

R.Şvarsenberqə görə isə, siyasi partiya həm milli və eləcə də yerli səviyyədə mövcud olan, hakimiyyəti ələ almağa və yola salmağa istiqamətlənən və bu məqsədlə geniş kütlələr tərəfindən müdafiə olunmağa cəhd edən, fasiləsiz fəaliyyət göstərən təşkilatdır.

Siyasi partiyalar haqqında Azərbaycan Respublikası Qanununda isə göstərilir ki, siyasi partiya dedikdə ümumi siyasi ideyaları və məqsədləri olan, ölkənin siyasi həyatında iştirak edən vətəndaşların birlikləri nəzərdə tutulur. Deyilənləri yekunlaşdıraraq siyasi partiyaya belə tərif vermək olar. Partiya kütlələri siyasi cəhətdən sosiallaşdıran və ya siyasi proseslərə cəlb edən, hakimiyyəti ələ almaq, yaxud hakimiyyətin təşkilində iştirak etmək məqsədini qarşısına qoyan, ideoloji və digər prinsiplər zəminində formalaşan və mütəşəkkil fəaliyyət göstərən könüllü təşkilatdır.

Çoxsaylı təriflərdən göründüyü kimi partiyalar aşağıdakı əlamətləri özündə birləşdirir:

- təşkilatın spesifik növüdür;
- ümumi ideoloji dəyər əsasında birləşən qrupdur;
- müəyyən sosial qrupların ümumi mənafeyini təmsil edən daha fəal hissədir;
- hakimiyyət uğrunda mübarizə aparan təşkilatdır.

Qanunvericiliyə əsasən siyasi partiyalar heç bir biznes fəaliyyəti ilə məşğul olmaq hüququna malik deyil.

Partiyaların fəaliyyəti ilə bağlı mühüm məsələlərdən biri siyasi sistemdə onların yerinin qanunvericilik yolu ilə müəyyən edilməsidir. Partiyaların fəaliyyətini hüquqi tən-

zimetmə (partiyaların hüquqi təsisatlandırılması) müasir siyasi sistemlərdə onların oynadığı mühüm roldan irəli gəlir. Əvvəllər partiyaların fəaliyyətinin hüquqi tənzimtemə mexanizmi olmamış, sözün əsl mənasında bu proses yalnız İkinci dünya müharibəsindən sonra başlanmışdır.

Hazırda dünyanın əksər ölkələrində konstitusiyalar və qəbul olunmuş digər normativ aktlar (məs. Siyasi partiyalar haqqında qanun) ictimai və siyasi həyatda partiyaların yerini müəyyən edir, siyasi sistemdə onun fəaliyyətinin şərtlərini aydınlaşdırır, dövlət haikmiyyəti orqanlarında partiyaların təmsil olunması qaydasını, seçkilərdə onun iştirak mexanizmini, partiyaların dövlət tərəfindən maliyyələşdirilməsini rəsmiləşdirir. Lakin partiyaların fəaliyyətinin hüquqi tənzimlənməsi heç də həmişə qanunauyğun olaraq getmir. Bəzi ölkələrdə siyasi partiyaların fəaliyyəti hüquqi normativ aktlarla deyil, siyasi ənənələrlə tənzimlənir. Burada siyasi partiyalar özlərini elan etdikləri gündən partiya hüququnu əldə edir və siyasi proseslərə qoşulur.

Siyasi partiyaların fəaliyyəti qanunla tənzimlənən ölkələrdə də hüquqi tələblər kəskin fərqlənir. Bəzi ölkələrdə ayrı-ayrı normativ aktlar olsa da ölkənin əsas qanununda bu məsələ ilə bağlı heç bir fikir söylənilmir (məs. ABŞ-da).

Bir sıra ölkələrin konstitusiyalarında (İtaliya, Yaponiya, Almaniya, Fransa, Yunanıstan, Portuqaliya, İspaniya və s.) isə vətəndaşların siyasi partiya yaratmaq hüququ təsbit edilir. Azərbaycan Respublikasının Konstitusiyasında da vətəndaşların siyasi partiya yaratmaq, onun fəaliyyətində iştirak hüququ təsbit edilmişdir (maddə 58). Siyasi partiyaların hüquqi tənzimlənməsi prosesində əsas

şərtlərdən biri onların qeydiyyatının aparılması formalarının müəyyənləşdirilməsidir. Bəzi ölkələrdə qanunvericilik siyasi partiyaların formal olaraq hər hansı dövlət orqanında şərti qeydiyyat tələblərini irəli sürmür. Partiyalar müəyyən edilmiş dövlət orqanına müvafiq partiya sənədlərini təqdim etməklə hüquqi status əldə edir (məsələn, İsveçdə olduğu kimi). Bir sıra ölkələrdə isə siyasi partiyaların məcburi qeydiyyatı aparılır. Ayrı-ayrı ölklərdə bu prosedura müxtəlif dövlət orqanları tərəfindən yerinə yetirilir. Siyasi partiyaların qeydiyyatı ilə məşğul olan dövlət orqanlarından Ədliyyə Nazirliyi (Azərbaycan Respublikası, Rusiya Federasiyası, Niderland və s.), Daxili İşlər Nazirliyi (İspaniya, İtaliya, Fransa, Çexiya və s.), Ali Məhkəmə (Portuqaliya, Anqola və s.), Paytaxtın şəhər məhkəməsi (Bolqarıstan), Mərkəzi seçki komissiyasını (Braziliya, Hindistan, Meksika, İsveç və s.) göstərmək olar.

Bir sıra ölkələrdə siyasi partiyaların hüquqi status alması üçün qanunvericiliklə nəzərdə tutulmuş minimal sayda üzvlərin olması qaydası müəyyənləşdirilmişdir. Azərbaycanda və Macarıstanda 1000 nəfər, Portuqaliyada 5 min nəfər, Ukraynada 10 min nəfər, Meksikada 65 min nəfər, RF-da 500 nəfər və s.

Hüquqi tənzimlənməyə uyğun olaraq bəzi ölkələrin qanunvericiliyində partiyaların şərti və qəti qeydiyyatı nəzərdə tutulur. Şərti qeydiyyata alınma üçün partiyanın bir neçə il müddətində siyasi fəaliyyətlə məşğul olması vacibdir. Bu zaman partiyalara ümumdövlət seçkilərində öz namizədlərini irəli sürmək hüququ verilir. Qəti qeydiyyata alınmaq üçün isə o, belə seçkilərdə səslərin müəyyən sayı-

nı toplamalıdır (Meksikada 1,5%-dən az olmayaraq).

Hər bir ölkənin qanunvericiliyində siyasi partiyaların hüquqi təsisatlandırılmasında önəmli məsələlərdən biri də onların maliyyələşməsi və bu fəaliyyət üzərində nəzarətdir. Partiyaların başlıca maliyyə mənbələri üzvlük haqqı, mətbuu orqanlar və nəşrlərdən əldə edilən vəsait, ianələr və dövlət tərəfindən maliyyələşdirmədir. Dövlət tərəfindən maliyyələşdirmə bir sıra ölkələrin qanunvericiliyində qadağan edilsə də bəzi ölkələrdə buna icazə verilir (Almaniya, Danimarka, Finlandiya, İtaliya və s.). Siyasi partiyalar haqqında qanuna dəyişikliklə əlaqədar olaraq hazırda Azərbaycanda da partiyaların dövlət tərəfindən maliyyələşdirilməsi həyata keçirilir (qanunvericiliyə əsasən Azərbaycan Respublikasında partiyaların dövlət tərəfindən maliyyələşdirilməsi bu qaydada həyata keçirilir (maddə 17-1) – 10%-i son seçkilərdə etibarlı səslərin ən azı 3%-ni qazanmış, lakin Milli Məclisdə təmsil olunmayan partiyalar arasında qazanılmış səslərin sayına proporsional olaraq; 40%-i Milli Məclisdə təmsil olunan siyasi partiyalar arasında bərabər; 50%-i isə seçilmiş deputatların sayına proporsional olaraq bölünür).

Siyasi partiyaların hüquqi tənzimlənməsində vacib şərtlərdən biri də onların ləğvi prosedurasıdır. Hər bir ölkənin qanunvericiliyinə əsasən partiyaların fəaliyyətinin dayandırılması, ləğvi və məcburi buraxılması prinsipləri əsaslandırılır. Partiyaların fəaliyyətinin dayandırılması və ləğvi üçün ciddi əsas kimi konstitusiyanın, qanunların və nizamnamədəki məqsədlərin pozulması çıxış edir. Məcburi buraxılma qərarı qanunvericiliyə uyğun olaraq müvafiq məhkəmə orqanı tərəfindən verilə bilər. Almaniyada par-

tiya fəaliyyətinin konstitusiyaya uyğunluğunu həll etmək qanunla Federal Konstitusiya Məhkəməsinə həvalə edilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyində partiyaların buraxılması deyil, ləğv edilməsi qaydası nəzərdə tutulmuşdur. Siyasi partiyanın ləğvi məhkəmənin qərarı ilə həyata keçirilir. Təqdimat isə Ədliyyə Nazirliyi tərəfindən verilir.

Bəzi ölkələrin qanunvericiliyində siyasi partiyaların buraxılması və yaxud ləğvi proseduraSı nəzərdə tutulmasa da məhkəmə araşdırması son nəticədə bu varianta gətirib çıxara bilər (Danimarka qanunvericiliyinə görə).

Siyasi partiyaların hüquqi tənzimlənməsi və sonrakı fəaliyyəti zamanı zəruri məsələlərdən biri də onların təşkilati prinsiplərinin müəyyənləşməsidir. Əksər ölkələrin qanunvericiliyi partiyaların demokratik prinsiplər çərçivəsində qurulması və öz fəaliyyətində bu prinsiplərə əsaslanmağı nəzərdə tutur.

Göründüyü kimi qanunvericilik aktları bir tərəfdən dövlətin mövcud problemlə əlaqədar mövqeyini göstərir, digər tərəfdən isə, siyasi partiyaların cəmiyyətdə oynadığı rolu daha dəqiq müəyyən etməyə imkan verir.

## 2. Partiyaların təsnifatı və funksiyaları

Siyasi partiyaların fəaliyyətinin düzgün qiymətləndirilməsi üçün zəruri şərtlərdən biri onların təsnifatının sistemləşdirilməsidir. Partiyaların təsnifatı ilə bağlı siyasi ədəbiyyatda müxtəlif baxışlar formalaşmışdır. Dünyada mövcud olan partiyalar öz ideologiyalarına, sosial tərki-

binə, daxili quruluşuna, fəaliyyət metodlarına görə fərqlənir. Mövcud siyasi partiyaları qruplaşdırmaq və təsnifatını vermək üçün ilk növbədə onları müəyyən xüsusiyyətlərinə görə ayırmaq lazımdır:

- kimlərin maraqları qorunur və hansı məqsədlər güdülür;
- məqsədə çatmaq üçün hansı metodlardan istifadə olunur;
- siyasi partiya öz fəaliyyətini seçkilərlə məhdudlaşdırır, yoxsa daimi siyasi proseslərə öz mövqeyini bildirir;
- siyasi partiya hansı təşkilati prinsiplərə əsaslanır və partiyadaxili həyatda demokratik amillərin üstünlyü özünü necə biruzə verir? və s.

Sadalanan xüsusiyyətlər siyasi partiyaların müəyyən tpini müəyyənləşdirməyə kömək edir. Partiyaların tipi onların elə vacib əlamətidir ki, orada partiyanın sosial təbiəti, ideoloji əsasları, əsas sosial aparıcı funksiyaları, daxili quruluşunun xüsusiyyətləri və üstünlük təşkil edən fəaliyyət metodları əks olunur.

Partiyaların təsnifatı xeyli müxtəlif partiya təşkilatlarını sistemləşdirmək üçün istifadə olunan mücərrəd sistemdir. Konkret siyasi reallıqda partiya müxtəlif təşkilatların səciyyəvi xüsusiyyətlərini özündə əks etdirə bilər.

Partiyaların ilk təsnifatını XVIII əsrin ortalarında ingilis filosofu D.Yum vermişdir. Onun fikrincə, ümumi mənafe zəminində «mənafe partiyaları», liderlə bağlı «affekt partiyaları» və ümumi prinsipə əsaslanan «prinsip partiyaları» bir-birindən fərqləndirilməlidir.

Müasir siyasi elmdə partiyaların klassik təsnfiatı

M.Dyuverjenin «Siyasi partiyalar» adlı əsərindən götürülüb. O partiyaları **kadr və kütləvi partiyalara** bölürdü. Burada söhbət, əlbəttə ki, kadr partiyalarla kütləvi partiyalar arasındakı fərqin böyüklüyündən və üzvlərin sayından deyil, daha çox quruluş fərqinə görə bölgüdən gedir.

Kütləvi partiyalarda üzvlərin seçkilərdə iştirakı və qələbəsi üçün küllü miqdarda pul vəsaitinin əldə edilməsi probleminə xüsusi diqqət yetirilir. Belə ki, partiyaların irəli sürdükləri namizədlərin, adətən şəxsi maliyyə imkanları məhdud olur və buna görə də onlar böyük sərmayəçilərə, bankirlərə, iş adamlarına yardım üçün müraciət edirlər. Bu isə namizədin həmin insanlardan asılılığına gətirib çıxarır. Problemin həlli üçün «kütləvi partiya»larda üzvlük haqqları və könüllü yardımların yığılması təcrübəsindən geniş istifadə olunur.

Kadr partiyaları kütləvi partiyalarla müqayisədə tamamilə fərqlidir. Burada seçkiləri hazırlamaq, kampaniyanı təşkil etmək üçün seçicilərin özlərini müəyyən mənada bir yerə toplamaq lazım gəlir. Bu seçicilər bilavasitə kadr partiyalarının üzhvləri hesab olunur. M.Dyuverjenin təbirincə desək, ilk növbədə nüfuzu və əlaqələri sayəsində namizədi müdafiə edə biləcək nüfuzlu adamlar, seçiciləri isiqamətləndirən və seçki kampaniyasını təşkil etməyi bacaran ekspertlər və mübarizəni pul və maddi ehtiyatlarla təmin edən maliyyəçilərdir.

Kadr partiyalarında partiyaya üzvlük də çox fərqlidir. Belə ki, burada əvvəlcədən müəyyən elilmiş insanlar öz qabiliyyətlərinə və statuslarına əsasən tamamilə fərdi şəkildə bu qrupa daxil edilir. Bu proses az sayda insana aid edilir. Bu o deməkdir ki, kadr partiyaları amorf

üzvlüklə, partiyaya rəsmi qəbul olunma mexanizminin və ciddi müəyyən olunmuş üzvlük statusunun olmaması ilə səciyyələnən təşkilatdır.

Kütləvi və kadr partiyalarının təhlili göstərir ki, onların bu və ya digər modelə tam uyğun gəlməsini ayırd etmək çox çətindir. Belə ki, bəzən kadr partiyaları kütləvi partiyaları təqlid edərək qapılarını öz üzvlərinin üzünə açır. Bu isə onun məhz hansı tipə aid olmasını müəyyənləşdirməkdə çətinlik yaradır. Ümumiyyətlə, dünyada sırf kadr partiyaları çox azdır. Onu digərindən fərqləndirmək üçün ən düzgün meyar üzvlərin qeydiyyata alınmaması və üzvlük haqlarının ardıcıl toplanmaması ola bilər. Həmçinin kadr və kütləvi partiyalar arasındakı fərq onların təşkili ilə də bağlıdır. Kadr partiyaları federal və zəif birləşmiş partiyalara, kütləvi partiyalar isə, əksinə, daha çox mərkəzçi və sıx birləşmiş partiyalara oxşayır. Bəzi müəlliflərin fikrincə partiyaların çoxistiqamətli inkişafı nəticəsində həm kütləvi və həm də kadr partiyalarından fərqlənən üçüncü tip partiyalar ortaya çıxmışdır. Bu tip partiyalar kütləvi partiyalardan daha qapalı və kadr partiyalarından isə nisbətən açıqdır.

M.Dyuverje özünün təsnifatına **bilavasitə partiyaları da** daxil etmişdir. Bu tip partiyalar onunla fərqlənir ki, həmkarlar ittifaqının üzvü olan şəxs əgər etiraz etmirsə, onda avtomatik həmin partiyanın üzvü olur.

M.Dyuverje partiyaları **zəif və güclü struktura malik partiyalar** kimi də təsnif etməyi tövsiyə edirdi. O partiyaları zəif və güclü struktura malik partiyalar kimi iki qrupa da ayırırdı. O qeyd edirdi ki, məsələn, mühafizəkarlar partiyası kadr partiyası, leyboristlər isə bilavasitə partiya-

lardır. Lakin hər iki partiyanın daxili intizamına əsasən onun parlamentdəki deputatları həmin partiyanın deputat qrupunun direktivlərinə tabe olmalıdır. Deməli, bu partiyalar güclü struktura malik olan partiyalardır. ABŞ-da isə demokratlar və respublikaçılar partiyasından olan deputatlar konqresdə tam səsvermə azadlığına malikdirlər. Bu mənada həmin partiyalar zəif struktura malikdir.

Stiv Kouen isə partiyaların təsnifatını aşağıdakı kimi təklif edir:

- **totalitar partiyalar** (möhkəm intizamlı, yad fikirliliyi boğması, dövlət və cəmiyyəti özünün tam nəzarətində saxlamaq istəyi ilə fərqlənir);
- **parlament partiyaları** (seçkilərdə öz namizədlərini irəli sürür və qələbə qazanmasına kömək edir. Partiya özünün parlament fraksiyaları ilə daimi əlaqə saxlayır, yaxud seçkiləri idarə edir);
- **seçki maşını partiyaları** (təkcə seçki kampaniyası ilə məşğul olur, faktiki olaraq partiya aparatına malik deyil və hər namizəd partiya bayrağı altında öz komandasını formalaşdırır);
- **hərəkat partiyaları** (hakimiyyətə nail olmaqdan daha çox, konkret problemin həllində hökumət orqanlarına təzyiq göstərmək üçün cəmiyyətin səfərbər edilməsi məqsədini güdürlər. Məsələn, yaşıllar, müharibə əleyhinə, qadınlar hərəkatı və s.).

Siyasi partiyaların təsnifatını verən politoloqlardan biri də ispan politoloqu L.S.Sanisteban hesab olunur. O partiyaları **yarışqan** və **inhisarçı** partiyalara bölür. Plüralist sistemdə olan yarışqan partiyalar ya siyasi sistemdə ali ha-

kimiyyəti həyata keçirir, ya da bu hakimiyyət uğrunda sağlam mübarizə aparırlar. İnhisarçı partiya (tək partiya kimi) isə siyasi sistemdən digər partiyaları sıxışdırıb çıxararaq ali hakimiyyəti təkbaşına idarə edir.

Partiyaların təsnifatına dair mülahizələrdə **harizmalı, ənənəvi və rasional** partiyalara da təsadüf edilir. Harizmalı partiyalar liderə tam inama, ənənəvi partiyalar yüksək statusa malik olan şəxslərin sosial nüfuzuna, rasional partiyalar isə liderin və bürokratik aparatın rolunu müəyyən edən nizamnamə normalarına əsaslanır.

Siyasi partiyaların təsnifatında **səfərbəredici partiyalara** da diqqət yetirilir. Həmin partiyaların məqsədi əhalini hər hansı vəzifənin yerinə yetirilməsinə səfərbər etməkdir. Bu kateqoriyaya keçmiş sosialist ölkələrinin əksər partiyalarını aid etmək olar.

Siyasi ədəbiyyatda **patronaj partiya**lardan da bəhs olunur. Belə tipli partiya əsasən lider və onun ətrafı üçün yaradılır.

Elə partiyalar da vardır ki, onun sıralarına qəbul fərdi və kollektiv şəkildə həyata keçirilir (başqa təşkilatlar, məsələn, həmkarlar ittifaqları tərəfindən). Belə partiyaları **bilavasitə** partiyalar adlandırırlar.

Siyasi ədəbiyyatda partiyaların **ideoloji əlamətlərə görə** təsnifatı da diqqəti cəlb edir. Bu zaman inqilabçı, islahatçı, mühafizəkar partiyalardan bəhs olunur.

Müasir siyasi elmdə partiyaların **sinfi əlamətinə görə** bölgüsü də verilir. Bu bölgünü həm siniflər, həm də sosial qruplar üzrə aparmaq olar. Lakin son zamanlar inkişaf etmiş ölkələrdə qarışıq sosial bazaya malik siyasi partiyaların yaranması prosesi gücləndiyinə görə partiyaların sin-

fi təsnifatı əsasən nisbi xarakter daşıyır. Müəyyən bir sinfin mənafeyini bir neçə siyasi partiya müdafiə edir. Siyasi partiyanın adı heç də onun məzmununu əks etdirmir. Buna görə də eyni adlı partiyalar müxtəlif ölkələrdə müxtəlif ideoloji və siyasi mövqe tuta bilər.

**Rəsmi dövlət orqanlarında qeydiyyatına və siyasi sistemdəki yerinə görə** siyasi partiyalar: leqal və qeyri-leqal vəziyyətdə olur. Rəsmi dövlət qeydiyyatından keçən və müvafiq hüquqi üstünlüklərə malik olan partiyalar leqal partiyalar adlanır. Leqallıq siyasi partiyalara seçkilərdə öz namizədini irəli sürməyə, seçkilərdən təbliğat tribunası kimi istifadə etməyə, bankda hesab açmağa, kütləvi mətbuat vasitələrindən istifadə etməyə, bəzi ölkələrdə isə dövlətdən maddi yardım almağa imkan verir. Müəyyən səbəblərə görə qeydiyyata düşə bilməyən, ancaq cəmiyyətdə açıq fəaliyyət göstərən siyasi partiyalar yarımleqal partiyalar adlanır. Belə partiyalar gec-tez qanunun şərtlərini yerinə yetirib qeydiyyatdan keçir, ya qeydiyyatda olan partiyaların tərkibinə daxil olur, ya da müəyyən mərhələdə fəaliyyətini dayandırır. Fəaliyyəti səlahiyyətli orqanlar tərəfindən dayandırılmış və ya qanunla qadağan olunmuş prinsiplər əsasında yaradılmış və gizli fəaliyyət göstərən siyasi partiyalar qeyri-leqal partiyalar adlanır. Bir çox ölkələrdə belə partiyaların yaradılması, fəaliyyəti və ora üzvlük cinayət sayılır.

**Partiya rəhbərliyinin öz partiya üzvlərinə olan münasibətinə görə** partiyalar demokratik və avtoritar (və ya totalitar) partiyalara da bölünə bilər. Bəzi elmi mənbələrdə totalitar partiyalar üç prinsipə görə fərqləndirilir.

- Partiyadaxili həyat. Partiya üzvlyünü rəsmiləşdi-

rən, ciddi intizama riayət edən, heç bir fraksiyası olmayan, fikir ayrılığına, azlıq və çoxluq bölgüsünə yol verməyən, öz fəaliyyətində ideoloji amilə böyük əhəmiyyət verən partiyalar totalitar partiya hesab olunur.

• Partiyanın cəmiyyətə münasibəti. Totalitar partiyalar, bir qayda olaraq siyasi hakimiyyət uğrunda mübarizə dövründə mövcud quruluşdan narazı olanları birləşdirir, hakimiyyəti ələ alandan sonra isə başqa partiyaları siyasi səhnədən götürür, bütün sinifləri və qrupları öz məqsədlərinə tabe etməyə çalışırlar.

• Totalitar partiyalar hakimiyyətdə olarkən siyasi həyatın ayrı-ayrı ünsürlərini, ilk növbədə dövləti partiya aparatına tabe etdirirlər.

Fəaliyyəti bu prinsiplərə əks olan siyasi partiyalar isə demokratik partiya adlana bilər.

**Siyasi partiyaların təsnifatında partiya rəhbərliyi təsisatına görə** də bölgüyə təsadüf olunur. Bu zaman kollektiv rəhbərliyi olan, lider başda olmaqla kollektiv rəhbərliyi olan, harizmalı rəhbərliyi olan partiyalar nəzərdən keçirilir.

**Siyasi partiyaların siyasi spektirdəki yerinə görə** təsnifatı da diqqəti cəlb edir. Bu zaman partiyaları sollara, mərkəzçilərə və sağlara bölürlər. Sollar deyəndə adətən kommunist və sosial demokratlar diqqəti cəlb edir. Sosial-demokratlar kommunistlərə münasibətdə soldan mərkəzə meyl etməsi ilə fərqlənir. Onlar demokratik sosializm prinsiplərini əldə rəhbər tutur və hakimiyyətə gəlməyin yeganə yolunu seçkilərdə qələbəyə nail olunması və demokratik islahatların aparılmasında görürlər. Belə partiyalara misal olaraq İsveçin sosial-demokrat fəhlə partiya-

sını göstərmək olar. Bu partiyanın proqramında «firavanlıq cəmiyyəti» xətti əsaslandırılmışdır. Sağ təmayüllü partiyaların daxilində mərkəzə meyillilik diqqəti cəlb edir. Bu partiyalar daha çox sağ mərkəzçi partiyalar kimi tanınır. Belə partiyalara misal olaraq ABŞ-da respublikaçıları, İngiltərədə mühafizəkarları, Almaniyada xrsitian-demokratları və digərlərini göstərmək olar. Sağ mərkəzçilər öz proqramlarında daha çox sahibkarlığın inkişaf etdirilməsi üçün vergi dərəcələrinin azaldılması, dövlət aparatının sadələşdrilməsi və digər tələblərə üstünlük verirlər. Sağ mərkəzçilər dünyada öz təşkilatlarını – Beynəlxalq Demokrat İttifaqını yaratmışlar.

Siyasi partiyaların təsnifatı əslində nisbi xarakter daşıyır. Zənnimizcə, hər hansı bir təsnifata üstünlük verilməsi düzgün deyil. Belə ki, bir siyasi partiyada bir neçə təsnifatın əlamətləri ola bilər. Məsələn, hansısa bir partiya həm kütləvi, həm mötədil, həm demokratik, həm də iqtidar partiyası ola bilər. Seçilmiş meyardan asılı olaraq tamamilə yeni təsnifat da yarana bilər.

Siyasi partiyaların cəmiyyətdə əhəmiyyətini göstərən amillərdən biri də elektoratdır. Elektorat daima bir partiyaya səs verən və öz partiyası ilə mənəvi tellərlə bağlı olan seçicilərə deyilir. Demokratik cəmiyyətlərdə partiyaların rolu ona səs verən seçicilərin sayı ilə müəyyənləşir. Adətən səs verən seçicilərin sayı partiya üzvlərinin sayından çox olur. Fərqin böyük olması partiyanın uğuru sayılır və onun əhali arasında nüfuzu və populyarlığını göstərir. Elektorat siyasi partiyanın rəsmi strukturuna daxil olmasa da, bəzi tədqiqatçıların rəyi ilə razılaşaraq onu təşkilatın ilkin həlqəsi hesab etmək olar. Elektoratın də-

qiq sayını təyin etmək çətindir, bununla belə onsuz heç bir siyasi partiya mövcud deyildir. Siyasi partiyalar getdikcə daha çox konkret bir sosial qrupun deyil, bütün cəmiyyətin mənafeyini təmsil etməyə maraq göstərirlər.

Siyasi partiyalar öz təşkilat strukturlarını sadələşdirməyə çalışır, daha çevik idarəçilik sistemi yaradırlar. Bir sıra partiyalar öz partiya aparatında çalışan ştatlı işçilərin sayını azaldır, fəallar vasitəsilə işləməyə üstünlük verir.

Partiyaların funksiyalarının xarakteri və məcmusu onların təsnifatı ilə sıx bağlı olduğu üçün biz onları kompleks şəkildə nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik. Siyasi partiyaların funksiyaları konkret tarixi xarakter daşıyır. Belə ki, partiyanın funksiyalarının əhatə dərəcəsi, rəngarəngliyi, ixtisaslaşması konkret siyasi sistemin, rejimin xüsusiyyətlərindən, vətəndaş cəmiyyətinin vəziyyətindən bütövlükdə isə bu və ya digər ölkənin sosial-siyasi inkişaf səviyyəsindən asılıdır.

Siyasi partiyalar çoxsaylı funksiyalara malikdir. Siyasi elmə aid müasir ədəbiyyatda həmin funksiyalar həm ümumi, həm də konkret şəkildə müəyyənləşdirilir. Partiyaların funksiyalarını ümumi formada səciyyələndirərkən müəlliflər bu siyasi təsisatın mahiyyətindən çıxış edirlər. Həmin ümumi funksiyalardan başlıcası siyasi sistemdə müxtəlif sosial qrupların mənafelərinin müdafiə olunmasının ümumiləşmiş formada üzə çıxarılması və ifadə edilməsidir. Xarici ədəbiyyatda həmin funksiya **mənafelərin artikulyasiyası və aqreqasiyası** kimi səciyyələndirilir. İkinci və az əhəmiyyətli olmayan funksiya isə **ictimai qrupların sosial mənafelərini əks etdirən ideologiyanın və siyasi dok-**

**trinanın işlənməsi** hesab olunur.

İndi də siyasi partiyaların konkret funksiyalarının təhlilinə keçək. Bu funksiyalardan ən əhəmiyyətlisi aşağıdakılar hesab olunur.

- Siyasi sistemin bütün səviyyələri üçün siyasi liderlərin seçilməsi və cəlb edilməsi. Peşəkar siyasətçilərin irəli sürülməsinə baxmayaraq, cəmiyyət və dövlət işlərinin idarə olunmasında partiyanın ekspertləri, analitikləri, mütəxəssisləri fəal iştirak edirlər.

- Sosial nümayəndəlik. Bu funksiya partiyanın sosial qruplarla və bütövlükdə cəmiyyətlə əlaqəsini səciyyələndirir. Hər bir siyasi partiya müəyyən sosial mənafelərin ifadəçisidir, öz fəaliyyətində sosial qruplara və təbəqələrə əsaslanır və siyasi aləmdə onların nümayəndəsi kimi çıxış edir. XX əsrin 60-70-ci illərindən etibarən bu günədək elə bir partiya tapmaq çətindir ki, onun sosial bazası yalnız bir sosial təbəqədən ibarət olsun. Hər bir partiya çalışır ki, imkan daxilində cəmiyyətin geniş təbəqələrini özünə birləşdirsin və müxtəlif sosial qrupları təmsil etsin. Məsələn, Almaniyanın sosial-demokratları özünü bütün xalqın partiyası kimi elan edir. Qərbi Avropanın digər sosial-demokrat partiyaları da özlərini belə qələmə verirlər.

- Sosial inteqrasiya. Bu funksiya mövcud hakimiyyətlə razılıq əldə etməyi, sosial yaxınlığı və münaqişəli sosial qrupların mənafelərinin barışmasını səciyyələndirir.

- Siyasi sosiallaşma. Partiyaların ən mühüm funksiyası olub, vətəndaşların siyasi sosiallaşmasına xidmət edir, onlarda hakimiyyətin reallaşdırılmasında iştirak etmək üçün müəyən xüsusiyyət və vərdişlər yaradır. Bir söz-

lə, bu funksiya şəxsiyyəti siyasət aləminə cəlb edir, sosial dəyərlərin, siyasi normaların təşəkkülünə istiqamətlənir, insanlarda sosial-siyasi keyfiyyətləri formalaşdırır.

- İctimai rəyin formalaşdırılması. Hər bir partiya özü haqqında cəmiyyətdə ictimai rəy formalaşdırmalıdır.
- Hakimiyyət uğrunda mübarizə və ya hakimiyyətin həyata keçirilməsində iştirak etmək. Bu funksiya partiyanın siyasi sistemdə yeri və rolunu əks etdirdiyi üçün böyük əhəmiyyətə malikdir.
- Siyasi kursun, xəttin işlənib hazırlanması və həyata keçirilməsi. Bu funksiya ayrı-ayrı siyasi sistemlərdə müxtəlif cür təzahür edir. Partiyanın bu və ya digər funksiyalarının məzmunu və üstünlüyü həmişə eyni vəziyyətdə qalmır, cəmiyyətdəki sosial və siyasi şəraitdən asılı olaraq müəyyən dəyişikliyə uğrayır. Məsələn, İsveçin sosial-demokrat fəhlə partiyasının 1920-ci ildə qəbul etdiyi ikinci proqramda burjua dövlət maşınının sındırılması tələbi var idi. Həmin partiyanın sonrakı proqramlarının hamısında «firavanlıq cəmiyyəti» xətti əsaslandırılmış, mövcud dövlət maşınının sındırılması çağırışı onun dəyişdirilməsi ideyası ilə əvəz olunmuşdur. İsveç sosial-demokrat fəhlə partiyasının 1990-cı ildə qəbul etdiyi proqram layihəsində dövlətin inkişaf modelinin başlıca məqsədi belə əsaslandırılır: mərkəzi orqanların bəzi vəzifələrinin yerli orqanlara verilməsi, ətraf mühitin problemlərinin həlli, bazar iqtisadiyyatı ideyasının qəbul olunması və onun neqativ nəticələrinə qarşı müqavimət göstərmək.

Əlbəttə, tarixi təcrübə sübut edir ki, partiyaları onların şüarları və proqramları ilə deyil, məhz real və konkret

davranışı ilə, hansı mənafe və məqsədlərə xidmət etməsilə qiymətləndirmək lazımdır.

Göründüyü kimi, siyasi partiyaların funksiyalarının xarakteri onların təsnifatı ilə bilavasitə bağlıdır. Lakin bu prinsipi nəzərə almayan bəzi təlqiqatçılar nədənsə əvvəlcə siyasi partiyaların funksiyaları, sonra isə onların təsnifatı barədə mülahizə yürütməyi məqsədəuyğun hesab edirlər.

Əslində isə əvvəlcə partiyaların müxtəlif əlamətlərə görə təsnifatı verilməli, sonra isə müvafiq funksiyalar araşdırılmalıdır.

### 3. Partiya sistemlərinin inkişafında yeni meyllər

Müasir dünyada partiya sistemlərinin qərarlaşması partiyanın siyasi sistemdəki vəziyyəti, partiyalar arasındakı qarşılıqlı əlaqə və münasibətlərlə, eləcə də siyasi partiyaların öz tpi ilə əlaqədardır. Cəmiyyətdə bu və ya digər partiya sisteminin formalaşması bir çox amillərin təsiri nəticəsində baş verir. Bu amillərə siyasi sistemin təbiəti, tarixi ənənənlər, mövcud sosial strukturun xarakteri, vətəndaşların iştirakçılığını tənzimləyən qanunvericilik normaları və s. daxildir.

Partologiyada partiya sistemlərinin birmənalı tərifinə təsadüf olunmur. Partiya sistemlərinin mahiyyətini müəyyənləşdirmək üçün onun tərifini nəzərdən keçirmək məqsədəuyğundur. Partiya sistemi başlıca olaraq partiyalar arasındakı münasibətləri və qanunauyğun əlaqələri əks etdirir. Partiyalar arasındakı münasibətlərin xarakteri son nəticədə siyasi sistemin mahiyyəti ilə müəyyən olunur. Partiya sistemi cəmiyyətin siyasi sisteminin bütün aspekt-

lərinə güclü təsir göstərir.

Partiya sistemi dedikdə müxtəlif partiyaların bir-biri ilə və dövlətlə sabit, davamlı əlaqə və münasibətləri sistemi başa düşülür. Partiya sistemlərini səciyyələndirmək üçün onların təsnifatının verilməsi mühüm şərtdir. Qərb siyasi ədəbiyyatında partiya sistemlərinin heç də yekcins olmayan təsnifatına rast gəlmək mümkündür. Bu sistemin təsnifatında adətən kəmiyyət və keyfiyyət meyarlarına üstünlük verilir. Politoloqların bir qismi kəmiyyət meyarına daha çox üstünlük verirlər (məsələn, M.Dyuverje), bəziləri isə kəmiyyət meyarından əl çəkməyin hələ tez olduğunu qeyd edərək onun təkmilləşdirilməsinə ehtiyac olduğunu qeyd edirlər (C.Sartori). Politoloqların bir qismi isə, ümumiyyətlə, bu meyarın yararsız olduğunu əsaslandırır və keyfiyyət meyarına üstünlük verirlər. Keyfiyyət meyarına görə adətən demokratik, avtoritar, totalitar və sosialist partiya sistemlərinin təsnifatı nəzərdən keçirilir.

Demokratik partiya sistemində hakimiyyətin mənbəyi ümumxalq seçkiləri hesab olunur və hakimiyyət uğrunda daim leqal müğarizə aparılır. Avtoritar partiya sistemində həm doktrinada, həm də siyasi praktikada hakim amil kimi dövlət əsas götürülür. Totalitar partiya sistemində yalnız bir partiya leqal fəaliyyət göstərir və digər partiyaların fəaliyyəti qadağan edilir. Totalitar partiya sistemində həmçinin partiya dövlətin fövqündə durur, partiya dövlət aparatı ilə sıx bağlı olur. Sosialist partiya sistemində cəmiyyətdə fəaliyyət göstərən digər partiyalar kommunist partiyasının siyasi sistemdəki aparıcı rolunu qəbul edir və siyasi həyatda ikinci dərəcəli rol oynayırlar.

Partiya sistemlərinin təsnifatını verməyə cəhd edən

politoloqlardan M.Dyuverje, C.Sartori, R.Şvarsenberq və başqalarının konsepsiyaları maraq doğurur. Fransız politoloqu M.Dyuverje «Siyasi partiyalar» adlı kitabında partiya sistemlərini təsnif edərkən onları üç qrupa ayırmışdır (birpartiyalı, ikipartiyalı və çoxpartiyalı sistemlər). Çoxpartiyalı sistemin özünü də M.Dyuverje bir neçə növə ayırmışdır (üçpartiyalı, dördpartiyalı, beş və daha artıq partiyanın olduğu sistem).

M.Dyuverje partiya sistemlərini tədqiq edərkən «üç sosial qanun» işləyib hazırlamışdır:

- proporsional seçki sistemi bir-birindən asılı olmayan, sərt daxili struktura malik çoxlu partiyalarla səciyyələnən çoxpartiyalı sistemi yaradır;
- iki turda keçirilən majoritar səsvermə sistemi qarşılıqlı əlaqələrə və kompromisə can atan, öz mövqeyini çevikliklə dəyişə bilən bir neçə partiyanın mövcud olduğu sistemin meydana gəlməsinə şərait yaradır;
- bir turda keçirilən majoritar səsvermə sistemi iki partiyanın rəqabətdə olduğu partiya sisteminin formalaşmasını şərtləndirir.

Politoloq C.Sartori isə kəmiyyət baxımından partiya sisteminin yeddi pilləli təsnifatını nəzərdən keçirir:

- birpartiyalı sistem (keçmiş SSRİ və Kuba);
- ikipartiyalı sistem (sadə plüralizm) (ABŞ və Böyük Britaniya);
- hegemon partiya sistemi (Çin Xalq Respublikası);
- üstünlük təşkil edən partiya sistemi (Yaponiya və Meksika);
- məhdud və ya mülayim plüralizm sistemi – üç və ya

dörd partiyanın fəaliyyət göstərdiyi sistem (Belçika, İsveç, Almaniya və s.);

- qəti plüralizm sistemi (beş və daha çox);
- atomlaşmış sistem (ifrat çoxpartiyalılıq).

Partiya sistemini tədqiq edən digər bir politoloq A.Leyzersona görə Qərb siyasi elmində partiya sistemini müəyyən edən üç cəhətlə bağlı təsəvvür mövcuddur:

a) birincisi, partiya müəyyən bir ideologiyanın daşıyıcısıdır, bu mənada partiya ictimai rəyin müəyyən çərçivədə inikası kimi çıxış edir;

b) ikincisi, partiya onun tərəfkeşi qismində çıxış edən sosial qrupların təmsilçisidir;

c) üçüncüsü, partiya özünün təşkilatçılığı və rəhbərliyi sayəsində nüfuza malik olan qrupdur.

Politoloq P.Ordeşuk isə partiyaların sayı baxımından aşağıdakı təsnifatı təklif edir:

- birpartiyalı sistem;
- ikipartiyalı sistem;
- çoxpartiyalı sistem.

C.La Palombaranın fikrincə isə partiya sistemi yalnız iki və daha çox partiyanın azad çeskilərdə bir-birilə mübarizə apardığı zaman meydana çıxır. Buradan isə partiya sistemini səciyyələndirərkən iki fikir ayrılır:

- müəyyən sayda partiyaların olması;
- onların seçkilərdə bir-biri ilə rəqabəti.

Alman politoloqu Klaus fon Boyme öz həmyerlisindən fərqli olaraq partiya sistemlərinin daha geniş təsnifatını təklif edir. O «çox və ya az nüfuzlu» partiyalar bölgüsünə yeni «iki yarım partiya sistemi» anlayışını əlavə etmişdir.

Siyasi partiyaların tədqiqatçısı olan R.Şvarsenberq göstərir ki, partiya sistemi haqqında yalnız o zaman danışmaq olar ki, onu təşkil edən elementlər (partiyalar, koalisiyalar) öz aralarındakı münasibəti fundamental və möhkəm əsaslar üzərində qurmuş olsun.

Çoxpartiyalı sistemin təsnifatı ilə bağlı fransız politoloqu J.Burdo özünəməxsus variant təklif edir. O çoxpartiyalılığın iki başlıca tipini – nizamsız, dağınıq və nizamlı qaydada olan tiplərini qeyd edir. Politoloqun fikrincə, nizamsız çoxpartiyalılıq İtaliya və Fransaya məxsusdur. Bu ölkələrdə partiyalar siyasi həyatda nizamsızlıq təsiri bağışlayır. Bunun əksi olaraq nizamlı çoxpartiyalılıq şəraitində partiyalar daxili birliyə malikdir, seçicilər onlara məhəbbət bəsələyir və bu şəraitdə sabit hökumət formalaşır». Bu tip sistem Niderlandda və Skandinaviya ölkələrində mövcuddur.

Çoxpartiyalı sistemi təhlil edən politoloqlardan biri də fransız F.Borrel olmuşdur. O çoxpartiyalı sistemi plüralist sistem adlandırmışdır.

Qərb tədqiqatçılarından A.Leypxart, M.Teylor, B.M.Xerman və b. məhdud və ya mülayim plüralist partiya sistemini sabit demokratik cəmiyyət üçün ən optimal variant hesab edirlər. Bu növ sistemdə partiyalar arasında ideoloji fərqlər minimum səviyyədədir və cəmiyyətdə fəaliyyət göstərən bütün siyasi partiyalar hökumətin formalaşmasında iştirak edir. Belə sistemdə partiyaların koalisiyalı kabinet təşkil etmək imkanı genişdir.

Siyasi ədəbiyyatın təhlili göstərir ki, partiya sistemlərinin təsnifatını verməyə çalışan müəlliflərin sayını daha da artırmaq olar. Bunu nəzərə alaraq ayrı-ayrı müəlliflə-

rin fikirlərini ümumiləşdirmək əsasında partiya sistemlərinin kəmiyyət baxımından təsnifatını aşağıdakı şəkildə nəzərdən keçirmək olar.

Politoloqların fikrincə, **hakimiyyətdə olan vahid partiyadan ibarət partiya sistemini** təkpartiyalılığın klassik nümunəsi hesab etmək olar. Belə sistemdə başqa partiyaların yaradılması qanunla qadağan edilir. Partiya siyasi fəaliyyəti inhisara alır. Bu sistemdə partiya dövlətə qovuşur və çox vaxt onu əvəz edir. Ölkədə başlıca siyasi qərarlar partiyanın ali rəhbərliyi tərəfindən qəbul olunur. Hazırda bu sistem Kuba və Şimali Koreyada qərarlaşmışdır.

**Hegemon partiya** (ÇXR-da mövcuddur) sistemi. Bu sistemdə digər partiyaların fəaliyyətinə qismən icazə verilir. Lakin hakimiyyət uğrunda formal və faktiki rəqabət tam istisna edilir. Hegemonçu partiyanın rəhbər funksiyası qanunvericilikdə təsbit olunur. Göründüyü kimi bu sistem təkpartiyalılıqdan fərqli olaraq dekorativ çoxpartiyalılığa yol verir, həm qanunverici səviyyədə, həm də faktiki olaraq ölkədə partiyanın hegemonluğu əsaslandırılır.

**Partiyanın üstünlük təşkil etdiyi sistem.** Bu sistemdə cəmiyyətdə bir neçə siyasi partiya fəaliyyət göstərsə də uzun müddət ərzində hakimiyyət güclü partiyanın əlində cəmlənir. Lakin digər partiyaların da hakimiyyətə gəlmək imkanları hüquqi cəhətdən təsbit olunur.

Partiya sistemləri içərisində **ikipartiyalı** (ABŞ və İngiltərə) **sistem** də (sadə plüralizm) geniş təşəkkül tapmışdır. Belə sistemdə hakimiyyət uğrunda iki güclü siyasi partiya mübarizə aparır. Onlardan biri hakimiyyətdə olanda, digəri müxalifətdə olur və cəmiyyət onu əsas

müxalifət kimi qəbul edir.

**Məhdud plüralizm sistemi.** Bu sistem şəraitində cəmiyyətdə fəaliyyət göstərən bütün siyasi partiyaların hökumətin fəaliyyətində iştirak etmək səyləri geniş olur. Çünki onlar koalisiyalı kabinet formalaşdırmaq imkanlarına malik olurlar.

Çoxpartiyalılığın digər bir nümunəsi **qəti (qütbləşmiş) plüralist sistem** hesab olunur. Bu sistem özündə sosial sistemə zidd olan partiyaları birləşdirir. Onlar bir-birinə zidd olan ideologiyalara tərəfdar olurlar. Bu sistem müxalifətin hökumətə soldan və sağdan təzyiq göstərməsilə səciyyələnir. Bu sistemin digər səciyyəvi əlaməti məsuliyyətsiz müxalifətin mövcudluğudur. Adətən belə plüralizm şəraitində hökumətin formalaşdırılmasında iştirak məhdud xarakter daşıyır.

Çoxpartiyalı sistemin digər bir növü **atomlaşmış sistem** hesab olunur. Bu sistem özünün ifrat çoxpartiyalılığı ilə xarakterizə olunur. Partiyaların sayı bu sistemdə həddindən artıqdır. Belə sistemdə yaranan koalisiya, partiya blokları müvəqqəti və qeyri-möhkəmdir. Hər hansı bir partiya və partiya koalisiyası əsasında hakimiyyətin formalaşdırılması son dərəcə çətindir. Belə vəziyyətə cəmiyyətin modernləşməsi yolunu tutan ölkələrdə rast gəlmək olur (Latın Amerikası, Afrika və Cənub-Şərqi Asiya ölkələri).

Müasir politologiyada partiya sistemlərinin inkişaf meyllərinin öyrənilməsi və tədqiqi böyük maraq doğurur.

**Yoxlama xarakterli suallar**

1. İlk kütləvi siyasi partiya harada və nə vaxt yaranmışdır?
2. M.Dyuverje siyasi partiyaların təsnifatını necə vermişdir?
3. Siyasi partiyaların funksiyalarına aid olanları göstərin.
4. Partiyaların ilk təsnfiatı kim tərəfindən verilmişdir?
5. Siyasi partiyaların qeydiyyatını aparan orqanları göstərin.
6. Partiya sistemi nədir?

## XI mövzu
## Demokratiya və demokratik tranzit problemi

1. Sosial hadisə kimi demokratiyanın mahiyyəti
2. Demokratiyanın müasir nəzəriyyələri və həyata keçirilməsi formaları
3. Demokratik tranzit: nəzəri modellər və konsepsiyalar

### 1. Sosial hadisə kimi demokratiyanın mahiyyəti

«Demokratiya» yunan dilində «demos» (xalq), «kratos» (hakimiyyət) sözlərindən ibarət olub, «xalq hakimiyyəti» mənasını ifadə edir. Bu anlayış ilk dəfə qədim Yunanıstanda meydana gəlmişdir. Demokratiya terminini ilk işlədən mütəfəkkirlərdən biri Herodot olmuşdur. O demokratiyanı bərabərliyə əsaslanan dövlət forması hesab edirdi (qədim yunanlar onu izanomiya adlandırmışlar). Fukidi isə göstərirdi ki, bu quruluş ona görə demokratik quruluş adlanır ki, o vətəndaşların azlığına deyil, çoxluğuna əsaslanır. T.Hobbsın fikrincə, demokratiya elə dövlət formasıdır ki, ali hakimiyyət istisnasız olaraq bütün vətəndaşlara məxsusdur. Ş.Monteskye isə belə hesab edirdi ki, əgər respublikada hakimiyyət xalqa məxsusdursa, onda bu demokratiyadır.

Müasir anlamda «demokratiya» termini bir neçə mənada işlədilir. Onun ən geniş yayılmış mənası həmin sözün etimologiyası ilə bağlıdır. Bu mənada demokratiya hər şeydən əvvəl, xalq hakimiyyətinə əsaslanan dövlət forması kimi başa düşülür.

Lakin demokratiya anlayışı yalnız dövlət formasına

aid edilmir. O daha geniş hüdudlara və məna tutumuna malikdir. Demokratiya həm də geniş məzmuna malik sosial hadisə kimi bütövlükdə cəmiyyətin ictimai təşkili forması kimi qavranılır. Müasir siyasi nəzəriyyələrdə və təsəvvürlərdə deomkratiya anlayışının dövlət formasından daha geniş mənada işlədilməsinə üstünlük verildiyini nəzərə alsaq, bu mənada demokratiyanın tarixi inkişafının təkamül mərhələlərini aşağıdakı ardıcıllıqla nəzərdən keçirmək mümkündür:

- ibtidai demokratiya;
- hərbi demokratiya;
- antik demokratiya;
- yeni dövrün klassik demokratiyası;
- müasir demokratiya.

İbtidai demokratiya birbaşa (bilavasitə) demokratiyanın ilk tarixi forması idi. Tarixən bütün xalqlar və millətlər ibtidai demokratiya mərhələsindən keçmişlər. İbtidai demokratiyada əsasən bu prinsiplərə (qəbilə və tayfa toplantılarında icmanın yaşlı üzvlərinin iştirak etmək hüququ, sərbəst şəkildə fikrini ifadə etmək azadlığı, qəbilə başçılarının seçilməsi, başçının hakimiyyətinin mənəvi nüfuza əsaslanması və s.) üstünlük verilirdi.

İcma münasibətlərinin təkamülü nəticəsində ibtidai demokratiyadan hərbi demokratiyaya keçid baş verdi. Bu demokratiya şəraitində idarəçilik funksiyanın həyata keçirilməsində hərbi hissələrin, drujinaların rolunun artması özünü göstərməyə başladı. Hərbi demokratiya şəraitində qəbilənin idarə edilməsinin demokratik əsasları məhdudlaşdırılmış və hakimiyyət müstəsna olaraq qəbilə şurası-

nın əlində toplanmışdı. Bu şura isə hərbiçilərdən təşkil olunmuşdu. Hərbi demokratiyanın sonrakı mərhələlərində bu tədricən dövlətçiliyin əsaslarının yaradılmasına gətirib çıxardı. Bəzi xalqlarda, o cümlədən qədim Romada ictimai dövlət quruluşunun ilk forması hərbi demokratiya şəklində meydana gəldi. Tarixi proseslərin sonrakı inkişafı hərbi demokratiyadan antik demokratiyaya keçidin baş verməsinə səbəb oldu.

Antik demokratiyanın klassik nümunəsi Afina demokratiyası hesab olunur. Afina demokratiyası bəşər tarixində dolğun təsvir olunmuş ilk demokratik dövlət formasıdır. Afina demokratiyasının çiçəklənməsi Periklin hakimiyyəti illərinə (e.ə. 443-423-cü illər) təsadüf edir. Bu dövrdə aparılan islahatlar nəticəsində (əmlak senzinin ləğvi, dövlət vəzifələrinin icrasına görə məvacib verlməsi və s.) dövlət quruluşu daha demokratik oldu.

Antik demokratiyanın digər forması öz ifadəsini Roma demokratiyasında tapdı. Bu demokratiyanın meydana gəlməsi demosun aristokratiya ilə mübarizəsinin kəskin xarakter daşımasının nəticəsi kimi qiymətləndirilir. Bu mübarizə sayəsində e.ə.494-cü ildə plebey (xalq) tribunları magistrliyi institutu yaradıldı. Bu da Roma demokratiyasını Afina demokratiyasından fərqləndirən başlıca xüsusiyyətlərdən hesab olunur. Göründüyü kimi Roma demokratiyası əhalinin müxtəlif təbəqələrinin mənafeyinin dövlət hakimiyyətində təmsil edən xüsusi təsisatların təsis edilməsi baxımından öz spesifikliyi ilə seçilir.

Antik demokratiya birbaşa (bilavasitə) demokratiya şəklində üzə çıxmışdı. Bu demokratiya təbiətinə görə həm də kollektivçi demokratiya idi. Antik demokratiya təd-

ricən çoxluğun despotiyasına yol verirdi. Cəmiyyətdə qərarlaşan xalq hakimiyyəti ideyasının belə vəziyyətə düşməsi, digər səbəblərlə birlikdə antik demokratiyanın süqutunu sürətləndirdi.

Orta əsrlərdə avtoritar monorxiya rejimlərinin meydana gəlməsi demokratik ideyaların sıxışdırılmasına gətirib çıxardı. Lakin 1215-ci ildə İngiltərədə Azadlığın Böyük Xartiyasının qəbulu yenidən demokratiya uğrunda hərəkatın əsasını qoydu. İngilis parlamentinin meydana gəlməsi liberal demokratiyanın praktikada reallaşması üçün geniş imkanlar açdı.

Yeni dövrün demokratiya haqqında təsəvvürləri və ideyaları liberalizmin təsiri altında formalaşmağa başladı.

## 2. Demokratiyanın müasir nəzəriyyələri və həyata keçirilməsi formaları

Müasir Qərb demokratiyası öz rəngarəngliyi ilə fərqlənir. Müxtəlif dövrlərdə və ayrı-ayrı reallıqlar şəraitində formalaşmış demokratiya ənənələri bir sıra nəzəriyyə və doktrinalarda öz ifadəsini tapmışdır. İ.Şumpeterin demokratiya nəzəriyyəsi mahiyyət etibarilə müasir demokratiya konsepsiyalarının əsasını qoymuşdur. İ.Şumpeter göstərirdi ki, demokratiyanın normal fəaliyyət göstərməsi üçün dörd şərt tələb olunur:

- xalqın mühüm dövlət vəziəfələrinə seçməyə layiqli, ixtisaslı nümayəndələri olmalıdır;
- siyasi orqanlar elə qərarlar qəbul etməlidir ki, xalq

onu başa düşə bilsin və öz münasibətini ifadə etməyi bacarsın;

- idarəçilik işi yaxşı təşkil olunmuş və məsuliyyət hissi yüksək olan bürokratiyaya həvalə edilməlidir;
- yüksək siyasi mədəniyyətdən xəbər verən səmərəli özününəzarət mexanizmi formalaşmalıdır.

Müasir demokratiya nəzəriyyələri içərisində plüralist, liberal, kollektivçi, partisipar və digər demokratiya nəzəriyyələri fərqlənir.

Plüralist nəzəriyyəyə görə demokratiya müxtəlif ictimai qruplara öz mənafelərini ifadə etməyə və rəqabət mübarizəsində onların qüvvələr nisbətini əks etdirən kompromis qərar qəbul etməyə imkan yaradan idarəçilik forması kimi qavranılır. Plüralist demokratiya nəzəriyyəsində əsas hərəkətverici siyasi qüvvə rolunu maraq qrupu yerinə yetirir. Plüralist demokratiyanı səciyyələndirən başlıca xüsusiyyətlər aşağıdakılardır:

- demokratik siyasi sistemin əsas elementi maraq qrupudur;
- ümumi iradə müxtəlif qrupların konfliktli əlaqəsinin və onların razılığının nəticəsidir;
- qrup maraqlarının rəqabəti və tarazlığı;
- tarazlığın nəinki institusional, həm də sosial sahədə gözlənilməsi;
- ağalıq eqoizmi, qrup və fərdi maraqlar siyasətin generatorudur;
- dövlət aktiv müşahidəçi deyil, sosial ədalətin təminatçısı kimi çıxış edir;

• hakimiyyətin müxtəlif siyasi təsir mərkəzləri arasında diffuziyası (paylanması);

• cəmiyyətdə dəyərlərin konsensusun mövcudluğu;

• əsas qrupların demokratik təşkili və s.

Müasir demokratiya nəzəriyyələri içərisində demokratiyanın liberal nəzəriyyəsi xüsusi rol oynayır. Təbii hüquq və azadlıqların əsaslandırılması, həm də bu hüquqların təminatı, hakimiyyət bölgüsü nəzəriyyəsinin işlənilib hazırlanması ideyaları demokratiyanın liberal nəzəriyyəsinin əsasını təşkil edir. Liberal demokratiya nəzəriyyəsinin başlıca xüsusiyyətləri bunlardır:

• şəxsiyyətin muxtariyyətinə üstünlük verilməsi;

• demokratiyanın formal xarakter daşıması və azadlığın, zorakılığın yoxluğu kimi başa düşülməsi;

• parlamentarizm – nümayəndəli demokratiyaya əsaslanan dövlət quruluşu və siyasi idarəetmə təsisatıdır;

• dövlətin fəaliyyət sahəsinin məhdudlaşdırılması;

• hakimiyyətin bölünməsi;

• çoxluğun azlıq üzərində hakimiyyətinə məhdudiyyət qoyulması və s.

Müasir demokratiya nəzəriyyələrindən biri də kollektivçi demokratiyadır. Bu demokratiya nəzəriyyəsinin elmi əsasları J.J.Russonun nəzəriyyəsində əhatə edilmişdir. Bu demokratiyanı idental demokratiya da adlandırırlar (millət, sinif). Bu nəzəriyyə bir sıra səciyyəvi xüsusiyyətləri ilə seçilir:

• xalqın interpretasiyasında kollektivçilik;

• xalq arasında ziddiyyətlərin yoxluğu;

- azadlığın kollektiv izahı;
- insan hüquqları probleminin aradan qaldırılması;
- ümumi siyasi səfərbərlik;
- sosial demokratiyanın bəyan edilməsi və s.

Müasir demokratiya nəzəriyyələri içərisində xüsusi yer tutan partisipar demokratiya nəzəriyyəsi həm də iştirak nəzəriyyəsi adlanır. Bu nəzəriyyə insanın rasional varlıq olduğunu iddia etməklə onun düzgün və səmərəli qərarlar qəbul edə bilmək imkanına inamı ifadə edir və xalqın irrasional və kütlə psixologiyasına malik toplu olması ideyasını rədd edir. Deməli, xalq rasionallıqdan kənar deyil, səmərəli özünüidarə sistemi yaratmağa qadirdir.

Bu nəzəriyyənin tərəfdarları demokratiyanın xalq hakimiyyəti ideyasına maksimum uyğunlaşdırılmasına əsaslanan dövlət idarəçiliyi və ictimai quruluş forması yaradılması təklifini irəli sürürlər. Partisipar demokratiya nəzəriyyəisndə əsas məqamlardan biri də xalqın nəzarət funksiyasının artması, onun siyasi iştirakçılığının vacib ünsürü kimi tam qərarlaşması hesab olunur.

Yuxarıda sadalanan demokratiya nəzəriyyələrinin hər birinin müsbət və mənfi cəhətlərinin nəzərə alınması ayrı-ayrı ölkələrdə demokratiya quruculuğunda ümumi prinsiplərə və spesifik-milli xüsusiyyətlərə uyğun yol seçilməsini zəruri edir.

Demokratiyanın həyata keçirilməsi özünün konkret formaları vasitəsilə reallaşır. Bu mənada bilavasitə «birbaşa», plebissitçi və nümayəndəli (təmsilçi) demokratiya formaları fərqləndirilir.

Bilavasitə (birbaşa) demokratiya əhalinin qərarların

qəbul edilməsində bilavasitə iştirak etməsi ilə səciyyələnir. Hazırda birbaşa demokratiya özünü əsas etibarilə yığcam kollektivlərin idarə edilməsində və yerli özünüidarəçilikdə göstərir.

Plebissitçi (latınca «plebissit» sözündən olub, xalqın qəbul etdiyi qərar mənasını verir) demokratiya formasında da əhali bilavasitə öz siyasi iradəsini ifadə etmək imkanına malik olur. Lakin birbaşa demokratiyada xalq siyasi qərarların qəbul edilməsinin bütün mərhələlərində iştirak edirsə plebissitçi demokratiyada isə xalq bu və ya digər məsələyə, hazırlanmış qanun layihəsinə öz münasibətini bildirməli olur. Demokratiyanın bu formasının əsas üsullarından referendumu göstərmək olar.

Demokratiyanın ən geniş yayılmış və səmərəli forması nümayəndəli (təmsilçi) demokratiya hesab olunur. Bu demokratiya formasının xüsusiyyəti ondadır ki, vətəndaşlar siyasi qərarların qəbulunda birbaşa deyil, hakimiyyət orqanlarına seçilmiş nümayəndələri vasitəsilə iştirak edirlər.

Nümayəndəli (təmsilçi) demokratiyanın hüquqi əsasını seçilənlərlə elektorat arasında təzahür edən təmsilçilik hüququ təşkil edir. Bu demokratiya vətəndaşların seçdiyi və etimad göstərdiyi nümayəndəli hakimiyyət orqanlarından ibarət idarəçilik formasını nəzərdə tutur.

### 3. Demokratik tranzit: nəzəri modellər və konsepsiyalar

Mürəkkəb və mərhələli proses olmaq etibarilə tranzit dövrünün nəzəri cəhətdən dərk olunması xüsusi əhəmiyyətə malikdir. Bu mənada tranzit dövrü məsələsi həmişə

ictimai fikrin diqqət mərkəzində qalmaqdadır. Hazırda politoloqlar tərəfindən tranzit prosesləri ilə bağlı intensiv tədqiqatlar aparılır və bu istiqamətdə müəyyən təkliflər nəzərdən keçirilir. Politoloqlar öz tədqiqatlarında tranzit dövrünün, transformasion şəraitin mahiyyətini açmağa və keçid proseslərini yaşayan ayrı-ayrı ölkələrin inkişaf yollarını müəyyənləşdirməyə çalışırlar. Göründyü kimi tranzit proseslərinə dair məlumatlar praktik baxımdan politoloqların yaratdığı əlverişli tədqiqatların zəminində təşəkkül tapmışdır. Praktiki olaraq tranzitologiyanın əsasını qoyan mütəxəssislər ciddi siyasi tədqiqatlar təcrübəsinə malik idilər. Onların əsas hədəfi ikinci dünya müharibəsinin nəticələrinin təsiri ilə bağlı baş verən dəyişikliklərin tədqiqinə yönəlmişdi. Belə ki, XX əsrin ikinci yarısı dünyanın siyasi mənzərəsində yeni bir proseslə – ayrı-ayrı regionlarda mövcud olan avtoritar siyasi rejimlərin bir-birinin ardınca demokratik rejimə tranziti (keçidi) ilə səciyyələnirdi. Bununla əlaqədar olaraq siyasi elmdə demokratiyaya tranzitin nəzəri əsaslarını işləyib hazırlamaq problemi aktuallıq kəsb etməyə başladı. Politoloqlar müxtəlif regionların xüsusiyyətlərini nəzərə alaraq tranzitin çoxsaylı analitik modellərini işləiyb hazırlamağa cəhd göstərdilər.

Demokratikləşmə prosesində dövlətin apardığı islahatlardan, demokratik təsisatların yetkinlik səviyyəsindən asılı olaraq tranzit modelləri ilə bağlı tədqiqatçıların fikirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

– nikbinlər (D.Rostou, S.Xantinqton) – demokratiyaya keçid nəzəriyyəçiləri;

– bədbinlər (X.Lints, A.Stepan) – demokratik reji-

min iflası nəzəriyyəçiləri;

– mötədil-mülayim (Q.O.Donnell, F.Şmitter) – nümayəndəli demokratiya nəzəriyyəçiləri.

Birinci qrupa aid model dövlətin öz mövqeyini möhkəmləndirməsindən çıxış edir. Bu modelin tərəfdarlarından olan D.Rostou göstərir ki, demokratiyaya keçid ölkələrin milli birlik və milli identiklik əldə etməsindən sonra başlamalıdır. O demokratiyaya keçidin üç fazasını nəzərdən keçirir (hazırlıq fazası, qərarların qəbulu fazası və adaptasiya – uyğunlaşma fazası):

• hazırlıq fazası – fərqləndirici cəhəti yeni elitanın təzahürü nəticəsində siyasi mənafelərin qütbləşməsidir:

• qərarların qəbulu fazası – bu prosesdə əsas rolu seçki oynayır. Cəmiyyətdə demokratik qərarın qəbul edilməsinə şüurlu, açıq konsensus kimi baxılmalıdır.

• adaptasiya (uyğunlaşma) – bu fazada demokratik prosedurların və təsisatların möhkəmləndirilməsi prosesi baş verir.[1]

İkinci qrupa aid model dövlətin zəifləməsini əsas götürür. Bu modelin tərəfdarları X.Lints və A.Stepan «Demokratik rejimlərin iflası» (1978) adlı kitabda XX əsrdə demokratiyanın iflasının səbəblərini göstərməklə yanaşı, həmçinin demokratiyanın bərpası imkanları ilə bağlı problemi tədqiq etmişlər.

Üçüncü qrupa aid model isə dövləti kifayət qədər güclü təsisat kimi nəzərdən keçirir (lakin öz fəaliyyətini demokratik normalarla və qaydalarla kifayət qədər əlaqə-

---

[1] Ростоу Д.А. Переходы к демократии: попытка динамической модели. II Полис 1996, N5

ləndirməməyi nəzərə almaqla).[1]

Bu modelin tərəfdarlarından olan Q.O.Donnell Latın Amerikası ölkələrinin təcrübəsinə əsaslanmaqla «nümayəndəli demokratiya» ifadəsini işlədir. Q.O.Donnellin nəzəriyyəsi güclü prezident hakimiyyətini nəzərdə tutur. Prezident konstitusiya ilə cəmiyyətin və dövlətin rəhbər qüvvəsi elan olunmuş yeganə partiyanın rəhbəri hesab olunur. Belə sistemdə hakimiyyətin digər qolları prezidentə tabedir və formal xarakter daşıyır. Latın Amerikasının ayrı-ayrı ölkələrində çoxdandır ki, dövlət başçısının əlində böyük səlahiyyətlərin cəmləşməsi nəticəsində güclü prezident hakimiyyəti qərarlaşmışdır.

Demokratik tranzitlə bağlı olan ciddi tədqiqatların müəlliflərindən biri S.Xantinqton hesab olunur. S.Xantinqton demokratikləşmənin üç mərhələni əhatə etdiyini göstərir: 1820-1920-ci illəri əhatə edən birinci mərhələ; 1940-1960-cı illəri əhatə edən ikinci mərhələ; 1970-2000-ci illəri əhatə edən üçüncü mərhələ. S.Xantinqton birinci mərhələni V.Vilsonun (ABŞ-ın sabiq prezidenti) «dünyanı demokratiya üçün təhlükəsiz etməliyik» tarixi ifadəsi ilə əlaqələndirir və göstərir ki, bu mərhələdə bəzi ölkələrdə demokratik təsisatlar qərarlaşmışdır. Politoloqun fikrincə birinci dünya müharibəsinin sona çatması ilə cəmiyyətdə demokratikləşmə yeni vüsət almağa başlayır.

Demokratikləşmənin ikinci mərhələsi bir-birinə əks olan iki ictimai sistem – sosializm və kapitalizm arasında mübarizə ilə səciyyələnir. Bu dövrdə sosialist ideyalarının təsir gücünün artması demokratikləşmənin ləng prosesinə

---

[1] Bax: Əfəndiyev M. Politologiya. B., 2011, s.390-391

öz təsirini göstərirdi. Bu da Qərb üçün narahatlıq doğururdu. Buna görə də 1940-60-cı illər demokratiyanın tarixində ləngimə dövrü kim nəzərdən keçirilir. 1970-ci ildən başlayaraq dünyanın müxtəlif regionlarında bir sıra dövlətlər demokratikləşmə yoluna qədəm qoydular. Avropanın Portuqaliya, İspaniya və Yunanıstan kimi diktatura rejimlərinin iflası, həmçinin Asiyada, Afrikada, Latın Amerikasında qeyri-demokratik rejimlərin demokratiyaya meyilli olmasını əsas götürərək S.Xantinqton keçən əsrin 70-ci illərini demokratikləşmənin üçüncü dalğasının başlanması kimi nəzərdən keçirməyi məqsədəuyğun hesab etdi. XX əsrin 80-90-cı illərindən başlayaraq Qərb dövlətləri avtoritar rejimlərin demokratikləşməsinə ciddi səy göstərməyə başladılar. Şərqi Avropada və SSRİ-də sosialist sisteminin dağılması demokratikləşmənin üçüncü dalğasının qlobal xarakter almasına səbəb oldu. Bu dalğanın təsiri altında Şərqi Avropada və keçmiş SSRİ məkanında bir sıra ölkələr azad demokratik inkişaf yoluna qədəm qoydular. Bu ölkələrin sayca çoxluğu və inkişaf səviyyəsinə görə bir-birindən fərqli olmasını nəzərə alaraq mütəxəssislər tranzit mərhələsini keçmə səviyyəsinə görə adətən həmin ölkələri şərti olaraq bir neçə qrupa ayırmağı (müsbət gələcəyi olan ölkələr; inkişafı orta səviyyədən yuxarı olan ölkələr; XX əsrin sonu XXI əsrin əvvəllərində iqtisadi və siyasi gələcəyi qeyri-müəyyən olan ölkələr; gələcəyi əlverişsiz olan ölkələr) təklif edirlər[1].

Qeyd etmək lazımdır ki, tranzit dövrünün mərhələlə-

---

[1] З.Бжезинский. Великое преобразование//Демократия 1990-х специальный выпуск журнала глобальные проблемы переходного периода. 1993, N6, с.28

rinə dair qəti fikir söyləmək mümkün deyil. Məsələn, bəzi müəlliflər tranzit dövrünün üç, bəziləri dörd mərhələdən ibarət olduğunu bildirirlər.

S.Xantinqton isə öz növbəsində cəmiyyətdə baş verən proseslərin təsiri altında üçüncü dalğa ölkələrinin demokratikləşməsinin transformasiya və əvəz edilmə kimi variantlarını müəyyənləşdirmişdir.

– **Transformasiya**. Hökumət güclü müxalifətə malik olmalıdır, istər-istəməz o, keçid prosesində başlıca rol oynamalıdır.

– **Əvəz edilmə**. Bu model keçmişlə əlaqənin tam kəsilməsini və əvvəlki hökumətin siyasi aləmdən tam getməsini səciyyələndirir. Belə halda hökumət, adətən mühafizəkarlardan təşkil edilir və rəhbərin şəxsi diktaturası kimi mövcud olur.[1]

Demokratik təsisatların formalaşması istiqamətində S.Xantinqton tranzitin beş modelini fərqləndirmişdir:

• **dövrü dəyişmə modeli** – avtoritar və demokratik rejimlərin dövrü dəyişməsi (Braziliya);

• **«dayandırılan demokratiya» modeli** – demokratiyanın bərpasına cəhd, avtoritar rejimin təşkili ilə əvvəlki sabitlik aradan qalxır (Çili);

• **ikinci cəhd modeli** - (İspaniya);

• **birbaşa keçid modeli** – əvvəllər demokratik inkişaf səviyyəsinə malik olmayan dövlətlərdə demokratikləşmə (Şərqi Avropa ölkələrinin nümunəsində).

• **müstəqillik əldə etdikdən sonra demokratiyanın qərarlaşması** (SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış

---

[1] Bax: Əfəndiyev M. Politologiya. B., 2011, s.393

respublikaların bəzisində baş verən demokratikləşmə prosesini göstərmək olar).

Müasir politolloji ədəbiyyatda demokratiyaya keçidin (tranzitin) müxtəlif yolları göstərilir:

- yuxarıdan həyata keçirilən islahatlar;
- abdikasiya – köhnə rejimin iflası;
- tədrici transformasiya.

Yuxarıdan həyata keçirilən islahatlar öz-özlüyündə mütərəqqi olsa da, təəssüf ki, təcrübədə həmişə uğurlu olmur. Belə ki, yuxarıdan aparılan islahatlar demokratikləşmədən deyil, rejimin liberallaşmasından başlayır. İslahatları aparan dövlət başçısı rejimin demokratikləşməsini arzu etsə də o çox vaxt öz hərəkətlərində ardıcıl olmadığına görə bu islahatlar baş tutmaya da bilər (SSRİ dövrünün yenidənqurma mərhələsi). A.Stepanın fikrincə liberallaşdırma hələ rejimin demokratikləşməsi demək deyildir. Polşa politoloqu A.Pşevorski isə göstərir ki, liberallaşma çox vaxt qeyri-sabitliyi və daxili proseslərin müxtəlif yönümlü olması ilə səciyyələnir. O bəzən mövcud avtoritar rejimin güclənməsinə, bəzən isə demokratikləşmənin ilkin mərhələsinə keçidlə nəticələnə bilər. Rejim demokratikləşmə mərhələsinə qədəm qoyduqdan sonra demokratik təsisatların yaradılması prosesi başlanır. Ümumiyyətlə, A.Pşevorski demokratikləşmə prosesini siyasi təsisatlara və sosial münasibətlər sferasına aild olan proseslər kimi iki qrupa ayırır.

Tranzit prosesləri ilə bağlı ikinci yol abdikasiya (köhnə rejimin iflası) adlanır. Bu o zaman baş verir ki, hakimiyyətdə olan qeyri-demokratik rejim özünün qeyri-

konstitusion əməlləri ilə xalqın qarşısında legitimliyini itirir və nəticədə hakimiyyəti demokratik qüvvələrə verməyə məcbur olur. Hakimiyyətin təqribən abdikasiya formasında dəyişilməsi XX əsrin 80-ci illərində Şərqi Avropanın bəzi ölkələrində (Rumıniya-Polşa), 2003-cü ildə isə Gürcüstanda baş vermişdir. Abdikasiya formasında köhnə rejimin iflası ilə nəticələnən hakimiyyət dəyişiklikləri 2011-ci ildə bir sıra ərəb ölkələrində də özünü göstərdi.

Demokratik rejimə tranzitin əsas formalarından biri də tədrici islahatlar yoludur. Bu yolun əsas xüsusiyyətlərindən biri də iqtidarla müxallifət arasında əldə edilmiş razılaşma hesab olunur. Politoloqların fikrincə həmin yolun mümkünlüyü üçün hər şeydən əvvəl müxalifət iqtidarla işləməyə razılıq verməlidir. Bu da siyasi qüvvələr arasında normal münasibətlərin yaranmasına imkan verir.

Tədrici keçid (tranzit) prosesi uzun müddət davam edərək müəyyən çətinliklərə məruz qalsa da, bir sıra ölkələrin, o cümlədən Yunanıstan, İspaniya, Çili və digər Latın Amerikası və Asiya ölkələrinin tarixi təcrübəsi sübut edir ki, yalnız tədrici inkişaf, ictimai münasibətlərin tədricən transformasiyası əsl demokratik təsisatların bərqərar olmasını təmin edə bilər.

Tədrici keçid (tranzit) adətən yeni konstitusiyanın qəbulu ilə müşayət olunur. Bu istiqamətdə əsas vəzifə mövcud siyasi sistemin təsisatlanması və konstitusionallaşmasını (qanuniləşmə) təmin etməkdən ibarətdir. İstənilən siyasi sistemin yaranması yeni, özünəməxsus siyasi təsisatların və normaların formalaşması və bir sıra köhnə təsisatların modernləşməsi (yeniləşməsi) və yeni sistemə inteqrasiya ilə müşayət olunur. Cəmiyyətdə yeni siyasi tə-

sisatların formalaşması və bu təsisatların qanuniləşməsi (konstitüsionallaşması) prosesin başlıca tərəfidir və bu isə cəmiyyətdə real demokratik təsisatların yaranmasını təmin edə bilər. Tranzit zamanı milli spesifik xüsusiyyətlər də nəzərdən qaçırılmamalıdır. Demokratiyanın reallaşması üçün hər bir ölkənin, onun milli spesifik xüsusiyyətlərini nəzərə almaqla yanaşı, həmçinin dünya təcrübəsindən bacarıqla istifadə etmək əsasında qarşıya çıxan problemləri yalnız demokratik metodların köməyi ilə həll etmək olar.

Deyilənlər ona əsas verir ki, demokratik tranzit birdəfəlik proses olmayıb, müxtəlif ölkələrdə spesifik xüsusiyyətlərə və fərqli inkişaf dövrlərinə malikdir.

**Yoxlama xarakterli sullar**

1. Demokratiya terminini ilk işlədən mütəfəkkirlərdən biri kim olmuşdur?
2. Roma demokratiyasını Afina demokratiyasından fərqləndirən başlıca xüsusiyyətlərdən birini göstiərin.
3. Liberal demokratiyanı səciyyələndirən başlıca əlamətlərdən birini göstərin.
4. Xalqın interpretasiyasında kollektivçilik kimi səciyyəvi xüsusiyyət hansı demokratiya nəzəriyyəsinə xas xüsusiyyətdir?
5. Hansı demokratiya nəzəriyyəsi iştirak nəzəriyyəsi adlanır?
6. Hansı demokratiya forması xalqın qəbul etdiyi qərar mənasını verir?

## XII mövzu
## Parlament demokratik təsisatlar sistemində

1. Parlament anlayışı, quruluşu və fəaliyyət istiqamətləri
2. Parlamentin səlahiyyətləri və funksiyaları

### 1. Parlament anlayışı, quruluşu və fəaliyyət istiqamətləri

Hakimiyyət bölgüsü prnsipinə uyğun olaraq qanunvericilik hakimiyyətini həyata keçirən parlament dövlət hakimiyyəti qolları arasında xüsusi yer tutur.

Parlament yüksək seçkili qanunverici hakimiyyət orqanıdır. Müxtəlif ölkələrdə qanunverici orqana bir sıra adlar verilməsinə baxmayaraq (ABŞ, Braziliya, Boliviya və Meksikada konqres, İsveçdə riqsdaq, Finlandiya və Polşada seym, Norveçdə stortinq, Azərbaycan və Fransada milli məclis, Ukraynada ali rada, Misirdə xalq məclisi, Türkiyədə böyük millət məclisi, Çində xalq nümayəndələri məclisi və s.) onlar ümumi formada «parlament» adlanır. «Parlament» termini fransız mənşəli «parla» sözündən olub, «danışmaq» mənasını ifadə edir. Nümayəndəli hakimiyyət orqanı kimi ilk parlamentin meydana gəlməsi XIII əsrdə İngiltərədə baş verən hadisələrlə bağlıdır. 1215-ci ildə İngiltərədə «Azadlığın böyük xartiyası»nın (Maqna sarta) imzalanması nəticəsində kralın səlahiyyətləri məhdudlaşdırıldı, baronların razılığı olmadan artıq o heç bir mühüm siyasi və iqtisadi qərarlar qəbul edə bilməzdi. Bu sənəd parlamentin meydana gəlməsinin əsasını qoydu. 1265-ci ildə isə ilk dəfə olaraq İngiltərənin ali şurası parlament adlandırıldı. İngiltərədə parlamentin ya-

ranması ilə təxminən eyni vaxtda Avropanın digər dövlətlərndə də parlamentlər meydana gəlməyə başladı.

Azərbaycanda parlamentin yaranması isə XX əsrin əvvəllərinə təsadüf edir. 1918-ci ilin dekabrın 7-də Bakıda Azərbaycanın ilk müstəqil parlamenti fəaliyyətə başladı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə onun fəaliyyətinə son qoyuldu. Yalnız keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdikdən sonra müstəqil Azərbaycan parlamenti yenidən fəaliyyətə başladı.

Qanunverici hakimiyyət orqanı kimi parlamentin fəaliyyətinin təşkili, onun quruluşu palataların təşkili xüsusiyyətlərindən asılıdır. Parlamentlər bir qayda olaraq birpalatalı və ikipalatalı olur. Parlamentin birpalatalı və ya ikipalatalı olması bir sıra səbəblərlə (ölkənin siyasi quruluşu, tarixi ənənələr, demokratiyanın inkişaf dərəcəsi, cəmiyyətdəki siyasi qüvvələrin nisbəti və s.) bağlıdır. İkipalatalı parlament ilk dəfə XIV əsrdə İngiltərədə meydana gəlmişdir. İlk parlamentin ikipalatalı formada təşəkkül tapması əslində aristokratiyanı təmsil etmək məqsədi ilə yaradılmışdı. Hazırda unitar dövlətlərdə ikipalatalı parlament bütövlükdə parlamentin fəaliyyətinin səmərəliliyini təmin etmək üçün təşkil olunur.

Federativ dövlətlərdə isə ikipalatalı parlamentin olmasının başlıca səbəbi federativ dövlətin ikili təbiəti ilə bağlıdır. Bu iki əsas şərtin (dövlət və federasiya subyektləri) gözlənilməsini nəzərdə tutur. Federativ dövlətlərin parlamentlərinin palatalarından biri bütövlükdə ölkənin-millətin, digəri isə federasiya subyektlərinin təmsilçiliyi prinsipi üzrə formalaşdırılır.

Hazırda unitar dövlətlərin əksəriyyətində birpalatalı parlamentə üstünlük verilir (Türkiyə, Azərbaycan və b.). Bəzi ölkələrdə (Danimarka, Lüksemburq, Yeni Zelandiya və b.) ikipalatalı parlamentdən birpalatalı parlamentə keçid baş vermişdir. Bundan əlavə Asiya və Afrikanın müstəqillik qazanmış dövlətlərində və post-sovet respublikalarının əksəriyyətində birpalatalı parlament fəaliyyət göstərir. Bir sıra unitar dövlətlərdə isə (Fransa, İtaliya, Yaponiya) ikipalatalı parlament sisteminə üstünlük verilir.

Birpalatalı və ikipalatalı parlamentlərin həm ümumi, həm də fərqli cəhətləri var. İkipalatalı parlamentlər aşağı və yuxarı palataya bölünür və aşağı palatanın üzvləri adətən deputat və ya millət vəkili, yuxarı palatanın üzvləri senator adlanır. Parlamentin yuxarı palatası müxtəlif üsullarla: birbaşa və dolayı seçkilərlə, təyin olunma və vəzifəyə görə yer tutma qaydası ilə təşkil olunur. Senatorların birbaşa vətəndaşlar tərəfindən seçilməsi ABŞ, Braziliya, İtaliya və digər dövlətlərdə mövcuddur. Məsələn, ABŞ-da hər ştatdan iki senator (iki ildən bir təkibinin üçdə biri yenilənmək şərti ilə), Braziliyada hər ştatdan üç senator, İtaliyada hər vilayətdən ən azı yeddi senator seçilir. Dolayı seçkilər yolu ilə Fransa parlamentinin yuxarı palatası olan senat təşkil olunur. O respublika ərazi kollektivlərini təmsil edir. Hindistanda yuxarı palata sayılan ştatlar sırasının yarıdan çoxu ştatlar və ittifaq ərazilərinin qanunvericilik məclislərinin seçkili üzvləri tərəfindən dolayı seçkilər yolu ilə seçilir. Bəzi ölkələrin parlamentlərinə seçkilərdə birbaşa və dolayı seçkilər birləşdirilir (məsələn, İspaniyada senatorların bir hissəsi birbaşa vətəndaşlar tərəfindən, bir hissəsi isə muxtariyyətlərin nümayəndəli

orqanları tərəfindən seçilir, Belçikada isə senatorların bir hissəsi əyalətlərin şuraları tərəfindən dolayı seçkilərlə, bir hissəsi isə birbaşa seçilir). Elə ölkələr də vardır ki, parlamentin yuxarı palatası təyin olunma qaydası ilə təşkil olunur (Almaniyada bundesratın millət vəkilləri torpaqların hökumətləri tərəfindən, İngiltərədə isə lordlar palatasının üzvləri varislik qaydasında təyin olunur).

Dövlət başçısı tərəfindən senatorların təyin olunması halları da mövcuddur. Belə ki, Kanada, İordaniya, Yamayka və s. ölkələrdə palatalar tamamilə, Hindistanda isə 12 nəfər dövlət başçısı tərəfindən təyin olunur. İtaliyada senatın 5 nəfər üzvü, İngiltərədə isə 20 apellyasiya lordu dövlət başçısı tərəfindən ömürlük təyin olunur. Bəzi ölkələrdə vəzifəsinə görə yer tutma baxımından senator təyin olunma hallarına da rast gəlmək olur (İtaliyada konstitusiyanın 59-cu maddəsinə uyğun olaraq hər bir sabiq ölkə prezidenti imtina etməzsə, ömürlük senatordur).

Aşağı palatanın və birpalatalı parlamentin millət vəkilləri 2, 4 və 5 il müddətinə (məsələn, ABŞ-da nümayəndələr palatası 2 il, Yaponiyada münayəndələr palatası 4 il və Azərbaycanda Milli Məclis 5 il müddətinə) əhali tərəfindən birbaşa seçilir. Aşağı palatanın və birpalatalı parlamentin deputatlarının bir hissəsi dolayı seçkilərlə də seçilə bilər.

Parlamentin quruluşunda diqqəti cəlb edən cəhətlərdən biri də palatalar arasında səlahiyyətlərin bölgüsüdür. Bəzi ölkələrdə palataların hər ikisi bərabər səlahiyyətlərə malik olur. Lakin bəzən bu qayda pozulur və yuxarı palata əlavə səlahiyyətlərə malik olur.

Hazırda ikipalatalı parlamenti olan unitar dövlətlə-

rin əksəriyyətində palatalar bərabər səlahiyyətlərə malikdir (məsələn, İtaliyada yuxarı palata senat – aşağı palata millət vəkilləri və Yaponiyada yuxarı palata müşavirlər – aşağı palata isə nümayəndələr palatasından ibarət iki bərabər hüquqlu palatadan ibarətdir).

Parlamentin fəaliyyətində nəzərə çarpan əsas məsələlərdən biri də onun iş qaydasıdır. Parlamentlər öz fəaliyyətini müxtəlif formalarda qurur. Palatalar ayrılıqda və birgə iclaslar təşkil edir, daimi və müvəqqəti komissiyalar yaradır və s. Birgə iclaslar konstitusiyada müəyyən olunmuş hallarda keçirilir. Parlamentin başlıca iş forması sessiya hesab olunur. Sessiya parlamentin iclaslarının çağırıldığı və daimi komissiyaların fəaliyyət göstərdiyi dövrdür. Sessiyalar adətən yaz və payız sessiyalarına bölünür (məsələn, Braziliyada 15 fevraldan 30 iyunadək və 1 avqustdan 30 dekabradək, Ukraynada parlament fevralın və sentyabrın birinci çərşənbə axşamı toplaşır. Türkiyədə parlament hər il sentyabr ayının ilk günü müstəqil surətdə toplanır, məclis bir qanunvericilik ilində ən çoxu üç ay tətil edə bilər, Azərbaycan Respublikasının Milli Məclisi də ildə iki sessiyaya – yaz və payız sessiyasına toplaşır. Yaponiya və Fransada parlamentin növbəti sessiyaları ildə bir dəfə çağırılır. Almaniyada isə bundestaq daimi sessiya vəziyyətində olur və lazım gəldikdə palata sədri tərəfindən geniş iclaslar çağırılır və s.).

Parlamentdə növbədənkənar sessiyalar da çağırıla bilər. Belə sessiyalar, adətən dövlət başçısının, hökumətin və deputatların tələbi ilə çağırıla bilər (məsələn, Ukraynada deputatların 1/3-nin, Yaponiyada palata üzvlərinin ümumi sayının 1/4-nin, Misirdə deputatların əksəriyyəti-

nin tələbi ilə və s.). Növbədənkənar sessiyalarda onun çağırılmasına səbəb olmuş məsələlər müzakirə obyektinə çevrilir. Parlamentin işləməsi və onun qərarlar qəbul etməsi üçün yetərsayın olması zəruridir. Yetərsay üçün millət vəkillərinin yarıdan çoxunun iştirakı vacibdir.

Yetərsay parlamentdə qərar qəbul etmək üçün kifayət deyildir. Qərar parlamentin say tərkibinin səs çoxluğu ilə qəbul edilir. Konstitusiya qanunlarının qəbul edilməsi üçün daha ciddi tələblər qoyulmuşdur. Azərbaycan Respublikasının əsas qanununun 94-cü maddəsinin 2, 3, 4 bəndləri üzrə qanunlar 83 səs çoxluğu, qalan məsələlərə dair qanunlar isə 63 səs çoxluğu ilə qəbul edilir. Lakin elə ölkələr də var ki, orada iclas keçirmək və qərar qəbul etmək üçün yetərsay nəzərdə tutulmamışdır.

Parlamentin iclasları, adətən, açıq və qapalı olur. Açıq iclaslara nisbətən qapalı iclaslarda yalnız parlament üzvləri və xüsusi dəvət olunmuş şəxslər iştirak edə bilər.

Dünya təcrübəsinə əsasən parlamentin buraxılması qaydası müxtəlif cür həyata keçirilir. Bu prinsip bir qayda olaraq parlament idarəçiliyinə əsaslanan ölkələrdə həyata keçirilir. Əgər parlament ikipalatalıdırsa, aşağı palata buraxılır, yuxarı palata öz fəaliyyətini müvəqqəti dayandırır, lakin onun səlahiyyət müddəti saxlanılır (məsələn, Yaponiyada nümayəndələr palatasının buraxılması ilə eyni vaxtda müşavirlər palatası da fəaliyyətini dayandırır. Həmin müddətdə kabinet müşavirlər palatasının fövqəladə sessiyasını çağıra bilər).

Parlamentdə qanunyaratma prosesi onun iş vaxtının yarıdan çoxunu təşkil edir. Qanunvericilik prosesi bir neçə mərhələdən ibarətdir: qanun layihəsinin təqdim edil-

məsi, müzakirə olunması və qanunun qəbul edilməsi.

Parlamentdə qanunvericilik təşəbbüsü hüququna bəzi ölkələrdə dövlət başçısı, hökumət, parlamentin palataları, onların daimi komissiyaları, müəyyən sayda deputatlar qrupu, tək-tək deputatlar və bəzi dövlət orqanları malikdirlər. Bəzi qanun layihələrini, məsələn, dövlət büdcəsi haqqında qanun layihəsini yalnız dövlət başçısı və hökumət təqdim edə bilər. Ayrı-ayrı ölkələrdə konstitusiyaya yenidən baxılması təşəbbüsünü dövlət başçısı irəli sürür. Bəzi ölkələrdə qanun layihələri istənilən palataya təqdim edilə bilər (İtaliya və ABŞ-da). Maliyyə ilə bağlı qanun layihələri aşağı palataya təqdim olunur. Yaponiyada büdcə əvvəlcə nümayəndələr palatasının müzakirəsinə təqdim olunmalıdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq Milli Məclisdə qanunvericilik təşəbbüsü prezidentə, Milli Məclisin deputatlarına, ali məhkəməyə, respublika prokurorluğuna, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur.

Qanunların qəbul edilməsi parlamentin geniş iclaslarında müəyyən səs çoxluğu ilə həyata keçirilir və qanun parlamentdə qəbul edildikdən sonra onun ölkə başçısı tərəfindən imzalanması və dərc olunması mərhələsi başlayır. Bu proses bir neçə mərhələdən keçir (qanunun imzalanması, dərc olunması, icra edilməsi). Qanun dövlət başçısının etirazına səbəb olduqda o qanunu imzalamaya da bilər (veto hüququ). Qanun imzalanmazsa o qüvvəyə minmir. Bu prosedura ayrı-ayrı ölkələrdə müxtəlif cür həyata keçirilir. Konstitusiya qanunları Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmazsa, qüvvəyə

minmir. Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə qəbul edilən qanunları 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilən qanunları isə 83 səs çoxluğu ilə yenidən qəbul edərsə, onda belə qanunlar təkrar səsvermədən sonra qüvvəyə minir. Türkiyə Respublikasının Prezidenti Türkiyə Böyük Millət Məclisi tərəfindən qəbul olunan qanunları 15 gün ərzində dərc edir. Dərc olunmasına ehtiyac olmayan qanunlar isə yenidən qanunverici orqana göndərilir (büdcə qanunları bu qrupa daxil deyildir). Qanunverici orqan göndərilən qanunu olduğu kimi qəbul edərsə, onda qanun dövlət başçısı tərəfindən dərc olunur.

## 2. Parlamentin səlahiyyətləri və funksiyaları

Parlamentin mahiyyətini dolğun və daha düzgün anlamaq üçün bu təsisatın səlahiyyətləri və funksiyaları barədə geniş təsəvvürə malik olmaq lazımdır. Parlamentin səlahiyyətlərinin müəyyənləşdirilməsi ilə bağlı siyasi elmdə müxtəlif fikirlər mövcuddur. Bu onu göstərir ki, müxtəlif ölkələrdə parlamentlərin səlahiyyətləri eyni deyildir. Siyasi ədəbiyyatda parlamentin səlahiyyətlərinin müəyyənləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Məsələn, V.Çirkin səlahiyyətlərinə görə parlamentin təsnifatını aşağıdakı qaydada nəzərdən keçirir:

- məhdud səlahiyyətli parlament (Fransa, ABŞ, Seneqal);
- qeyri-məhdud səlahiyyətli parlament (İtaliya, İngiltərə);

• məşvərətçi parlamentlər (İordaniya, Mərakeş, Küveyt).

Məşvərətçi parlamentlər bəzi islam ölkələrində mövcuddur. Belə parlamentlər monarxların razılığı ilə qanunlar qəbul edirlər.

Bəzi tədqiqatçılar səlahiyyətlərinə görə parlamentin təsnifatını verərkən məhdud və qeyri-məhdud səlahiyyətli parlamentlərlə yanaşı, səlahiyyət sferası vahid prinsip üzrə müəyyən olunan parlamentləri də nəzərdən keçirirlər (məsələn, Hindistan).

Məhdud səlahiyyətli parlamentin mahiyyəti ondan ibarətdir ki, qanunvericiliyə uyğun olaraq həmin fəaliyyətin obyekti olan məsələlərin dəqiq siyahısı hazırlanır və konstitusiyada öz əksini tapır (yəni, parlamentin səlahiyyətləri konstitusiya ilə məhdudlaşdırılır). Adətən bu tip parlamentlər öz səlahiyyətlərinin həddini aşmaq hüququna malik olmurlar. Parlamentin səlahiyyətindən kənarda qalan məsələlər hakimiyyətin digər qollarına həvalə edilir. Həmin məsələlər üzrə prezident, hökumət və nazirlər normativ aktlar qəbul edir, qanunverici orqan isə bu sahəyə müdaxilə etməməlidir. Səlahiyyətlərinə görə birinci qrupa aid olan parlamentin klassik nümunəsi Fransa və bəzi fransızdilli ölkələrin (Seneqal, Madaqaskar və s.), ABŞ və başqa ölkələrin konstitusiyalarında daha aydın əks olunmuşdur. Həmin ölkələrin konstitusiyalarında qanunverici orqan üçün müəyyən fəaliyyət növləri öz əksini tapmış, parlamentin fəaliyyətindən kənarda qalan məsələlərin dəqiq siyahısı verilmişdir. Fransa konstitusiyasının 37-ci maddəsində göstərilir ki, qanunvericilik sahəsinə aid olmayan məsələlər inzibati qaydada həll olunur. ABŞ

konqresinin fəaliyyət sferasından kənarda qalan məsələlər isə ayrı-ayrı ştatların səlahiyyətlərinə aid edilir. Azərbaycan Respublikasının Konstitusiyasında da Milli Məclisin öz səlahiyyətlərinə aid məsələlər üzrə konstitusiya qanunları, qanunlar və qərarlar qəbul emək (maddə 93) Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar (maddə 94) və Milli Məclisin bilavasitə həll etdiyi məsələlər (maddə 95) üzrə səlahiyyətlər müəyyənləşdirilmiş, Milli Məclisin səlahiyyətlərindən kənarda qalan məsələlər isə icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmişdir.

Qeyri-məhdud səlahiyyətli parlamentlər isə hüquqi baxımdan istənilən məsələlər üzrə qanun və qərarlar qəbul edə bilərlər. Lakin bu tip parlamentlərin də suverenliyi nisbidir. Çünki belə ölkələrdə ya dövlət başçısının müstəsna səlahiyyətləri olur, ya da konstitusiya nəzarəti tətbiq olunur ki, bu da parlamentin geniş səlahiyyətlərinin məhdudlaşdırılması deməkdir.

Parlamentin səlahiyyətlərini tam dərk etmək üçün onun yerinə yetirdiyi funksiyalar haqqında dəqiq məlumata malik olmaq lazımdır. Parlamentin yerinə yetirdiyi funksiyalar genişdir. Bu funksiyalardan ən başlıcası qanunvericilik funksiyasıdır. Parlament xalqın suveren hüquqlarını və iradəsini müəyyən qanunlar şəklində ifadə etmək səlahiyyətlərinə malikdir. Parlamentin fəaliyyəti təkcə qanunlar işləyib hazırlamaq və qəbul etməklə kifayətlənmir. Bu təsisat hökumətin fəaliyyətinə nəzarət etmək üçün də geniş imkanlara malikdir. Parlament hökumətin fəaliyyətinə nəzarətini əsasən dövlət büdcəsinin təsdiqi və ona nəzarət olunması ilə həyata keçirir.

Parlamentin əsas funksiyalarından biri də parlament

idarəçiliyi sistemində icra hakimiyyəti orqanlarının formalaşdırılması, müxtəlif dövlət vəzifələrinə təyinatların həyata keçirilməsidir. Bəzi ölkələrdə prezidenti parlament seçir, bundan əlavə «parlament demokratiyası» şəraitində hökumətin formalaşdırılması da onun səlahiyyətlərinə aiddir. Prezident idarəçiliyi sistemində parlament icra hakimiyyəti orqanlarının formalaşdırılmasında birbaşa iştirak etmir, lakin o, dövlət başçısının təklifi ilə bir sıra ali dövlət vəzifələrinə təyinatların həyata keçirilməsinə razılıq verir.

Parlamentin yerinə yetirdiyi funksiyalardan biri də ali vəzifəli şəxslərin impiçmentidir. Bu öz başlanğıcını XVIII əsrdən, ingilis parlamentindən götürmüşdür. İmpiçment yolu ilə prezidentin və digər vəziəfəli şəxslərn vəzifədən kənarlaşdırılması həyata keçirilir.

Siyasi ədəbiyyatda parlamentin həyata keçirdiyi funksiyaların təsnifatı üçün müəyyən cəhətlər (hakimiyyətin hər hansı orqanın dövlət aparatında yeri: parlamentin digər idarəetmə orqanları ilə qarşılıqlı əlaqəsi; bu orqanın cəmiyyətə dövlət rəhbərliyinin həyata keçirilməsi prosesində praktiki rolu və s.) əsas meyar hesab oluna bilər.

Parlamentin mahiyyəti ilə bağlı təsəvvürün zənginləşməsi üçün millət vəkilinin hüquqi statusu haqqında məlumat siyasi əhəmiyyətə malikdir. Parlament üzvləri dövləti təmsil edirlər və onlar öz deputat fəaliyyətlərinə görə dövlət xəzinəsindən əmək haqqı alırlar. Hər bir deputat qanunverici orqanın, onun komitələrinin, daimi və müvəqqəti komissiyalarının işində iştrak etmək, habelə dövlətin ali vəzifəli şəxslərinə parlamentin iclaslarında və ya ondan kənar sorğular vermək hüququna malikdir. Hər

bir deputat öz vəzifəsinə uyğun olaraq parlamentin işində iştirak etməyə borcludur. Deputat üzürsüz səbəbə görə mütəmadi olaraq parlamentin işində iştirak etmədikdə, habelə müəyyən hüquq pozuntularına yol verdikdə, etik normaları pozduqda cəzalandırıla bilər və deputat mandatını itirə bilər. Parlamentin üzvü həmçinin deputat toxunulmazlığına malik olur. Müasir demokratik dövlətlərin əksəriyyətinin konstitusiyasında deputatın toxunulmazlığı onun cəmiyyət qarşısında məsuliyyətindən azad olması kimi deyil, parlamentdə söylədiyi fikir və mülahizələrə görə məsuliyyətə cəlb edilməsinin yolverilməz olması kimi müəyyənləşdirilir. Parlament toxunulmazlığı deputatın törətdiyi hüquq pozuntularına və ya cinayətlərə cəlb edilməsinin xüsusi qaydası kimi tətbiq edilir. Bəzi ölkələrdə parlament üzvləri deputat immunitetinə malikdirlər. Lakin bu deputatın bilavasitə cinayət yerində yaxalandığı halda istisna təşkil edir. Fransa konstitusiyasına 1995-ci ildə edilmiş düzəlişə görə immunitet yalnız sessiya dövründə qüvvədədir və cinayət kimi cəzalandırılan əməllərə aid edilmir. ABŞ-da immunitet ağır cinayətə və ictimai asayişin pozulması hallarına aid edilmir. Azərbaycan Respublikasının əsas qanununun 90-cı maddəsinə görə Milli Məclisin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma halı istisna olmaqla cinayət məsuliyyətinə cəlb edilə bilməz. Milli Məclisin deputatının toxunulmazlığına yalnız Baş prokurorun təqdimatına əsasən Milli Məclisin qərarı ilə xitam verilə bilər.

**Yoxlama xarakterli suallar**

1. İngiltərədə ikipalatalı parlamentin yaranma tarixini göstərin.
2. Azərbaycan Respublikasının parlamentinin səlahiyyət müddəti neçə ildir ?
3. Məhdud səlahiyyətli parlamenti qeyri-məhdud səlahiyyətli parlamentdən fərqləndirən başlıca cəhət hansıdır ?
4. İmpiçment prosedurası öz başlanğıcını haradan və nə vaxt götürüb ?
5. Parlament sözünün mənasını göstərin.
6. Nümayəndəli hakimiyyət orqanı kimi ilk parlament harada və nə vaxt meydana gəlmişdir ?

# XIII mövzu
# Seçki sistemləri

1. Seçkilər demokratiyanın təsisatı kimi
2. Seçki sistemi və onun həyata keçirilməsi mexanizmi
3. Qarışıq seçki sistemi və onun xüsusiyyətləri

## 1. Seçkilər demokratiyanın təsisatı kimi

Seçkilər demokratiyanın mühüm təsisatı hesab olunur. Cəmiyyətin siyasi sisteminin formalaşması prosesi xeyli dərəcədə seçkili dövlət orqanlarına və digər seçkili vəzifələrə keçirilən seçki sistemindən asılıdır. Seçkilərin səmərəli olmasında bir sıra siyasi, iqtisadi, sosial, psixoloji və s. amillər mühüm rol oynayır.

Müasir demokratiya şəraitində ümumi seçki hüququ əsasında həyata keçirilən seçkilər qəbul edilir. Belə seçki sisteminin meydana çıxması dünyanın aparıcı ölkələrində demokratiya uğrunda mübarizənin genişlənməsilə əlaqədardır. Ümumi seçki hüququ anlayışı bütün vətəndaşların dövlət hakimiyyəti orqanları və digər seçkili orqanların seçilməsində iştirak hüququnu nəzərdə tutur. Seçki hüququ konkret formada öz ifadəsini aktiv və passiv seçki hüququnda tapır.

Aktiv seçki hüququ dövlət hakimiyyət orqanlarının və bələdiyyələrin seçilməsi üçün əhalinin səsvermədə iştirak hüququnu nəzərdə tutur.

Passiv seçki hüququ ayrı-ayrı şəxslərin seçikli dövlət orqanlarına, digər seçkili vəzifələrə öz namizədliyini irəli sürmək imkanında ifadə olunur.

Aktiv seçki hüququ sahəsində müxtəlif məhdudiyyətlər (yaş, vətəndaşlıq və fəaliyyət qabiliyyəti ilə bağlı senzlər) tətbiq edilir.

Aktiv seçki hüququndan fərqli olaraq passiv seçki hüququnda yaş, vətəndaşlıq senzi ilə yanaşı çox vaxt oturaqlıq, təhsil, əxlaq, dini və digər senzlər də tətbiq edilir.

Yaş senzinin mahiyyəti yalnız müəyyən olunmuş yaş həddinə çatmış şəxslərin seçkilərdə iştirak etmək hüququna malik olması ilə bağlıdır. Dünyanın əksər ölkələrində aktiv seçki hüququ üçün müəyyən olunmuş yaş senzi 18 yaş (Azərbaycan Respublikasında da aktiv seçki hüququ üçün müəyyən edilmiş aşağı yaş senzi həddi 18 yaş hesab olunur), bir qismində 19-21 yaş, 4 ölkədə isə (İran, Nikaraqua, Kuba, Braziliya) 16 yaş həddindədir.

Passiv seçki hüququ üçün yaş senzi isə ayrı-ayrı ölkələrdə müxtəlif orqanlara seçkilərdə fərqlidir. ABŞ-da prezident seçkiləri üçün 35 yaş, Türkiyədə və İtaliyada 50 yaş həddi müəyyən edilmişdir. Parlamentə seçkilərdə isə əsasən 25 yaş həddi müəyyən edilmişdir (İtaliyada 25 yaşı tamam olmuş hər bir seçici millət vəkili, 40 yaşı tamam olmuş seçicilər senator seçilə bilər).

Azərbaycan Respublikasında isə passiv seçki hüququ üçün müvafiq yaş senzi belə (bələdiyyə seçkiləri üzrə 21 yaş, parlament seçkiləri üzrə 25 yaş, prezident seçkiləri üzrə isə 35 yaş həddi) müəyyən edilmişdir.

Oturaqlıq senzinin mahiyyəti ondan ibarətdir ki, yalnız konkret ərazidə müəyyən müddətdə yaşamış şəxslərin seçki hüququ vardır. Bu senz ona görə tətbiq olunur ki, seçkilərdə iştirak edən şəxs ərazi, əhali, onun problemləri, arzu və istəkləri barəsində minimum təsəvvürə malik olsun.

Təhsil senzinin tələblərinə görə isə seçkilərdə yalnız müəyyən olunmuş həcmdə təhsilə malik olan şəxslər iştirak edə bilərlər. Təhsil senzi öz mövcudluğunu passiv seçki hüququnun tətbiq olunması ilə bağlı saxlayır. Bir sıra ölkələrin konstitusiyasına müvaifq olaraq prezident seçiləcək şəxsin ali təhsilli olması xüsusilə vurğulanır.

Passiv seçki hüququnda tətbiq edilən senzlərdən biri də dini mənsubiyyət hesab olunur. Bu senzdən əsasən teokratik dövlətlərdə, həmçinin dinin dövlətlə birləşmiş olduğu ölkələrdə istifadə olunur. Hal-hazırda bu senzdən İran İslam Respublikasında istifadə olunur.

Əxlaq senzinin tələblərinə görə seçkilərdə iştirak edən şəxs nümunəvi həyat tərzi keçirməli, öz əmlakı üzərində sərbəst sərəncam vermək iqtidarında olmalıdır. Əxlaq senzinin tətbiq olunduğu ölkələrdən Meksika, Niderland və s. göstərmək olar.

Demokratiya şəraitində ümumi seçki hüququnun həyata keçirilməsində ən vacib üsullardan biri səsvermə hesab olunur. Demokratik təcrübə və ənənələr inkişaf etdikcə səsvermə texnikası da təkmilləşir. Demokratik təcrübədə əhalinin səsvermədə iştirakına ikili baxış formalaşmışdır. Belə ki, səsvermədə iştirak həm seçicilərin hüququ, həm də onların vəzifəsi hesab olunur.

Səsvermədə iştirakın seçicinin hüququ kimi qəbul edilməsi **xalq suverenliyi nəzəriyyəsinə** (Azərbaycanda) səsvermədə iştirakın seçicinin vəzifəsi kimi qəbul edilməsi isə **milli suverenlik nəzəriyyəsinə** (Türkiyə, İtaliya, Belçika, Lüksemburq, Yunanıstan) əsaslanır. Birinci nəzəriyyəyə görə hər bir vətəndaş suverenin tərkib hissəsi kimi onun iradəsini ifadə etmək prosesində iştirak etmək hüququna

malikdir və bu, vətəndaşa səsvermədə iştirak etmək hüququ verir. Digər nəzəriyyəyə görə isə suverenliyin daşıyıcısı xalqı təmsil edən ayrı-ayrı insanlar deyil, toplum halında olan millətdir. Millət öz suveren hüquqlarını həyata keçirən müstəqil subyekt kimi fəaliyyət göstərir.

Seçki demokratiyanın həyata keçirilməsini təmin edən mürəkkəb struktura malik təsisat olduğu üçün bir sıra fundamental prinsiplərə əsaslanır. Bu prinsiplər müxtəlif ölkələrdə fərqli cəhətlərə malik olsalar da, səsvermə hüququnu rəhbər tutur və seçki qanunlarında təsbit edilir. Dünyanın aparıcı ölkələrinin əksəriyyətinin konstitusiyasında ümumi seçkilər yolu ilə nümayəndəli orqanların seçkili olması prinsipi qanunvericilik yolu ilə təsbit olunmuşdur. **Ümumilik prinsipinə görə müəyyən yaş həddinə çatmış vətəndaşlar seçmək və seçilmək hüququna malikdir.** Bu prinsip uzun illərin kəskin mübarizəsi nəticəsində hüquqşünaslığa daxil olmuşdur. Seçkilərin ikinci prinsipi **bərabər seçki hüququ hesab olunur. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, hər bir millət vəkili – nümayəndə eyni sayda seçicilərdən seçilir.** Bu prinsipə əməl edilməsi seçki dairələrinin düzgün müəyyən edilməsindən asılıdır.

Seçkilərin üçüncü prinsipi **seçkilərin birbaşa olmasıdır.** Demokratik dövlətlərin əksəriyyətinin konstitusiyasında seçicilərin səsvermədə bilavasitə iştirak etmək hüququ təsbit edilib. Bu prinsipə nümayəndəli orqanlara seçkilərdə çox vaxt tam riayət edilir. Prezident seçkilərində isə bu norma bir sıra ölkələrdə gözlənilmir. ABŞ-da dolayı seçki hüququ tətbiq edilir. Dolayı (çoxpilləli) seçki hüququnun tələblərinə görə seçici seçicilər kollegiyasının üzvlərini seçir, seçicilər kollegiyası isə ölkə prezidentini

seçir (ABŞ-da prezident dolayı seçki hüququ əsasında seçilir). Parlament idarəçiliyi sistemində isə dövlət başçısı xalqın mandatını almış parlament tərəfindən seçilir.

Parlament seçkilərində isə dolayı seçki formasından bəzi ölkələrdə (Fransada senata keçirilən seçkilərdə) istifadə olunur.

Birbaşa seçki hüququ əsasında prezident seçkiləri dünyanın bir çox ölkələrində (Azərbaycanda, Fransada, Ukraynada və Türkiyədə – 2007-ci ilin oktyabr ayında Türkiyədə keçirilmiş referendumun nəticələrinə görə) tətbiq edilir.

Seçkilərin dördüncü prinsipi **ədalətli bəhsləşmə prinsipinin** təmin edilməsinə şərait yaradılmasıdır. Bu demokratiyanın bərqərar olmasının mühüm şərtidir.

Seçkilərin beşinci prinsipi isə səsvermə qaydasına aid olan **prosedur** və **gizli səsvermə prinsipini** nəzərdə tutulur. Bu prinsip seçicilərə xaricdən təsiri xeyli dərəcədə azaldır.

Seçkilər bir sıra funksiyaları yerinə yetirir. Seçkinin başlıca funksiyalarından biri seçkili **hakimiyyət orqanlarının formalaşdırılması funksiyasıdır.** Bu funksiya vasitəsilə seçkili hakimiyyət orqanları formalaşır.

Seçkinin mühüm funksiyalarından birini də **əhalinin geniş təbəqələrinin siyasi proseslərə cəlb edilməsi funksiyası** təşkil edir. Seçki vasitəsilə xalq nəinki seçkili orqanların formalaşdırılmasında iştirak edir, habelə seçilən orqanların və ya konkret şəxslərin fəaliyyətinə nəzarət etmək imkanı əldə edir. Seçkilər əhalinin siyasi fəallıq səviyyəsinin yüksəlməsinə, xalqın özünü hakimiyyətin mənbəyi kimi dərk etməsinə köməklik göstərir. Lakin bəzən əhalinin müəyyən hissəsinin səsverməyə, seçkilərə etinasız münasi-

bəti də diqqəti cəlb edir. Bu **absenteizm** hadisəsi (səsvermədə iştirak etməkdən boyun qaçırmaq) adlanır. Müasir şəraitdə bu bir sıra dövlətlərdə ciddi narahatçılıq doğurur. Praktika göstərir ki, absenteizmə qarşı ən təsirli mübarizə əhalinin siyasi mədəniyyət və siyasi fəallıq səviyyəsini yüksəltməkdir.

Seçkinin digər funksiyası **təmsilçilik təsisatı münasibətləri yaratmaqdır.** Seçki hüququ hər bir vətəndaşın seçkili orqanlara seçilmək hüququnu nəzərdə tutsa da, real olaraq bu hüquqdan insanların yalnız bir qrupu istifadə etmək imkanı qazanır. Seçki prosesində seçici ilə namizədlər arasında qarşılıqlı əlaqələr, kommunikasiya kanalları yaranır. Hər bir seçici onun iştirakı ilə mandat alan xalq nümayəndəsində özünün təmsilçiliyini hiss edir. Bu da cəmiyyətdə təmsilçilik münasibətlərinin formalaşmasını şərtləndirir.

**Ayrı-ayrı sosial qrup və birliklərin mənafelərini əlaqələndirmək funksiyası** da seçki prosesinə xas olan funksiya hesab olunur. Seçki kampaniyası zamanı cəmiyyətdəki sosial maraqlar və tələbatlar qabarır, çoxluğun iradəsinin ifadə edilməsi şəklində özünə dəstək tapan sosial-siyasi mənafelər formalaşır. Bu mənada seçkilər sosial konfliktlərin həlli vasitəsi kimi çıxış edir, cəmiyyətdə zəruri siyasi kompromis, konsensus yaradır.

Seçki kampaniyasının konkret strategiyası əsasən real situasiyaya uyğun əldə olan resurslarla, kampaniyanın özünün miqyası ilə müəyyənləşir. Adətən seçkilər miqyasına görə **ümummilli (parlament və prezident seçkiləri) və yerli seçkilərə (bələdiyyə seçkiləri)** ayrılır.

Seçki kampaniyasının strategiyasını müəyyən edər-

kən bəzi qaydalara əməl etmək vacibdir:

- əldə olan bütün resursların və potensial ehtiyatların maksimum səfərbərliyini təmin etməyə çalışmaq;
- məqsədin dəqiq, aydın və real olması;
- namizəd, yaxud partiya üçün müəyyən olunmuş şəraiti, həmçinin seçki kampaniyasının gedişində onların dəyişməsi ehtimalını real qiymətləndirmək.

Məqsədin müəyyənləşdirilməsi seçki kampaniyası strategiyasının müəyyən edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Bunlar içərisində həm sadəcə seçki kampaniyasında iştirak etmək, həm də müəyyən nisbi, tam və mütləq qələbə əldə etmək məqsədləri ola bilər. Çox vaxt kifayət qədər təsirə malik olmayan siyasi partiyalar, partiya blokları və ayrı-ayrı namizədlər üçün məqsəd məhz seçki kampaniyasında iştirak etməkdir. Çox vaxt seçkilərdə parlamentdə təmsilçiləri olmayan kiçik partiyalar üçün bir neçə namizədini keçirmək və mandat əldə etmək nailiyyət hesab olunur.

Nümayndəli orqanda yerlərin yarıdan çoxunu tutmaq (mandat əldə etmək), yaxud yığılan səslərin öz namizədinin prezident seçilmək imkanını təmin edəcək qədər olması tam qələbə hesab olunur.

Beləliklə, seçki kampaniyasının strategiyası siyasi mübarizənin bu və ya başqa iştirakçılarının malik olduqları real şərait və imkanlarla müəyyənləşən parametrlərdən və qələbəni təmin edən amillərdən ibarətdir. Seçki kampaniyasının strategiyası eyni zamanda seçkiqabağı mübarizə çərçivəsində lazımi imic və əlaqələrin yaranmasına xidmət edə bilər. Seçki kampaniyası spesifik xüsu-

siyyətlərə malikdir. Seçkinin planlaşdırılması və həyata keçirilməsinin bəzi ümumi prinsipləri vardır. Seçkilərdə qələbənin təmin olunmasında prinsiplərdən şəraitə uyğun istifadə olunması böyük əhəmiyyət kəsb edir. Seçki kampaniyası dövründə seçki planlaşdırılmasından istifadə edilir. Seçki kampaniyasının təqribi planı (onun miqyasına uyğun olaraq) aşağıdakı istiqamətləri nəzərdə tutur:

- informasiyanın təhlili;
- seçki kampaniyası iştirakçılarının qeydiyyat üçün qanunvericilikdə nəzərdə tutulmuş formal tələblərin yerinə yetirilməsi üzrə iş;
- öz namizədinin müsbət imicinin yaradılması və rəqiblərin imkan çərçivəsində zəiflədilməsi məqsədilə KİV-lə iş;
- seçicilərlə görüşlərin təşkili;
- maliyyə vəsaitindən səmərəli istifadənin təşkili üsulları;
- seçki günündə səsvermənin düzgün aparılmasına nəzarətin təşkili;
- Seçki komandasının (mütəxəssislər və təcrübəli adamlar) və könüllü köməkçilər şəbəkəsinin yaradılması.[1]

Seçki komandası bir neçə qrupa bölünür:

- prezident seçkilərində namizədin dəstəklənməsi üzrə;
- partiyanın, yaxud seçki blokunun kampaniyasının aparılması üzrə;
- konkret namizədin nümayəndəli hakimiyyət orqanına və yaxud bələdiyyə orqanlarına seçkisinin təşkili üzrə və s.[2]

---

[1] Bax: Musabəyov R. Seçki texnologiyaları. B., 1998, s.7
[2] Yenə orada, s.9

Nəzərə almaq lazımdır ki, komandanın tərkibi və fəaliyyət sferası seçki kampaniyasının miqyasından asılıdır. Bunun üçün həm də aşağıdakılar da vacib hesab olunur:

- peşəkarlıq və işgüzarlıq dərəcəsi;
- icra intizamı və məsuliyyəti;
- komandanın işlə optimal yüklənməsi;
- ehtiyat tədbirlərinin görülməsi, yaxud işləyə bilməyən komanda üzvünün əvəz edilməsi və s.

Seçki komandasının tərkibi müxtəlif olur (əsas istiqamətlər üzrə rəhbərlər; mütəxəssislər, ekspertlər və sıravi funksionerlər; mərkəzi qərargahın fəalları, seçki dairələri və məntəqələrində fəaliyyət göstərən dəstəkləyici qruplar; komanda ilə sıx əlaqədə olan vəkillər qrupu; texniki qruplar və s.). Seçki komandası sadələşdirilmiş sxem üzrə də formalaşdırıla bilər.

## 2. Seçki sistemi və onun həyata keçirilməsi mexanizmi

Səsvermə prosesini həyata keçirmək üçün tətbiq edilən konkret seçki forması seçki anlayışı ilə ifadə olunur. **Seçki sistemi dedikdə vətəndaşların seçkili orqanların seçilməsində iştirakı, habelə seçicilərlə seçkili orqanların üzvləri arasında əlaqələri müəyyən edən qaydalar başa düşülür.**

Hər hansı bir ölkədə bu və ya digər seçki sisteminə üstünlük verilməsi ölkənin siyasi sisteminin xarakterindən, idarəçilik üsulundan və həyata keçirilən dövlət siyasətindən asılıdır.

Dünya praktikasında seçki sisteminin daha çox ma-

joritar, proporsional və bu sistemlərin ayrı-ayrı ünsürlərini özündə birləşdirən qarışıq seçki sistemi tətbiq olunur.

Bunlardan hər biri həm hakimiyyətin seçkili, xüsusən, nümayəndəli orqanların formalaşması qaydalarını, həm də səsvermənin nəticələri müəyyən ediləndən sonra seçkili orqanlarda yerlərin bölüşdürülməsi sistemini özündə təcəssüm etdirir.

İlkin dövrlərdə majoritar sistem daha geniş yayılmışdı («majoritar» fransız sözü olub, «majorite», «əksəriyyət», «çoxluq» deməkdir). Lakin tədricən bu sistemdən fərqlənən yeni bir seçki sistemi – proporsional təmsilçilik sistemi meydana gəldi. Artıq XIX əsrin ikinci yarısından etibarən proporsional təmsilçilik seçki sistemi Avropa ölkələrində öz mövqelərini möhkəmləndirdi. Sonralar bəzi Avropa ölkələri yenidən majoritar seçki sisteminə üstünlük verməyə başladılar.

Majoritar seçki sistemi səslərin əksəriyyətinin toplanması prinsipinə əsaslanır. Bu sistemin mahiyyəti ondan ibarətdir ki, seçicilərin səsinin çoxunu toplayan namizəd millət vəkili seçilir.

Majoritar seçki sistemi bir sıra konkret formalarda həyata keçirlir. Bunlar mütləq çoxluq (əksəriyyət), nisbi çoxluq və ixtisaslaşdırılmış çoxluq sistemdir.

Mütləq çoxluq sistemi deputatlığa namizədin seçilməsi üçün ümumi səslərin mütləq əksəriyyətinin toplanmasını nəzərdə tutur. Mütləq çoxluq sistemdə seçkilərin baş tutması üçün seçkilərdə seçicilərin iştirakının minimum həddi ödənilməlidir. Əks halda seçkilər baş tutmamış sayılır.

Minimum hədd qeydə alınmış seçicilərin ümumi

sayının yarısına və ondan az sayda seçicilərin sayına bərabər ola bilər. Birinci halda, əgər, minimum hədd qeydə alınmış seçicilərin yarısına bərabərdirsə, verilmiş ümumi səslərin mütləq əksəriyyəti hüququ seçki korpusunun 25%+1-lə ifadə olunur.

Majoritar mütləq çoxluq sisteminin tətbiqi zamanı birmandatlı dairələr təşkil olunur.

Nisbi çoxluq seçki sistemində seçkilərdə seçicilərin iştirak etməsi üçün hədd qoyulmur, yəni seçkinin baş tutması üçün, ən azı bir seçicinin belə səsverməyə gəlməsi kifayət edir. Bu sistem ən sadə seçki sistemi olduğu üçün deputat mandatı uğrunda mübarizə aparanlar arasında ən çox səs toplamış namizəd qalib hesab olunur və mandat əldə edir.

Majoritar ixtisaslaşdırılmış çoxluq sistemi nisbi və mütləq çoxluq sistemlərinə nisbətən daha az tətbiq olunur. Bu sistemə uyğün olaraq namizədlərdən təsdiq olunmuş əksəriyyətdə səsləri toplaya biləni seçilmiş hesab olunur. Bu əksəriyət qanunla dəqiq şəkildə təsdiq olunur. Həmin əksəriyyətin rəqəmlə ifadəsi mütləq çoxluğun ifadə etdiyi say göstəricisindən daha artıq olur. Hazırda bu seçki sistemindən ÇXR-da parlamentə keçirilən seçkilərdə istifadə olunur.

Seçkilərin majoritar sistemi ABŞ, İngiltərə, Fransa, Yaponiya və b. ölkələrdə tətbiq edilir. Azərbaycan Respublikasının 24 avqust 2002-ci ildə keçirilmiş referendumuna əsasən konstitusiyada edilmiş dəyişikliyə uyğun olaraq hazırda Milli Məclisə seçkilərdə majoritar seçki sistemi tətbiq edilir (maddə 83).

Bir çox Avropa ölkələrində proporsional seçki sis-

teminə üstünlük verilir. Proporsional təmsilçilik seçki sisteminin mahiyyəti ondan ibarətdir ki, seçki çoxmandatlı dairələrdə aparılır, seçicilər partiyalara və partiyaların təqdim etdiyi namizədlərin siyahısına səs verirlər. Proporsional təmsilçilik seçki sistemi ayrı-ayrı ölkələrdə çox rəngarəng formalarda tətbiq edilir. Majoritar seçki sistemindən fərqli olaraq proporsional seçki sistemində bütün ölkə üzrə bir seçki dairəsi təşkil olunur və deputat mandatları partiyaların topladığı səsə uyğun olaraq bölüşdürülür. Proporsional seçki sistemində bir neçə böyük regional dairələr də yaradıla bilər. Belə qayda Norveç istisna olmaqla Skandinaviya ölkələrində tətbiq edilir.

Hər bir seçki sisteminin müsbət, eyni zamanda çatışmayan cəhətləri vardır.

Majoritar seçki sisteminə üstünlük verən dövlətlər ölkədə qüvvələr nisbətində balans yaradılmasına, parlamentdə daha güclü partiyaların və güclü siyasi xadimlərin üstünlük qazanmasına səbəb olur. Ölkənin həyatında real gücə malik olmayan partiyalar majoritar sistemin təsiri altında parlamentdən sıxışdırılıb çıxarılır və nəticədə bir neçə güclü partiyanın fəaliyyət göstərdiyi siyasi sistemin qərarlaşması meylinin əsası qoyulur. ABŞ və İngiltərədə parlamentdə yerlər uğrunda iki güclü partiya mübarizə aparır. Belə sistemlərdə siyasi qüvvələr arasında tarazlığın təmin edilməsi ehtimalı yüksək olduğundan daha sabit hökumət qulurması imkanları da mövcuddur. Daha sabit siyasi sistemə malik demokratik ölkələrdə bir qayda olaraq majoritar seçki sisteminə üstünlük verilir.

Majoritar seçki sisteminin başlıca əlamətlərindən biri də ondadır ki, bu zaman seçicilərlə əvvəlcə namizədlər,

sonra isə millət vəkilləri arasında bilavasitə ünsiyyət, ikitərəfli əlaqələr formalaşır. Belə ki, həm namizədlər seçildiyi seçki dairəsini, öz seçicilərini, həm də seçicilər səs verəcəyi namizədləri yaxından tanımaq imkanı əldə edirlər. Majoritar sistemdə seçki prosesində şəxsi tanışlıq və simpatiya amili mühüm rol oynaya bilər. Bu da daha layiqli namizədlərin seçilməsinə və onlara mandat verilməsinə kömək edir.

Proporsional təmsilçilik sisteminin də özünəməxsus xüsusiyyətləri vardır. Əvvəla bu sistemdə səs itkisi azalır, yerli hakimiyyət orqanlarının seçkilərin nəticələrinə müdaxilə etmək imkanları məhdudlaşır. Proporsional seçki sistemində mandatların paylanmasında bütün partiyalar iştirak edə bilmir. Dünya təcrübəsində daha nüfuzlu partiyaların parlamentdə təmsil olunması niyyəti ilə seçki baryeri prinsipi tətbiq edilir. Bunun mahiyyəti ondan ibarətdir ki, deputat mandatlarının bölgüsündə iştirak etmək hüququ müəyyən edilmiş seçki baryerini keçdikdən sonra, yəni lazım olan səsi topladıqdan sonra verilir. Ayrı-ayrı ölkələrin seçki qanunvericiliyində nəzərdə tutulmuş seçki baryeri seçkilərdə iştirak edənlərin ümumi sayının 1%-18%-nə qədərini təşkil edir. Seçki baryeri seçici səslərinin toplanması vacib olan müəyyən hissəsinin faizlərlə ifadəsidir. Bu baryer Almaniyada 5%, Bolqarıstanda və İtaliyada 4%, İsraildə 1%, İspaniyada isə 3%-dir. Seçki baryerinin tətbiqi nəticəsində müəyyən edilmiş minimum səs toplaya bilməyən partiyalar parlamentdə təmsil olunmaq hüququnu itirirlər. Bəzən cəmiyyətdə az nüfuza malik olan partiyalar baryeri aşmaq üçün bloklar yaradaraq seçkilərə qoşulurlar. Seçki baryerini keçən partiyaların

parlamentdə təmsil olunması onların cəmiyyətdəki real nüfuzuna, mövqeyinə, xüsusilə də topladığı səslərə tam uyğun olur. Bu sistem həm də ölkədəki qüvvələr nisbətini real əks etdirir və partiyaların parlamentdə təmsil olunmasına zəmin yaradır. Proporsional təmsilçilik seçki sistemi çoxpartiyalılığın inkişafına, plüralizmin qərarlaşaraq demokratiyanın vacib ünsürünə çevrilməsinə təkan verir. Adətən proporsional sistemi tətbiq edən ölkələrin siyasi həyatı çoxpartiyalılığa şərait yaradır.

Proporsional seçki sistemində deputatlar parlamentdə konkret seçki dairəsindən deyil, bütün ölkə seçiciləri tərəfindən (çünki ölkədə vahid seçki dairəsi və yaxud da bir neçə böyük regional dairə yaradılır) seçilir və deputat mandatı və səlahiyyətlərini bütün ölkə seçicilərindən alır və səlahiyyət statusunu xeyli yüksəldir.

Bununla yanaşı bu sistemin bir sıra nöqsan cəhətləri vardır. Belə ki, majoritar sistemlə müqayisədə bu sistem ölkədə partiyaların ifrat çoxalmasına, parçalanmasına şərait yaradır. Seçki baryeri bu prosesin qarşısının alınmasına xidmət etsə də, proporsional təmsilçilik seçki sisteminin tətbiq edildiyi ölkələrdə partiyaların sayının artmasına mane ola bilməmişlər. Bunun da nəticəsində ölkədə sabitliyi təmin edə biləcək güclü siyasi qüvvənin formalaşması və parlamentdə təmsil edilməsi qeyri-mükündür. Hökumətin təşkili zamanı bir çox çətinliklər ortaya çıxır.

Majoritar seçki sistemindən fərqli olaraq proporsional seçki sistemi seçicilərlə namizədlər arasında birbaşa ünsiyyət yarada bilmir. Çox vaxt seçicilər yaxından tanımadıqları və hətta ictimai-siyasi və mənəvi keyfiyyətləri haqqında çox az təsəvvürə malik olduqları namizədlərə

səs vermək məcburiyyətində olurlar. Bunun da əsas səbəblərindən biri seçicilərin partiya siyahılarına səsverməsidir.

Göstərilən seçki sistemləri ilə yanaşı bəzi ölkələrin seçki qanunvericiliyində digər seçki sistemləri də tətbiq edilir. Komulyativ (latın mənşəli – cumulatio - «cəmləşmə» sözü əsasında yaranmışdır) rəy sistemində çoxmandatlı seçki dairələri üzrə keçirilən səsvermədə seçicilərin səsi namizədlərin sayına uyğun şəkildə bir deyil, bir neçə ola bilər. Bu zaman seçici səsvermə zamanı səsini namizədlər arasında bölməkdə sərbəstdir. Belə ki, bu sistemin tətbiqi zamanı seçici ən çox istədiyi namizədlə yanaşı, imkanlarına maraq göstərdiyi namizədə də səs verə bilər. Komulyativ sistem Almaniyada ayrı-ayrı torpaqlarda yerli özünüidarələrin nümayəndəli orqanlarına seçkilərdə tətbiq olunur.

Bəzi ölkələrdə isə müstəqil siyahı institutu tətbiq edilir. Bu institut preferensial sistemlə əlaqədar tətbiq olunur. Preferensiya sözünün mənası «üstün tutmaq»dır. Bu sistem seçiciyə, nəinki hər hansı partiyanın müəyyən olunmuş siyahısına səs verməyə imkan verir, həm də bu sistem əsasında seçici siyahıdan daha çox üstünlük verdiyi namizədi xüsusi qeyd edə bilər.

Panaşir səsvermədə seçici müxtəlif siyahılardakı namizədlərə preferensial əsaslarda səs verə bilər. Bu zaman seçicinin siyahıya yeni namizədlər daxil etmək imkanı olur. Panaşir səsvermə həm çoxmandatlı majoritar sistemdə, həm də proporsional sistemlərdə tətbiq oluna bilər.[1]

---

[1] Bax ətraflı: Əsgərov Z., Nəsirov E., İsmayılov M., Məmmədov X. Azərbaycanın dövlət və hüququnun əsasları. B., 2003, s.136-139

## 3. Qarışıq seçki sistemi və onun xüsusiyyətləri

Dünyanın bir sıra ölkələrində majoritar və proporsional seçki sisteminin xüsusiyyətlərini özündə əks etdirən qarışıq seçki sistemi tətbiq edilir. Bu sistemi tətbiq edən ölkələrdə hər seçici iki səsə malik olur. Belə ki, bir səs majoritar siyahı üzrə, digər səs isə proporsional siyahıya uyğun olaraq verilir. Nəticədə parlament üzvlərinin bir hissəsi proporsional, digər hissəsi isə majoritar qaydada mandat əldə edirlər. Məsələn, Almaniyada bundestaqın (aşağı palata) tərkibinin yarısı bir turda majoritar seçki sistemi, qalan hissəsi isə proporsional seçki sistemi əsasında formalaşır. Rusiyada Dövlət Dumasına seçkilərdə də qarışıq sistem elementləri qüvvədədir: belə ki, 225 deputat nisbi çoxluq əsasında majoritar sistemlə, 225 deputat isə siyasi partiya və hərəkatlardan proporsional sistemlə seçilirlər. İtaliyada 1993-cü ildə keçirilən referendumun nəticələrinə uyğun olaraq seçki sistemində dəyişikliklər edilmişdir. Hazırda İtaliya parlamentində proporsional təmsilçilik sistemi üzrə 25% mandat nəzərdə tutulmuşdur. Deputatların 75%-i isə majoritar sistem əsasında seçilir.

1995 və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə qarışıq seçki sistemindən istifadə olunmuş və 125 millət vəkilinin 100-ü majoritar, 25-i isə proporsional sistem əsasında seçilmişdir. Hazırda isə majoritar seçki sistemi tətbiq edilir.

Türkiyə Respublikasnın 1982-ci il konstitusiyasının qəbuluna qədər qarışıq seçki sistemi tətbiq edilirdi. Yeni qanuna görə Türkiyə Respublikasının Böyük Millət Məc-

lisinə (550 nəfər) seçkilərdə deputatlığa namizədlər müstəqil şəkildə və ya hər hansı bir partiyanın nümayəndəsi kimi qeydə alına bilərlər. Böyük Millət Məclisinin millət vəkili bütün millətin nümayəndəsi hesab olunur (2007-ci ildə Türkiyədə keçirilmiş referendumun nəticələrinə uyğun olaraq Millət Məclisinin səlahiyyət müddəti 5 ildən 4 ilə endirilmişdir).

Seçki sisteminin dəqiq detalları, keçirilmə qaydası ölkənin qəbul etdiyi seçkilər haqqında qanunla müəyyən olunur və seçkilərin keçirilməsini dövlət strukturları – seçki komissiyaları, məhkəmələr və prokurorluq təmin edir.

**Yoxlama xarakterli suallar**

1. Aktiv seçki hüququndan fərqli olaraq passiv seçki hüququnda tətbiq edilən başlıca senzləri göstərin.
2. «Səsvermədə iştirak seçicinin vəzifəsi deyil, hüququdur» nə deməkdir?
3. Absenteizm hadisəsi nədir?
4. Dolayı (çoxpilləli) seçki hüququnun tələblərinə görə prezident necə seçilir ?
5. Azərbaycan Respublikasında majoritar seçki sistemi nə vaxtdan qüvvədədir ?
6. Seçki hansı funksiyaları yerinə yetirir?

# III bölmə
# Siyasi şüur və siyasi ideologiya

## XIV mövzu
## Siyasi şüur və siyasi mədəniyyət

1. Siyasi şüur anlayışı: strukturu və funksiyaları
2. Siyasi mədəniyyətin mahiyyəti, məzmunu və strukturu
3. Siyasi mədəniyyətin tipləri və funksiyaları

### 1. Siyasi şüur anlayışı: strukturu və funksiyaları

Cəmiyyətin mənəvi həyatının əsasını ictimai şüur təşkil etdiyindən o mənəvi həyatın bütün tərəfləri ilə (mənəvi fəaliyyət, mənəvi istehsal, mənəvi tələbat, mənəvi münasibətlər və s.) sıx əlaqədə fəaliyyət göstərir. İctimai şüurun daşıyıcıları müəyyən tarixi dövrdə fəaliyyət göstərən böyük insan qrupları hesab olunur. İctimai şüuru ictimai həyatın bu və ya digər tərəflərini əks etdirən müxtəlif baxışların, ideya və nəzəriyyələrin, hisslərin, əhval-ruhiyyələrin, bədii və dini obrazların məcmusu kimi nəzərdən keçirmək olar.

İctimai şüur son dərəcə mürəkkəb hadisə olduğu üçün, çoxsaylı müxtəlif formaları (siyasi şüur, hüquq, əxlaq, elm, estetik, dini şüur) özündə birləşdirir.

İctimai şüur formaları içərisində siyasi şüur xüsusi yerlərdən birini tutur. Onun bu xüsusiyyəti hər şeydən əvvəl iqtisadi münasibətləri, sosial mənafeləri və sosial əla-

qələri daha dolğun və birbaşa əks etdirməsilə bağlıdır.

Siyasi şüura böyük sosial qruplar tərəfindən siyasi məqsəd və vəzifələrin, strategiya və taktikaların, metod və üsulların işlənib hazırlanmasından ibarət mürəkkəb sosial hadisə kimi tərif vermək olar (o siniflərin, sosial qrupların, millətlərin və dövlətlərin əsas mənafelərini ifadə edən ideyaların və təsəvvürlərin məcmusudur - Z.Hacıyev).

İnsanların siyasi şüurunun formalaşması tədrici proses olduğu üçün ona bir çox amillər (siyasi tarixi şərait, iqtisadi və sosial vəziyyət, insanların dünyagörüşü, vətəndaşlıq mövqeyi, ideya inamı və s.) təsir göstərir.

Siyasi şüurun reallaşmasına siyasi partiyalar, sosial qruplar və kütləvi hərəkatların fəaliyyəti öz təsirini göstərir. Siyasi şüurun reallaşması və inkişafı nəticəsində insanlarda siyasi dözüm yaranır (o siyasətdə əxlaqi normalara üstünlük verilməsi deməkdir).

Siyasi şüurun fəallığı cəmiyyət üzvünün öz-özünü dərk etməsinin mühüm göstəricisi kimi çıxış edir. Özünüdərketmə (mənlik şüuru) insanın fəallığını yüksəldir, onun öz mövqeyinə inamını və gücünü artırır. Siyasi şüur fəallığına malik olan insanlar siyasi hadisələri düzgün dərk etməklə yanaşı, eyni zamanda siyasi hadisələrə fəal təsir göstərir.

Siyasi şüur vasitəsilə cəmiyyətin, sosial qrupların, şəxsiyyətin mənafeyi müdafiə edilməklə, qarşıya qoyulan məqsəd nəzəri cəhətdən əsaslandırılır.

Siyasi şüur mürəkkəb struktura malikdir. Onun strukturunda iki komponent (ünsür) fərqləndirilir: 1) gerçəkliyin əks olunması səviyyəsinə görə (nəzəri və adi siyasi şüur); 2) subyekt nöqteyi-nəzərindən (fərdi, qrup və kütlə-

vi siyasi şüur). Siyasi şüurun nəzəri səviyyəsinə (siyasi ideologiya) müəyyən siyasi konsepsiyalara əsaslanan elmi biliklər, böyük sosial qrupların əsas siyasi mənafelərini əks etdirən bitkin ideyalar sistemi daxildir. Adi siyasi şüur (siyasi psixologiya) isə insanların və sosial birliklərin həyat təcrübəsi əsasında onun emosional təsiri ilə formalaşan siyasi hisslərin, təsəvvürlərin, siyasi əhval-ruhiyyələrin məcmusudur. O kortəbii sürətdə praktiki siyasi fəaliyyət gedişində, onun empirik mərhələdə inikası (hər hansı bir obyektin ona təsir edən digər obyektin izlərini özündə saxlamaq qabiliyyəti inikas adlanır) kimi yaranır.[1]

Adi siyasi şüur ümumilikdə kütlənin sosial yaradıcılığı kimi çıxış edir.

Siyasi şüurun həm qərarlaşması, həmçinin də fəaliyyət səviyyələri müxtəlifdir. Bu baxımdan fərdi, qrup və kütləvi siyasi şüur fərqləndirilir. Fərdi siyasi şüur şəxsiyyətin siyasətdə iştirakını və onu dərk etməsini təmin edən idraki dəyərlər sistemidir. Bu o zaman baş verir ki, fərd özünün mənafelərinə uyğun şəkildə mövcud reallıqlara münasibətini ifadə edir və konkret siyasi mövqe nümayiş etdirir. Fərdiyyətçilik psixologiyasının hökmran olduğu sosial mühitdə əsasən siyasi şüur hakimiyyətə və bütövlükdə siyasi reallıqlara şəxsi mənafelərə əsaslanan baxışlar şəklində formalaşır.

Siyasi şüurun qrup şüuru şəklində meydana gəlməsi mənafe və tələbatların dərk edilməsi ilə əlaqədardır. Qrup siyasi şüuru siyasətlə bağlı olan kiçik (siyasi elita) və böyük (siniflər, milli-etnik birliklər, təbəqələr) sosial qrup-

---

[1] Bax: Hacıyev Z. Fəlsəfə. B., 2001, s.505-506

ların ümumiləşdirilmiş şüurudur. Qrup siyasi şüurunun formalaşması aşağıdakı səbəblərlə bağlıdır:

-fərdin özünü hər hansı sosial qrupun ayrılmaz hissəsi kimi göstərməsi;

-fərdin öz mənafelərini ümumi mənafedən ayrılmaz hiss etməsi;

-kollektiv şəkildə formalaşan baxış və dəyərlərin ümumi şəkildə hamı tərəfindən qəbul edilməsi.

Kütləvi siyasi şüur siyasi həyatda iştirak edən insanların, kütləvi birliklərin real mövcud olan siyasi şüurudur. O siyasi ideyaların, nəzəriyyələrin, baxışların, hisslərin, adət-ənənələrin təsiri ilə yaranır. Kiçik və böyük sosial qruplar, şəxsiyyətlər və s. kütləvi siyasi şüurun subyekti kimi nəzərdən keçirilir.

Siyasi şüur mahiyyət etibarilə daim inkişaf edən proses olub insanın davranışına, həyat mövqeyinə təsir göstərir. Onun inkişafı nəticəsində siyasi təfəkkür formalaşır. Siyasi təfəkkür vasitəsilə isə insanlar siyasi hadisələri düzgün dərk etməklə siyasi proseslərdə fəal iştirak edirlər.

Siyasi şüur anlayışında siyasi mövqe, ictimai rəy və stereotip kimi ünsürlər də nəzərdən keçirilir.

Şəxsiyyətin hakimiyyətin həyata keçirilməsi və ya hakimiyyət uğrunda mübarizədə təzahür edən spesifik davranış nümunəsini səciyyələndirən keyfiyyətləri siyasi mövqe adlandırılır. Şəxsiyyətin siyasi mövqeyinin komponentlərinə bu göstəriciləri (siyasi hadisələrə aid olan müəyyən emosional əhval-ruhiyyə; siyasi hadisələrə aid inam; siyasi fəaliyyət meyli) aid etmək olar.

Siyasi mövqe şəxsiyyətin siyasi fəaliyyətinin motivlərini dərk etməyə köməklik göstərən fərdi hadisə kimi nə-

zərdən keçirilir. İnsanın siyasi mövqeyi siyasi fəaliyyət prosesində özünü göstərir. İnsanın siyasi reallıqları dərk edərək onu qiymətləndirə bilməsi bacarığı siyasi mövqeyində əksini tapır.

Siyasi sahədə idraki prosesin fəaliyyətə çevrilməsi insanın siyasi mövqeyinin formalaşması vasitəsilə baş verir.

Siyasi şüur ictimai rəy ilə vəhdətdə mövcud olur. Onun funksional mahiyyəti ictimai rəy vasitəsilə reallaşır.

İctimai rəy dedikdə böyük insan birliklərinin sosial həyatda baş verən hadisələri qiymətləndirə bilməsi bacarığı nəzərdə tutulur. İctimai rəy cəmiyyət həyatında mühüm rol oynayır. İctimai rəy vasitəsilə çox rəngarəng olan siyasi baxışlar və mövqelər üçün səciyyəvi olan ümumi məqamlar ortaya çıxarılır və beləliklə də cəmiyyətdəki başlıca siyasi meyllər, cərəyanlar müəyyənləşdirilir.

İctimai rəydə vətəndaşların bu və ya digər məsələ ilə bağlı mövqeyinə münasibəti öz əksini tapır. Hər hansı bir problem ətrafında ifadə edilən fikir o zaman ictimai rəy statusu qazana bilər ki, o ümumi mövqeyi ifadə etmiş olsun. Ümumi səviyyədə ictimai rəyi ifadə etməyin əsas formalarından biri referendum hesab olunur. Referendum (ilk dəfə 1439-cu ildə keçirilmişdir, onun vətəni isə İsveçrə hesab olunur) mühüm dövlət və ictimai məsələlər üzrə xalqın iradəsini əks etdirən ümumxalq səsverməsi kimi səciyyələndirilir.

İctimai rəy cəmiyyətin siyasi sisteminin mühüm ünsürü - funksiyasını yerinə yetirir. O bütövlükdə cəmiyyət miqyasında həyata keçirilməklə yanaşı ayrı-ayrı sosial qruplar səviyyəsində də özünü göstərə bilər. İctimai rəyin formalaşmasına kütləvi informasiya vasitələri (mətbuat,

radio, televiziya, internet) də təsir göstərir.

Siyasi şüur siyasi stereotip (yunan dilində stereos - möhkəm, tyros - iz sözündən olub ümumilikdə təsəvvür mənasını verir) anlayışı ilə bağlılıq kəsb edir. Stereotiplər insanın şəxsi təcrübəsinin ümumiləşdirilməsi əsasında formalaşdırılır.

Stereotip haqqında elmi ədəbiyyatda iki baxış mövcuddur. Birinci baxışa görə stereotip yalançı şüurun formalarından biridir (bu cür yanaşma reallığın qeyri-adekvat şəkildə insanın beynində əks olunması hadisəsi ilə bağlıdır), digər baxışa görə isə o ictimai şüurda gerçəklik haqqında sadə təsəvvürlərdir (bu mənada o təsəvvür və baxışların ictimai şüurda uzun müddət dəyişilməz qalmasının nəticəsində meydana gəlməsi ilə bağlıdır).

Stereotiplər əsasən kütləvi şüurun qərarlaşdığı qrup və ictimai birliklər zəminində formalaşır. Onun fərdi siyasi şüura nüfuzu fərdin daxil olduğu kollektivin təsiri vasitəsilə mümkün olur. Siyasi sistemin mühafizə edilməsində stereotiplər mühüm rol oynayır.

Siyasi şüur siyasi davranış mexanizmində xüsusi rol oynayır. O siyasi fəaliyyəti qabaqlayır və insanların siyasi davranışını xeyli müəyyənləşdirməklə, onu vasitəli ifadə edir.

Siyasi şüurun xarakterindən asılı olaraq siyasi davranış formaları da fərqləndirilir (M.Veberə görə rasional, affektiv və ənənəvi).

Siyasi davranışın şərtlənməsi siyasi şüurun özünün yerinə yetirdiyi ən başlıca funksiya hesab olunur. Politoloji ədəbiyyatda siyasi şüurun bu funksiyası ilə yanaşı aşağıdakı funksiyaları da nəzərdən keçirilir:

-koqnitiv (lat. coqnito, "dərketmə") funksiya - fərdin və ya cəmiyyətin fərdi və ya qrup mənafelərinin əks olunmasına tələbatını ifadə edir;

-ideoloji funksiya - qrupun və ya cəmiyyətin mənafelərinin müdafiəsinə olan tələbatı ifadə edir;

-inteqrasiya (birləşdirici) funksiyası - sosial qrupların ümumi dəyərlər, ideyalar ətrafında birləşdirilməsini əks etdirir;

-proqnozlaşdırma funksiyası - fərdin və ya qrupun siyasi proseslərin gələcək mümkün inkişafını dərk etmək qabiliyyətini əks etdirir;

-qiymətləndirmə funksiyası - siyasi həyatda istiqamətin müəyyən olunmasına, siyasi hadisələrin qiymətləndirilməsinə kömək göstərmək vəzifəsini yerinə yetirir;

-nizamlayıcı funksiya - siyasi iştirakın istiqamətlərini göstərir;

-kommunikativ funksiya- subyektlər arasında və hakimiyyət təsisatları ilə dərk edilmiş qarşılıqlı fəaliyyətin təmin edilməsini şərtləndirir və s.

Siyasi şüurun funksiyalarının çoxistiqamətli olması öncə onun məzmununun zənginliyi və strukturunun mürəkkəbliyindən irəli gəlir. Siyasi şüurun funksiyalarının tam reallaşması cəmiyyətin siyasi mədəniyyətindən də xeyli dərəcədə asılıdır.

## 2. Siyasi mədəniyyətin mahiyyəti, məzmunu və strukturu

Siyasi mədəniyyət ümumi mədəniyyətin tərkib hissəsi kimi çıxış edir. O spesifik mənəvi hadisə olmaqla, ümumi

hakimiyyət sferasında təzahür edir və onun keyfiyyət bütövlüyünü səciyyələndirir.

"Siyasi mədəniyyət" termini ilk dəfə XVIII əsrdə alman filosofu İ.Herder tərəfindən işlədilmişdir. Lakin bu hadisə haqqında elmi nəzəriyyə isə xeyli sonra XX əsrin ortalarında yaradılmışdır. Siyasi mədəniyyət probleminin ilk tədqiqatçılarından biri Q.Almond hesab edilir. Siyasi mədəniyyəti tədqiq etməyin əhəmiyyətini şərh edərək o göstərirdi ki, "hər bir siyasi sistem siyasi fəaliyyətə meyllənmiş xüsusi nümunə kimi mövcuddur. Mən bunu "siyasi mədəniyyət" adlandırmağı lazım bildim". Siyasi mədəniyyət haqqında son illərdə çoxlu elmi tədqiqatlar aparılıb. Lakin Q.Almondun Q.Pouellə birlikdə təklif etdiyi ideya bu günədək öz aktuallığını itirməyib və tədqiqatçıların böyük əksəriyyəti ona üstünlük verirlər. Onların fikrincə "siyasi mədəniyyət" siyasi sistemin iştirakçıları arasında siyasi münasibətdə təzahür edən fərdi mövqe və meyllərin nümunəsidir. Başqa sözlə siyasi mədəniyyət siyasi sistemin iştirakçılarının siyasi mövqeləri və meyllərinin sistemli məcmusudur.

Siyasi mədəniyyət haqqında mövcud olan müxtəlif fikir və mülahizələr bu məsələyə üç yanaşma metodunu fərqləndirməyə əsas verir:

-bir qrup tədqiqatçılar siyasi mədəniyyəti siyasətin subyektiv məzmunu ilə eyniləşdirərək onu mənəvi xarakterli hadisə kimi qiymətləndirirlər (Q.Almond, Q.Pouell, S.Verba, D.Duvayn və b.);

-digər qrup tədqiqatçılar (Y.Vyatr, C.Pleyno və b.) siyasi mədəniyyətdə normativ əsasları və davranış nümunələrini həlledici hesab edərək, onu siyasətin xüsusi isti-

qaməti sayırlar;

-üçüncü qrup tədqiqatçılar isə siyasi mədəniyyəti praktiki davranışda təcəssümünü tapan siyasi fəaliyyətin üsulu, siyasi fəaliyyət tərzi kimi qiymətləndirirlər (İ.Şapiro, V.Rozenbaum və b.).

Siyasi mədəniyyət insanların hakimiyyətə münasibətinin əsas cəhətlərini ifadə etməklə yanaşı, eyni zamanda siyasi iştirakçılığın başlıca üsul və metodlarının məcmusunu ehtiva edir (siyasi iştirakçılıq dedikdə ayrı-ayrı insanların ölkənin siyasi həyatında iştirakı nəzərdə tutulur. Siyasi iştirak həm siyasiləşmiş, həmçinin də siyasiləşməmiş insanların siyasi həyatda iştirakını nəzərdə tutur). İnsanların siyasətdə iştirakı əsasən dörd səviyyədə (funksional səviyyə, bilavasitə və ya dolayı yolla iştirak səviyyəsi, siyasi və qeyri-siyasi səviyyə, siyasi proseslər mərhələsindən asılı olan səviyyə) təzahür edir.

Siyasi mədəniyyət bütövlükdə siyasətin tərkib ünsürlərindən biri kimi çıxış edir. Siyasətin formalaşmasının xarakteri və onun həyata keçirilməsi yolları və vasitələrinin seçilməsi siyasətin subyektlərinin siyasi mədəniyyətinin səviyyəsi ilə şərtlənir.

Siyasi mədəniyyət cəmiyyətin siyasi sistemi ilə qarşılıqlı əlaqə kəsb edir. Bunların qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı öz əksini insanların siyasi proseslərdə iştirakının yönümündə və motivlərində tapır.

Elmi ədəbiyyatda siyasi mədəniyyətin bir sıra əlamətlərindən bəhs olunur:

-hakimiyyətə münasibət. Siyasi mədəniyyət vətəndaşların hakimiyyətə münasibətini ifadə etmək forması və metodlarının məcmusu olduğundan, bu əlamət siyasi mə-

dəniyyətin ümumi səciyyəsi, təzahür forması kimi çıxış edir;

-siyasi fəaliyyətin davranış üsulu (hakimiyyətin cəmiyyət üzvlərinə münasibəti). Siyasi mədəniyyətin bu təzahür formasında siyasi sistemin tətbiq etdiyi siyasi ağalıq, idarəçilik üsulu özünün ifadəsini tapır;

-vətəndaşların siyasi qərarların qəbul edilməsi prosesinə təsir göstərmək imkanı (bu əlamət əvvəlki əlamətlərin məntiqi davamı kimi özünü göstərir);

-cəmiyyətin siyasi əhval-ruhiyyəsi, psixoloji yönümü (məsələn, mühafizəkar və ya liberal, ekstremist və ya barışdırıcı psixoloji yönüm) və s.

Siyasi mədəniyyət cəmiyyətin siyasi həyatında mühüm rol oynayır. Hər şeydən əvvəl o siyasi proseslərə müəyyən təsir göstərir. Bu baxımdan siyasi mədəniyyətin bir çox göstəriciləri nəzərdən keçirilir:

-siyasi proseslərdə iştirakın genişlənməsi;

-xalqın siyasi proseslərin subyektinə çevrilməsi;

-fərdlərin siyasi mövqeyinin formalaşması;

-siyasi dəyər və normaların mənimsənilməsi və s.

Siyasi mədəniyyətin mahiyyətini və məzmununu dolğun başa düşmək üçün onun strukturunun açılması vacibdir. Siyasi mədəniyyətin strukturunu təşkil edən ünsürlərə siyasi şüur mədəniyyəti (siyasi təsəvvür və inanclar, siyasi dəyərlər, ənənələr, adətlər, normalar), siyasi davranış mədəniyyəti (siyasi iştirak, siyasi fəaliyyət mədəniyyəti), siyasi təsisatların fəaliyyət mədəniyyəti (seçki prosesinin mədəniyyəti, siyasi qərarların qəbulu və reallaşdırılması mədəniyyəti) daxildir.

Siyasi mədəniyyətin strukturu subyektin siyasi davranışının formalaşmasının texnologiyasını əks etdirir. Si-

yasi mədəniyyətlə siyasi davranış arasında qarşılıqlı əlaqə mövcuddur. Siyasi mədəniyyətin özü siyasi davranış vasitəsilə reallaşır.

### 3. Siyasi mədəniyyətin tipləri və funksiyaları

Siyasi mədəniyyət mürəkkəbliyi və rəngarəngliyi ilə seçilən sosial hadisə olduğu üçün onun müxtəlif meyarlara əsaslanan təsnifatına ciddi maraq göstərilir (ölkə və regionların spesifikliyinə əsasən - Q.Almond və S.Verba; siyasi mədəniyyətin müxtəlif subyektlərə aidiyyətinə görə - Berc və Zaninoviç; müxtəlif siyasi sistemlərə görə - X.Ekstayn; vətəndaşların siyasi oyuna oriyentasiyasının tipinə əsasən – D.Elazar; siyasi mədəniyyətlərin tarixi təkamülünü şərh etmək baxımından - Y.Vyatr və s.). Buradan aydın olur ki, siyasi mədəniyyətin tiplərinin zəngin siyahısı vardır. Çoxsaylı meyarlara əsaslanmaqla siyasi mədəniyyətin yeni-yeni tiplərini müəyyənləşdirmək olar.

Siyasi mədəniyyətin tiplərinə aid təsnifatlardan Q.Almond və S.Verbanın təsnifatı daha çox maraq doğurur. Q.Almond və S.Verba 1963-cü ildə yazdıqları "Vətəndaş mədəniyyəti" adlı kitabda müxtəlif ölkələrin (AFR, İtaliya, ABŞ və Meksika) siyasi sistemlərinin əsas komponentlərinin və fəaliyyət formalarının təhlili əsasında siyasi mədəniyyətin üç xalis tipini nəzərdən keçirmişlər (fəal-vətəndaş, təbəəçi və patriarxal).

Fəal (vətəndaş) siyasi mədəniyyət tipində vətəndaşlar özünün siyasi sistemdə yerini və rolunu daha yaxından hiss edir. Bu tipdə vətəndaşlar həm siyasi sistemə yüksək maraq göstərir, həm də siyasi proseslərə fəal qoşulmağı

zəruri hesab edirlər. Fəal siyasi mədəniyyət yüksək siyasi mədəniyyət tipi kimi qiymətləndirilir. Bu tipdə insanların fərdi azadlığı ilə siyasi sistemin sabitliyi arasında üzvü əlaqə formalaşmışdır (ABŞ və İngiltərənin timsalında). İngilis-amerikan siyasi mədəniyyəti üçün homogenlik (yekcinslik) xüsusiyyəti xasdır. Hakimiyyətin legitimliyinin yüksək səviyyəsi, siyasi elitanın öz fəaliyyəti və hərəkəti üçün məsuliyyət daşıması, siyasi fəaliyyətdə kompromis və konsensusun üstünlüyü, ümummilli mənafelərin həyata keçirilməsində siyasi qüvvələrin həmrəyliyi, kollegiallıq, xalqın rifahı və sabitliyin təmin edilməsi və s. cəmiyyətin siyasi mədəniyyətinin homogenliyini şərtləndirən amillərdir.

Təbəəçi siyasi mədəniyyət tipinin xüsusiyyəti ondadır ki, vətəndaşlarda siyasi hakimiyyətə və onun fəaliyyətinin nəticələrinə müəyyən maraq hiss olunur. Lakin bununla yanaşı bu siyasi mədəniyyət tipində siyasi iştirakçılıq yüksək səviyyədə deyildir. Q.Almond və S.Verba siyasi mədəniyyətin bu tipini AFR və İtaliyanın timsalında nəzərdən keçirmişdir. Tədqiqatçılar Almaniya siyasi mədəniyyətinin dörd spesifik cəhətini (liderlik xüsusiyyəti, nizam-intizam, gərgin əmək, bərpa və artım məqsədlərini həyata keçirməkdə bu siyasi sistemin müvəffəqiyyəti üçün cavabdeh olan sosial üstünlük) qeyd edirlər.[1]

İtaliyanın siyasi mədəniyyəti üçün isə əlahiddə özgələşmə, siyasi fəaliyyətdə fraqmentarlıq özünü göstərir. Burada dinin dövlətin fəaliyyət sferalarından biri kimi qəbul edilməsi də siyasi mədəniyyətin xarakterinə güclü təsir

---

[1] Bax: Həsənov R. Siyasi sosiologiya. B., 2010, s.76

edir.

Siyasi mədəniyyətin digər bir tipi patriarxal siyasi mədəniyyət hesab olunur. Siyasi mədəniyyətin bu tipi inkişaf etməkdə olan ölkələr üçün xarakterikdir və müəyyən cəhətlərlə (siyasi mənafelərin reallaşmasını təmin edən vasitələrin gizli xarakter alması, siyasi proseslərdə güc tətbiqi amilinə üstünlük verilməsi, siyasi iştirakçılığın aşağı səviyyəsi – siyasətə laqeyd münasibət) səciyyələnir.

Q.Almond və S.Verba üç xalis siyasi mədəniyyət tipini göstərməklə yanaşı eyni zamanda bunların qovuşmasından yaranan qarışıq siyasi mədəniyyət tiplərinin mövcudluğunu da əsaslandırır. Ümumilikdə Q.Almond və S.Verbanın verdiyi təsnifatın əsasında insanların siyasi meyl və mövqelərində, hakimiyyəti qavraması və ona münasibətini ifadə etməsində özünü göstərən spesifiklik durur.

Q.Almond və S.Verbanın təsnifatını təkmilləşdirməklə U.Rozenbaum siyasi mədəniyyətin yeni - inteqrallaşma (birləşmə) tipini təklif edir. Siyasi mədəniyyətin təklif olunan tipi cəmiyyətdə konsensusun mövcudluğu və siyasi zorakılığın aşağı səviyyəsi ilə seçilir. U.Rozenbaumun təklif etdiyi siyasi mədəniyyət tipində plüralizmin müxtəlif formalarının mükəmməlliyi haqqında fikir yürüdülür.

Siyasi mədəniyyətin Y.Vyatr tərəfindən təklif olunan təsnifatı da maraq doğurur ("Siyasi münasibətlərin sosiologiyası" kitabı - 1979-cu il). Bu təsnifat siyasi sistemlərin və siyasi mədəniyyətlərin tarixi təkamülünün şərhi baxımından maraq doğurur. Təsnifata əsasən siyasi mədəniyyətin üç başlıca tipi göstərilir: 1) ənənəvi siyasi mədə-

niyyət; 2) silki demokratiya siyasi mədəniyyəti; 3) kütləvi siyasi mədəniyyət (Y.Vyatr yeni dövrün siyasi mədəniyyətini kütləvi siyasi mədəniyyət adlandırmışdır).

Y.Vyatr öz təsnifatında ənənəvi siyasi mədəniyyətin üç növ müxtəlifliyini fərqləndirir:

- ənənəvi qəbilə siyasi mədəniyyəti (burada xalq toplantıları formasında mövcud olan idarəçilik sistemində qəbilə başçısının səlahiyyətlərinin məhdudlaşdırılması, onun ağa kimi deyil, yüksək səlahiyyətli qəbilə üzvü kimi statusunun olması əsas şərtlərdəndir);
- ənənəvi teokratik (dini) siyasi mədəniyyət (hakimiyyətin müqəddəsliyinin qəbul edilməsi);
- ənənəvi despotik siyasi mədəniyyət (belə siyasi mədəniyyət tipində dövlət başçısı – hökmdar mütləq hakimdir.

Ənənəvi siyasi mədəniyyətin göstərilən bu üç növü müxtəlif kombinasiyalarda birləşərək konkret siyasi mədəniyyəti formalaşdıra bilər.

Bəşəriyyətin inkişafının sonrakı mərhələsində meydana gələn siyasi mədəniyyəti Y.Vyatr silki demokratiya siyasi mədəniyyəti adlandırmışdır. Bu siyasi mədəniyyət tipində formalaşan siyasi sistem əsasən azlığın siyasi iştirakçılığına təminat verirdi. Silki demokratiya siyasi mədəniyyətinin növ müxtəlifliyinə görə patris (antik yunan şəhərlərində və orta əsrlərin bəzi italyan şəhərlərində mövcud olmuş) və zadəgan siyasi mədəniyyəti (orta əsrlərin və yeni tarixin ilk dövrləri) kimi növləri göstərilir.

Yeni dövrün siyasi mədəniyyətini Y.Vyatr kütləvi siyasi mədəniyyət adlandırırdı. Bu siyasi mədəniyyət tipi-

nin yaranması siyasi sistemin fəaliyyətinin metod və üsullarında, həmçinin əhalinin siyasi sistemə, siyasi iştirakçılığa münasibətlərində baş verən mühüm dəyişikliklərlə bağlı olmuşdur.

Kütləvi siyasi mədəniyyətin demokratik və avtokratik növləri fərqləndirilir. Siyasi mədəniyyətin demokratik növünü səciyyələndirən cəhətlər (siyasi iştirakçılığın yüksək səviyyəsi, əhalinin siyasi sistemə cəlbi, insan hüquq və azadlıqlarının təminatı, hökumətin fəaliyyətinə nəzarət, siyasi plüralizmin müdafiə edilməsi və s.) bunlardır. Kütləvi siyasi mədəniyyətin demokratik növü iki formada (mühafizəkar-liberal və liberal-demokratik) təzahür edir.

Kütləvi siyasi mədəniyyət çərçivəsində avtokratik siyasi mədəniyyətin iki forması (avtokratik və totalitar) fərqləndirilir.

Avtoritar siyasi mədəniyyətdə diqqət mərkəzində siyasi sistem deyil, siyasi lider durduğundan, hakimiyyətə münasibət avtoritar liderə münasibət kimi mövcud olur.

Totalitar siyasi mədəniyyət əhalinin məcburi fəallığı sayəsində hakimiyyətin ifrat dərəcədə mərkəzləşməsinə, cəmiyyət həyatının bütün sahələrində dövlət nəzarətinin güclənməsinə şərait yaradır.

Siyasi mədəniyyətin göstərilən təsnifatları ilə yanaşı həmçinin insanlar arasında əlaqələrin xarakterinə görə - konfrantasiyalı (qarşıdurma) və konsensuslu (razılaşdırıcı), bəşəri sivilizasiya formalarına uyğun - Qərb və Şərq siyasi mədəniyyət tiplərini nəzərdən keçirmək cəhdləri də diqqəti cəlb edir. Müxtəlif ölkələrin və xalqların siyasi mədəniyyətinin qiymətləndirilməsi və səciyyələndirilməsi baxımından siyasi mədəniyyətin tiplərinin rəngarəng olması

xüsusi əhəmiyyət kəsb edir. Siyasi elmə aid ədəbiyyatda siyasi mədəniyyətin tipləri ilə yanaşı onun funksiyalarının müəyyənləşdirilməsinə də xüsusi diqqət yetirilir.

Siyasi mədəniyyətin funksiyalarının xarakteri və məcmusu onun təsnifatı ilə bağlılıq təşkil etdiyi üçün onları kompleks şəkildə öyrənməyi məqsədəuyğun hesab edirik.

Siyasi mədəniyyət cəmiyyətin siyasi həyatında konkret funksiyalar həyata keçirir. Bu funksiyalardan ən əhəmiyyətlisi aşağıdakılardır:

- mühafizə funksiyası - onun sayəsində siyasi həyatın ənənəvi təşkili formaları mühafizə olunur, qorunub saxlanılır;
- insanın mənsub olduğu qrupu dərk etməyə və bu qrupun mənafelərini ifadə etmək üçün məqbul davranış forması seçməyə kömək göstərən identifikasiya (eyniləşdirmə) funksiyası;
- cəmiyyətin bütövlüyünü təmin edən inteqrasiya (birləşdirmə) funksiyası;
- təşəkkül tapan siyasi mədəniyyət əsasında çoxtərəfli siyasi münasibətlərin tənzimlənməsini əks etdirən tənzimləyici funksiya;
- cəmiyyətdə siyasi davranış norma və vərdişləri mənimsəməyə yönəlmiş sosiallaşma funksiyası;
- ümumi qəbul olunmuş qaydaların və normaların tətbiq edilməsi əsasında hakimiyyət təsisatlarının, siyasi fəaliyyət subyektlərinin qarşılıqlı əlaqəsini təmin edən kommunikasiya funksiyası;
- insanın dəyişilən siyasi mühitə, onun hüquq və haki-

miyyət səlahiyyətlərinin həyata keçirilməsinə uyğunlaşmaq tələbatını ifadə edən adaptasiya (uyğunlaşma) funksiyası;

- mürəkkəb siyasi şəraitdə insanların sərvət yönümü ilə bağlılığını şərtləndirən aksioloji (dəyərlər) funksiya və s.

Siyasi mədəniyyətin nəzərdən keçirilən bu funksiyaları siyasi sistemə xas olan və ən çox təzahür edən funksiyalardır. Bu funksiyalar insanların siyasi təfəkkürünün formalaşmasında, sosial hadisə və proseslərin siyasi cəhətdən düzgün təhlili və qiymətləndirilməsində əhəmiyyətli rol oynayır.

**Yoxlama xarakterli suallar**

1. Siyasi şüur nədir?
2. Siyasi şüurun strukturunda hansı komponentlər fərqləndirilir?
3. Siyasi şüurun funksiyalarını göstərin.
4. Q.Almond və S.Verba siyasi mədəniyyətin hansı tiplərini nəzərdən keçirmişdir?
5. Q.Almond və S.Verba tərəfindən verilmiş siyasi mədəniyyətin təsnifatının əsasında nə durur?
6. Y.Vyatr siyasi mədəniyyətin hansı tiplərini göstərmişdir?

## XV mövzu
## Siyasi ideologiyalar

1 .Siyasi ideologiya anlayışı
2. İdeologiyaların təsnifatı və funksiyaları
3. Müasir siyasi ideologiyalar

### 1. Siyasi ideologiya anlayışı

Siyasi şüurun forması olmaq etibarilə ideologiyanın mahiyyətini aydınlaşdırmağa səy göstərərkən nəzərə almaq lazımdır ki, o hər şeydən əvvəl ayrı-ayrı qrup mənafelərinin reallaşdırılması məqsədlərinə xidmət göstərir. Onun siyasi şüur forması kimi muxtariyyət əldə etməsi sosial-tarixi proses olmaqla cəmiyyətdə mövcud olan qrup mənafelərini ifadə edən baxışların və ideyaların meydana gəlməsi ilə bağlılıq kəsb edir. Müasir düşüncə tərzinə görə ideologiya müxtəlif fikir və ideyalar məcmusunun üzə çıxması kimi şərh olunur. Bu mənada ideologiyanı insanların baxış və təsəvvürlərinin sistemli məcmusu kimi nəzərdən keçirmək olar.

İdeologiya termini "ideya" və "loqos" sözlərinin birləşməsindən ibarət olub ideyalar haqqında elm mənasını verir. Bu termini elmi dövriyyəyə ilk dəfə fransız tədqiqatçısı (filosofu) Antuan Destyut de Trasi gətirmişdir (XVIII əsrin sonlarında yazdığı "Düşünmək qabiliyyəti haqqında etüdlər" kitabı). O sonralar yazdığı "İdeologiyanın ünsürləri" adlı əsərində ideologiyanı "ideyaların meydana gəlməsi və inkişafı, insan təfəkkürünün qanunları haqqında" elm kimi əsaslandırmışdır.

İdeologiyanın mürəkkəb və çoxşaxəli məzmunu onun haqqında müxtəlif baxışların formalaşmasına zəmin yaratmışdır. İdeologiya haqqında geniş yayılmış baxışlardan biri onun siyasəti və siyasi fəaliyyəti pərdələməyə xidmət etməsi haqqında fikirlərdir (ideologiyanın belə şərhi Napoleonun ideologiya haqqında fikirlərinə əsaslanır). Bəzi tədqiqatçılar isə ideologiyanın məzmununu daha geniş mənada qəbul edərək, dini və estetik şüur formalarını da onun təzahürü kimi qəbul edirlər (V.Pareto, Q.Moska, R.Mixels). Marksist konsepsiyaya görə isə ideologiya sinfin köklü mənafeyinin ifadəçisi kimi nəzərdən keçirilir.

Tədqiqatçıların bir qrupu ideologiyaya kulturoloji mövqedən yanaşmağa üstünlük verirlər. Belə yanaşma ideologiyanın mədəniyyət kontekstində araşdırılması cəhdidir (M.Veber, K.Manheym. E.Dürkheym və b.).

T.Parsons isə ideologiyanı geniş tutumlu anlayış kimi nəzərdən keçirməklə onu konkret cəmiyyətin dəyərlər sistemi adlandırmışdır.

İdeologiya haqqında müxtəlif fikir və baxışların olmasına baxmayaraq O.Rebul onları üç qrupda (sezarçı, marksist və sosioloji) birləşdirmişdir.

Sezarçı baxışlar sisteminə görə ideologiya mövcud quruluşun dəyişdirilməsinə yönəldilmiş baxışlar sistemidir.

Marksist baxışa görə ideologiya mövcud quruluşun müdafiəsində duran baxışlar sistemi kimi nəzərdən keçirilir.

Sosioloji baxışlar sisteminə görə isə ideologiya kollektiv inam və düşüncə səviyyəsinə qalxmış fikir və ideyaların məcmusudur.

Elmi ədəbiyyatda ideologiyanın məzmunu ilə bağlı üç tərkib ünsürü (gerçəkliyin təsviri, aksioloji sistem və

praktik göstəriş) göstərilir.

Gerçəkliyin təsviri əsasən cəmiyyətin qarşılaşdığı sosial problemlərin mövcudluğuna, bu problemlərin həllinin vacibliyinə diqqəti cəlb etmək məqsədi daşıyır. O ideologiya sisteminin xarakterindən, məqsədlərindən asılı olaraq fərqlənə bilər. Gerçəkliyin təsviri iki əsas təmələ söykənir – dünyagörüşü (sosial gerçəklik haqqında insanların ümumi baxışları sistemi, gerçəkliyin subyektiv obrazı) və idraki (insanların sosial mühiti və oradakı münasibətləri dərk etməsi və gerçəkliyi obyektiv əks etdirmək bacarığı).

İdeologiyanın məzmununu təşkil edən digər ünsür aksioloji sistem hesab olunur. Bu ünsürün mahiyyəti mövcud gerçəkliyin təsvirinə əsasən müvafiq qiymətlər sistemini əsaslandırmaqla, onu real gerçəklikdən arzu olunan gerçəkliyə çevirmək səylərindən ibarətdir.

İdeologiyanın məzmununu təşkil edən üçüncü ünsür praktik göstərişdir. O ictimai fikri fəallaşdırmaqla, qarşıya qoyulan məqsədə nail olmaq üçün insanları konkret fəaliyyətə cəlb edir və bu fəaliyyətin üsul və formalarını göstərir. Bu ünsür mahiyyətcə ideologiyanın əvvəlki iki ünsürünü tamamlayır.

İdeologiyanın çoxcəhətli məzmunu onun fəaliyyət səviyyələrinin rəngarəngliyini şərtləndirir. Fəaliyyət səviyyəsinə görə ideologiyaların - nəzəri konseptual, proqram siyasi, kütləvi (aktuallaşmış) formaları fərqləndirilir:

- nəzəri konseptual səviyyə - sosial qrupların maraq və ideallarını üzə çıxaran müddəaları yaradır. Burada ideologiya əsasən nəzəri müddəalar və baxışlar şəklində ifadə olunur;

- proqram siyasi səviyyə - kütlələrin siyasi davranışının istiqamətləndirilməsi üçün siyasi qərarların qəbulunun ideya-siyasi kökündə duran proqram və göstərişlərin hazırlanmasından ibarət olub normativ xarakter daşıyır. Bu səviyyə siyasi fəaliyyət prosesində iştirakçıların davranışının forma və metodlarını müəyyənləşdirir;
- kütləvi (aktuallaşmış) səviyyə - vətəndaşlar tərəfindən ideologiyanın məzmununu təşkil edən ideya və prinsiplərin, norma və dəyərlərin mənimsənilməsi və onların siyasi davranışına təsir etməsidir. İdeologiyanın yayılması və insanların davranışına təsir imkanları müxtəlif (ideologiya bütün cəmiyyət ya da müəyyən qismi arasında yayıla bilər) ola bilər.

İdeologiya ilə bağlı fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, o siyasi ideyaların, görüşlərin, dəyərlərin, məqsədlərin məcmusunun sistemləşdirilmiş növü, həmçinin fərdi və eləcə də ictimai şüurun tərkib hissəsi olmaqla bu yöndə siyasi ideologiya kimi çıxış edir.

Siyasi ideologiyanın məzmununu müəyyənləşdirən başlıca cəhət onun hakimiyyət münasibətlərinə güclü təsiri ilə ifadə olunur. Bu baxımdan siyasi elmə dair ədəbiyyatda siyasi ideologiyanın aşağıdakı məzmunlu tərifi diqqəti cəlb edir: siyasi ideologiya bu və ya digər insan qrupunun hakimiyyət iddiasını (və ya ondan istifadəsinə) əsaslandıran və buna müvafiq olaraq ictimai fikri öz mənafelərinə tabe etdirməyə çalışan müəyyən doktrina kimi nəzərdən keçirilir.

Siyasi ideologiyanın köməyilə insanların dünyagörüşü yaranır və inkişaf edir, siyasi dəyərlər və sərvət yönümü formalaşır.

## 2. İdeologiyaların təsnifatı və funksiyaları

İdeologiyalar müxtəlif formalarda fəaliyyət göstərdiyi üçün onların təsnifatını bir neçə meyar əsasında nəzərdən keçirmək mümkündür. Bunu nəzərə alaraq ideologiyaları aşağıdakı kimi fərqləndirmək olar:

- funksiyalarına görə (sosial mənafeyinə görə) - bu əlamətə görə təsnifat verilərkən ideologiyanın hansı təbəqənin və ya sosial qrupun mənafelərinə xidmət etdiyi aydınlaşdırılmalıdır. Bu halda ideologiyanın cəmiyyətdə hansı funksiyaları yerinə yetirməsi məsələsi də xüsusi əhəmiyyət kəsb edir. İdeologiyaların təsnifatı ümumi sosial mənafelərə münasibət baxımından təhlil edildikdə mütərəqqi, mühafizəkar (konservatizm), inqilabçı, liberal, radikal və s. ideologiya tiplərini fərqləndirmək olar;
- sosial bazasına görə - sinfi, milli, irqi və s. ideologiyalar fərqləndirilir. İdeologiyanın bu əlamət üzrə fərqləndirilməsi onu göstərir ki, ideologiyanın fəaliyyət sferasını əsasən onun məzmunu ilə sosial qrup və birliklərin mənafeləri arasında funksional asılılıq təyin edir. Başqa sözlə bu və ya digər qrupun mənafelərinə xidmət göstərən ideologiyanın tərəfdarları da həmin sosial qrupun içərisindən çıxır;
- daxili strukturuna görə - dini və dünyəvi, rasional və irrasional, universal və partikulyar ideologiyalar fərqləndirilir. Dini və dünyəvi ideologiyalar əsas etibarilə insanların dünyagörüşünün əsas prinsiplərinin şərhində, həmçinin də onların davranış normalarının əsaslandırılmasında özünü göstərir. Rasional və irrasional ideologiya-

lar isə əsas götürdükləri müddəa və dəyərlərin rasional idrakın və məntiqin ciddi nəzarətinə tabe olmaq dərəcəsinə görə fərqlənirlər (məsələn, rasional ideologiyalar idraki meyarlara, məntiqi mülahizələrə, irrasional ideologiyalar isə intuisiyaya, ehtiraslara əsaslanır). Məhdudiyyət qoyulmadan təqdim olunan ideologiyalar universal (məs. islam ideologiyası), bunun əksi olan ideologiyalar isə partikulyar (məs. millətçi, irqçi) xarakter daşıyır;

- tarixi taleyinə görə - uzunmüddətli və qısamüddətli ideologiyalar fərqləndirilir. Bu əlamətə görə ideologiyalar fərqləndirilərkən onların fəaliyyət müddəti kimi əlaməti əsas götürülür;
- fəaliyyət sferasının miqyasına görə - ümumbəşəri, regional, ölkə və s. ideologiyalar fərqləndirilir. Burada əsas meyar kimi ideologiyanın coğrafi məkanda yayılması miqyası götürülür.

Bəzi tədqiqatçılar isə ideologiyaları idraki yükünə görə (elmi və qeyri-elmi, həqiqi və yalançı, dövrü və illüziyalı ideologiyalar) fərqləndirirlər.

Elmi ədəbiyyatda ideologiyanın təsnifatı ilə yanaşı bir sıra vacib funksiyaları da nəzərdən keçirilir. İdeologiyanın funksiyalarını araşdırmaq və təsnifatını vermək üçün onun hansı məqsəd və vəzifələrə xidmət etdiyini və cəmiyyət həyatında hansı rolu yerinə yetirməsi məsələsini aydınlaşdırmaq tələb olunur.

İspan politoloqu L.S.Sanisteban ("Siyasət elminin əsasları" kitabı) siyasi ideologiyanın idraki (siyasi sistemin təsviri və izahı) və praqmatik (hərəkətin müəyyən sistemə yönəldilməsi) funksiyalarını nəzərdən keçirir. O hər

iki funksiyanın bir-biri ilə sıx bağlı olduğunu qeyd etsə də, praqmatik funksiyanın üstünlük təşkil etdiyini göstərir. Onun fikrincə ideologiyada başlıca amil hərəkətin yönəldilməsi və kütlənin gözündə ona haqq qazandırılmasıdır.

Bəzi tədqiqatçılar isə (H.Şirəliyev və Ə.Əhmədov "Politologiya" dərslik 1997) ideologiyanın cəmiyyət həyatında rolunun təhlili zəminində onun **ümumi** (idraki, qiymətləndirmə, proqnozlaşdırma) və **bilavasitə siyasi** (cəmiyyətin siyasi inkişafının istiqamətlərinin müəyyən edilməsi; səfərbəredici - ideologiyanın daşıyıcılarının və tərəfdarlarının vahid məqsəd uğrunda səfərbər edilməsi; inteqrativ - ümumi ideya və çağırışlar əsasında insanların birləşdirilməsi və s.) funksiyalarını nəzərdən keçirirlər.

### 3. Müasir siyasi ideologiyalar

Müasir dövrün ideya-siyasi mənzərəsi özünün rəngarəngliyi və mürəkkəbliyi ilə fərqlənir. Bir-biri ilə rəqabətdə olan ideoloji cərəyanlar və ya ideologiyalar dünyanın ideya-siyasi mənzərəsini və inkişafını səciyyələndirir.

Müasir siyasi ideologiyalar içərisində mühafizəkarlıq (konservatizm) xüsusi yer tutur. Bu termin latınca "conservo", fransızca "konservare" sözündən ibarət olub qorumaq, mühafizə etmək mənasını verir. Mühafizəkarlıq terminini ilk dəfə 1818-ci ildə fransız yazıçısı F.R.Şatobrian ("Konservator" jurnalında) işlətmişdir. Mühafizəkar ideyaların formalaşmasına Böyük Fransa inqilabı (1789) güclü təsir göstərmişdir. Bu ideologiyanın nəzəri əsasları J-de Mestr, L-de Bonald (fransız mütəfəkkirləri), E.Berk (ingilis mütəfəkkiri) və b. tərəfindən işlənib hazırlanmış-

dır. Mühafizəkarlığın əsas prinsipləri ilk dəfə E.Berkin "Fransa inqilabı haqqında düşüncələr" adlı oçerkində (1790) öz əksini tapmışdır (bu əsərdə o özünün cəmiyyətə olan baxışlarını Avropa maarifçiliyi və Böyük Fransa inqilabı tərəfindən irəli sürülmüş fərdiyyətçilik, tərəqqi və rasionalizm ideyalarına qarşı qoymuşdur. Berkə görə bu ideyaların həyata keçirilməsi ənənələri qiymətdən salmaq və cəmiyyətin əxlaqi, maddi dəyərlərini dağıtmaq imkanına malik olduğu üçün məqbul hesab edilə bilməz).

Mühafizəkarlıq ideya-siyasi cərəyan kimi XVIII əsrin sonu XIX əsrin əvvəllərində zadəganların mənafeyinin müdafiəçisi kimi meydana gəlsə də XIX əsrin sonlarında klassik liberalizmin bir sıra müddəalarını mənimsəmiş və burjua aristokratiyasının ayrı-ayrı fraksiyalarının ideya-siyasi platformasına çevrilmişdir.

Mühafizəkarlığın başlıca xarakterik əlaməti onun ikili təbiətə malik olmasında öz əksini tapır. Bir tərəfdən o təkamül, inkişaf, köhnənin inkar edilməsi, keçmişlə əlaqənin kəsilməsi və yeninin yaranması tərəfdarı kimi təzahür edir, digər tərəfdən isə yaşamaq qabiliyyəti olan bütün ənənələri, keçici olmayanları, bəşəri olanları qoruyub saxlayan, onları gələcəyə ötürən cərəyan kimi çıxış edir[1]. Mühafizəkarlıq daha çox ikinciyə, yəni köhnəni qoruyub saxlamaq və gələcəyə ötürmək səylərinə üstünlük verir.

Mühafizəkarlığın ideya-siyasi konsepsiyasında güclü dövlət ideyası həlledici yerlərdən birini tutur. Bununla əlaqədar olaraq, demokratiya və azadlıq şəxsiyyətin sosial

---

[1] Bax: İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial demokratiya. B., 2005, s.141

mövcudluğunun təzahürü deyil, onun dövlətə itaətinin təzahürü kimi nəzərdən keçirilir. Lakin qatı ənənəçiliyin cəmiyyətin qarşılaşdığı mürəkkəb problemləri həll etmək yollarını göstərməkdə aciz olduğunu görən mühafizəkarlar getdikcə öz baxışlarında dəyişiklik etməyə məcbur oldular. Liberallar kimi onlar da dövlətin ictimai həyatın bütün sahələrinə, xüsusilə də iqtisadi sferaya müdaxiləsinin qeyri-rasionallığını təsdiqləyərək öz prinsiplərini mövcud reallıqlara uyğunlaşdırmaq zərurəti ilə razılaşmağa məcbur oldular. Obyektiv proseslərin təsiri altında mühafizəkarlıqda liberal meyllərin güclənməsi onun yeni təzahür formasının - yeni mühafizəkarlığın (XX əsrin 70-ci illəri) meydana gəlməsini şərtləndirdi. Yeni mühafizəkarlıq (neokonservatizm) mühafizəkarlığın mötədil qanadını özündə əks etdirir. Onların əksəriyyəti üçün başlıca maraq sahəsi real siyasət və iqtisadiyyat sahəsidir.

Yeni mühafizəkarlar öz fəaliyyətlərində azad bazar münasibətlərini, fərdiyyətçiliyi, azad rəqabəti, "rifah dövləti"ni və sosial islahatları müdafiə edirlər (tetçerizm - ingilis mühafizəkarlarının lideri M.Tetçerin (1979-1990) islahatları; reyqanizm – ABŞ-da (1980-88) R.Reyqanın prezidentliyi dövründə "reyqanomika" proqramının həyata keçirilməsi). Göründüyü kimi yeni mühafizəkarlar mövcud qaydaların dəyişdirilməsinin təşəbbüskarı kimi çıxış edirlər.

Yeni mühafizəkarlıq ideologiyasında mühüm yerlərdən birini də azadlıq, bərabərlik, insan hüquqları və demokratiya ideyaları tutur.

Mühafizəkarlıq haqında deyilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olur ki, uzun tarixi inkişaf yolu keç-

miş bu ideya-siyasi cərəyanı çox mürəkkəb dünyagörüşünə malik olduğu üçün onun tərkibində bir sıra ideya və konsepsiyalar bir-birilə ziddiyyət təşkil etsə də (bir tərəfdən onlar azad rəqabət və azad bazar münasibətlərinin tərəfdarı olduğu halda, digər tərəfdən ənənəvi dəyərlərə və ideallara sadiqliyini göstərirlər) yeni mühafizəkarlıq ideologiyasında mühafizəkarlığın ənənəvi, sənaye dövrünə qədərki dəyərləri (ailə, din, əxlaq) postsənaye dövrünün xüsusiyyətləri ilə (yaradıcı əmək, şəxsiyyətin təkrarolunmazlığı, sosial sahənin sürətli inkişaf etdirilməsi və s. bu kimi ideyalarla) uğurla qovuşur.

Müasir siyasi ideologiyalardan biri də liberalizmdir. Liberalizm ideyası hələ antik dövrün böyük mütəfəkkirləri Demokrit və Lukretsi tərəfindən irəli sürülmüşdü. Lakin liberalizmin müstəqil bir ideologiya kimi özünü göstərməsi XVII-XVIII əsrlərin burjua inqilabları dövrünün görkəmli maarifçiləri C.Lokkun, T.Hobbsun, A.Smitin, C.Millin siyasi fəlsəfəsi ilə bağlı olmuşdur (C.Millin "Azadlıq haqqında" əsəri liberal proqramın nümunəsi hesab oluna bilər). Azərbaycanda isə liberal ənənələrin, modernizmin yaradıcısı görkəmli mütəfəkkir M.F.Axundov hesab olunur (onun yeniləşmə, insan haqları, qadınların hüquq bərabərliyi, konstitusiya islahatları, əlifba islahatı haqqında ideyaları buna nümunədir).

Liberalizm latınca "liberalis" sözündən olub "azad", "azad insana xas olan", "azad seçmək hüququ" mənasını verir. Bu termin ilk dəfə XIX əsrin başlanğıcında siyasi terminologiyaya daxil olmuşdur (bu barədə ətraflı Atilla Yayla. Liberalizm. Ankara, 2000). O vaxtlar İngiltərədə kral hakimiyyəti əleyhinə olanları viqilər adlandırırdılar.

1820-ci ildə isə İspaniya kortesində (ali qanunverici orqanda) təmsil olunan orta təbəqənin nümayəndələrini liberallar adlandırmışlar.

Liberalizm termini dar və geniş mənada işlədilir. Dar mənada o ictimai həyat sahələrinin inkişafına maneçilik törədən meyllərin və hər cür məhdudiyyətin aradan qaldırılması mənasında işlədildiyi halda, geniş mənada isə parlamentli quruluş tərəfdarlarını, habelə vətəndaş azadlıqları və azad sahibkarlıq tərəfdarlarını öz ətrafında birləşdirən cərəyan kimi nəzərdən keçirilir. Liberalizm ideologiyasının əsasını şəxsiyyətin azadlığı, insan hüquqları və xüsusi mülkiyyətçilik prinsiplərinin əlaqələndirilməsi zəminində azad rəqabət, azad bazar və sahibkarlıq ideyaları təşkil edir. Vətəndaşların hüquq bərabərliyi, dövlətin müqavilə əsasında təşkili və s. liberalizmin başlıca prinsipləri sayılır.

Liberalizmin başlıca dəyərləri cəmiyyətdə kütləvi siyasi baxışlarda köklü dəyişikliklərə səbəb olmuşdur. Müasir demokratiyanın aparıcı nəzəriyyələrindən olan siyasi iştirakçılıq, liberal demokratiya nəzəriyyələri liberalizmin prinsiplərinə əsaslanır.

Liberalizm ideya-siyasi cərəyanının müasir forması neoliberalizmdir (yeni liberalizm). Neoliberalizm XX əsrdə (II yarısı) formalaşmışdır. Neoliberalizmin ideoloqları C.Keyns, A.Xansen, C.Helbreyt və b. hesab olunur.

XX əsrin II yarısında formalaşan neoliberalizm (yeni liberalizm) cərəyanı liberalizmin əsas prinsiplərinə (şəxsiyyətin hüquq və azadlıqları, konstitusionalizm, xüsusi mülkiyyət və sahibkarlıq, azad rəqabət) sadiqliyini saxlasa da klassik prinsiplər yeniləşir, müasirləşir. İqtisadi fəa-

liyyətin səmərəli mexanizmi kimi azad bazara öz sadiqliyini saxlayaraq yeni liberallar (F.Xayek, V.Oyken, V.Repke və b) inhisarların hökmranlığını məhdudlaşdırmaq və iqtisadi münaqişələri aradan qaldırmaq üçün dövlətin iqtisadiyyata müəyyən dərəcədə müdaxiləsini zəruri hesab edirlər. Neoliberalizmin siyasi proqramının əsasını siyasi konsensus (latınca razılıq, saziş deməkdir), dövlət idarəçiliyinin təşkili və həyata keçirilməsinin plüralist əsaslarına üstünlük verilməsi kimi ideyalar təşkil edir.

XX əsrin sonlarına doğru liberalizmin önə keçməsi, neoliberalizm dövrünün başlanğıcı, libertarizmin (klassik liberal ənənələrinin varisi hesab edilən ideya-siyasi cərəyandır) yenidən dirçəlməsi kimi xarakterizə edilir. Əslində libertarizm köhnə fəlsəfədir, lakin onun qanun çərçivəsində və iqtisadi tərəqqi naminə olan görüşlər sistemində azadlığa münasibəti bu fəlsəfəni indiki dinamik dünya üçün daha da gərəkli edir.

Libertarizmin başlıca dəyərləri bunlardır: insan hüquqları, fərdiyyətçilik, spontan qayda-qanun, hüququn aliliyi, hakimiyyətin konstitusiya çərçivəsində məhdudlaşdırılması, azad bazara üstünlük verilməsi, xeyirxah istehsal, maraqların təbii harmoniyası, sülhün bərqərar olması və s.

Liberalizm yalnız fundamental dəyərlərə əsaslanan ideoloji-siyasi bilik deyil, həm də son dövrlərin ən güclü ideya-siyasi cərəyanlarından biri kimi səciyyələndirilir. Liberalizmin mərkəzi ABŞ və İngiltərədir. Liberallar həmçinin Kanada, Avstriya, Almaniya, Yaponiya və digər ölkələrin siyasi həyatında da mühüm yer tutur. Liberallar həmişə qanun çərçivəsində fəaliyyət göstərən bütün

partiyalarla əməkdaşlığa hazır olduqlarını bəyan edirlər. Liberal partiyalar dünyanın bir çox ölkələrində böyük təsir imkanlarına malikdir. Bütün bunlar bir daha onu göstərir ki, liberalizm ideologiyası dünyanın siyasi həyatında önəmli yerlərdən birini tutur.

Dünyanın başlıca ideoloji cərəyanlarından biri də sosializmdir. Sosializm ideyaları hələ qədim dövrdən məlum olsa da bu ideyaların nəzəri cəhətdən əsaslandırılması və ideoloji nöqteyi-nəzərdən qanuni xarakter alması məhz XIX əsrə təsadüf edir.

Sosializm (fransızca "socialisme", latınca "socialis" - ictimai) müxtəlif ideya-siyasi istiqamətləri özündə birləşdirən siyasi ideologiya kimi təzahür etmişdir. Sosialist ideyalarının sistemləşdirilməsində və ideya-siyasi təlim kimi təşəkkülündə J.J.Russonun, F.Baböfün müddəaları, utopik sosialistlərin (Sen Simon, Ş.Furye, R.Ouen) ədalətli cəmiyyət axtarışları ilə bağlı fikirləri mühüm rol oynamışdır. Sosialist ideologiyasının siyasi istiqamət alaraq qəti şəkildə formalaşması K.Marksın, F.Engelsin və F.Lassalın adı ilə bağlı olmuşdur.

İdeya-siyasi cərəyan olmaqla sosializmdə digər cərəyanlar kimi özündə bir-birindən fərqlənən istiqamətləri və nəzəriyyələri birləşdirən eklektik sistem kimi çıxış edir. Bütövlükdə isə "sosializm" termini ilə ifadə olunan siyasi ideologiyada iki başlıca cərəyan - "elmi sosializm" (elmi sosializm XIX əsrin ortalarında K.Marks və F.Engels tərəfindən yaradılmış və XX əsrin əvvəllərində V.Lenin tərəfindən inkişaf etdirilmişdir) və "sosial-demokratiya" cərəyanları təmsil olunmuşdur (XIX əsrin ortalarından sosialistlər əvvəlcə ideoloji zəmində, XX əsrin əvvəllərin-

dən isə təşkilati cəhətdən iki yerə ayrıldılar. K.Kautski, A.Bebel və E.Bernşteynin baxışları sosializm ideologiyasında yeni bir cərəyanın (ideologiyanın) - sosial-demokratiyanın əsasını qoydu). Elmi sosializm doktrinasının əsas istiqamətləri fərdin müstəqilliyini kölgədə qoyan dövlət təşəbbüskarlığı və demokratiyanı boğan mərkəzləşdirilmiş idarəçilik, iqtisadiyyat üzərində ağalıq edən siyasət və s. hesab olunur. Vaxtilə siyasi ideologiyanı praktikaya tətbiq etmək məqsədini rəhbər tutan V.Lenin marksizm doktrinasında siyasi zorakılığın nəzəri əsası sayılan fundamentalist cərəyanı yaratdı və Stalin bu ideyanı daha da gücləndirdi. Sosialist fundamentalizminin titoizm (İ.Titonun adı ilə) və maoizm (Mao Tsze-dunun adı ilə) kimi formaları da mövcud olmuşdur.

XIX əsrin II yarısında meydana gələn sosial-demokratiya müasir dövrdə nüfuzlu ideya cərəyanlarından biri hesab olunur. Sosial-demokratların müdafiə etdikləri əsas dəyərlər sosial barışıq, dövlətlərarası münasibətlərdə sülh və əməkdaşlıq kimi ümumbəşəri prinsiplərdir. Sosial-demokrat modelində bütünlükdə sosializm ideologiyası üçün həlledici əhəmiyyət kəsb edən ədalətli cəmiyyət yaratmaq cəhdləri fərdlərin azadlığı və təşəbbüskarlığı prinsipi ilə üzvü əlaqədə təzahür edir. Sosial-demokratlar zorakılığı və ekstremist meylləri rədd edərək cəmiyyətin dəyişdirilməsinin yeganə yolunu sosial islahatlarda, demokratik seçkilərdə görürlər. Sosial-demokratlar da digər mütərəqqi cərəyanlar kimi bazar iqtisadiyyatının tərəfdarı kimi çıxış edir və sosial yönümlü bazara daha çox üstünlük verirlər.

Sosial-demokratiya elə ədalətli cəmiyyət modeli he-

sab olunur ki, burada üç əsas prinsip (azadlıq, bərabərlik və həmrəylik) gözlənilir.

Müasir sosial-demokrat proqramı və hərəkatının əsasını "demokratik sosializm" konsepsiyası (termin ilk dəfə K.Kautski tərəfindən işlədilib) təşkil edir. Bu konsepsiyanın məzmununu təşkil edən başlıca müddəalar və prinsiplər bunlardır:

- iqtisadi həyatın dövlət tərəfindən tənzimlənməsinə yol verilməsi və qarışıq iqtisadiyyatın üstünlüyü;
- bəzi iri sənaye müəssisələrinin milliləşdirilməsi;
- dövlətin sosial funksiyasının gücləndirilməsi;
- cəmiyyət həyatının fərdi və kollektiv əsasları arasında optimal variantın tapılması;
- cəmiyyətin həyat fəaliyyətinin müxtəlif sahələrinin idarə edilməsində vətəndaşlara geniş səlahiyyətlərin verilməsi;
- insan amilinə üstünlük verilməsi və s.

Demokratik sosializm konsepsiyası "sosial mülkiyyət" və "sosial dövlət" anlayışlarına xüsusi yer verir. "Sosial dövlət" insanların sosial müdafiəsilə bağlı tədbirlərin məcmusunu özündə birləşdirir (sosial dövlətdə hər bir vətəndaşa layiqli həyat səviyyəsi, sosial müdafiə, istehsalda iştirakçılıq, həmçinin bir ideal olaraq bərabər imkanlar təmin olunması əsas götürülür). Sosial dövlət ideyası müxtəlif ölkələrdə uğurla tətbiq olunur (Skandinaviya ölkələrinin timsalında). Hazırda sosial-demokratiyanın qərarlaşdığı ölkələrin əksəriyyətində "demokratik sosializm" konsepsiyasında nəzərə çarpan dəyişikliklər baş verir. Bəzi tədqiqatçılar sosializmsiz sosial-demokratiyanın

mövcudluğu ilə bağlı fikirlər söyləyirlər.

Müasir dünyanın siyasi mənzərəsinin, siyasi inkişaf yollarının müəyyənləşdirilməsindən bəhs olunan ideya cərəyanları ilə yanaşı müxtəlif çalarları və kəskin təzahürləri ilə fərqlənən digər ideoloji cərəyanlar da mövcuddur. Belə cərəyanlardan biri də radikalizmdir. "Radikalizm" latınca "radix" sözündən ibarət olub "kök", "əsas" mənasını ifadə edir.

Siyasi radikalizm qəti metod və hərəkətlərə üstünlük verilməsi, hər şeyin kökündən dərhal dəyişdirilməsi mövqeyindən çıxış etməsi ilə səciyyələnir. Radikalizm ənənəvi olaraq sağ və sol qanadlara (bu bölgü şərti xarakter daşıyır) bölünür. Sağ radikalizmə faşizm və nasionalizmi aid etmək olar (faşizm latınca "fasio", italyanca "fasismo" sözündən ibarət olub dəstə, birləşmə mənasını verir. Onun ideya əsasını ifrat antidemokratizm, rasizm, şovinizm təşkil edir. Nasionalizm bir qrup millətin digərlərinə birləşdirilməsi, tabe etdirilməsi ideologiyası, psixologiyası, sosial praktikası, dünyagörüşü və siyasətidir). Sol radikalizmin bolşevizm, anarxizm və s. cərəyanlarını nəzərdən keçirmək olar (bolşevizm bütövlükdə sol radikalizmin istiqamətlərindən biri olub marksizm - leninizmi rəhbər tutan inqilabi cərəyanlardan biridir. Anarxizm yunanca "anarxiya" sözündən olub "hakimiyyətsizlik" mənasını verir. Hakimiyyətsizlik və dövlətin iştirakı olmadan cəmiyyətin idarə olunması ideyası anarxizmin əsasını təşkil edir).[1]

Sosial və beynəlxalq həyatda keyfiyyət dəyişiklikləri

---

[1] Bax: Siyasi biliklərin əsasları. II cild. B., 1999, s. 69-82

baş verdikcə, ümumbəşəri dəyərlər, normalar, birgəyaşayış qaydaları dəyişdikcə siyasi ideologiyalar da yeniləşir və yeni məzmun kəsb edir.

**Yoxlama xarakterli suallar**

1. Siyasi ideologiya nədir?
2. İdeologiyaların təsnifatını hansı meyarlar əsasında nəzərdən keçirmək olar?
3. İdeologiyanın funksiyalarını göstərin.
4. Yeni mühafizəkarlığı ənənəvi mühafizəkarlıqdan fərqləndirən xüsusiyyəti göstərin.
5. Liberalizm ideologiyasının başlıca prinsiplərini göstərin.
6. Sosializm termini ilə ifadə olunan siyasi ideologiyada hansı cərəyanlar təmsil olunub?

# IV bölmə
# Dünya siyasi prosesləri və siyasi texnologiyalar

## XVI mövzu
## Beynəlxalq münasibətlər və xarici siyasət

1. Beynəlxalq münasibətlər anlayışı və beynəlxalq münasibətlərin formaları
2. Beynəlxalq münasibətlər nəzəriyyələri
3. Beynəlxalq təşkilatlar beynəlxalq münasibətlərin aktoru kimi
4. Xarici siyasət anlayışı: məqsədi və vasitələri

### 1. Beynəlxalq münasibətlər anlayışı və beynəlxalq münasibətlərin formaları

Dövlətlər və xalqlar arasında müxtəlif sahələrdə və müxtəlif formalarda meydana gələn əlaqələr və münasibətlər tədricən bəşəriyyətin birliyinə və vəhdətinə aparan yolun əsasını qoydu. Dövlətlər və xalqlar arasında yaranan əlaqələrin, əməkdaşlığın nəticəsində tədricən beynəlxalq münasibətlər yarandı. Göründyü kimi beynəlxalq münasibətlərin meydana gəlməsinin ideya əsasında müstəqil dövlətlərin əməkdaşlığı kimi xüsusiyyət durur.

Beynəlxalq münasibətlər nədir? sualına aydınlıq gətirmək üçün aşağıdakı əlamətləri nəzərdən keçirək:

• beynəlxalq münasibətlər dünya birliyinə daxil olan dövlətlər, millətlər, beynəlxalq təşkilatlar və s. arasında

siyasi, iqtisadi, elmi, texniki, mədəni və digər münasibətlər sistemidir;

- aktorlar arasında müxtəlif səviyyə və formalarda həyata keçirilən ikitərəfli və çoxtərəfli əlaqə və münasibətlər sistemidir;
- iştirakçılar (aktorlar) arasında müxtəlif formalarda həyata keçirilən çoxtərəfli əlaqə və münasibətlər sistemidir;
- dövlətlərarası əlaqə və münasibətlər sistemidir və s.

Beynəlxalq münasibətlərin məzmununun bu və ya digər tərəfini əks etdirən yuxarıda sadalanan əlamətlərdən çıxış edərək ona belə bir tərif vermək olar. Beynəlxalq münasibətlər dedikdə dövlətlər, beynəlxalq təşkilatlar, cəmiyyətlər, transmilli koorporosiyalar arasında müxtəlif səviyyələrdə və formalarda həyata keçirilən ikitərəfli və çoxtərəfli əlaqə və münasibətlər sistemi başa düşülür.

Beynəlxalq münasibətlər anlayişinın məzmununu təşkil edən iki başlıca tərkib ünsürləri qrupu mövcuddur. Birincisi, beynəlxalq münasibətlərin sahələri, ikincisi isə bu münasibətlərin reallaşması prosesində iştirak edən tərəflər. Bu ünsürlərin kəmiyyət və keyfiyyət müəyyənliyi bütünlükdə beynəlxalq münasibətlərin təbiətinin müəyyənləşdirilməsində həlledici rol oynayır.

Beynəlxalq münasibətlərin inkişafı ilk növbədə onun iştirakçıları arasında qarşılıqlı əlaqə və münasibətlər sahəsinin genişlənməsində özünün ifadəsini tapır. Sosial-iqtisadi və mənəvi tərəqqinin maddi-texniki əsasının getdikcə artan beynəlmiləlləşməsi onunla nəticələnmişdir ki, hazırda beynəlxalq münasibətlərin iştirakçıları arasında qarşı-

lıqlı əlaqə və təsirdən kənar sahə demək olar qalmayıb. Beynəlxalq münasibətlərin inkişafının digər göstəricisi onun iştirakçıları dairəsinin genişlənməsi hesab olunur. Bu prosesin iki istiqaməti diqqəti cəlb edir. Əvvəla, beynəlxalq münasibətlər sferasına getdikcə daha çox dövlət cəlb olunur. Hazırkı şəraitdə dünya birliyindən təcrid olunmuş, digər dövlətlərlə əlaqələrə girməyən dövlət təsəvvür etmək qeyri-mümkündür. İkincisi, vaxtilə beynəlxalq münasibətlərin subyekti kimi yalnız dövlətlər çıxış edirdi, lakin hazırda onun həyata keçirilməsində dövlətlərlə yanaşı milli və beynəlmiləl təşkilatlar, siyasi, iqtisadi, hərbi və maliyyə qurumları fəal iştirak edir (beynəlxalq münasibətlərin iştirakçıları müxtəlif ədəbiyyatda aktorlar, tərəflər, subyektlər və sadəcə olaraq iştirakçılar kimi adlandırılır).

Müasir dünyada beynəlxalq münasibətlərin iştirakçılarının sırası artmaqla yanaşı, onların rollarında da əhəmiyyətli dəyişiklik baş verir. Beynəlxalq münasibətlərin əsas subyekti rolunda hamılıqla dövlət qəbul edilmişdir, çünki məhz o və onu təmsil edən vəzifəli şəxslər dövlətlərarası münasibətlərdə bütün millətin adından çıxış etmək səlahiyyətinə malikdir. Bununla belə, dövlətlər arasında əlaqələrin genişlənməsi, bu əlaqələrin getdikcə daha intensiv şəkildə qeyri-siyasi əlaqələr müstəvisinə keçməsi beynəlxalq münasibətlər sahəsində qeyri-dövlət təsisatları və qurumlarının rolunu da əhəmiyyətli dərəcədə artırır.

Müasir beynəlxalq münasibətlər – beynəlxalq hüquq normalarının milli hüquqi-siyasi normalara münasibətdə üstün mövqeyə malik olması; beynəlxalq (ümumdünya) və regional mərkəzlərin yaradılması; əlaqələrin sabitliyinin

artması; əlaqələrin insensivlik sürəti və s. keyfiyyətlərə malikdir. Müasir dövrdə bir sıra qanunauyğunluqlar beynəlxalq həyatın obyektiv inkişafını əks etdirir. Bu qanunauyğunluqlara – dünya düzəninin ümumi qaydalarının yaradılması; beynəlxalq münasibətlərin intensivliyi; dövlətlərarası münasibətlərin humanistləşməsi; dövlətlərarası münasibətlərin ədalətli hüquqi normalara əsaslanması və s. göstərmək olar.

Müasir beynəlxalq münasibətlər öz fəaliyyətində – dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün tanınması; dövlətlərin daxili işlərinə qarışmamaq; insan hüquqlarının aliliyinin qəbul edilməsi; beynəlxalq təhlükəsizliyin hamılıqla təmin edilməsi; dövlətlərarası münasibətlərdə zora, gücə əsaslanan siyasətə yol verilməməsi; dövlətlərarası əlaqə və münasibətlərdə bərabərhüquqlu partnyorluq prinsipinə əməl edilməsi; bəşəriyyətin mövcudluğuna real təhlükə olan qlobal problemlərin aradan qaldırılmasında səylərin birləşdirilməsi və s. kimi prinsip və tələblərə əsaslanır.

Beynəlxalq münasibətlərin vəziyyəti bu münasibətlər sahəsini səciyyələndirən koordinatlarla təyin edilir. Bunlar aşağıdakılardır: güc-gücsüzlük və təcridolunma-əməkdaşlıq.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin tərəfdarlarından olan R.Snayder beynəlxalq münasibətlər sahəsinin dörd fəaliyyət komponentini fərqləndirir: resurslar, aktorlar, vəzifələr, şərtlər. Bu komponentlərə uyğun olaraq beynəlxalq münasibətlərdə dörd fəaliyyət forması özünü göstərir: rəqabət, münaqişə, əməkdaşlıq və uyğunlaşma.

Beynəlxalq münasibətlər çox rəngarəng formada tə-

zahür edən sosial proses kimi çıxış edir. Onun təzahür müxtəlifliyinin öyrənilməsi bütünlükdə beynəlxalq münasibətlərin məzmununu, təbiətini, inkişaf meyllərini dərk etmək baxımından əhəmiyyətlidir. Siyasi elmdə beynəlxalq münasibətlərin formalarını araşdırmağın bir sıra metodlarından istifadə olunur. Bu sahədə mövcud olan ciddi fikir ayrılığı fonunda bəzi ümumiləşmələr aparılması imkanı da görünməkdədir. Çox müxtəlif meyarlar, metoddar və yanaşmalar içərisində beynəlxalq münasibətlərin formalarını xronoloji ardıcıllıq silsiləsi təşkil edən və müasir beynəlxalq həyat reallığının rəngarəngliyini ifadə edən təzahürlər kimi ayırmaq meylinin üstünlüyü aydın seçilir.

İctimai həyatın tərəqqisi, bütün dünyada beynəlmiləlləşmə prosesinin güclənməsi, digər amillər beynəlxalq münasibətlərin xarakterinə, intensivliyinə güclü təsir göstərərək, onun tarixin ayrı-ayrı mərhələsində konkret təzahürlər kəsb etməsini şərtləndirir. Beynəlxalq münasibətlərin tarixi təkamülü onun tarixi formalarının meydana çıxmasında öz ifadəsini tapır. Şərti olaraq beynəlxalq münasibətlərin aşağıdakı tarixi formalarını (mərhələlərini) göstərmək mümkündür: **1. Beynəlxalq münasibətlərin ilkin forması (XVI-XVIII əsrlər); 2. Sənaye dövrünün beynəlxalq münasibətləri (XIX-XX əsrin I yarısı); 3. Müasir beynəlxalq münasibətlər.**

Beynəlxalq münasibətlərin ilkin formasını səciyyələndirən başlıca əlamətlər aşağıdakılar hesab edilir:

1) dünyanın siyasi coğrafiyasının qeyri-sabit xarakteri ilə əlaqədar olaraq beynəlxalq münasibətlərin məzmununda böyük tezlikli dəyişmələr. Siyasi ağalıq məqsədi daşıyan fasiləsiz müharibələr nəticəsində tez-tez siyasi re-

jimlər süqut edir, yeni dövlətlər meydana gəlirdi və bu beynəlxalq münasibətlərin qeyri-sabit təbiətini şərtləndirirdi;

2) beynəlxalq münasibətlərin hüquqi əsaslarının olmaması. Dövlətlər arasında münasibətlər, qarşılıqlı əlaqələr əsas etibarilə hakimiyyət sülalələrinin şəxsi münasibətlərinə, hər hansı hüquqi tənzimləmədən kənar amillərə (ideoloji, dini və s.) arxalanırdı;

3) beynəlxalq münasibətlərin iştirakçıları (aktorları) kəmiyyət etibarilə məhdud xarakter daşıyırdı;

4) beynəlxalq münasibətlər dövlətlərin ictimai həyatının yalnız bəzi sahələrini əhatə edirdi. Əsasən əlaqələr hərbi-siyasi xarakter daşıyırdı;

Sənaye dövrünün beynəlxalq münasibətlərini müəyyənləşdirən mühüm cəhətlər bunlardır:

1) milli dövlətlərin meydana gəlməsi və suverenlik ideyalarının geniş intişar tapması sayəsində beynəlxalq münasibətlərin iştirakçılarının (aktorların) sayının artması;

2) beynəlxalq münasibətlərin rolunun artması, miqyaslarının genişlənməsi, mürəkkəb məzmun kəsb etməsi bu münasibətləri tənzimləyən dəyərlərin, hüquq normalarının meydana çıxması ilə müşayiət edilirdi;

3) dövlətlərin milli mənafeləri ilə beynəlxalq həyatın elan olunmuş norma və prinsipləri arasında ziddiyyətlərin meydana çıxması;

4) beynəlxalq münasibətlərin subeyktləri keyfiyyətində dövlətlərlə yanaşı, beynəlxalq təşkilatlar və cəmiyyətlər də çıxış etməyə başalyır. Məsələn, Millətlər birliyi, Qırmızı xaç cəmiyyəti kimi təşkilatlar yaradılır və dünyanın siyasi həyatında nəzərə çarpan rol oynayır;

5) dövlətlər arasında əlaqə və münasibətlərin sahəsi genişlənir. Beynəlxalq münasibətlər onun subyektləri arasında ictimai həyatın bütün sahlərini əhatə edən əlaqələrlə səciyyələnir.

Müasir dövrün beynəlxalq münasibətləri bir sıra yeni səciyyəvi cəhətləri özündə birləşdirir:

1) beynəlxalq münasibətlərdə iştirakçıların bərabər portnyorluq ideyası ön plana keçir, bunun sayəsində beynəlxalq hüquq normaları milli hüquqi-siyasi normalara münasibətdə üstün mövqe qazanır;

2) beynəlxalq həyat hadisələrini idarə edən ümumdünya və regional mərkəzlərin yaradılması cəhdləri getdikcə daha aydın konturlar kəsb etməyə başlayır. Beynəlxalq təşkilatların rolu artır;

3) müasir beynəlxalq münasibətlər habelə əlaqələrin xarakterinin sabitlik dərəcəsinin yüksəlməsi, miqyasları və intensivlik səviyyəsinin sürətli artımı ilə səciyyələnir;

4) terrorizmə qarşı mübarizədə səylər birləşdirilir.

Beynəlxalq münasibətlərin formalarından bəhs edərkən dövlətlərarası əlaqələrin rəngarəngliyi, əhatə etdiyi sahələri ifadə edən təzahürləri diqqətdən kənarda qala bilməz. Bu baxımdan beynəlxalq münasibətlərin politoloji təsnifatı tərəfdarları dövlətlərarası münasibətlərin rəqabət və əməkdaşlıq kimi fomalarını fərqləndirirlər.

## 2. Beynəlxalq münasibətlər nəzəriyyələri

Müasir dövrdə dövlətlərarası münasibətlərin nəzəri və praktik dəyişikliyini öyrənən çoxlu sayda elmi tədqiqat mərkəzləri yaradılmışdır. Bu mərkəzlərin başlıca məqsədi

dövlətlərarası münasibətlərin ayrı-ayrı məqamlarını əks etdirən və onun nəzəri şərhinə həsr olunmuş çoxlu nəzəriyyələrin yaradılması və bu istiqamətdə aparılan tədqiqatlar hesab olunur. Beynəlxalq münasibətlər praktikasında müəyyən iz buraxmış nəzəriyyələr sırasına aşağıdakıları aid etmək olar: beynəlxalq münasibətlərdə siyasi realizm nəzəriyyəsi (H.Morgentau), müharibə və sülh nəzəriyyəsi (R.Aron), amillər nəzəriyyəsi (K.Rayt), beynəlxalq tarazlıq nəzəriyyəsi (C.Liski), əlaqələr nəzəriyyəsi (J.Haltunq), milli mənafelər nəzəriyyəsi (L.Kaplan), qloballaşma nəzəriyyəsi (R.Robertson), sivilizasiyaların toqquşması nəzəriyyəsi (S.Xantinqton), geosiyasi nəzəriyyə (Z.Bjezinski) və s.

Beynəlxalq münasibətlərdə **siyasi realizm nəzəriyyəsi** Hans Morgentaunun adı ilə əlaqələndirilir. Onun baxışları uzun müddət Amerika Birləşmiş Ştatlarının xarici siyasətində hökmran mövqelərdə olmuş və bu ölkənin siyasi xəttinə güclü təsir göstərmişdir.

H.Morgentaunun siyasi realizm nəzəriyyəsinin başlıca ideyaları aşağıdakılarda ifadə olunur:

1) beynəlxalq münasibətlər hakimiyyət və dünya sahibliyi uğrunda mübarizədir;

2) beynəlxalq münasibətlər sahəsində siyasi realizmi şərtləndlirən əsas amil «hakimiyyət kateqoriyasında ifadə olunan mənafe anlayışıdır»;

3) siyasi realizmin qayəsini təşkil edən səmərəli siyasi fəaliyyət tələbi əxlaqi amillərin əhəmiyyətini heçə endirmir və buna görə də beynəlxalq münasibətlər sahəsində əxlaqi dəyərlərlə səmərəli siyasi fəaliyyət arasında ziddiyyətlərin açılması obyektiv reallığın xüsusi halı kimi

dərk edilməlidir.

Uzun müddət Fransanın siyasi fikrində həlledici rol oynayan **müharibə və sülh konsepsiyasının** müəllifi Raymon Arondur. Bu nəzəriyyənin əsas prinsipləri aşağıdakılardan ibarətdir:

1) beynəlxalq münasibətlər, hər şeydən əvvəl, dövlətlər arasında münasibətlər kimi dərk edilir. Dövlətlər arasında münasibətlər isə simvolik fiqurların davranışında öz ifadəsini tapır. Beynəlxalq münasibətlərdə dövləti konkret şəraitdən asılı olaraq ya əsgər (müharibə şəraitində), ya diplomat (diplomatiya sahəsində) təmsil edir;

2) müharibə və ya sülh alternativi beynəlxalq münasibətlərin əsas etibarilə diplomat və ya əsgər kimi fiqurlarına əsaslandığını şərtləndirdiyindən, bu sahədə rasional davranış qeyri-mümkündür. Qərar qəbul edən mərkəzlərin muxtariyyatı diplomatın və ya hərbi strateqin davranışında risk ehtimalının yüksəkliyini təmin edir;

3) ikinci dünya müharibəsi nəticəsində dövlətlər arasında əlaqələrin genişlənməsi və əhəmiyyətinin artması beynəlxalq münasibətləri qlobal sistemə çevirib. Müharibə təhlükəsi silahlanmaya səbəb olur, silahlanma isə beynəlxalq münasibətlərdə münaqişələrin qarşısını alan amil kimi çıxış edir.

Müəllifi K.Rayt hesab edilən **amillər nəzəriyyəsini** aşağıdakı xüsusiyyətlər səciyyələndirir: dünya bir-biri ilə qarşılıqlı fəaliyyətdə olan və bir-birini tamamlayan qüvvələr arasında dinamik münasibətlər sahəsidir. Onu siyasi, iqtisadi, psixoloji, sosioloji və digər amillər müəyyən edir. Həmin amillər beynəlxalq münasibətlər sahəsi üçün vacib qərarların qəbul edilməsi, fəaliyyət forması seçilməsi pro-

sesinə daim təsir göstərir. Beynəlxalq münasibətlərin xarakterinə, inkişafına daha güclü təsir göstərən və daha asanlıqla təyin edilən amil maddi amillərdir. Bununla yanaşı, mənəvi amillər də beynəlxalq siyasətdə az rol oynamır. Maddi amillər sistemin qüdrətini, mənəvi amillər isə istiqamətini təyin edir.

**Beynəlxalq tarazlıq (ekvilibrium) nəzəriyyəsi** beynəlxalq münasibətlərin sabitləşməsi və dəyişkənliyi şərtlərinin öyrənilməsi məqsədilə yaradılmışdır. Onun müəllifi Corc Liski hesab olunur.

**Əlaqələr nəzəriyyəsi** beynəlxalq münasibətləri sistem şəklində çıxış edən kollektivləri tədqiq etməklə öyrənməyə üstünlük verir. Beynəlxalq kollektivləri dövlətlər, rejional və bütünlükdə dünya təşkil edir.

**Milli mənafe nəzəriyyəsi** beynəlxalq münasibətləri tarixi, hüquqi, əxlaqi və digər normativ kateqoriyalar kontekstində nəzərdən keçirməyə üstünlük verir. Bu nəzəriyyənin başlıca ideya istiqamətini milli mənafelərin beynəlxalq mənafelərdən üstünlüyünün əsaslandırılması təşkil edir.

**Münaqişə nəzəriyyəsi** beynəlxalq münasibətləri dövlətlər və dövlətlər sistemi arasında münaqişələr, gərginlik kimi kateqoriyalara münçər edir. Bu nəzəriyyənin yayılmasına keçən əsrin altmışıncı illərin «soyuq müharibəsi» müsbət təsir göstərmişdir. «Soyuq müharibə» ehtiraslarının soyuması ilə münaqişə nəzəriyyəsi də əvvəlki mövqelərini əldən verməli oldu.

**Qloballaşma nəzəriyyəsi**. Bu nəzəriyyə ilk dəfə R.Robertson (ABŞ) tərəfindən irəli sürülmüşdür. Bu nəzəriyyəyə görə beynəlxalq münasibətlər qloballaşma prosesin-

də əsaslı dəyişikliyə uğrayır. İqtisadi inteqrasiya dövlətləri bir-birinə yaxınlaşdırır, vahid maraqlar, mənafelər və təhlükəsizlik baxımları meydana gəlir.

**Sivilizasiyaların toqquşması nəzəriyyəsi**. Bu nəzəriyyəni S.Xantinqton irəli sürmüşdür. Onun fikrincə dünyada baş verən münaqişələrin əsas səbəbi sivilizasiyaların toqquşmasıdır. S.Xantinqton Balkan, Qafqaz, Yaxın Şərqdə baş verən hadisələri də sivilizasiyaların toqquşması ilə izah edirdi.

**Geosiyasi nəzəriyyə** Z.Bjezinskinin adı ilə bağlıdır. O, «soyuq müharibə»dən sonra dünyanın yenidən nizamlanmasının geosiyasi prinsiplərini irəli sürür. Z.Bjezinski dünyanı geosiyasi baxımdan fəal, orta və passiv dövlətlərə bölür.

Bu nəzəriyyələrlə yanaşı beynəlxalq münasibətlər sahəsində ayrı-ayrı dövlətlərdə az-çox əhəmiyyətli rol oynamış və siyasi praktikaya müəyyən təsir imkanları olan beynəlxalq sistem nəzəriyyəsi, bloklara qoşulmamaq nəzəriyyəsi, qərarların qəbul edilməsi nəzəriyyəsi, beynəlxalq təşkilatlar nəzəriyyəsi, beynəlxalq rollar nəzəriyyəsi, modernləşmə nəzəriyyəsi də mövcuddur.

## 3. Beynəlxalq təşkilatlar beynəlxalq münasibətlərin aktoru kimi

Müasir siyasi elm beynəlxalq təşkilatları beynəlxalq münasibətlərin əsas aktorlarından biri kimi görür. Beynəlxalq münasibətlər sistemində beynəlxalq təşkilatlar dövlətlər arasında əməkdaşlığın və çoxistiqamətli diplomatiyanın forması kimi mühüm rol oynayır. Bu təşkilat-

ların mövcudluğu beynəlxalq münasibətlərə sabitlik və nizamlılıq xarakteri verir.

Beynəlxalq təşkilat dedikdə geniş mənada beynəlxalq səviyyədə fəaliyyət göstərən, kommersiya məqsədi daşımayan və birdən çox dövləti maraqlandıran, lakin dövlət statusuna malik olmayan hər növ təsisat başa düşülür.

XIX əsrdə yaranmağa başlayan beynəlxalq təşkilatlar hazırda geniş spektrə malikdir. Hazırda bu təşkilatların ümumi sayı dörd mindən çoxdur və bu təşkilatların 300-dən çoxu hökumətlərarası təşkilatlar hesab olunur.

Beynəlxalq təşkilatlar termini həm hökumətlərarası (dövlətlərarası), həm də qeyri-hökumət təşkilatlarını özündə birləşdirir. Bu təşkilatlar vahid beynəlxalq təşkilat terminində birləşsə də onların hüquqi məzmunu bir-birindən fərqlidir. Hökumətlərarası təşkilatların başlıca əlamətləri aşağıdakılardır: dövlətlərin üzvlüyü; beynəlxalq təsis müqaviləsinin mövcudluğu; daimi orqanların mövcudluğu; üzv dövlətlərin suverenliyinə hörmətlə yanaşılması və s. Bu cür təşkilatlar beynəlxalq hüququn subyekti kimi nəzərdən keçirilir.

Beynəlxalq təşkilatların təsnifatı üçün müxtəlif meyarlardan istifadə edilə bilər. Səlahiyyətləri və iştirakçı dövlətlərin tərkibinə görə bu təşkilatlar müxtəlif istiqamətli ola bilər.

- Ümumsəlahiyyətli dövlətlərarası beynəlxalq təşkilatlar – bunlar beynəlxalq münasibətlərin müxtəlif istiqamətlərini əhatə edən dövlətlərin birliyidir (məsələn, BMT).
- Xüsusi səlahiyyətli dövlətlərarası beynəlxalq təşki-

latlar (məsələn, NATO).

• Açıq dövlətlərarası beynəlxalq təşkilatlar – bunlar üzvlüyün tələblərinə cavab verən hər bir dövlətin qəbul edildiyi əksər beynəlxalq təşkilatlar (məsələn, Beynəlxalq Səhiyyə Təşkilatı).

• Qapalı dövlətlərarası beynəlxalq təşkilatlar – bu qrup təşkilatlara qəbul yalnız ilk təsisçilərin razılığı və dəvəti ilə həyata keçirilir.

• Hər bir dövlətin üzvlüyünə imkan verən universal beynəlxalq təşkilatlar (BMT və BMT sisteminə daxi olan ixtisaslaşmış təşkilatlar).

• Regional dövlətlərarası beynəlxalq təşkilatlar – eyni region sərhədləri daxilində yerləşən dövlətlərin birliyini əks etdirən təşkilatlar (məsələn, Ərəb Dövləri liqası, MDB və s.).

Beynəlxalq münasibətlərdə beynəlxalq hökumətlərarası təşkilatlarla (BHT) yanaşı beynəlxalq qeyri-hökumət təşkilatları (BQHT) da mövcuddur. BQHT-ı rəsmi dövlət strukturları tərəfindən deyil, xüsusi şəxslər və bir neçə dövlətin ictimai birlikləri tərəfindən yaradılır. İştirakçıların tərkibi, məqsədləri və fəaliyyət istiqamətlərinə görə bu təşkilatların müxtəlif növləri mövcuddur (məsələn, idman – Beynəlxalq Futbol Federasiyası, hüquq müdafiəsi – Beynəlxalq Amnistiya, siyasi – Sosialist İnternasionalı, Beynəlxalq Demokrat İttifaqı və s.).

Düzdür, BQHT-lər beynəlxalq hüququn subyekti olmasa da, bu, bəzi təşkilatların müasir beynəlxalq münasibətlərdə fəal iştirakına maneçilik yaratmır.

BQHT-lərin dünya siyasətinə cəlb olunması dərəcə-

sində də fərqlər vardır. Belə ki, siyasi xarakterli təşkilatlar bilavasitə dünya siyasətinin subyekti qismində çıxış edə bilirlər (Sosialist İnternasionalı öz imkanları çərçivəsində bir çox beynəlxalq problemlərin həllində iştirak edir).

Beynəlxalq təşkilatların hüquqi mahiyyətinin əsasını ümumi məqsədlərin və maraqların olması təşkil edir. Beynəlxalq təşkilatlara verilmiş səlahiyyətlər iştirakçı dövlətlərin müqavilə əsasında verdiyi hüquqlarla məhdudlaşır. Beynəlxalq təşkilatların funksiyası dedikdə isə təşkilatın üzərinə qoyulmuş vəzifələrin icrası üzrə onun fəaliyyətinin zahiri təzahürləri başa düşülür. Beynəlxalq təşkilatların funksiyaları nizamlayıcı, nəzarətedici və operativ ola bilər.

Beynəlxalq təşkilatlar içərisində başlıca yerlərdən birini **Birləşmiş Millətlər Təşkilatı** tutur.

BMT sülhün və təhlükəsizliyin təmin edilməsi və dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə yaradılmış universal beynəlxalq təşkilatdır. BMT Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında imzalanmış və 1945-c il oktyabrın 24-də qüvvəyə minmişdir. Həmin vaxtdan bu təşkilat fəaliyyət göstərir.

**BMT-nin başlıca orqanları** – Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Himayəçilik (Qəyyumluq) Şurası, Beynəlxalq məhkəmə və Katiblikdir.

**Baş Assambleya** – BMT-nin bütün üzv dövlətlərinin təmsil olunduğu məşvərətçi, nümayəndəli orqandır.

**Təhlükəsizlik Şurası** – Bu orqan BMT üzvü olan 15 dövlətdən: beş daimi (Rusiya, Böyük Britaniya, ABŞ, Çin və Fransa) və on qeyri-daimi üzvdən ibarətdir. Prosedur

məsələləri üzrə Təhlükəsizlik Şurasının qərarları şura üzvlərinin doqquzu səs verdikdə qəbul edilir. Bütün digər məsələlər üzrə qərarlar Təhlükəsizlik Şurasının daimi üzvlərinin hamısının uyğun gələn səsləri daxil olmaqla ən azı doqquz üzv səs verdikdə qəbul edilir. Bu o deməkdir ki, Şuranın daimi üzvlərinin biri və ya bir neçəsi əleyhinə səs verdikdə qərar qəbul edilmir.

**İqtisadi və Sosial Şura** – BMT-nin sosial-iqtisadi və siyasi vəzifələri yerinə yetirilməsi üzrə, habelə beynəlxalq təsisatların fəaliyyətini bu təşkilat çərçivəsində əlaqələndirilməsinin əsas orqanıdır (İSŞ - EKOSOS). Bu orqan Baş Məclis tərəfindən Nizamnamədə nəzərdə tutulmuş prosedura uyğun olaraq, üç il müddətinə seçilmiş 54 üzvdən ibarətdir. Üzvlərin 1/3 hissəsi (18-i) hər il yenidən seçilir.

**Qəyyumluq Şurası** – Hazırda 5 üzvdən ibarətdir (BMT-nin daimi üzvləri). BMT-nin yaranması zamanı onun ən vacib orqanlarından biri olmuşdur.

**Beynəlxalq Məhkəmə** – Beynəlxalq Məhkəmə Baş Assambleya və Təhlükəsizlik Şurasının təşkil etdiyi ayrıca səsvermələr nəticəsində seçilən 15 müstəqil hakimdən ibarətdir. Onlar yenidən seçilmək hüququ ilə 9 il müddətinə seçilirlər.

**Katiblik** – BMT-nin icraedici orqanı katiblik hesab olunur. O Baş katibdən və əməkdaşlardan ibarətdir. Baş katib Təhlükəsizlik Şurasının tövsiyyəsi ilə Baş Assambleya tərəfindən 5 il müddətinə təyin edilir. Katiblik BMT-nin Nyu-Yorkdakı mənzil qərargahında yerləşir.

BMT-nin ixtisaslaşdırılmış təsisatları sayılan xüsusi səlahiyyətlərə malik qlobal qurumları da vardır. Bunlar BMT ilə əlaqədar xüsusi sahələrdə əməkdaşlığı həyata ke-

çirən universal xarakterli hökumətlərarası təşkilatlar hesab olunur. Belə təşkilatlardan Ümumdünya Metorologiya Təşkilatı (ÜMT), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT), Ümumdünya Poçt İttifaqı (ÜPİ), Beynəlxalq Dəniz Təşkilatı (BDT), Beynəlxalq Mülki Aviasiya Təşkilatı (BMAT), Beynəlxalq Əmək Təşkilatı (BƏT), Beynəlxalq İnkişaf və Yenidənqurma Bankı (BİYB), Beynəlxalq Valyuta Fondu (BVF), Beynəlxalq Elektrorabitə İttifaqı (BEİ), Birləşmiş Millətlər Təşkilatının təhsil, elm və mədəniyyət üzrə təşkilatı (YUNESKO), BMT-nin sənaye inkişafı üzrə təşkilatı (YUNİDO), BMT-nin ərzaq və kənd təsərrüfatı üzrə təşkilatı (FAO) və s. göstərmək olar.

Universal beynəlxalq təşkilatlarla yanaşı məhəlli və regionlararası beynəlxalq təşkilatlarda mövcuddur ki, onların tərkibini yer kürəsinin müəyyən coğrafi rayonlarında yerləşən dövlətlər təşkil edir. Bu cür təşkilatların fəaliyyət obyekti regionla əməkdaşlıq çərçivəsindəki məsələlər – ümumi təhlükəsizlik, iqtisadi, siyasi, sosial və s. sahələrə aid məsələlər ola bilər.

**Avropa Şurası** – Bu təşkilat tərkibində Avropa ölkələrinin böyük əksəriyyətini birləşdirir. Avropa Şurasının Nizamnaməsi – 5 may 1949-cu ildə Londonda imzalanmış və 3 avqust 1949-cu ildən qüvvədədir. Avropa Şurasının əsas orqanları Nazirlər Komitəsi (Nazirlər Komitəsi AŞ-nın adından çıxış edə bilən səlahiyyətli orqandır) və Parlament Assambleyasından (o məşvərətçi orqandır və qanunverici səlahiyyətlərə malik deyildir, üzv dövlətlərin nümayəndələrindən təşkil edilir) ibarətdir. Bu iki orqana katiblik kömək göstərir. Avropa Şurasının strukturuna 5

il müddətinə seçilən Baş katibin rəhbərlik etdiyi inzibati – texniki katiblik daxildir. Azərbaycan Respublikası 25 yanvar 2001-c ildən AŞ-nın üzvüdür.

**Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə təşkilat** (ATƏT) beynəlxalq regional təşkilat hesab olunur. 1975-ci ildə Helsinkdə qəbul edilmiş yekun aktı, 1990-cı ildə Parisdə qəbul edilmiş Yeni Avropa üçün Xartiya və ona əlavə sənəd, 1992-ci ildə Helsinkidə qəbul edilmiş «Dəyişikliklər dövrünün çağrısı» bəyənnaməsi, habelə 1994-cü il Budapeşt Müşavirəsi və s. ATƏT-in əsas sənədləri sayılır. 1994-cü il Budapeşt sammitində ATƏM Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı adlandırıldı (ATƏT).

ATƏT-in mərkəzi rəhbər orqanı – Xarici işlər nazirlərindən ibarət olan və qəbul edilən qərarlara görə məsuliyyət daşıyan Nazirlər Şurası hesab olunur. Şuranın mənzil qərargahı Vyanada yerləşir. ATƏT-in Ali orqanı iki ildən bir müntəzəm çağırılan dövlət və hökumət başçılarının Müşavirəsidir.

ATƏT-in başlıca məqsədi uzun müddətli sülhün təmin edilməsi üçün müvafiq şərait yaradılması, təhlükəsizlik şəraitində əməkdaşlıq, tərksilah, münaqişəli vəziyyətlərin qarşısının alınması, insan hüquqları və azadlıqları və s. hesab olunur.

**İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) regional təşkilatlar çərçivəsindən kənara çıxan bu təşkilat müxtəlif regionlarda yerləşən müsəlman ölkələrini birləşdirən bir qrum hesab olunur. İƏT 1969-cu ildə müsəlman ölkələri dövlət və hökumət başçılarının Mərakeşdə keçirilən konfransında təsis edilmişdir. Bu təşkilatın ali orqanı dövlət və hökumət başçılarının konfransıdır. İƏT-nin əsas məqsədi

müsəlman həmrəyliyini möhkəmləndirməkdən ibarətdir.

**Amerika Dövlətləri Təşkilatı** (ADT). Bu təşkilata Latın Amerikası və Karib hövzəsinin 30-dan çox dövləti, habelə ABŞ və Kanada da daxildir. Təşkilatın ali orqanı Vaşinqtonda yerləşən Baş Məclisdir. ADT-nin inzibati orqanı isə Baş Katibin idarə etdiyi baş katiblikdir. Təşkilatın məqsədi Qərb yarımkürəsində sülh və təhlükəsizliyi qorumaq, üzv dövlətlər arasında mübahisələri nizamlamaq, müxtəlif sahələrdə əməkdaşlığı inkişaf etdirməkdən ibarətdir.

**Afrika Birliyi Təşkilatı** (ABT). Bu ən iri beynəlxalq məhəlli təşkilatdır. ABT Afrikanın dövlət və hökumət başçılarının 25 may 1963-cü ildə Əddis-Əbəbədə keçirilmiş konfransında yaradılmışdır. ABT-in ali orqanı dövlət və hökumət başçılarının Məclisidir. ABT-in daimi inzibati orqanı katiblikdir. Mənzil qərərgahı Əddis-Əbəbədə (Efiopiya) yerləşir.

**Ərəb Dövlətləri Liqası** (ƏDL). Bu təşkilat 1945-ci ildə ərəb dövlətlərinin Qahirədə keçirilən konfransında yaradılmışdır. Təşkilatın ali orqanı üzv dövlətlərin nümayəndələrindən ibarət olan Şuradır. Təşkilatın cari işləri ilə katibilk məşğul olur. Mərkəzi qərərgahı Qahirədə yerləşir. Cəmiyyət BMT yanında daimi məşvərətçi statusa malikdir. ƏDL-ı üzv dövlətlər arasında daha sıx əlaqələrin təmin edilməsi, müxtəlif sahələrdə əməkdaşlıq, siyasi fəaliyyətlərinin əlaqələndirilməsi kimi məqsədləri özünün fəaliyyət proqramına daxil etmişdir.

**Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı** (QİƏT). Bu təşkilat 25 iyun 1992-ci ildə İstanbulda keçirilən sammitdə imzalanan Qara dəniz İqtisadi Əməkdaşlığı Zirvə

Deklarasiyası ilə layihə qanuni qüvvəyə salınmış və təsis edilmişdir. QİƏT-ı 11 təsis üzvdən ibarətdir. 1998-c ildə Yaltada imzalanan müqavilənin üzv ölkələri tərəfindən ratifikasiyası nəticəsində QİƏT – beynəlxalq hüquqi status əldə edib. QİƏT-nin ən ali orqanı Xarici İşlər Nazirləri Sammitidir.

QİƏT-in katibliyi də yaradılmışdır. Katiblik 1993-cu il mayın 3-dən İstanbulda fəaliyyətə başlamışdır. Bu təşkilat öz qarşısına Qara dəniz hövzəsini sülh, sabitlik və rifah regionuna çevirmək məqsədini qoymuşdur.

**Müstəqil Dövlətlər Birliyi.** Bu regional təşkilatın (MDB), yaradılması haqqında saziş 8 dekabr 1991-ci il Minskdə Belarus, Rusiya və Ukrayna tərəfindən imzalanmışdır. MDB kifayət qədər mürəkkəb quruluşa malikdir. Birliyin ali orqanı Dövlət Başçılarının Şurasıdır. Digər bir orqan Hökumət Başçıları Şurasıdır. Hər iki Şuranın qərarları konsensus qaydası ilə qəbul olunur. MDB-nin strukturunda Xarici İşlər Nazirlərinin Şurası da fəaliyyət göstərir. Birliyin daimi icra və əlaqələndirmə orqanı əlaqələndirmə – məşvərətçi komitədir. Birliyin bütün orqanlarının işinin təşkilati-texniki təminatı üçün əlaqələndirmə-məşvərətçi komitənin nəzdində katiblik yaradılmışdır. Katiblik Minskdə fəaliyyət göstərir. MDB müstəqil dövlətlər tərəfindən yaradılmış və onların suveren bərabərliyinə əsaslanır.

**GUAM regional birliyi.** Bu təşkilat 1997-c ildə 4 dövlətin (Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna) iştirakı ilə yaradılmışdır (1998-ci ildə Özbəkistan bu təşkilata qoşulmuşdur). 2001-ci ilin iyunun 7-də Yaltada keçirilən Sammitdə GUÖAM-ın regionla beynəlxalq təşkilatlara

çevrilməsi bəyan edilmişdir.

GUÖAM-ın ali orqanı dövlət başçılarının görüşüdür. Təşkilatın icraedici orqanı xarici işlər nazirlərinin toplantısıdır. Milli koordinatorlar komitəsi təşkilatın işçi orqanı funksiyasını yerinə yetirir.

GUÖAM-ın başlıca məqsədləri aşağıdakılardır: sosial-iqtisadi inkişafa təsir göstərmək, iqtisadi ticarət əlaqələrini genişləndirmək, nəqliyyat kommunikasiya xidməti, regionda təhlükəsizliyi gücləndirmək, beynəlxalq terrorçuluğa, cinayətkarlığa qarşı birgə mübarizə aparmaq və s. Özbəkistanın 2005-ci ilin mayında təşkilatdan çıxması ilə əlaqədar olaraq təşkilat GUAM adlanmağa başladı.

Beynəlxalq münasibətlərin aktorları kimi beynəlxalq iqtisadi birliklər mühüm rol oynayırlar. Belə beynəlxalq təşkilatlardan biri **Avropa İqtisadi Birliyidir**. Bu təşkilatın adı bir neçə dəfə dəyişmiş AİB-i Avropa Birliyinə çevrilmiş (AB), Maastrixt müqaviləsinin 1 noyabr 1993-cü ildə qüvvəyə minməsi ilə Avropa İttifaqı (Aİ) adlandırılmışdır.

Beynəlxalq təşkilatlar içərisində **Şimali Atlantika Müqaviləsi təşkilatı** (NATO) da önəmli yerlərdən birini tutur. NATO – 1949-cu ilin aprel ayında Avropanın və Şimali Amerikanın 12 dövlətinin iştirakı ilə imzalanan Vaşinqton müqaviləsinin əsasında yaradılmışdır. Hərbi təşkilat kimi yaransa da hazırda o hərbi-siyasi təşkilata çevrilmişdir. Ötən əsrin sonlarında NATO-nun Şərqə doğru genişlənməsi prosesi başlanmışdır.

## 4. Xarici siyasət anlayışı: məqsədi və vasitələri

**Xarici siyasət** – dövlətin milli mənafelərinin, xalqın suveren hüquqlarının dövlətin sərhədləri xaricində qorunması və həyata keçirilməsidir.

Xarici siyasət dövlətlərarası münasibətləri əhatə edir və onun mahiyyəti, məzmunu konkret tarixi şərait əsasında yaranır. Xarici siyasətin mahiyyəti, məzmunu və forması bir-birilə vəhdət təşkil edir. Xarici siyasətin mahiyyəti adətən sabit, dəyişməzdir. Mahiyyət kateqoriyası vasitəsilə xarici siyasətin daxili əsasları, təbiəti, ən ümumi səciyyəsi təhlil edilir. Xarici siyasətin mahiyyətli tərəfi onun mövcudluğunu təmin edən ünsürlərin, səbəblərin və əlaqələrin sistemində öz ifadəsini tapır. Xarici siyasətin məzmunu isə onun qarşısında duran məqsəd və prinsipləri həyata keçirməkdən ibarət olan üsul və vasitələrin sistemindən ibarətdir. Xarici siyasətin məzmunu dövlətin xarici siyasət fəaliyyəti zamanı qarşıya qoyduğu konkret vəzifələrdən və bu vəzifələri həyata keçirmək üçün seçilən vasitələrin xüsusiyyətindən asılı olaraq dəyişikliyə uğrayır. Xarici siyasətin məzmununda beynəlxalq şəraitə uyğun düzgün siyasət kursunun müəyyənləşdirilməsi vacib amillərdən biridir.

Xarici siyasət aşağıdakı prinsiplərə əsaslanır: bir-birinin daxili işlərinə qarışmamaq; ərazi bütövlüyünə hörmət etmək; milli mənafeyi qorumaq və təhlükəsizliyi təmin etmək; dövlətlər və beynəlxalq təşkilatlarla əməkdaşlığı inkişaf etdirmək.

Xarici siyasətin mahiyyəti və məzmunu ilə yanaşı daha bir keyfiyyəti də nəzərdən keçirilir. Bu da onun

formasıdır. Xarici siyasət fəaliyyətinin mövcudluq üsulu onun formasında üzə çıxır. Xarici siyasət fəaliyyəti beynəlxalq münasibətlər mühiti ilə qarşılıqlı əlaqə nəticəsində müxtəlif formalar kəsb edir. Bu baxımdan xarici siyasətin konkret formaları və ya tiplərini nəzərdən keçirmək olar. Xarici siyasətin mürtəce, işğalçı, dinc yanaşı yaşamaq, bloklara qoşulmamaq, tarazlaşdırıcı, qapalı, açıq və s. kimi formaları vardır. Adətən açıq xarici siyasət forması yaxın qardaşlıq və dostluq münasibətlərində olan ölkələr arasında mövcud olan xarici siyasət forması hesab olunur (Azərbaycan və Türkiyə arasında mövcud olan xarici siyasət).

Xarici siyasətin formalarının seçilməsinə bir sıra amillər təsir göstərir. Bu amillərə (dövlətin siyasi rejimi – hakimiyyətin təbiəti, beynəlxalq münasibətlər sistemi, dövlətin coğrafi mövqeyi, milli mənafe və s.) daxildir.

Dövlətin xarici siyasət fəaliyyəti mürəkkəb şərtlənmə mexanizminə malikdir. Xarici siyasətin şərtlənməsində sosial inqilab, dövlət çevrilişləri, parlament seçkiləri, hakimiyyətin dəyişməsi, daxili-siyasi münaqişələr, beynəlxalq münasibətlər sistemində baş verən proseslər kimi siyasi amillər iştirak edir. Bu amillərin xarici siyasət fəaliyyətinin şərtlənməsinə təsir imkanları müxtəlifdir. Qərb siyasi nəzəriyyələrinə görə, xarici siyasətin daxili amillərlə şərtlənməsi milli mənafe vasitəsilə reallaşır, yəni dövlətin xarici siyasət fəaliyyəti milli mənafe vəzifələrinə tabe edilir.

Milli mənafe anlayışı dövlətin bütün fəaliyyətinin, o cümlədən xarici siyasət fəaliyyətinin əsasında duran mənafelər zəncirində xüsusi rol oynayan daha əhəmiyyətli mənafeləri vurğulamaq zərurətini ifadə edir.

Amerika tədqiqatçıları milli mənafe problemi ilə bağlı tədqiqatlarında mənafe anlayışına müxtəlif məna tutumunun xas olduğunu göstərir və onun ayrı-ayrı səviyyələrdə təzahürünü qeyd edirlər. Milli mənafe anlayışının strukturunu başlıca və ikinci dərəcəli mənafelər, ümumi və identik mənafelər, münaqişə mənafeləri, daimi və dəyişkən mənafelər təşkil edir. Bu mənafelərin hər biri dövlət fəaliyyətində, xüsusilə də onun xarici siyasətində müəyyən rol oynayır. Beynəlxalq siyasətdə iştirak edən hər bir dövlət ilk növbədə ölkənin milli mənafeyini qoruyur. Milli mənafeyin reallaşması milli təhlükəsizlik şəraitinin qərarlaşmasını tələb edir. Milli təhlükəsizlikdə şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyi başlıca yer tutur. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanununda (2004) xarici siyasətdə aşağıdakı milli maraqlar göstərilmişdir: «Azərbaycanın dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşaması, bərabər tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişafı, Avropa və dünya birliynə inteqrasiya, Beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzunun artması daxildir».

Xarici siyasətin şərtlənməsi həm də ölkənin coğrafi siyasətindən (geosiyasət) asılıdır. Coğrafi siyasət (geosiyasət) terminini ilk işlədən (təklif edən) İsveç alimi R.Çellen olmuşdur.

Əlverişli coğrafi məkan xarici siyasətin imkanlarını genişləndirir. Xarici siyasətdə geosiyasi nəzəriyyələrdən biri olan «həyat mənafeyi» nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə coğrafi məkan əhalinin yaşayışını təmin etmək vasitəsidir. Xarici siyasətin əsas cəhətlərindən biri dövlətin

konkret tarixi siyasi prosesdə formalaşmasıdır. Siyasi prosesdə formalaşan milli mentalitet xarici siyasətin xarakterinə güclü təsir göstərir.[1]

Xarici siyasətin şərtlənməsinə beynəlxalq münasibətlər sistemində baş verən proseslər güclü təsir göstərir. Dövlətin xarici siyasəti beynəlxalq münasibətlər mühitinin təsirinə reaksiyadır. Beynəlxalq aləmdə münasibətlərin qərarlaşması onun xarakterinin müəyyənləşdirilməsi mütləq şəkildə hər hansı dövlətin istəyindən asılı olmadan baş verir. Bu zaman hər bir dövlət xarici mühitin təsirinə uyğun davranış forması seçir ki, bu da xarici fəaliyyət formasında özünün ifadəsini tapır.

Göründüyü kimi xarici siyasətin şərtlənməsi konkret tarixi hadisədir. Onun formalaşmasına təsir göstərən səbəblər, amillər nəinki müxtəlifdir, həm də vəziyyətdən asılı olaraq dəyişə bilər. Lakin müasir dövrdə xarici siyasətin təsadüfi amillərlə şərtlənməsi ehtimalı çox azdır. Onun əsas səbəbi beynəlxalq münasibətlər sisteminin yeni keyfiyyət müəyyənliyi qazanması nəticəsində dünya siyasətində özbaşınalığın qarşısını alan səmərəli mexanizmin yaranmasıdır.

Xarici siyasət dövlətin funksiysı kimi bir çox mühüm göstəricilərə malik olduğu üçün onun həyata keçirilməsi vasitələri də müxtəlifdir.

Xarici siyasətin həyata keçirilmə vasitələri rolunda əsasən **diplomatiya, silahlı qüvvələr və təbliğat** nəzərdən keçirilir.

«Diplomatiya» sözü latın dilində qatlanmış məktub

[1] Bax: Piriyev A., Əfəndiyeva X. Sosiologiya və politologiya fənnindən mühazirə mətnləri. B., 2009, s. 320

mənasını verir. Bu məktubda onun sahibinin diplomatik səlahiyyətlərini təsdiqləyən məlumatlar olardı. Antik dövrdə və orta əsrlərdə diplomatik fəaliyyət epizodik xarakter daşıyır və əsasən müharibələrə xidmət edirdi. XV əsrdən etibarən daimi diplomatik missiyalar meydana gəldi. Müasir şəraitdə diplomatik xidmətin həm rolu və əhəmiyyəti artmış, həm də diplomatik fəaliyyətlə məşğul olan strukturlar geniş vüsət almışdır.

Diplomatiyanın məzmunu, əhatə dairəsi siyasi elmin və beynəlxalq münasibətlərlər nəzəriyyəsinin diqqət mərkəzində olan problemlərdəndir. Ayrı-ayrı tədqiqatçılar diplomatiyanı geniş və dar mənada nəzərdən keçirirlər. Diplomatiya sözün geniş mənasında dövlətin xarici əlaqələri və ya xarici işləri haqqında təlimidir, sözün daha dar mənasında isə, danışıqlar elmi və sənətidir.

Diplomatiyanın məzmunu onun yerinə yetirdiyi funksiyalarda özünün əksini tapır. Tədqiqatçılar onun funksiyalarının əhəmiyyətinə görə ardıcıllığını belə müəyyənləşdirmişlər. Əvvəla, diplomatiya xeyli dərəcədə məcburetmə funksiyasını yerinə yetirir. İkincisi, diplomatiya inandırma funksiyasını yerinə yetirir. Diplomatik fəaliyyət zamanı məcburetmə ilə inandırma arasında sədlər silinir, onlar qarşılıqlı surətdə biri digərinə keçir. Üçüncüsü isə diplomatiya, «tənzimləmə», «nizama salma» funksiyasını yerinə yetirir. Dövlət mübahisəli məsələlər üzrə öz mövqeyini dəyişir, sabit qarşılıqlı münaisbətlərə nail olmaq üçün onu şəraitə uyğunlaşdırır. Nəhayət, diplomatiya razılığa gəlmək funksiyasını reallaşdırır. Bu, yazılı saziş bağlamaq üçün danışıqlar aparmaq sənətidir, çünki məhz yazılı sazişlər beynəlxalq öhdəliklərin ən etibarlı strukturlarıdır.

Ənənəvi olaraq diplomatiya gücə arxalanan dövlətlərarası danışıqlar sənəti hesab edilirdi. Müasir şəraitdə dövlətlərarası münasibətlərdə yalnız gücə arxalanan diplomatiya öz əhəmiyyətini tədricən itirməkdədir. Beynəlxalq siyasətdə milli mənafelərin həyata keçirilməsinin siyasi mexanizmlərinin rolu yüksəldikcə, gücə arxalanan diplomatiyanı inandırma, razılığa gəlmək diplomatiyası əvəz etməyə başlamışdır. Diplomatiya hazırda çoxtərəfli əlaqə və münasibətlər kimi meydana çıxır.

Beynəlxalq münasibətlərin subyektləri arasında mövcud ola biləcək mübahisəli məsələləri siyasi yollarla, diplomatik vasitələrlə həll etmək üçün daimi fəaliyyət göstərən beynəlxalq təşkilatların fəaliyyəti diplomatiyanın yeni keyfiyyət kəsb etdiyini göstərir. Müasir şəraitdə diplomatiya parlament diplomatiyası, diplomatik fəaliyyətdə dövlətlərarası iqtisadi, mədəni münasibətlərə önəm vermək kimi yeni xüsusiyyətlərə də malikdir.

Xarici siyasəti həyata keçirməyin mühüm vasitələrindən biri silahlı qüvvələrdir. Silahlı qüvvələr mahiyyət etibarilə bir sıra funksiyaları yerinə yetirir. Onun funksiyalarının xarakteri və istiqaməti dövlətin bütövlükdə siyasətinin, o cümlədən xarici siyasətinin təbiətindən irəli gəlir. Bu mənada, xarici siyasətin həyata keçirilməsi vasitəsi kimi silahlı qüvvələrin iki tipi nəzərdən keçirilə bilər: birinci, işğalçılıq məqsədinə xidmət göstərən silahlı qüvvələr; ikincisi, ölkənin suverenliyini, ərazi bütövlüyünü, təhlükəsizliyini təmin etmək, sülhməramlı fəaliyyət göstərmək və təbii fəlakət zamanı istifadə edilməsi məqsədlərinə xidmət göstərən silahlı qüvvələr.

Təcavüzdən qorunmaq üçün silahlı qüvvələrin tətbiqi

BMT-nin nizamnaməsindən irəli gəlir. Hazırda təcavüzkar dövlətlərin qarşısının alınması üçün kollektiv təhlükəsizliyin yaradılmasına üstünlük verilir.

Xarici siyasəti həyata keçirən üçüncü vasitə təbliğatdır. Təbliğat ideoloji siyasətin praktik sahəsi olub, əhalidə həyata keçirilən siyasətin düzgünlüyünə inam hissi yaradır.

Müəyyən dövrdə xarici siyasət təbliğatı maşını qarşıdurma yaratmaq, müharibə və güc təbliğinə, habelə yalan və böhtan kampaniyasına xidmət edirdi. Buna Azərbaycana təcavüz ərəfəsində erməni xarici siyasət təbliğatını misal göstərmək olar.

Beynəlxalq siyasətin getdikcə humanistləşməsi, xarici siyasət metod və vəzifələrinin yeni şəraitə uyğun olaraq dəyişməsi xarici siyasət təbliğatının da məzmununda əhəmiyyətli dəyişiklikləri zəruri etmişdir. İndi xarici siyasət təbliğatı daha çox dövlətlər arasında qarşılıqlı inam və etimad təblig etmək, mehriban qonşuluq əlaqələrinin güclənməsinə xidmət göstərmək məqsədi daşıyır.

**Yoxlama xarakterli suallar**

1. Müasir beynəlxalq münasibətlər hansı prinsip və tələblərə əsaslanır?
2. Beynəlxalq münasibətlərin iştirakçıları necə adlanır?
3. Beynəlxalq münasibətlərin meydana gəlməsinin ideya əsasında hansı xüsusiyyət durur?
4. Xarici siyasətin formalarının seçilməsinə təsir göstərən amilləri müəyyənləşdirin.
5. Xarici siyasət hansı prinsiplərə əsaslanır?
6. Xarici siyasət hansı vasitələrlə həyata keçirilir?

## XVII mövzu
## Beynəlxalq münaqişələr

1. Münaqişə anlayışı: həlli yolları və vasitələri
2. Terrorizm beynəlxalq münaqişələrə mənfi təsir göstərən amil kimi

### 1. Münaqişə anlayışı: həlli yolları və vasitələri

Münaqişə latınca *konfliktus* sözündən əmələ gəlib, toqquşma mənasını verir.

Siyasi münaqişəyə dair, onun təbiəti barədə elmdə müxtəlif fikirlər mövcuddur. Adətən siyasi münaqişələrin mənbəyini tədqiqatçılar iki başlıca amillə – sosial və qeyri-sosial amillərlə əlaqələndirirlər. Siyasi münaqişələrin başlıca səbəbləri sırasında hakimiyyət, maddi ehtiyatlar (sərvətlər) və ictimai nüfuz xüsusi rol oynayır.

Siyasi münaqişə hakimiyyət səlahiyyətləri və sərvətlər uğrunda mübarizə aparan iki və daha çox tərəfin rəqabət xarakterli qarşılıqlı fəaliyyətidir.

Siyasi münaqişə müxtəlif formalarda (millətlərarası – etnik zəmində baş verən münaqişələr, dini münaqişələr, beynəlxalq münaqişələr və s.) təzahür edir.

Millətlərarası münaqişələrin əsas tipləri bunlar (sosial-iqtisadi; mədəni-dil; ərazi-status; separat münaqişələr) hesab olunur.

Siyasi münaqişənin ən geniş yayılmış növlərindən biri beynəlxalq münaqişələrdir. Bu münaqişə beynəlxalq münasibətləri daim müşayət edən hadisə kimi qavranılır. Adətən beynəlxalq münaqişə beynəlxalq münasibətlər

zəminində meydana gələn, onun mövcudluq formalarını ifadə edən siyasi proses kimi təzahür edir. Beynəlxalq münaqişə dedikdə iki və daha çox dövlət arasında nüfuz və sərvətlər uğrunda mübarizəni əks etdirən rəqabət xarakterli münasibətlər nəzərdə tutulur.

Beynəlxalq münaqişələrin nüvəsini dövlətlər arasında onların milli mənafelərinin, ideoloji məqsədlərinin dini, siyasi, regional xüsusiyyətlərindən irəli gələn vəzifələrin həyata keçirilməsi tələbləri ilə əlaqədar fikir ayrılığı və ziddiyyətlər təşkil edir.

Beynəlxalq münaqişə üçün səciyyəvi xüsusiyyətlərə əsasən bunları (fikir ayrılığı və ziddiyyətlər, ənənəvi düşmənçilik meyllərini ifadə edən münasibətlər, tərəflərin öz mövqelərinin düzgünlüyünə haqq qazandırmaq üçün hərbi vasitələrə əl atması, birtərəfli mənfəət qazanmaq məqsədi güdən münasibətlər) aid etmək olar.

Dövlətlər arasında fikir ayrılığı və ziddiyyətlər, ziddiyyətlər qiymətləndirilərkən tərəflərin mövqelərinin və əsaslandığı dəyərlərin müxtəlifliyi, tərəflərin öz mövqelərinin düzgünlüyünü sübut etmək üçün məqsədyönlü fəaliyyəti, mövqe üstünlüyünə nail olmaq üçün müxtəlif vasitələrdən istifadə etməsi və digər amillər beynəlxalq münaqişələri doğuran səbəblərdən sayıla bilər.

Münaqişə iştirakçıları öz mövqelərinin üstünlüyünə nail olmaq üçün siyasi, diplomatik, hərbi vasitələrə əl atmalı olurlar.

Hər bir münaqişənin, o cümlədən beynəlxalq münaqişənin miqyası münaqişəyə cəlb olunan tərəflərin sayından asılıdır. Hər şeydən əvvəl belə bir cəhət qeyd edilməlidir ki, beynəlxalq münaqişələr özünün miqyaslarına və

hətta kəskinlik dərəcəsnə görə fərqlənir.

Hər bir münaqişənin üç əsas fazası göstərilir: münaqişənin başlanması, inkişafı və sona çatması fazası. Bu fazalar münaqişənin məzmununu təşkil edən ziddiyyətlərin üzə çıxması, subyektlərin fəaliyyətində əsas amilə çevrilməsi və ziddiyyətlərin həll edilməsi mərhələlərini ifadə edir. Münaqişənin fazaları içərisində ən mürəkkəbi sonuncu faza hesab olunur.

Adətən politoloqlar bu fazanın iki əsas variantını (tərəflərin barışmasına nail olmaq; tərəflərin barışmazlığı) qeyd edirlər. Münaqişəli tərəflərin barışdırılmasının iki əsas yolu vardır.

1. Güc tətbiq etməklə tərəflərdən birinin digərinin tələb və iddialarını qəbul etməyə məcbur edilməsi.

Münaqişənin, o cümlədən beynəlxalq münaqişənin güc tətbiqi vasitəsilə həll edilməsi aşağıdakı hallar və şərtlər daxilində baş verir:

- tərəflərdən birinin digəri üzərində əhəmiyyətli güc və vəsait üstünlüyünə malik olması;
- tərəflərdən birinin təcrid olunması, onun mövqeyinə güclü zərbə endirilməsi;
- rəqib tərəfin qüvvələrinin məğlub edilməsi.

2. Münaqişənin dinc yolla nizama salınması. Münaqişənin (beynəlxalq) dinc yolla nizama salınmasının həlli vasitələrindən biri tərəflərin əvvəlki mövqelərdə qalaraq kompromisə gəlməsi, bir-birinə qarşılıqlı güzəştə getməsi formalarında mümkündür.

Münaqişələri həll etməyin dinc yolla beynəlxalq hüquq normalarına uyğun olaraq tənzim edilməsi cəhdi XIX

əsrin sonlarına təsadüf edir. 1889-cu ildə keçirilən I Haaqa konfransı beynəlxalq münaqişələri dinc yolla həll etmək haqqında konvensiya qəbul edərək ona beynəlxalq hüquq norması statusu verdi.

Müasir beynəlxalq münasibətlərdə dövlətlər arasında münaqişələri dinc yolla həll etməyin müxtəlif vasitələri tətbiq edilir. Bunlara diplomatik danışıqlar, barışdırma (vasitəçilik) prosedurası, münsiflər təhqiqatı və məhkəmə təhqiqatı aiddir.

Münaqişələri həll etmək vasitələri arasında danışıqlar mühüm yer tutur. Bütün münaqişələrin dinc yolla həll olunmasında danışıqlar önəmli rol oynayır.

Münaqişələrin dinc yolla həllinin vasitələrindən biri də barışdırma prosedurasıdır. Barışdırma prosedurası diplomatik danışıqlardan onunla fərqlənir ki, münaqişəyə cəlb edilmiş tərəfləri barışdırmaq missiyasını üçüncü tərəf öz üzərinə götürməli olur. Barışdırma prosedurasının məqsədi münaqişənin tərəflərin qəbul edə biləcəyi həllinin axtarılıb tapılmasından ibarətdir. Barışdırma prosedurasına vasitəçilik xidməti, təhqiqat və razılaşdırma komissiyaları daxildir.

Vasitəçilik xidmətinin vəzifəsi münaqişəli tərəflərin mövqeyini yaxınlaşdırmaq, mübahisənin həlli yolları ilə bağlı təklif verməkdir. Bu təklif məsləhət xarakteri daşıyır.

Münaqişəli tərəflər məsələni obyektiv surətdə aydınlaşdırmaq məqsədilə üçüncü tərəfin iştirakı ilə təhqiqat komissiyası yarada bilər. Razılaşdırma prosedurası da həmin qaydada təşkil olunur. Təhqiqat komissiyasından fərqli olaraq, razılaşdırma komissiyası münaqişəli tərəflə-

rə müvafiq təkliflər hazırlayır. Lakin bu təkliflər və rəylər məcburi xarakter daşımır.

Münsiflər təhqiqatı (beynəlxalq arbitraj) münaqişəli tərəflərin münaqişəni həll etmək səlahiyyətlərinin könüllü surətdə razılaşma əsasında üçüncü tərəfə verilməsidir. Üçüncü tərəfin qərarı münaqişəli tərəflər üçün məcburi xarakter daşıyır.

Məhkəmə təhqiqatı münsiflər təhqiqatından az fərqlənir. O daimi fəaliyyət göstərən beynəlxalq məhkəmə orqanı arbitraj ideyasının inkişafı nəticəsində ortaya çıxıb.

Beynəlxalq münaqişələrin dinc yolla həll edilməsində beynəlxalq təşkilatların, o cümlədən BMT-nin rol və əhəmiyyəti artmaqdadır. BMT-nin başlıca məqsədi beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasıdır. Onun beynəlxalq münaqişələrin dinc yolla həll edilməsində xüsusi rolu bu məqsədə çatmaq vasitələri ilə müəyyən edilir. BMT-nin Nizamnaməsində beynəlxalq münaqişələrin (Nizamnamədə «mübahisə» termini işlədilir) beş fazası göstərilmişdir: 1) beynəlxalq sülhə təhlükə yaratmayan mübahisə; 2) davamı beynəlxalq sülhə təhlükə yarada biləcək mübahisə; 3) sülhə təhlükə; 4) sülhün pozulması; 5) təcavüz aktı. Münaqişənin birinci iki mərhələsində dinc vasitələrin tətbiq edilməsi, sonrakı üç mərhələdə isə məcburetmə vasitələrinin tətbiqi yolu ilə nizamlanması nəzərdə tutulur.

Dövlətlər arasında mübahisələrin və münaqişələrin həll edilməsində ATƏT-in və Avropa Şurasının (AŞ) rolu da nəzərə çarpır. Şərqi Avropada və keçmiş SSRİ məkanında, o cüməl追dən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bu təşkilatların beynəlxalq

nüfuzunun göstəricisi ola bilər. Lakin bununla yanaşı, beynəlxalq təşkilatların qərarlarının münaqişədə iştirak edən tərəflər üçün müstəsna olaraq tövsiyə əhəmiyyəti kəsb etməsi onların mübahisələrin tezliklə həll edilməsində roluna neqativ təsir göstərir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 30 aprel 1993-cü il tarixli 822, 29 iyul 1993-cü il 853, 14 oktyabr 1993-cü il 874 və 11 noyabr 1993-cü il 884 saylı qətnamələr, habelə Avropa Şurasının (AŞ) Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına yönəlmiş bir sıra aktları olsa da bütün bunlar tövsiyə xarakteri daşıyır və münaqişənin həllinə kömək etmir. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, münaqişənin tənzimlənməsi istiqamətində hələ də ikili yanaşmalar mövcuddur.

ATƏT-in Minsk qrupu və onun həmsədrləri olan ABŞ, Rusiya və Fransa problemin sülh yolu ilə həll olunması istiqamətində bir sıra təkliflərlə çıxış etsələr də (18 iyul 1997-ci il – «Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş», 2 dekabr 1997-ci il – «Dağlıq Qarabağ münaqişəsinin dayandırılması haqqında saziş», 7 noyabr 1998-ci il – «Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında») onlar üzərinə götürdüyü vəzifəni lazımınca yerinə yetirmir və münaqişənin tənzimlənməsi istiqamətində ikili yanaşma bu təşkilatında fəaliyyətində özünü biruzə verir.

Münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin uzun sürən xarakter alması, beynəlxalq sülhə təhlükə yaratması, onları tezliklə aradan qaldırmaq üçün beynəlxalq təşkilatlar tərəfindən

təcavüzkara qarşı təsirli vasitələr sistemi yaratmağı aktual problem kimi qarşıya qoyur.

## 2. Terrorizm beynəlxalq münaqişələrə mənfi təsir göstərən amil kimi

Müasir dövrdə beynəlxalq münaqişələrə mənfi təsir edən amillərdən biri də beynəlxalq terrorizmdir. Terrorizm cinayətkarlığın ən təhlükəli formalarından hesab olunur. Bu hadisə beynəlxalq münasibətlərin normal inkişafını ciddi surətdə pozan başlıca amillərdən biridir.

Siyasi və hüquqi ədəbiyyatda terrorizmə müxtəlif təriflər verilmişdir. Terrorizm qorxu və vahimə əhval-ruhiyyəsi yaratmaq məqsədilə və ya birdən çox şəxs tərəfindən güc və qüvvə tətbiqetmə aksiyası hesab olunur. Digər bir tərifə görə terrorizm dedikdə hər cür sosial təşkilatları məhv etmək məqsədilə əhalini qorxuya salmağa qadir olan hər hansı bir vasitənin tətbiqi nəzərdə tutulur. Terrorizmin başlıca məqsədi dövlətlərin və xalqların rasional düşünməsinin qarşısını almaq hesab olunur.

Terrorizm fərdi və dövlət himayəli olmaqla iki qrupa bölünür. Fərdi terrorizm tək bir fərd tərəfindən törədilən və hər hansı təşkilatlanmaya malik olmayan terror aktı olduğu kimi, eyni zamanda bir qrup və ya təşkilata arxalanan terror formasında da ola bilər.

Fərdi terrorizmə əl atmaq və ya hər hansı bir terror təşkilatı daxilində iştirak etmək müxtəlif səbəblərə (fərdi psixoloji, patoloji səbəblərdən, habelə intiqam almaq hissindən qaynaqlanma) əsaslana bilər. Fərdi terrorizm eyni zamanda bir qrup və ya təşkilata arxalanan terror forma-

sında da ortaya çıxa bilər.

Dövlət himayəli terrorizmdə dövlətlərin terrorizmdən bir vasitə kimi istifadə etmələri bir neçə formada özünü göstərir: 1) dövlətin öz xalqına qarşı güc tətbiq etməsi; 2) dövlətin birbaşa öz kəşfiyyat qurumları tərəfindən başqa ölkələrdə terrorçuluqla məşğul olması; 3) dövlətin başqa terrorçu təşkilatlarla əməkdaşlığı və yardım göstərməsi.

Terrorçuluqla mübarizə məqsədilə dövlətlər arasında aşağıdakı mühüm müqavilələr imzalanmışdır:

- genosid cinayətinin qarşısının alınması;
- diplomatik nümayəndələr əleyhinə cinayətin qarşısının alınması;
- girov götürmə hallarının qarşısının alınması;
- qeyri-insani, insan ləyaqətini alçaldan işgəncələrin qarşısının alınması;
- mülki-aviasiyanın təhlükəsizliyinin təmin edilməsi;
- dəniz gəmiçiliyinin təhlükəsizliyinin təmin edilməsi;
- narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması;
- kontinental şelflərdə yerləşən stasionar platformaların təhlükəsizliyinin təmin edilməsi.

Terrorçuluğa qarşı mübarizə dövlətlərlə yanaşı beynəlxalq və regional təşkilatların da diqqət mərkəzindədir. Qlobal səviyyədə bu cür qarşılıqlı əlaqələr BMT və onun ixtisaslaşmış idarələri çərçivəsində həyata keçirilir. Regional səviyyədə isə terrorizmlə mübarizədə əməkdaşlıq məsələləri ATƏT, Avropa Şurası, Avropa İttifaqı və digər təşkilatların çərçivəsində həll edilir.

Terrorizmlə mübarizə haqqında bütün müqavilələrin, o cümlədən BMT və digər regional təşkilatların çoxsaylı qətnamələrinin başlıca müddəası terrorizmlə mübarizədə beynəlxalq əməkdaşlıq prinsipidir. Bu prinsiplərin ardıcıl həyata keçirilməsi terrorçuluğun səmərəli surətdə qarşısını almaq üçün geniş imkan yaradır.

Əməkdaşlıq prinsipi aşağıdakı konkret isiqamətləri əhatə edir: beynəlxalq sazişlər və təşkilatlar çərçivəsində dövlətlərin qarşılıqlı əlaqələri; yeni sazişlər işlənib hazırlanması; terror aktlarının qarşısını almaq üzrə informasiya mübadiləsi və lazımi tədbirlərin əlaqələndirilməsi də daxil olmaqla praktiki tədbirlərin görülməsi; dövlətlərin bir-birinə cinayət-prosessual kömək göstərməsi; terrorizmlə mübarizə sahəsində konvensiyaların tətbiqinə dair mübahisələrin dinc yolla nizamlanması məqsədinə xidmət edən əməkdaşlıq.

Beynəlxalq hüquq qaydalarına görə terrorçuluq təhlükəli cinayət hesab olunur. Ona görə də beynəlxalq aləm tərəfindən terrorun hər növü pislənilir. Terrorizm qeyri-əxlaqi metodlardan istifadə edərək bəşəri dəyərlərə zərbə endirir.

Terrorçuluq özünün fəaliyyət formalarına görə fərqlənir. Ən geniş yayılmış fəaliyyət formaları zorakılıq, ekstremizm, sui-qəsd, təxribat və s. hesab olunur. Terroru əsasən bu qruplar (anarxistlər, radikallar, təxribat qrupları, komikadze – ölümə gedənlər) törədirlər.

Müasir dövrdə geniş yayılan terror aksiyaları separatizm, etnik, dini və digər formalarda daha qabarıq üzə çıxır. İrlandiya Respublika ordusu, PKK, Tamil pələngləri, Hamas qrupu, Daşnaksütun partiyası, Əl-Qaidə, ASA-

LA, İslam cihad qruplaşması İŞİD və s. dünyada geniş yayılmış terrorçu təşkilatlardır.

Beynəlxalq terroristlər dünya dövlətlərinin və beynəlxalq təşkilatların qəbul etdikləri beynəlxalq normalara məhəl qoymayaraq xarici dövlətlərin, təşkilatların rəhbərlərinə, diplomatlara, ayrı-ayrı şəxslərə qarşı qəsdlər edilməsini, təxribatlar törədilməsini, separatizm vasitəsilə ölkənin parçalanmasını, ərazilərin işğalını həyata keçirməyə çalışırlar.

2001-ci il 11 sentyabr – terror aktından sonra ABŞ-ın və dünyanın aparıcı dövlətlərinin terrorizmlə mübarizə formasında ciddi dəyişikliklər özünü göstərdi. Antiterror proqramı hazırlandı və bu proses ciddi nəzarətə götürüldü və terrorizmin qarşısının alınması sahəsində işlər görülməyə başlandı.

Bəzi regionlarda antiterrorizm xarakterli xüsusi normativ aktlar da qəbul olunmuşdur. Belə ki, Avropa Şurasının himayəsi ilə Avropa terrorizmə qarşı mübarizə konvensiyası qəbul edlimişdir. MDB dövlətləri öz aralarında antiterror aksiyasında iştirak etmək barədə müqavilə imzalayıblar. 2000-ci ildə terrorizm və ekstremizmin digər təzahürlərinə qarşı mübarizədə əməkdaşlıq proqramı qəbul edilmiş və MDB-nin antiterror mərkəzi yaradılmışdır.

Bu hadisələr göstərir ki, terrorla mübarizədə dünya siyasətində keyfiyyətli irəliləyiş baş vermişdir.

Azərbaycan dövləti də terrorizmin qarşısının alınmasında fəal iştirak edir. O öz fəaliyyətini beynəlxalq və regional təşkilatlarla əlaqəli şəkildə həyata keçirir.

**Yoxlama xarakterli suallar**

1. Münaqişənin hansı fazaları vardır?
2. Beynəlxalq münaqişənin miqyası nədən asılıdır?
3. Münaqişəni hansı yollarla aradan qaldırmaq mümkündür?
4. Beynəlxalq münaqişənin güc tətbiqi vasitəsilə həlli hansı hallar və şərtlər daxilinldə baş verə bilər?
5. Münaqişənin dinc yolla nizama salınmasının yollarını göstərin.
6. Terrorizm nədir?

## XVIII mövzu
## Siyasi texnologiyalar

1. Siyasi təhlil xüsusi tətbiqi elm sahəsi kimi
2. Siyasi reklam siyasi texnologiyanın reallaşma vasitəsidir

### 1. Siyasi təhlil xüsusi tətbiqi elm sahəsi kimi

Siyasi həyatda nəinki nəzəri yanaşmaları, nəzəriyyələri və həmçinin siyasətin hansı texnologiyaların köməyi vasitəsilə reallaşmasını bilmək vacib və əhəmiyyətlidir. Bu suallara xüsusi tətbiqi elm sahəsi olan siyasi təhlil fənni cavab verir.

Siyasi təhlil malik olduğu predmet dairəsi və digər xüsusiyyətləri ilə birlikdə xüsusi tətbiqi elm sahəsi kimi səciyyələnir. Müasir anlamda siyasi təhlilin inkişafı XX əsrə təsadüf edir. XX əsrin 30-cu illərində dövlət idarəçiliyi nəzdində açıq siyasətin sistemli şəkildə öyrənilməsinə səy göstərilmişdir. 1937-ci ildə isə ABŞ-ın Harvard Universitetində siyasi təhlilə dair xüsusi proqram hazırlanmışdır. Həmin əsrin 70-ci illərindən etibarən siyasi təhlil əsaslı surətdə dövlət idarəçiliyinə daxil olmuş hazırda isə sistemli şəkildə tətbiq edilir.

Siyasi təhlil böyük ictimai-siyasi əhəmiyyət kəsb edən və müxtəlif tədqiqat üsullarından, arqumentlərdən (seçimlərdən), tarixi analogiyalardan istifadə etməklə, problemli vəziyyətlər üçün açıq siyasi qərarların hazırlanması və onların həyata keçirilməsidir.

Siyasi təhlil sözün geniş və dar mənasında nəzərdən keçirilir. Geniş mənada siyasi təhlil siyasətə aid olan

bütün elmi tədqiqatları ifadə etmək üçün istifadə oluna bildiyi halda, dar mənada isə xüsusi əhəmiyyət daşıyan tətbiqi elm sahəsi kimi nəzərdən keçirilir.

Siyasi təhlilin məzmunu daha dəqiq analitik məlumat texnologiyası ilə müəyyən edilir. Siyasi təhlilin obyekti idarəetmə təsiri ilə xarakterizə olunan məlumatların yığımı, təhlili və işlənməsinin yekunu hesab olunur. O idarəetmənin bütün formalarını (sosial, siyasi, iqtisadi və s.) əhatə edir.

Siyasi təhlilin iki növü fərqləndirilir. Diskreptiv (əsaslandırılmış) təhlil (əvvəlki tarixi hadisələrin və qərarların təhlili, yaxud cari qərarların qiymətləndirilməsi) və perspektiv təhlil (müxtəlif alternativ variantlar və nəticələri nəzərdə tutan təhlil, və ya qəbul olunan qərarlar üzrə konkret təkliflər hazırlamaq).

Siyasi təhlilin işlənib hazırlanması ilə xüsusi mütəxəssislər qrupu məşğul olur (analitiklər, ekspertlər, məsləhətçilər və s.). Hazırda siyasi analitikanın və ekspert xidmətinin tətbiqinə bir çox sahələrdə rast gəlmək mümkündür.

Dünyanın inkişaf etmiş bir çox ölkələrində yüksək dövlət hakimiyyət orqanlarında - prezident administrasiyası strukturlarında, nazirlər kabinetində, parlamentdə və s. orqanlarda peşəkar analitik və ekspertlər qrupuna rast gəlmək mümkündür. Onlar dövlətin iqtisadi strategiyasının müəyyənləşdirilməsi, ölkənin siyasi kursunun istiqamətləndirilməsi və s. işlərdə iştirak edirlər.

Peşəkar analitiklərin və ekspertlərin ("beyin mərkəzləri" və araşdırma institutlarının) xidmətlərindən xüsusi xarakterli sahələrdə çalışan müştərilər də istifadə edirlər.

Siyasi analitikin işinin nəticəsi ona müraciət etmiş şəxsə verdiyi məsləhət və zəmanətlərin siyasi qərarların qəbul edilməsi zamanı nə qədər əhəmiyyətli olması ilə ölçülür. Siyasi təhlil konkret analitik tapşırığın yerinə yetirilməsi zamanı tələb olunan müxtəlif mərhələlərdən ibarət prosesdir. Bu proses əsasən aşağıdakı ardıcıllıqla aparılır. Problemin müəyyənləşdirilməsi, məqsədin ümumiləşdirilməsi, qiymətləndirmə göstəricisinin seçilməsi, məqsədyönlü qrupların müəyyənləşdirilməsi, alternativlərin ümumiləşdirilməsi və onların hər birinin qiymətləndirilməsi, alternativlərin hər birinin səmərəlilik dərəcəsinin müəyyənləşdirilməsi və nəticələrin qiymətləndirilməsi.[1]

Siyasi təhlildə siyasi məsləhətləşmə də xüsusi yer tutur. Hal-hazırda məsləhətləşmə sosial və siyasi proseslərin ixtisaslaşdırılmış əsas təhlil təsisatına çevrilmişdir. Siyasi sahədə məsləhətləşmənin vəzifələrinə aşağıdakılar aiddir:

-ölkə və beynəlxalq aləmdəki müasir təcrübəni nəzərə alaraq situasiyanı obyektiv və qərəzsiz qiymətləndirmək əsasında təşkilat rəhbərliyinə onu maraqlandıran məsələlərdə düzgün məsləhət vermək;

-mövcud məsləhəti lazım olan şəxsə müvafiq formada və onun üçün vacib olan vaxtda təklif etmək;

-sifarişçinin idarəetmə fəaliyyətində rəsmi işgüzarlığı azaltmaq, qəbul olunan qərarların etibarlılığını artırmaq;

-səmərəli idarəetmə metodlarına yiyələnməkdə təşkilat rəhbərliyinə və ümumi heyətə kömək göstərmək və s.[2]

Siyasi məsləhətləşmənin iki forması (reflektiv - qeyri-

---

[1] Bax: Babaoğlu H. Siyasi təhlil və proqnozlaşdırma tədris-metodik vəsait. B., 2009, s.12

[2] Bax: Əfəndiyev M. Politologiya. B., 2011, s. 464

ixtiyari və oyun üsulu) tətbiq edilir. Reflektiv məsləhətləşmə bu və ya digər tövsiyənin məsləhətçinin özü tərəfindən dürüst müəyyənləşdirilməsini nəzərdə tutur. Məsləhətləşmənin ikinci forması oyun üsulu hesab olunur. Bu üsul iki formada (məşq və praktik) tətbiq edilir. Oyun üsulundan məsləhətçi o zaman istifadə edir ki, o öz tövsiyəsindən işdə istifadə edəcəyinə ya şübhə ilə yanaşır, ya da özü sona qədər dəqiq və aydın tövsiyə formalaşdırmağa qadir olmur və əlavə informasiyaya ehtiyac duyur. Əslində məsləhətləşmənin ikinci üsulu situasiyanın tədqiqinin daha mürəkkəb forması kimi səciyyələnir. Bu da hadisələrin inkişafının qiymətləndirilməsi və dəqiqləşdirilməsi üçün başlıca şərtdir.

## 2. Siyasi reklam siyasi texnologiyanın reallaşma vasitəsidir

Müasir dövrdə ictimai leksikonda ən çox işlədilən terminlərdən biri reklamdır. Bu termin ilk dəfə XIX əsrin sonu XX əsrin əvvəllərində ABŞ-da işlədilməyə başlanmışdır. Reklam öz ilkin mənasına görə hər hansı bir məhsulun əldə edilməsi üçün ona diqqətin cəlb edliməsi formasında nəzərdən keçirilir.

XX əsrin 70-ci illərindən başlayaraq «reklam» termini siyasət arenasında da geniş istifadə olunmağa başladı. Getdikcə siyasi reklam siyasi təbliğatın ən səmərəli vasitələrindən birinə çevrilməyə başaldı. Siyasi reklamın əsas məqsədi ayrı-ayrı fərdlərin, müxtəlif qrupların, eləcə də bütövlükdə cəmiyyətin şüuruna, siyasət sahəsində əvvəlcə qarşıya qoyulmuş hər hansı bir vəzifənin yerinə yeti-

rilməsi üçün təsir göstərməkdən ibarətdir.

Yaxşı maddi-texniki əsaslara malik olan siyasi reklam, siyasi həyatın elə bir sahəsinə çevrilir ki, reklamsız müasir siyasi reallığı təsəvvür etmək bir qədər çətin olur. Siyasi reklam müəyyən obrazın təsiri altında insanların əhval-ruhiyyəsinə və bütövlükdə kütləvi şüura güclü təsir göstərə bilir. Kütləvi əhval-ruhiyyələr tez yayılmaqla yanaşı həm də keçici xarakter daşıyır. İnsanların əhval-ruhiyyəsinə kompleks sosial-siyasi təsirin iki əsas komponentini göstərmək olar:

1. reklam çarxlarında (roliklərində) arzuolunan obrazın yaradılması yolu ilə;
2. real həyat səviyyəsinin manipulyasiya edilməsi yolu ilə.

Bu zaman arzu olunan həyat tərzi bütün reklam çarxlarının başlıca məzmununu təşkil edir. Siyasi reklam cəmiyyətdə müəyyən həyat tərzinin yaradılmasında iştirak etməklə dövlətin ideologiyasının tərkib hissəsinə çevrilir. Siyasi reklam həmçinin siyasi təbliğatın tərkib hissəsi olmaqla siyasi xadimləri, onların proqramlarını da reklam edir.

Siyasi reklamın həyata keçirilməsi ilk növbədə kütləvi informasiya vasitələrindən (KİV) geniş istifadə olunması deməkdir. Kütləvi informasiya vasitələri siyasətin ayrılmaz tərkib hissəsidir. O müasir cəmiyyətin ən mühüm təsisatlarından biridir. Kütləvi informasiya vasitələri cəmiyyətin bütün sferalarına mühüm təsir göstərir.

Kütləvi informasiya vasitələri cəmiyyətdə reklam kampaniyası vasitəsilə ictimai rəyin üzə çıxmasına təsir göstərməklə yanaşı həm də onun formalaşmasında xüsusi

rol oynayır. Qərbi Avropada ictimai rəyin öyrənilməsinə ciddi diqqət yetirilir. Məsələn Fransada bu məqsədlə təxminən 10 min nəfər insanın çalışdığı 150 təşkilat fəaliyyət göstərir. Hazırda ABŞ-da ictimai rəyi öyrənmək məqsədilə 200-dən artıq ixtisaslaşmış firma fəaliyyət göstərir.

KİV vətəndaşların nəinki ayrı-ayrı siyasi hadisə və prosesləri dərk etməsinə, həm də onların bütövlükdə siyasətə münasibətinə fəal təsir göstərmək üçün real imkanlara malikdir. Əhalinin siyasi passivliyi və kütləvi siyasi fəallığı KİV-in mövqeyilə bilavasitə bağlıdır.

Müasir şəraitdə KİV-in vətəndaşların siyasi şüuru və davranışına fəal təsiri hakimiyyətin dördüncü qolunun müasir cəmiyyətdə rolunun durmadan artması ilə bağlıdır. Ümumiyyətlə, KİV-in fəaliyyətinin fəallaşması və genişlənməsi reklam kampaniyasında bir tərəfdən cəmiyyət qarşısında duran vəzifələrin işıqlandırılmasına zəmin yaradır, digər tərəfdən isə KİV vasitəsilə siyasi xadimlərin, onların ideya və baxışları geniş şəkildə vətəndaşlara çatdırılır.

Siyasi reklamın rəngarəngliyi ilk öncə onun tətbiqi sahəsindən və eləcə də istifadə olunan reklam vasitələrindən asılıdır. Bu baxımdan öz tətbiqi və istifadə vasitələrinə görə siyasi reklamın iki başlıca növünü göstərmək olar.

1) **Dövlətdaxili siyasi reklam**. Dövlətdaxili siyasi reklam özü də iki növə (seçkiqabağı reklama və siyasi təbliğatın tərkib hissəsi olan siyasi reklama) bölünür.

2) **Beynəlxalq siyasi reklam** - siyasi reklamın bu növü psixoloji müharibənin tərkb hissəsi kimi çıxış edir. Dövlətlər tərəfindən istifadə olunan bu cür tipli reklamın başlıca məqsədi beynəlxalq arenada müvafiq ölkənin pozitiv obrazını canlandırmaqdan, mümkün dövlətin maraqları

nöqteyi-nəzərindən fəaliyyət göstərməsi üçün, onun əhval-ruhiyyəsinə, rəyinə birbaşa və dolayı təsirlər göstərilməsindən, reklam çarxları (roliklər) vasitəsilə öz dəyərlər sisteminin, həyat tərzinin, mədəniyyətinin və s. yaradılmasından ibarətdir. Bu cür reklam ideoloji xüsusiyyətlərdən və siyasi məqsədlərdən kənar olduğu üçün strateji cəhətdən olduqca əhəmiyyətlidir. Beynəlxalq siyasi reklam vasitəsilə hər bir dövlət «öz həyat tərzini» başqalarına yetirməklə siyasi opponentlərə nəinki destruktiv təsir göstərir, eləcə də pozitiv rol oynayır. Belə reklam ayrı-ayrı ölkələrin əhalisini, müxtəlif mədəniyyətlərin nümayəndələrini (filmlərin, xüsusilə də teleseriallların nümayişi, ədəbiyyat nəşrləri, birgə mahnı müsabiqələrinin keçirilməsi, televiziya verilişləri və s.) birləşdirir.

Göründüyü kimi, siyasi reklam yalnız ideya və baxışların, yaradılmış obrazların «satılması» deyil, həmçinin dövlətin xaricdəki mədəni-maarif fəaliyyəti kimi də özünü göstərir.

Reklam onun spesifik növü olan siyasi reklam cəmiyyətdə – informasiya (vətəndaşların məlumatlandırılması), imicin formalaşdırılması, təbliğat, strateji planlaşdırma, inteqrasiya, səfərbəretmə və s. funksiyaları həyata keçirir. Siyasi reklamın həyata keçirdiyi funksiyalardan reklam kampaniyasının təşkili prosesində geniş istifadə olunur.

Müəyyən zaman çərçivəsində qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi üçün vahid ümumi strateji məqsədlərin yerinə yetirilməsi siyasi reklam kampaniyası adlanır. Müvafiq işlərin görülməsində əsas vəzifə siyasi reklam kampaniyasının üzərinə düşür. Siyasi reklam kampa-

niyasının müvəffəqiyyəti aşağıdakılarla ölçülür:

- siyasi reklamın predmeti haqqında biliklərin yaradılması (reklam istehlakçısı gələcəkdə öz seçimini edə bilmək üçün reklam olunan siyasi lider, siyasi partiya, eləcə də onların proqnozları haqqında məlumata malik olmalıdır);
- obraz və ona qarşı xoşagələn emosional yönümün yaradılması. Kütləvi şüura belə bir fikri yeritmək lazımdır ki, məhz yaradılmış və reklam edilən bu obraz, digərlərindən bir çox parametrlərinə görə üstün olsun;
- məhz bu partiyanın digərlərindən daha üstün olması barədə fikrin yeridilməsi;
- KİV-də yaradılmış obrazın qorunub saxlanılması və s.

Reklam kampaniyası qarşıya qoyulmuş vəzifə və məqsədlərdən asılı olaraq üç mərhələdən ibarət olur:

1) qısa müddətli siyasi reklam kampaniyası – seçki kampaniyaları dövründə həyata keçirilir;

2) az müddətli – hökmran siyasi-elita tərəfindən kütləvi əhval-ruhiyyədə təsir vasitəsi kimi istifadə olunur;

3) uzun müddətli – dövlət tərəfindən «öz dəyər və həyat tərzinin» beynəlxalq aləmdə reklamı zamanı istifadə olunur.

Adətən reklam kampaniyası keçirilən zaman siyasi reklam bir sıra tələblərə cavab verməlidir:

- auditoriyanın diqqətini özünə cəlb etməlidir – yəni reklam elə hazırlanmalıdır ki, istehlakçı ona maraqla baxsın;
- auditoriyada, birbaşa, ya da dolayısı ilə, reklamın predmeti barədə təsəvvür yaratmaq – istehlakçı ona lazım olan bütün informasiya haqqında məlumatlı olmalıdır;

• reklam istehlakçıda müsbət cavab reaksiyası yaratmalıdır.

Reklam kampaniyası keçirilərkən o, müəyyən plan üzərində qurulmalıdır. Bu plana aşağıdakı elementlər daxil edilir:

1) strateji planlaşdırma – reklam kampaniyasının keçirilməsinə ayrılan vəsait, müsbət obrazın yaradılması və s;

2) taktiki qərarlar – xərclərin smetası, reklam vasitələrinin seçilməsi, reklam çarxının yayılma qrafiki;

3) elanların hazırlanması və mətnlərin yazılması;

4) bədii tərtibatın hazırlanması – interyerin seçilməsi;

5) siyasi reklamın istehsalı və hazır siyasi reklam.

Reklam kampaniyasının keçirilməsi zamanı xeyli vəsait sərf olunur. Bunun üçün reklam büdcəsinin olması vacibdlir. Reklam büdcəsi adətən iki hissədən ibarət olur:

1) reklam kampaniyasının keçirilməsi üçün ayrılmış ümumi vəsaitin sayından (müvaifq orqanlar tərəfindən hər namizəd üçün ayrılmış vəsait);

2) reklam verənin xüsusi vəsaitindən.

Reklam büdcəsinə elektoratın sayı, reklam verənlərin ehtiyatları, siyasi rəqiblərin xərcləri kimi önəmli faktorlar da xeyli təsir göstərir.

Reklam kampaniyası dörd əsas tərkib hissədən ibarətdir (reklam verənlər, reklam agentliyi, reklam vasitələri və reklam istehlakçıları).

Reklam kampaniyalarının həyata keçirilməsində marketinq xidmətindən geniş istifadə olunur. Marketinq ingiliscə «market» sözündən olub, luğəti mənası bazar deməkdir. O idarəetmə funksiyasını yerinə yetirir. Siyasi marketinq adətən sorğu (müsahibə, anket) və proqnoz-

laşdırma kimi metodlardan istifadə edir.

Siyasi marketinq bu və ya digər siyasi məsələ ilə bağlı ictimai rəyin öyrənilməsi və formalaşdırılmasına dair tədbirlər kompleksini birləşdirir. Siyasi marketinq özünün fəaliyyətinə bu (marketinq tədqiqatları – ictimai rəyin öyrənilməsi, tədbirlər kompleksi – siyasi texnologiyalar, reklam və s.) mərhələləri daxil edir.

Siyasi reklam siyasi təbliğatın ən səmərəli üsullarından biridir. Bu işdə reklamın aşağıdakı formalarından istifadə oluna bilər: namizədin və onun vəkillərinin canlı auditoriya qarşısında çıxışı, əyani təbliğat, vərəqə və buklet kampaniyası, birbaşa poçt göndərişləri, telefon zəngləri, küçə reklamı, suvenir məhsulları, radioda, televiziyada debatlar, mətbuatda reklam kampaniyası və s.

**Yoxlama xarakterli suallar**

1. Siyasi təhlil nədir?
2. Siyasi məsləhətləşmənn hansı formaları tətbiq edilir?
3. Siyasi təhlilin neçə növü fərqləndirilir?
4. Reklam sözü ilk dəfə harada və nə zaman işlədilmişdir?
5. Öz tətbiqi və istifadə vasitələrinə görə siyasi reklamın neçə növü nəzərdən keçirilə bilər?
6. Siyasi reklam kampaniyası nədir?

## Ədəbiyyat

### Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Konstitusiyası. B., 2009.
2. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. B., 2005.
3. Şirəliyev H., Əhmədov Ə. Politologiya. B., 2014.
4. Əfəndiyev M. Siyasi elmin əsasları. B., 2008.
5. Əfəndiyev M. Politologiya. B., 2011.
6. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. B., 2002.
7. Piriyev A., Əfəndiyeva X. Sosiologiya və politologiya fənnindən mühazirə mətnləri. B., 2009.
8. Eyyubov İ. Azərbaycanın siyasi təlimlər tarixi. B., 2011.
9. Teymurlu M. Politologiya. B., 2000.
10. Məlikova M., Bayramov E. Azərbaycanın siyasi-hüquqi nəzəriyyələr tarixi. B., 1984.
11. Əsgərov Z., Nəsirov E., İsmayılov M., Məmmədov X. Azərbaycanın dövlət və hüququnun əsasları. B., 2003.
12. İbadov N. Müqayisəli politologiya. B., 2010.
13. Beynəlxalq hüquq (Məmmədov R. redaktorluğu ilə). B., 2002.
14. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. B., 2010.
15. Babaoğlu H. Siyasi təhlil və proqnozlaşdırma tədris-metodik vəsait. B., 2009.

16. Həsənov R. Siyasi sosiologiya. B., 2010.
17. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. B., 2005.
18. Vahidov F., Ağayev T. Sosiologiya. B., 2012.
19. Hüseynzadə Ə. Siyasəti-fürusət. B., 1994.
20. Əsgərov Z., İbrahimov Z. Şimali Atlantika Müqaviləsi Təşkilatı – NATO. B., 2010.
21. Cəfərova V. Dünya dövlətlərinin siyasi sistemi. Türkiyə Respublikası. B., 2000.
22. Çirkin V. Xarici ölkələrin konstitusiya hüququ. B., 2007.
23. Mirzəzadə A. Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşmasının xüsusiyyətləri. B., 2001.
24. Hacıyev Z. Fəlsəfə. B., 2001.
25. Siyasi biliklərin əsasları (II cild). B., 1999.
26. Musabəyov R. Seçki texnologiyaları. B., 1998.
27. Musabəyov R. Siyasi liderlik. B., 1999.
28. Musayeva Z. Siyasi reklam və imicin yaradılması. B., 1999.
29. Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası. B., 2006.
30. İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. B., 2005.

**Rus dilində**

31. Бусыгина И. Политическая регионалистика. М., 2006.
32. Пугачев В.П., Соловьев А.И. Введение в полито-

логию. М., 2005.

33. Санстебан Л.С. Основы политической науки. М., 1992.
34. Ростоу Д.А. Переходы к демократии: попытка динамической модели. II Полис, 1996. N5.
35. Бжезинский З. Великое преобразование // Демократия 1990-х специальный выпуск журнала Глобальные проблемы переходного периода. 1993, №6.
36. Мельвиль А. Демократические транзиты. Теоретико-методологические прикладные аспекты. М., 1999.
37. Ачкасов В. Сравнительная политология. С.П., 2002.
38. Хантингтон С. Третья вольна: демократия на исходе XX века. М., 2003.
39. Мухаев Р.Т. Политология. М., 2009.

# QEYDLƏR

# QEYDLƏR

**ŞİRİNOV AZƏR MEHDİ oğlu**
**Bakı Dövlət Universitetinin dosenti**

**İBADOV NAZİM SADIQ oğlu**
**Bakı Dövlət Universitetinin dosenti**

# POLİTOLOGİYA

**Dərs vəsaiti**




**Mətbəə müdiri:** *Əvəz İdrisoğlu*
**Texniki redaktor:** *Ramin Vidadioğlu*
**Operator:** *Şahin Abbasov*

---

***Çapa imzalanıb 05.06.2015-ci il.***
***Sayı 300. Həcmi 19,25 ç.v.***
***Formatı 60x84 1/16. Əla növ kağız.***

---

***AzTU-nun mətbəəsi. H.Cavid pr.25.***
***Tel: (+012) 539-14-52***
***E.mail: aztumetbee@yahoo.com***